**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsi**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

# Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli

**Gəncə - 2020**

***Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının 17 yanvar 2020-ci il tarixli 01 saylı iclasının qərarı ilə nəşr olunur.***

**Layihə rəhbəri:** **Fuad ƏLİYEV**
***akademik***

**Tərtib edən, fars dilindən tərcümənin,**
**ön sözün və şərhlərin müəllifi: Hacı Rauf ŞEYXZAMANLI**

**Elmi redaktor:** **Xəlil YUSİFLİ**
***filologiya elmləri doktoru***

**Rəyçi:** **Teymur KƏRİMLİ**
***akademik***

*Kitabda Gəncənin Ziyadoğlu-Qacar nəsli və onun qəhrəman nümayəndəsi, vətən uğrunda şəhid olmuş Cavad xan haqqında tarixi mənbələrə əsaslanan məlumat verilmişdir.*

**Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli.** Gəncə. “Elm”. 2020. 255 səh.

**İJBN 5 – 8066 – 1638 – 4**

**1401000000**
**655 (07) – 2004**

***«ELM» nəşriyyatı***

## *Ön söz*

Qacarlar tayfasının ən böyük nəsillərindən olan Ziyadoğluların Azərbaycan torpağının qorunmasında xüsusi yeri vardır, canını və ailəsini ruslara qarşı mücadilədə qurban vermiş Gəncə xanı Cavad xan isə bu nəslin parlayan mirvarisidir. İmam Hüseyn (ə) məktəbini keçmiş bu qəhrəman hökmdar özündən say və silah-sursat baxımından qat-qat güclü olan işğalçı qoşunun qarşısını almaqdan ötrü qeyri-bərabər döyüşə çıxıb şəhid olmaqla adını Azərbaycan xalqının istiqlal tarixinə qızıl hərflərlə yazdırmışdır.

Cavad xan Ziyadoğlu-Qacar (1748-1804) – Gəncə xanlığının sonuncu hökmdarı. Onun ömrünün ilk illərinə və cavanlıq dövrünə aid heç bir məlumat, təəssüf ki, əlimizdə yoxdur. Atası Şahverdi xan da Zəndiyyə dövründə Gəncə xanı olmuşdur. 1786-cı ildə Gəncənin hakimiyyəti vərəsəlik yolu ilə Cavad xana yetişdi. Qeyd edək ki, hakim olduğu illərdə Cavad xan Gəncənin möhkəmlənməsi, güc toplaması və abadlaşdırılması üçün mühüm işlər görmüşdü. Mütəəssifanə, onun dövründə inşa olunmuş tikililərin yalnız kiçik bir hissəsi bizim zəmanəmizə gəlib çatmışdır. Onun mədəniyyətin inkişafına xüsusi önəm verməyi, elm adamlarına himayədarlıq etməyi tarixi mənbələrdə göstərilir. Cavad xanın sarayındakı zəngin kitabxanada saxlanılmış nüsxələrdən bəziləri haqqında hazırkı nəşrə daxil edilən məqalələrdə məlumat verilir. Lakin siyasət meydanında vəziyyətin getgedə gərginləşməsi onun gücünü və diqqətini əsasən xanlığın müdafiəsinə yönəltməyə vadar edirdi. Məsələ ondadır ki, Ağa Məhəmməd xan Qacar İranda 1794-cü ildə hakimiyyətə gələndən sonra uzun müddət sürmüş hərc-mərcliyə son qoyub bütün İranı mərkəzi hökumətə tabe etdirməyə başlamışdı. Digər tərəfdən isə öz ənənəvi işğalçılıq siyasətinə sadiq qalan Rusiya Qafqazı ələ keçirməyə çan atırdı. Cavad

xan Qafqaza Gürgan tərəfdən köçmüş Qacar elinin ən qədim qollarından olan və hələ Səfəvilər zamanından Gəncədə və Dərbənddə məskunlaşmış Ziyadoğlular nəslinin nümayəndəsi olaraq Ağa Məhəmməd xanın Təbrizdəki elçisi Süleyman xan Qacarın yanına gedib Qacarların hökumətini dəstəklədiyini elan etmişdi. Həmin vaxt Qacarların rusların Qafqazdakı istilaçılıq siyasəti qarşısında aciz qalması və rus ordusunun Gəncəyə həmləsi Cavad xanın 1796-cı ildə qalanı ruslara təslim etməsinə səbəb olmuşdur. Lakin imperatriçə II Yekaterinanın ölümündən sonra ruslar Qafqazı tərk edirlər. Bununla belə, rus ordusunun başçısı general Zubov Gəncənin hakimliyini Cavad xanın əlindən alıb gürcü çarı İrakliyə tapşırır. İrakli də İbrahimxəlil xanla və anası gürcü Baqrationi nəslindən olan şəkili Səlim xanla birgə Gəncəyə yollanıb oranın valiliyini İraklinin adından Əli sultan Şəmsəddinluya mənsub etmək istəyirlər. Bu məqamda Cavad xanla zövcəsi Şükufə xanım diplomatik yolla hakimiyyəti özlərində saxlamağa müvəffəq olurlar. Bunun ardınca Ağa Məhəmməd şah qüvvə toplayıb ruslara meyl göstərən Qarabağ xanı İbrahimxəlili və digər yerli hakimləri cəzalandırmaq məqsədilə Araz çayı üzərindən keçir və Qarabağa daxil olur. İbrahimxəlil xan təhlükəni sovuşdurmaq üçün onun yanına peşkəşlər göndərir. Lakin bununla kifayətlənmək istəməyən Qacarlar Şuşa qalasını mühasirəyə alırlar. Bu vaxt İbrahimxəlil xanla daim çəkişən və ondan zərər çəkən Cavad xan İrəvan hakimi Məhəmməd xan Qacarla, Quba və Dərbənd hakimi Fətəli xanın oğlu Şeyxəli xanla və Çiləbördlü Məlik Məcnunla bir yerdə Ağa Məhəmməd şahın ordugahına gəlib ona çoxlu hədiyyələr verir və öz vəfadarlığını elan edir. 1797-ci ildə Şuşanı alandan sonra Ağa Məhəmməd şah suiqəsd nəticəsində həlak olur. Bu bədbəxt hadisə rusların Qafqazı zəbt etmək işini xeyli asanlaşdırır. Rusiyanın təzyiqindən təzəcə qurtulan Cavad xan öz xanlığının mövqeyini gücləndirmək xatirinə Ağa Məhəmməd şahın yerinə taxta

çıxmış Fəthəli şaha hədiyyələr göndərərək itaət etdiyini bildirir. Lakin bununla o, qəddar düşmənin əlindən qurtula bilmir. Rusiyada hakimiyyətə gələn I Aleksandr yenidən Qafqaza qoşun yeridir. 1803-cü ildə Tiflisi zəbt edən general Sisianov Qafqazın strateji baxımdan ən vacib şəhəri saydığı Gəncəni işğal etməyi qarşısına məqsəd qoyur. O, Cavad xana amiranə tərzdə yazdığı bir neçə məktubda Gəncəni təslim etməyini istəyir. Lakin Cavad xan bu iddianı rədd edərək ruslardan qorxmadığını və müharibəyə hazır olduğunu bəyan edir. Rus ordusu ramazan ayında Gəncəni mühasirəyə alır. Cavad xan bir neçə dəfə şəhərin həndəvərində onlarla üz-üzə gəlir, lakin canlı qüvvə sarıdan dəfələrlə güclü olan düşmənə tab gətirə bilməyib sonda qalanın divarları arasına çəkilməli olur. Gəncə hakimi hələ hadisələrin lap əvvəlində Fəthəli şaha məktub yazıb ondan kömək istəmişdi. Başı eyş-işrətə qarışmış, müharibə etməyi heç ağlına belə gətirə bilməyən və əyləncələrdən başqa heç nəyə pul xərcləmək istəməyən Fəthəli şah çox götür-qoydan sonra oğlu və vəliəhdi Abbas Mirzə Naibüssəltənəni kiçik silahlı dəstə ilə Gəncəyə göndərir. Ruslar bir ay qalanı mühasirədə saxlasalar da, gəncəlilərin müqavimətini qıra bilmirlər. Bu zaman yerli ermənilər onların köməyinə gəlib şəhərə axan suyun yolunu göstərirlər və düşmənlər suyu zəhərləyərək şəhərliləri əlbəyaxa döyüşə çıxmağa məcbur edirlər. Digər tərəfdən isə Cavad xanın silahdaşlarından olan Nəsib bəy Şəmsəddinlu onların tərəfinə keçir. Bəzi mənbələrə görə, o, gecə ikən qalanın qapısını işğalçıların üzünə açmışdı. 1218-ci ilin şəvvalın birində (miladi təqvimilə 1804-cü ilin yanvarın on dördündə), müqəddəs Ramazan bayramı günü ruslar bir neçə yerdən Gəncəyə vəhşicəsinə soxulandan sonra bütün şəhər bir döyüş meydanına çevrilir. Gəncəlilər böyüklü-kiçikli hamısı mərdi-mərdanə vuruşurlar. Şəhərin müdafiəsinə başçılıq edən Cavad xan, onun oğulları və hətta zövcəsi Şükufə xanım qəhrəmancasına döyüşsələr də axırda qaniçən düşmən qalib gəlir. Cavad xa-

nın özü, oğlu Hüseynqulu ağa və yeddi mindən artıq gəncəli həmin mərəkədə şəhid olurlar. Bu xəbəri yolda eşidən Abbas Mirzə geri dönməli olur. Beləliklə Ziyadoğluların Gəncədəki üç yüz illikdən artıq hakimiyyətinə son qoyuldu.

Məlum hadisələrdən sonra rus hakimiyyəti, istər çar dövründə, istərsə də bolşeviklərin vaxtında həm Cavad xanın, həm də Gəncə şəhərinin adını belə çəkməyi yasaqlamışdı. Lakin Azərbaycan xalqı öz tarixini unutmamış və XX əsrin həm əvvəllərində, həm də təkrarən sonlarında azadlıq bayrağını qaldıran zaman ilk əməllərindən biri Gəncəyə doğma adının qaytarılması və Cavad xan haqqında həqiqətin geniş şəkildə yayılması olmuşdu. Tədqiqatlar aparılmış, məqalələr dərc olunmuş, Əhməd İsayevin "Gəncə və gəncəlilər", Nüşabə Məmmədlinin "Cavad xan", Ənvər Çingizoğlunun "Ziyadoğlu Qacarlar", Elgün Babazadənin "Gəncə xanlığının tarixindən" adlı çox dəyərli məlumat ehtiva edən kitabları nəşr edilmiş, "Cavad xan" kinofilmi çəkilmiş, daha bir neçə əsər ərsəyə gətirilmişdir. Lakin, zənnimizcə, araşdırmalar hələ davam etməlidir və biz hazırkı kitabda Azərbaycan oxucusunu bu mövzuya dair daha geniş məlumatla tanış etməyi qarşımıza məqsəd qoyduq.

Təqdim olunan kitab iki hissədən ibarətdir. Birinci hissədə biz son illərdə İranda işıq üzü görmüş iki kitabın və internet saytında dərc olunmuş ayrı-ayrı məqalələrin[1] icmalını fars dilindən tərcümə edib yerləşdirmişik. İran tədqiqatçıları Bəhmən Mirzə Qacarın nəvəsi Məhəmmədəli Bəhməni Qacarın, Cavad xanın nəvə-nəticələrindən olan Huşəng Talenin, habelə Hüseyn Əhmədinin və Rəhim Rəisniyanın qədim tarixi mənbələrə əsaslanmış araşdırmaları böyük əhəmiyyət

---

[1]Bax: "Cavad xan Gəncei – mərzdare-İraniye-Qəfqaz". Tərtib edən Hüseyn Əhmədi. Moəsseseye-motaleate-tarixe-moasere-İran. 1393.

"Cavad xan Gəncei". Huşəng Tale. Enteşarate-Səmərqənd. Ləngrud. 1395.

kəsb edir[1] və burada, yeri gəlmişkən, biz hər iki kitabın əldə edilməsində bizə kömək göstərmiş əziz dostumuz təbrizli ustad Məhəmməd Əmin Sultanül-Qürraiyə öz minnətdarlığımızı bildiririk. Kitabın Birinci hissəsinə həmçinin Azərbaycan tədqiqatçılarının yazıları, o cümlədən uzun illər ərzində Cavad xanın əcdadı Uğurlu xan Gəncəvinin yaradıcılığını tədqiq etmiş mərhum şərqşünas Firəngiz Xəlilovanın məqaləsi, gəncəli tədqiqatçı Elnur Həsənovun Cavad xanın şəcərə tarixi ilə bağlı məqaləsi, tarixçi İlqar Niftəliyevin Gəncə xanlığının Ziyadoğlular tərəfindən idarəetməsi tarixinə həsr olunmuş məqaləsi və bu sətirlərin müəllifinin Cavad xanın qardaşı Fəthəli bəy haqqında yazdığı məqaləsi daxil edilmişdir.

İkinci hissədə Cavad xanın Sisianova yazdığı məktubun mətninin tərcüməsi, Cavad xanın igidliyini tərənnüm edən Əbdürrəhman Ağanın və Fəridə Əliyarbəylinin mənzum əsərləri, Adil xan Ziyadoğlu-Qacarın (Ziyadxanovun) "Qələmin uçuşu" adlı kitabının bir bölümü və Adil xanın rəhbərliyi altında Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinin 1920-ci ildə İrana rəsmi səfəri barədə o vaxtkı İran mətbuatında dərc olunmuş xəbərlər yer almışdır.

Ümidvarıq ki, hazırkı nəşr xalqımızın qəhrəman oğlu gəncəli Cavad xana dair yeni təqdiqatların aparılmasına təkan verəcəkdir.

---

[1]Mətni ixtisarlarla tərcümə olunmuş bu məqalələr müəlliflərin şəxsi fikirlərini əks etdirir.



***Gəncə xanı Cavad xan Ziyadoğlu-Qacar (1748-1804)***

# BİRİNCİ HİSSƏ

# Gəncənin qəhrəmanlıq dastanı[1]

***Məhəmmədəli Bəhməni Qacar***
***Qafqaz üzrə tədqiqatçı***

1804-cü ilin 14 yanvar tarixi rusların Gəncəyə yürüşü və bu şəhərin işğal olunması günüdür. Şəhərin düşmən tərəfindən alınması və Cavad xan Ziyadoğlu-Qacarın şəhadətə yetişməsi faciəvi hadisə kimiİran tarixinə yazılmış və Qafqazın bu dövlətdən ayrılması ilə nəticələnmiş İran-rus müharibələrinin başlanğıc məqamı olmuşdur. Bununla belə, Cavad xanın düşmənə qəhrəmancasına müqavimət göstərməyi vəliəhd Abbas Mirzənin*[2] rəhbərliyi altında 12 il mücahidə etmiş İran qoşunları üçün bir örnəyə çevrilmişdi. Ağa Məhəmməd xan Qacarın* ölümündən sonra İran ordusunda və dövlətində yaranmış gücsüzlükdən yararlanan ruslar Gürcüstanı zəbt edərək Gəncəni və digər vilayətləri ələ keçirmək sevdasına düşdülər. General Sisianov 1801-ci ildə Rusiyanın bütün Qafqaz üzrə başçısı vəzifəsinə təyin olunan kimi Gəncəyə hücuma keçmək üçün bəhanə axtararaq cürbəcür təhrikedici əməllərə əl atmağa başladı. O, Gəncə üzərinə yürüşə keçməkdən öncə Gəncənin İran hakimi Cavad xanı Rusiyaya itaət etməyə çağırdı, lakin Cavad xan o yükün altına girmədi. Sisianovun mərkəzi qərargahı Tiflisdə yerləşmişdi, qoşunu isə Gəncə ilə sərhəddə yaxın dayanmışdı. O, Cavad xandan bu bölgənin birillik bacını tələb etmişdi. Cavad xan məsələ barədə şaha məlumat göndərdi və Tehrandan onun köməyinə silahlı dəstə göndərdilər, ancaq İran qoşunu gəlib çatmamışdan qabaq Sisianov 1803-cü ilin dekabrında Gəncəni mühasirəyə aldı. “Məasirüs-sultaniyyə”

---

[1] “Ettelaat” qəzeti. “Həmaseye-Gənce” (məqalə). 29 dey 1395-ci il.

[2] Adları ulduzla (*) işarələnmiş şəxslər haqqında məlumat kitabın “Şərhlər” bölməsində verilmişdir.

əsərinin müəllifi[1] yazır ki, Cavad xan bir neçə dəfə qaladan çölə çıxıb rusları zərbə altına saldı, lakin onun bu cəhdləri uğursuz oldu və özü ilə ordusunun əmirlərindən biri Nəsib bəy Şəmsəddinlu[2] arasında yaranmış ixtilafın və yerli ermənilərin xəyanəti nəticəsində h.q. 1218-ci ilin şəvvalın birində[3], sübh tezdən ruslar qalaya hücuma keçdilər və üç saat davam etmiş döyüşdən sonra[4] Cavad xan və onun oğullarından biri qətlə yetirildi, Gəncə şəhəri rus əsgərlərinin əlinə keçdi."[5]

"Nasixüt-təvarix" kitabında bu hadisələr belə təsvir olunur: "Rus ordusu Gəncəni ələ keçirmək üçün hərəkətə keçib şəhəri mühasirəyə aldı. Gəncə hakimi Cavad xan Qacar yaranmış vəziyyət barədə məlumatı elçi vasitəsilə həzrət padşaha yolladı, özü isə əlinin altında olan camaatla qaladan çölə çıxıb düşmən üzərinə atıldı. Əli Sultan Şəmsəddinlunun[6] qardaşı oğlu Nəsib bəy Şəmsəddinlu və

---

[1]Söhbət Əbdürrəzzaq bəy Dünbülidən gedir (bax: "Şərhlər" bölməsi).

[2] Nəsib bəy Şəmsəddinlu Cavad xanın rəiyətlərindən olmuş və həlledici anda rusların tərəfinə keçmişdi.

[3]Miladi təqvimilə 14 yanvar 1804-cü il

[4] Cavad xanın nəvə-nəticələrindən olmuş Adil xan Ziyadxanov bu qarşıdurmanın ramazan ayının əvvəllərindən başlandığını və bir ay davam etdiyini yazır. Bax: Adil xan Ziyadxan. "Qələmin uçuşu". s. 22.
Cəmil Quzanlu döyüşlərin yalnız iki gündən sonra (şəvval ayının 3-ü və 4-ü) bitdiyini qeyd edir. Bax:Cəmil Quzanlu. "İranla rusun onillik müharibəsi" (Birinci İran-rus müharibəsi). ss. 15-19.

[5] Səid Nəfisi. "İranın ictimai və siyasi tarixi". Birinci cild. s. 241.

[6] Gürcü mənbələrinə görə "Tiflisin Ağa Məhəmməd xan tərəfindən fəth edilməsindən bir il sonra Heraklius (İrakli) İbrahimxəlil xanla birlikdə Gəncəyə hücum etdi. İbrahimxəlil xan bu hərəkəti Cavad xanın Ağa Məhəmməd xanla silahdaş olmağının əvəzini çıxmaqdan ötrü etmişdi. Bu yürüşdə hər üçü Herakliusun müttəfiqi olan İbrahimxəlil xan Cavanşir, Səlim xan Şəki* və Əli sultan Şəmsəddinlu iştirak etmişdilər. Onlar Gəncəyə gəlib Cavad xandan hakimiyyəti Herakliusun nümayəndəsi Əli sultan Şəmsəddinluya təhvil verməyini istədilər. Müxaliflərin ordusu ilə üz-üzə durmaqdan çəkinən Cavad xan həyat yoldaşı Şükufə xanımın

ermənilər döyüş meydanında Cavad xanı qoyub ruslara qoşuldular. Çarəsiz qalmış Cavad xan mühasirəyə düşdü. Ruslar dörd tərəfdən hücuma keçib qalanı ələ keçirtdilər və Cavad xanı oğlu və bir çox döyüşçüsü ilə qətlə yetirdilər. Səid Nəfisi özünün "İranın ictimai və siyasi tarixi" kitabında gürcü mənbələrinə istinadən Gəncənin işğalına dair aşağıdakıları yazır: "Sisianov Gəncəni almaq üçün Tiflisdən yola düşdü. Cavad xan Gəncənin həndəvərində onunla üzüzə gəldi, amma məğlub olaraq şəhər ərkinə pənah apardı. Sisianov nə qədər Cavad xanı təslim olmağa dəvət etsə də, baş tutmadı. Öz ordusunu şəhərdə yerləşdirməyə çalışan Sisianov ona bütün var-dövləti özündə saxlamaq şərtilə Rusiya xidmətinə daxil olmağı təklif etdi, ancaq Cavad xan bu yükün altına girmədi. Onda Sisianov öz döyüşçülərinə nərdivanları gətirib qalanı tutmağı əmr etdi. Rus əsgərləri 1804-cü ilin yanvarın üçündə qalanın divarına yaxınlaşdılar və divara dırmaşıb şəhəri ələ keçirtdilər. O gün Fitr bayramı idi və bayram günü sübh çağı qalanı tutdular. Həmin döyüşdə kartvellilər də iştirak etdilər və onlar şəhərə od saldılar.[1] Rus hərbçiləri də bu çarpışmada çox qəddarlıq etdilər. Cavad xan qəhrəmancasına müqavimət göstərdi və döyüşdə öldürüldü. Qalanı yerli-dibli yox etdilər və şəhər camaatının bir hissəsini öldürdülər. Bu toqquşmada rus hərbçilərindən 400 nəfər canını tapşırdı. Sisianov Gəncəni Tiflisə tabe etdi. Ondan sonra şəhəri yenidən təmir edib yan-yörəyə səpələnmiş sakinləri geri qaytardılar. Sisianov şəhəri Birinci

---

təkidilə Əli sultanla danışığa girib ona etdiyi yaxşılıqları yadına saldı və bu minvalla Əli sultanın yoldaşlarından üz döndərib yenidən Cavad xana itaət etməyinə nail oldu". Bax: Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.156.

[1] Gürcü yazılarında kartvellilərin bu davaya rusların tərəfində qoşulmağının səbəbi kimi gəncəlilərin Ağa Məhəmməd xanın ordusu tərkibində 1795-ci ildə Tiflisin ələ keçirilməsində iştirak etmələrinə görə intiqam almaq istəyi göstərilir.

Aleksandrın* arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol qoydu və bu addəyişmə rəsmən qəbul olundu. Həmin xəbər imperator Aleksandra çatandan sonra o, Sisianova general rütbəsini verdi, digər rus zabitlərinə də müxtəlif rütbələr və ordenlər payladı."[1]

Gürcü mənbələrindən, "Nasixüt-təvarix" kitabından, Vəqayenigar Mərvəzinin əsərindən və digər qaynaqlardan əlavə Cəmil Quzanlunun "İranla rusun onillik müharibəsi" tədqiqat işində də sözügedən hadisələr geniş şərh olunmuşdur: "1218-ci ilin şəvvalın üçündə əslən qafqazlı olan Gəncə şəhərinin hakimi və saxlov[2] rəisi şəhər əhalisinin bir qismini sərbazxanada toplayıb Gürcüstandakı vəziyyəti və rus ordusunun Gəncənin yaxınlığında cəmlənməsini müzakirə edirdi. O, Qarabağ sərkərdələrinin, din alimlərinin və xadimlərinin hüzurunda Tiflisdə və Gürcüstanın ruslar tərəfindən işğal edilmiş digər məntəqələrində müsəlmanların başlarına gətirilən müsibətlərdən danışıb Gəncə müsəlmanlarını əllərinə silah alıb yüz minlərlə din qardaş və bacılarına nicat verməyə çağırdı. Müzakirənin sonunda söhbət qaladakı vəziyyətdən və silahın azlığından düşən anda qəflətən şəhərin həndəvərindən rus toplarının səsi gəldi. Məclisdə toplaşanlar o saat bayraq qaldırıb qala keşikçilərinin köməyinə tələsdilər. O gün qala günəş batanadək şəhərin ətrafındakı yüksəkliklərdən top atəşinə tutuldu və müxtəlif yerlərdə yanğın baş verdi. Ağır bombardmanın ardınca ruslar iranlıların[3] xəndəklərinə hücum etməyə başladılar. Mühasirə xəttinin ən mühüm nöqtələrini müəyyənləşdirmək və hücumları döyüşün hər iki cinahına yönləndirmək lazım idi. Bu müddət ərzində rus toplarının əsgər saxlovu cəbhəsinin və şəhər əhalisi cəbhəsinin üzərinə yağ-

---

[1] Səid Nəfisi. "İranın ictimai və siyasi tarixi". Birinci cild. s.319.

[2] Saxlov – qarnizon.

[3] Burada müəllif "iranlılar" yazaraq Gəncə əhalisini nəzərdə tutur.

dırdıqları atəş fövqəladə dərəcədə şiddətlənmiş, hər iki cəbhədə ümdə xəsarətlər alınmışdı və müharibə ümumilikdə anbaan qızğınlaşırdı. General "işpoxtur"un[1] apardığı döyüş bütün Gəncə ərazisində o qədər vüsət alıb qızışmışdı ki, iranlıların müqaviməti qırılmağa yaxın idi. Rusların basqını üç saat davam etdi. Nəhayət gün də sona çatdı, gecənin qaranlığı hər yanı bürüdü, top-tüfəng sədaları yavaş-yavaş səngidi. Gecə yarısı rus piyadası yenidən hücuma keçdi. İran sərbazları Bağlarbaşı xəndəklərində rus həmlələrini dəf edib öz mövqelərini qorumağa müvəffəq oldular, lakin cənub cəbhəsində əhali ilə mücahidlər irəliləyən rusların qarşısını ala bilmədilər. İlk geriləmə və yenilmə elə bu nöqtədən başlandı ... Dörd şəvvalın səhərisi general "İşpoxtur" müvəffəqiyyəti daha da artırmaq məqsədilə döyüşün hər iki cinahına hücum etməyə göstərişlər verdi. Gün batana yaxın rus alayları yenidən hücuma keçdilər. Rus ordusunun həmlələri iranlıların əks-hücumu nəticəsində bir qədər zəiflədi, ancaq düşmənlər tezliklə əlavə yardım alıb yenidən irəli atıldılar. Gəncə qoşunu alay başçısının cəsarəti sayəsində bu hücumu da dəf edə bildi. Gəncə şəhəri ordusunun ümumi rəisi Cavad xan öz cəngavərliyi və fatehliyi ilə ad qazanmış bir kişi idi. O, 48-illik ömrü ərzində ən azı on beş dəfə müharibə etmişdi. Ancaq bu dəfə döyüş əvvəlkilərə bənzəmirdi. Bu döyüş daha çox zülm, qırğın və tarac silsiləsinə oxşayırdı, əsas məqsəd qənimət almaq idi və bəlkə də nəticədə ümumi siyasi, dini və milli sarsıntılara bais olacaqdı.

Cavad xanın Aşağı Məhəllə mücahidlərinin rəisi olmuş oğlu Şah Abbas məscidi küçəsinin başında dayanıb rusların hücumları qabağına sədd çəkmişdi. Bundan sonra o, əlində

---

[1] İşpoxtur – Sisianova verilən ad. Sisianovun rus ordusunda vəzifəsi "inspektor", yəni müfəttiş adlanırdı və Azərbaycanda onu ələ salaraq adını "işpoxtur" qoymuşdular.

qılınc, özü onların üzərinə həmlə etdi. Bir dəstə üləma mücahidlərlə birləşib küçələrdə rusları geri çəkilməyə məcbur edirdilər. Bunu görən düşmənlər onların ölümə getməyə hazır olduqlarını bildilər. Ruslar qılıncla tüfəngi əllərində bərk tutaraq atəş açanların üstünə cumdular. Lakin mücahidlərin səfləri dağılmadı. Onlar üləmalarla daha da sıx birləşib düşmən hərbçilərinin üstünə qaçdılar, mizraqlarını əllərindən alıb onların başlarına, sinələrinə və çiyinlərinə zərbələr endirdilər və bir çoxunu yerə yıxdılar. Ancaq ruslar da igidlik göstərib qılınclarını sıyırdılar və irəli atıldılar. Bu əsnada dörd qazaq dəstəsi onların köməyinə gəldi və dava daha da qızışdı. Ruslar nizələrini, bıçaq, xəncər, süngü və qılınclarını işə salıb üləmaların və mücahidlərin əksəriyyətini öldürdülər. Bu arada ətraf qalalardan qayıdan topçular bir anda kömək üçün döyüş meydanına atıldılar və çatan kimi ruslara arxadan qılınclarla zərbələr endirdilər. Ölüm-dirim savaşı son mərhələsinə yetişdi və günün qalxmasına bir az qalanda məscidin yanında döyüşmüş mücahidlərdən heç biri sağ qalmamışdı, üləmaların və şəhər əhalisinin bir qismi şimalda yerləşən təpələrə, yəni Gəncə ordusu əsgərlərinin müdafiə xəttinə tərəf qaçdılar və oraya çatıb yenidən mövqelərini möhkəmlətdilər. Bunun ardınca onlar təzədən düşmənlə savaşa girdilər. İşğalçı rus ordusu dəstə-dəstə şəhərə daxil olaraq hamını vəhşicəsinə qırmağa başladı. Məscidin yaxınlığında təqribən on min müsəlman qətliam oldular və oradan keçən hər kəs dizə qədər ölülərin qanı içində yeriyirdi. Şəhər əhlindən heç kim canını qurtara bilmədi və hətta qadınlarla körpələrə belə aman vermədilər.

Qırğının ardınca növbə qarətə çatdı. Qazaqlar qan tökməkdən doyandan sonra evlərə girib əllərinə keçənləri aparırdılar. Rus əsgəri hər soxulduğu yeri ona babasından qalan mülkü bilirdi.

Bu arada Gəncənin ətrafında yaşayan kəndlilər şəhərə daxil olub ruslardan bir az intiqam almağa başladılar. Ancaq

sayca az olmaları səbəbindən onlar da tezliklə məhv oldular və beləliklə şəhər iranlıların əllərindən çıxdı. 1218-ci il şəvvalın dördüncü günü müharibə Gəncənin küçələrində davam etdi. Nəhayət, günəşin qürubuna az qalmış, iranlıların son güclü zərbəsi də uğursuzluqla nəticələndi və ... şəhər sakinlərinin hamısı, istisnasız olaraq, qətliama məruz qaldılar. Ruslar o qədər qan tökdülər ki, göz önünə məhşər günü gəldi və qətliamla soyğunçuluqdan sonra müsəlmanların məscidlərini yerlə yeksan etdilər."[1]

---

[1] Cəmil Quzanlu. "İranla rusun onillik müharibəsi" (Birinci İran-rus müharibəsi). ss.15-19.

# Gəncəli Cavad xan ruslarla qarşı-qarşıya

***Doktor Rəhim Rəisniya***

Gəncə xanlığı, Qafqazın digər xanlıqları kimi, 1160-ci ildə[1] Nadir şah Əfşarın* ölümündən sonra təşkil olundu. Bu xanlığın banisi Şahverdi xan Ziyadoğlu (və ya Ziyadlu) Qacar, onun son xanı isə Cavad xan olub. Xanlıqlar daim bir-birilə çəkişmədə idilər və belə bir vəziyyətdə Gəncə xanlığı da dəfələrlə digər xanlıqların, habelə birləşmiş Kartli-Kaxet padşahlığının (Şərqi Gürcüstan, Gürcüstan) basqınları hədəfinə çevrilmişdi. Belə ki, Cavad xanın özü Qarabağ xanı ilə Gürcüstan padşahının müttəfiq qüvvələrinin 1200-cü ildə[2] Gəncəyə hücumundan sonra Qarabağ xanının himayəsini qəbul etməyin və Gürcüstan padşahına illik beş min manat bac ödəməyə boyun olmağın nəticəsində Gəncə xanı məqamına yetişdi.

Ağa Məhəmməd xan Qacar* 1783-cü ildə Georgiyevsk müqaviləsi bağlanandan sonra müəyyən şərtlərlə rusların himayəsini qəbul etmiş Gürcüstan padşahını tənbeh etmək məqsədilə 1209-cu ildə[3] Qafqaza qoşun yeritdi.

Belə vəziyyətdə Cavad xan Qarabağın Gürcüstana tərəf dönməyindən sonra əmələ gəlmiş və yolunda hər şeyi kökündən qoparan selin təhlükəsindən qorunmaq və eyni zamanda Herakliusun[4] onun boynuna saldığı bac yükündən qurtulmaq, eləcə də həm Herakliusun, həm də Qarabağ xanının ona edilən təzyiqə və təhdidlərə son qoymaq məqsədilə İranda yeni səltənət sülaləsinin əsasını qoymuş şəxsin əlinin altındakı qüvvələrə qoşulmaq üçün fürsəti

[1] Miladi təqvimilə 1747
[2] Miladi təqvimilə 1786
[3] Miladi təqvimilə 1795
[4] Gürcü çarı İrakli*

qənimət bilib 1210-cu ilin səfər/rəbiüləvvəl aylarında[1] Tiflisin işğalında iştirak etdi.

Ağa Məhəmməd xan* 25000 gürcü əsiri ilə Qafqazdan geri dönəndən sonra rus çariçası İkinci Yekaterina* Qafqazı tədricən ələ keçirməyi qarşısına məqsəd qoyan Rusiyanın uzun illər öncə cızılmış ümumi siyasətin yolunu davam etdirərək özünün müqavilə ortağı olan gürcü tərəfin imdad fəryadının cavabında rusun Qafqazın müxtəlif məntəqələrində yerləşən silahlı qüvvələrini Cənubi Qafqaza yolladı və bir müddət sonra Valerian Zubovun* başçılığı altında otuz minlik ordu bu ölkədə əməliyyatları genişləndirmək əmrini aldı. Həmin ordu 1210-cu ilin sonlarında[2] hərəkətə keçdi və Osmanlı-rus müharibələrində (1787-1791), habelə Polşa qiyamının yatırdılmasında iştirakı ilə çar rejiminə öz sədaqətini göstərmiş Pavel Sisianovun* 1796-cı ilin oktyabrında təzənəfəs qüvvələrlə ona qoşulması Gəncə xanlığının işğalını asanlaşdırdı. Bir müddət sonra o, Bakı qalasına başçı təyin edildi. Tale elə gətirdi ki, on il keçdi və o, həmin qalanın yanındaca öldürüldü. Hər halda Cavad xan belə şəraitdə Gəncəni rus qoşunlarına təslim edərək Rusiyanın himayəsinə keçməklə müəyyən məhdudiyyətlərlə olsa belə, özünün xan mövqeyini saxlaya bilərdi.

Yuxarıda təsvir olunmuş olaylar Rusiyanın bütün Cənubi Qafqazı işğal edib yenicə hakimiyyətə gəlmiş Qacarlara zərbə endirməyə hazırlaşdığını göstərir. Lakin Yekaterinanın* 1796-cı ilin noyabrında ölümü və yerinə I Pavelin* əyləşməsi və Qafqaza göndərilmiş ordunun 1211-ci ilin sonunda[3] Rusiyaya qayıtması həmin əməliyyatın yarımçıq qalmağına səbəb oldu. Digər tərəfdən Qafqazdan çıxıb Xorasana yola düşmüş Ağa Məhəmməd xan Əfşarlar

---

[1] Miladi təqvimilə sentyabr 1795

[2] Miladi təqvimilə 1796-cı ilin yazı

[3] Miladi təqvimilə 1797-ci ilin əvvəlində

hakimiyyətinin qalıqlarını aradan götürərək Nadirin xəzinələrini ələ keçirtdi. Bu vaxt rus qoşunlarının Qafqazdan dönməsi xəbəri ona çatan kimi, xan öz seçilmiş qüvvələri ilə sözügedən bölgəyə yollandı və həmin ilin zülhiccə ayının ortalarında Şuşa qalasını tutdu. Cavad xan da fürsəti əldən verməyib İran şahı Şuşaya girən kimi özünü oraya yetirdi və şaha tabe olduğunu bir daha bildirdi, lakin araya düşən mübahisə nəticəsində əsir götürülüb dustaqxanaya düşdü. Ancaq Şuşanın zəbtindən dördcə gün sonra Ağa Məhəmməd xan qətlə yetirildi, Cavad xan xilas oldu və başqa hadisələrlə üz-üzə gəldi.

1801-ci ilin martında Pavelin* yerinə I Aleksandr* gəldi. Qafqaza yönəlmiş rus müstəmləkəçilik siyasəti daha da şiddətləndi. Əzəli bundan qabaq qoyulmuş Gürcüstanı Rusiyaya birləşdirmə tədbirləri işə salındı, yeni Tiflis əyaləti (quberniyası) təşkil olundu və həmin əyalət Rusiyanın Qafqazdakı nüfuzunu artırmaq və İrana qarşı əməliyyat aparmaq üçün bir mərkəzə çevrildi. Yuxarıda adı çəkilən general Sisianovun Rusiyanın Qafqaz ordusunun baş əmiri yerinə təyin edilməsi ilə o ölkənin istilaçılıq siyasəti yeni mərhələyə qədəm qoydu. "İşpoxtur" adı ilə ("inspektor", yəni "müfəttiş" sözünün təhrif olunmuş deyilişi) İranda məşhur olan həmin şəxs müasir İran tarixçilərindən birinin sözünə görə "əzm, cəsarət və qürur sahibi, hirsli" bir sərdar olmuşdur. O, Tiflisə gələndən sonra Baqrationi knyaz ailəsinin bütün üzvlərini Peterburqa göndərib Gürcüstanla Gəncə arasındakı Car-Balakən məntəqəsini almaq tapşırığını yerinə yetirmək üçün geniş əməliyyata başladı. O yerə qoşun çəkmək üçün İkinci İraklinin* oğullarından biri Aleksandr Mirzənin* oraya pənah gətirməsi bir bəhanə oldu. Həmin Aleksandr Mirzə başqa xanlarla, o cümlədən Cavad xanla Kartli-Kaxetin müstəqilliyinə son qoymaq məqsədini güdürdü. O, sonralar Sisianovun qoşunu bu torpaqlara irəlilədiyini görüb

İran dərgahına pənah aparmış və İran-rus müharibələrində Fəthəli şahın tərəfində döyüşmüşdü.

Sisianovun Car əhalisinə 1803-cü ilin mart ayının 31-də yazdığı hədələyici məktubu onun daxili fironluğunu və təkəbbürünü göstərməklə yanaşı çar Rusiyasının bu bölgədəki yırtıcı və təcavüzkar siyasətinin üstündən pərdəni çəkmişdi:

"Car camaatına əmr edirəm! İmansız alçaqlar! Mən sizinlə xoş dildə danışıram. Siz dağıstanlıları köməyə çağırırsınız. Hələ cürət tapıb mənim xətrimə dəyən şeylər də yazırsınız. Siz düz deyirsiniz, mən gürcüyəm ... [amma] mən Rusiyada dünyaya gəlmişəm, orada böyümüşəm. Ruhum rus ruhudur!"

Onun ardınca onunla qorxudur ki, gəlib təkcə evlərinə od salmayacaq, özlərini də yandırıb külə döndərəcək, uşaqlarını və arvadlarını öldürüb içalatını çıxardacaq və s. və i.a. Sisianov birləşmiş rus-gürcü ordusunu oraya göndərib carlıları yer üzündən sildi. Halbuki, rus hərbi tarixçilərin fikrincə, Car-Balakəni ələ keçirmək üçün hərbi taktika baxımından belə vəhşilik etməyə ehtiyac yox idi. O, bu bir dəstə adam üzərində şanlı qələbə çalandan sonra fatehcəsinə demişdi: "Qüdrət yüyənini əlində tutan kəs bir daha məğlub olanla müamilə etməz, ancaq ona əmr verər!"

Car-Balakən işini bitirəndən sonra növbə Gəncəyə çatdı. Yürüşdən qabaq Cavad xanla Sisianov bir-birinə məktub yazdılar. Sisianovun Cavad xanın məktubuna cavab olaraq Tiflisdən yazdığı 25 fevral 1803-cü il tarixli məktubundan məlum olur ki, bu iki şəxs arasında məktublaşma hələ Car-Balakən əhalisinin başına o müsibət gətirilməmişdən əvvəl başlamışdı. Həmin məktubda Cavad xana yanıldıcı ibarələrlə söz verilir ki, mərhəmətli imperator onu öz himayəsi altına alır, ondan oğlu alicah Uğurlu xanı Tiflisə göndərmək xahiş olunur və o, arxayın ola bilər ki, oğlu ilə onun ad-sanına və rütbəsinə müvafiq rəftar ediləcəkdir. Yəni ondan istəyirlər ki,

böyük oğlunu Tiflisdə girov qoysun. Məktubla birlikdə Cavad xana hədiyyələr də göndərilmişdi.

Amma Sisianovun birinci məktubundan təxminən doqquz ay sonra, yəni 1803-cü ilin noyabrın 29-da Gəncə xanlığının bir hissəsi olmuş Şəmkirdən göndərdiyi ikinci məktubu, bundan əvvəl digər xanlara və hökmdarlara ünvanladığı namələr kimi, yalançı və hakimanə tərzdə yazılmışdır. O, həmin məktubda onu Gəncənin ərazisinə gətirdiyi səbəblərdən söz açır. Məktubun icmalı belədir:

“1. Gəncə və onun ətrafı çariça Tamaranın* hakimiyyəti dövründə (m.1184-1207) Gürcüstanın bir vilayəti olmuşdu. Sonralar Gürcüstan padşahlarının zəiflənməsi nəticəsində ondan ayrılmışdı. Qüdrətli Rusiya imperatorluğu Gürcüstanı öz himayəsi altına almışdır və onun parçalanmasına göz yuma bilməz.

2. Siz oğlunuzu Tiflisə girov göndərməyin yerinə İran şahından ehtiyat etdiyinizi yazırsınız, lakin onu unudursunuz ki, bir il öncə Rusita tabeliyində olmuşdunuz və qüdrətli rus ordusu Gəncə qalasında yerləşmişdi.

3. Sizin təbəələrinizin qarətinə məruz qalmış Tiflis tacirlərinin iddiaları indiyədək cənabi-ali tərəfindən təmin olunmayıb.

Bu üç səbəb üzündən mən Avropa qaydaları əsasında Sizin şəhərinizi işğal etməyə gəlmişəm. Öz dinimə və etiqadıma əsaslanaraq Sizə təklif edirəm ki, hücum və qantökmə başlamamışdan qabaq davasız və qan tökmədən şəhəri təslim edəsiniz. Bu iki təklifdən birini seçin: hə ya yox? Yəni təslim olursunuz ya yox? Aydındır ki, mən bu pis havada öz ordumla buraya gəlmişəmsə, heç bir müqavilə bağlamaqdan söhbət gedə bilməz. O üzdən də qabaqcadan Sizin təslim olmağınızı istəyirəm. Yalnız bu halda Siz mənim mehriban padşahımın lütf ilə mərhəmətinə şərəfyab olacaqsınız”.

Axırda isə hədə-qorxu gəlir ki, əgər sabah günortayadək cavab verməsəniz, müharibə atəşi şölələnəcəkdir. Məktub aşağıdakı sözlərlə bitir: “Gəncəyə qılınc və atəşlə gələcəyəm. Onda mənim verdiyim sözün öhdəsindən necə gələ biləcəyimi görərsiniz!”.

Belə bir ultimatum mahiyyətli məktub hər cür müzakirələrin və danışıqların yolunu kəsdi. Yuxarıda qeyd etdiyimiz kimi, Cavad xan sülh danışıqlarının tərəfdarı olmuş və məhz bu yolla öz xanlığını güclü rəqiblərdən qoruya bilmişdi. Onun cavabı qəti oldu:

“29 noyabr tarixli məktubu aldım. Gəncənin şahzadə Tamaranın* vaxtında Gürcüstana tabe olduğunu yazırsınız. Heç kəs belə nağıla inanmaz. Amma mənim əcdadlarım Abbasqulu xan və başqaları Gürcüstan üzərində hakimiyyəti əllərində saxlamışdılar. Əgər inanmırsansa, yerli ağsaqqallardan soruş. Onun Gürcüstanda tikdirdiyi məscidlə dükanlar indi də yerində qalır. Gürcülər onun çoxlu fərmanlarını qoruyub saxlayırlar. Gəncə ilə Gürcüstan arasındakı sərhədd İraklinin* və mənim atamın vaxtında təyin olunmuşdu ... Sən yazırsan ki, mən altı il bundan əvvəl Gəncə qalasını rus padşahına vermişdim. Bu düzdür. O zaman sənin padşahın mənə fərman göndərmişdi və mən onun təklifini qəbul edib qalanı təslim verdim. Əgər indi də sənin padşahın fərman göndəribsə, onu mənə göstər. Əgər mən onun istəyindən xəbərdar olsam, onda onu nəzərdən keçirərəm. Sən yenə yazırsan ki, guya bir vaxt mən Gürcüstana tabe olmuşdum. Onu bil ki, sənin padşahının fərmanı indi də mənim əlimdədir. Bax gör, orada məndən Gəncə bəylərbəyi kimi yazılır ya Gürcüstan təbəəsi kimi. Buradan sənin bütün iddialarının yalan olması məlum olur. O vaxt mən Gəncəni sənin padşahına təslim edəndə İran şahı Xorasanda idi və mənim əlim ona çatmırdı. Buna görə də mən böyük rus padşahına tabe olmağı düz saydım. Amma indi, şükür Allaha! İran şahı buradan uzaq deyil və onların göndərdikləri

böyük sərdar da hal-hazırda buradadır, ezam olunmuş əsgərlər də yoldadırlar ...”.

Həqiqətən də rus qoşunları bayraqlarını Gəncə qalasına istiqamətləndirəndə Cavad xan Fəthəli şahın sarayına xəbər vermişdi. İran ordusu da onun köməyinə yollanmışdı. Ancaq yol uzaq olduğundan qalaya Səid bəy Qulam adlı çapardan başqa bir hərbçi gəlib çıxmamışdı.

Cavad xan məktubun axırında özünün son sözünü vurğulayır:

“Əgər mənimlə döyüşmək qərarına gəlmisənsə, mən davaya hazıram ... qələbə Allahın əlindədir ... mən sənin Şəmşədilə (Şəmsəddinlu) gəldiyin gündən davaya hazıram. Məni hədələyirsən ki, əgər sənin təklifini qəbul etməsəm, başım çox bəlalar görəcəkdir. Əslində isə səni Peterburqdan buraya gətirən elə sənin bədbəxtliyindir. Bunu zaman və döyüşün özü göstərəcək.”

Ondan sonra Sisianov Gəncə xanına ardarda daha dörd ultimatumnamə göndərmiş və onlardan birində belə yazmışdı: “Mən öz etiqadıma görə Asiya məğrurlarına nifrət edirəm.” Cavad xan da öz Asiya qüruru ilə rus çarının hədəqorxu və təcavüzü qarşısında dayanıb ayağını yerə möhkəm basmışdı və onun lovğalıqla dolu məktubuna belə cavab vermişdi: “O xam xəyalını başından at. Sən qalaya ancaq mənim cənazəmin üstündən keçib girə bilərsən.”

İşpoxturun əli altındakı qüvvələr Gəncə istiqamətində hərəkətə keçdilər. İki ordu arasında birinci döyüş qalanın iki fərsəxliyində[1] baş verdi. Cavad xan tab gətirə bilməyib qalaya çəkildi. Rus qüvvələri qalanı mühasirəyə aldılar. Mühasirə bir ay, ramazan ayının əvvəlindən axırına kimi davam etdi. Əbdürrəzzaq Dünbüli Cavad xanın bu müddət ərzində əməllərinin şərhində belə yazır:

---

[1] Fərsəx (və ya fərsəng) – təqribən altı km-ə bərabər uzunluq ölçüsü.

“Bir-iki dəfə öz qorxmazlığı ilə onların odpüskürən toplarının şamına pərvanəsayağı cumub mərdliyini nümayiş etdirdi. Sonda ortaya xəyanətlərini qoyub dava məkanında və döyüş meydanında ondan ayrılmış və ruslara qoşulmuş Nəsib bəy Şəmsəddinlunun və Gəncə ermənilərinin müxalif mövqe tutmaları səbəbindən şəvvalın birində [Fitr bayramı günü][1] sübh vaxtı ermənilərin bələdçiliyi ilə hər tərəfdən hücuma keçib keşikçilərin mühafizəsiz qoyduqları qülləyə dırmaşaraq odpüskürən tüfənglərlə qalanın havasını tüstü ilə doldurdular. Onun ardınca qalanın içərisinə tökülüb üç saat qətl ilə qarət etdilər, qanı torpaqla qarışdırdılar, Cavad xana bir oğlu və çoxsaylı dəstəsi ilə şəhadət şərbətini içirtdilər və qana boyanmış xəncərlər tufanı qan dalğasını göyün üst qatına qaldırdı.”

Qacarlar dövrü tarixçilərinin əksəriyyəti bu dəhşətli hadisələr barədə məlumatı canlı şahidlərin sözləri əsasında toplamış müəllifin yazdığı “Məasiri-sultaniyyə”nin bəzi hissələrini təkrar edirlər. Yuxarıdakı sətirlər də həmin mənbədən götürülübdür. Digər qaynaqlara görə, qalanın süqutu Cavad xanın mayor Lisanoviçin atdığı güllə ilə öz həyatinin barısından yerə düşürdülməsindən və ardınca oğlu Hüseynqulu ağanın yerə yıxılmasından sonra baş verdi. Cavad xanın zövcəsi Böyükxanım da əlində qılınc qala qülləsi qapısını hifz edənlərin sıralarında idi. Mirzə Camal Cavanşir Qarabaği də “Qarabağ tarixi”ndə böyük sərdar Sisianovu təriflədiyi yerdə yazır ki, o da başqa sərdarlar kimi “Car ləzgilərinin hərəkətlərinə və Gəncə hakimi Cavad xanın ədalətsizliyinə ... dözə bilməyib” “Gürcüstan əhalisinin rahatlığı üçün” onları cəzalandırmağı lazım bilmişdi. O yazır ki, Cavad xan və Hüseynqulu ağa “qətliamda öldürüləndən” sonra “onun bütün ailəsi və yaxınları əsir düşdülər, şəhər əhlinin bir qismi qətlə yetirildi, qalanları isə nicat tapdılar”.

---

[1] Miladi təqvimilə 14 yanvar 1804

Əbdürrəzzaq Dünbüli də şahidlik edir ki:

"Qalanın alınmasından və qılınc qurbanlarının həm əsilzadələrdən, həm də qara camaatdan olanların çölə qovulmasından sonra müsəlmanların sığınacaq tapdıqları o divarlararası ərazini əhalidən boşaltdılar, özləri isə pusqularda və keçidlərdə oturdular."

Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsərində Dünbülinin verdiyi məlumat təsdiqlənir. Onun yazdığına görə:

"Rus əsgərləri qalaya girəndən sonra camaatın o bayram gününü qara etdilər və üç saat müddətində qətliama məşğul oldular. Sonra sərdar qantökməni dayandırmağı, əsirləri onun yanına gətirməyi və qalanı adamlardan boşaltmağı əmr etdi ... Həqiqətən də belə işğal və qətliam bu məmləkətlərdə və vilayətlərdə Çingiz xanın və Teymurləngin vaxtından görünməmişdi."

Sisianovun məlumatına görə öldürülən gəncəlilərin sayı 1500, əsirlərin miqdarı isə 17222 oldu. Qalanın işğalından sonra Gəncə xanlığı ləğv olundu və bu tarixi şəhərin adını I Aleksandrın* arvadı Yelizavetanın şərəfinə Yelizavetpol qoydular. Bundan sonra belə qərara alındı ki, Gəncənin adını dilinə gətirən hər kəs cərimələnəcəkdir. Cavad xanın öz canını ölümdən qurtara bilən böyük oğlu Uğurlu xan İrana pənah apardı. O, sonralar İran-rus müharibələrində iştirak etmiş və 1241-ci ildə[1] Abbas Mirzənin Gəncəni ələ keçirməsilə hakimiyyət başına gəlmişdi.

Sisianov qalanın süqutunun ardınca çara verdiyi məlumatda o yerin strateji əhəmiyyətinə işarə edərək oranı əldə tutmaqla bütün bölgəni qorxu içində saxlamaq mümkün olduğunu vurğulamışdı. Aleksandr* isə cavabında bu cür sərt və vəhşi hərəkətləri yüksək qiymətləndirərək onu növbəti fəthlərə yol açdığını aşağıdakı sözlərlə ifadə etmişdi:

---

[1] Miladi təqvimilə 1826

“Asiya məğrurluğu qarşısında dili qısa saxlamağı arzuolunmaz nəticələrə gətirib çıxarır və bu cür rəftar o yerlərin digər hakimlərini də itaətsizliyə sövq edir ... və o halda Sizin öhdənizdə olan tapşırıqların yerinə yetirilməsində çətinliklə üzləşəcəyinizə imkan yarana bilər.”

Cənubi Qafqazda digər qalaların də fəthinin açarı sayılan Gəncə qalasının fəthi bu bölgədə Rusiyanın istilaçılıq siyasətinin, eləcə də Xəzər dəryasının Rusiyanın daxili dənizinə çevrilməsinin gerçəkləşməsinə yol açmış və eyni halda İranla Rusiya arasında qanlı müharibələr darvazasını aralamışdır.

# Cavad xan Ziyadoğlu-Qacarın əcdadları və sələfləri

***Məhəmmədəli Bəhməni Qacar***
***Qafqaz üzrə tədqiqatçı***

Cavad xan Qacar qəməri 1218-ci ildə[1], İran-rus müharibələrinin başlanğıcında, çar Rusiyasının general Sisianovun rəhbərliyi altındakı qoşunların Qafqaza hücumu cərəyanında Gəncə şəhərində qətlə yetirilmişdi və onun ölümü ilə İran dövlətinin Gəncədəki hakimiyyəti də sona çatmışdı. Cavad xan üç yüz ildən artıq Gəncədə və Qarabağda hakimiyyət sürmüş Ziyadoğlu-Qacar sülaləsinin axırıncı nümayəndəsi olmuşdu. Cavad xanın əcdadı Xızır bəy Qarımış Qacar Ziyadoğlu-Qacar nəslindən İranın siyasi meydanına çıxmış ilk şəxsdir. O, təqribən h.q. 900-cü ildə[2] Qacar eli ilə bir yerdə Anadoludan və Şamdan gəlmiş və Səfəvilərin məsləkdaşlarından olmuşdu. Xızır bəy Qarımışın oğlu Ümmət bəy təqribən h.q. 907-ci ildə[3] Şah İsmayılın* hüzuruna gəlib ondan Ziyadoğlu ləqəbini almışdı. Ümmət bəyin oğlu Şahverdi sultan Ziyadoğlu bu nəslin ən məşhur nümayəndəsi sayılır. Şah İsmayıl onun təlim-tərbiyəsi üzərində çalışmışdı. Şahverdi xan Şah Təhmasibin dövründə böyük qüdrət sahibinə çevrilmişdi. O, Ziyadoğlu-Qacar nəslindən ilk olaraq h.q. 961-ci ildə[4] Qarabağda hakimiyyətə yiyələnmiş və Gəncə şəhərini Qarabağ əyalətinin paytaxtına çevirmişdi. Şahverdi xan Osmanlı qoşunlarına, eləcə də ləzgi və gürcü üsyançılarına qarşı döyüşlərdə xüsusi igidlik göstərmişdi. Ondan sonra Cavad xana qədər həmişə Ziyadoğlu-Qacar

---

[1] Miladi təqvimilə 1804
[2] Miladi təqvimilə 1494/95
[3] Miladi təqvimilə 1501/1502
[4] Miladi təqvimilə 1555

nəsli İran dövlətinin adından Qarabağda hökmranlıq etmişdilər. Onu da qeyd edək ki, Şahverdi xanın övladı və bu nəslin ən adlı-sanlı oğullarından olan Xəlil xan Şah Təhmasibin vaxtında Astrabadın hakimiyyəti başında əyləşmişdi. Onun oğullarından biri, Qacarlar hakim sülaləsinin cəddi Hüseyn xan h.q. 1007-ci ildə[1] Şah Abbasın* əmri ilə Gəncədən Astrabada gələrək hakim yerinə təyin olunmuşdu. Xəlil xanın digər oğluMəhəmməd xan h.q. 996-cı ildə[2] Qarabağ bəylərbəyi olmuşdu və 1024-cü ildə[3] gürcülərlə döyüşdə həlak olanadək bu vəzifədə qalmışdı. Məhəmməd xanın ölümündən sonra onun üç oğlu: Mürşidqulu xan, Məhəmmədqulu xan və Mürtəzaqulu xan bir-birinin ardınca Qarabağın hakimiyyətinə sahib çıxmışdılar. Ziyadoğlular nəslinin daha bir tanınmış nümayəndəsi Uğurlu xan idi. Bəzi tarixçilər onu Məhəmmədəli xanın oğlu və Mürtəzaqulu xanın qardaşı oğlu kimi göstərirlər. Uğurlu xandan sonra hakimiyyətə Kəlbəli xan gəlmişdi və onun hökuməti dövründə əfqanlar İsfananı zəbt etmişdilər. Kəlbəli xanın ardınca onun oğlu (bu şəxsin də adı Uğurlu xan idi) Qarabağın hakimi oldu. Həmin Uğurlu xan məşhur Muğan qurultayında Səfəvilər sülaləsinin hakimiyyətdən uzaqlaşmasına və Nadir xanın İran şahı elan edilməsinə müxalif olmuşdu. Lakin bu vəziyyət Uğurlu xana Nadirin şah taxtına əyləşdikdən sonra ona var-qüvvə ilə xidmət etməyə mane olmamışdı. O, h.q. 1151-ci ildə[4] Nadir şahın* ordusunun əmirlərindən biri kimi ləzgilər üzərinə yürüşdə iştirak edərkən öldürülmüşdü. Uğurlu xanın ardınca onun qardaşı Həsənəli xan, ondan sonra isə Cavad xanın atası Şahverdi xan Qarabağ bəylərbəyi məqamına yetişdi. H.q. 1200-cü

---

[1] Miladi təqvimilə 1598/99
[2] Miladi təqvimilə 1588
[3] Miladi təqvimilə 1615
[4] Miladi təqvimilə 1738/39

ildə[1] Cavad xan ata-babalarından üç əsr sonra irsən ona keçmiş hakimiyyəti ələ aldı.

Mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinin başında oturmuş Ziyadoğlu-Qacar nəslinin nümayəndələrinin siyahısı:

Şahverdi sultanın oğlu Xəlil xan Ziyadoğlu-Qacarın oğlu Şahverdi sultan;

Şahverdi sultanın oğlu İbrahim xan;

Şahverdi sultanın oğlu Yusif xəlifə;

Xəlil xanın oğlu Məhəmməd xan;

Xəlil xanın oğlu Hüseyn xan;

Məhəmməd xanın oğlu Mürşidqulu xan;

Məhəmməd xanın oğlu Məhəmmədqulu xan;

Məhəmməd xanın oğlu Mürtəzaqulu xan;

Mürtəzaqulu xanın oğlu Uğrağan (?) xan;

Uğurlu xan;

Kəlbəli xan;

Kəlbəli xanın oğlu Uğurlu xan;

Kəlbəli xanın oğlu Həsənəli xan;

Şahverdi xan;

Məhəmmədhəsən xan;

H.q. 1197-98-ci illərdə[2] Gəncəyə qarabağlı İbrahim xan hakimlik etmişdi;

Hacı bəy;

Şahverdi xanın oğlu Cavad xan.

Qarımış Xızır bəy təqribən h.q. 900-cü ildə[3] Anadoludan və Şamdan İrana gəldi.

Qarımış Xızır bəyin oğlu Ümmət bəy h.q. 907-ci ildə[1] Birinci Şah İsmayılın* hüzuruna gəldi və Ziyadoğlu-Qacar ləqəbinə nail oldu.

---

[1] Miladi təqvimilə 1785/86

[2] Miladi təqvimilə 1783/84

[3] Miladi təqvimilə 1494/95

Ümmət bəyin oğlu Şahverdi sultan Şah Təhmasibin dövründə h.q. 961-ci ildə[2] mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi təsis olandan sonra 971-ci ildə[3] vəfat edənə qədər oranın hakimi olmuşdu.

Şahverdi xanın oğlu Xəlil xan atasının bəylərbəyliyi zamanında Astrabadın hakimi yerinə təyin olunmuşdu və h.q. 977-ci ildə[4] o vəzifədən ayrılandan sonra İsgəndər bəy Əfşarla döyüşdə qətlə yetirilmişdi.

Şahverdi xanın digər oğlu İbrahim xan atasının ölümündən sonra h.q. 983-cü illədək[5] 12 il hakimiyyətdə oldu.

Şahverdi xanın başqa bir oğlu Yusif xəlifə qardaşı İbrahim xanın vəfatından sonra hakimiyyətə gəldi, lakin bu yerdə cəmi bir il qaldı və İkinci Şah İsmayılın* taxta əyləşməsi ilə təxminən eyni vaxtda öldürüldü. Bunun ardınca həm İkinci Şah İsmayılın (984-985[6]), həm də qardaşı Şah Sultan Məhəmmədin (985-995[7]) zamanında Qarabağ bəylərbəyliyi Ziyadoğlu-Qacar nəslinin ixtiyarında olmamışdı. Həmin vaxt, yəni 10 il müddətində oranın hakimi İmamqulu xan Qacar oldu və yalnız Şah Abbas* taxt-taca yiyələndən sonra Ziyadoğlu-Qacarlar yenidən Qarabağın hökuməti başına qayıtdılar.

Birinci Şah Abbas* taxta əyləşəndən sonra h.q. 996-cı ildə[8] Xəlil xanın oğlu Məhəmməd xan Qarabağ bəylərbəyi oldu və 1024-cü ildə[9] gürcülərlə müharibədə öldürülənədək

---

[1] Miladi təqvimilə 1501/1502
[2] Miladi təqvimilə 1555
[3] Miladi təqvimilə 1563/64
[4] Miladi təqvimilə 1569/70
[5] Miladi təqvimilə 1575/76
[6] Miladi təqvimilə 1576-78
[7] Miladi təqvimilə 1577-88
[8] Miladi təqvimilə 1588
[9] Miladi təqvimilə 1615

bu yeri tutdu, ancaq bu arada 1014-cü ildə[1] Xəlil xanın digər digər oğlu Hüseyn xan Şah Abbas tərəfindən rəsmən Qarabağ bəylərbəyi yerinə təyin edilmiş və 1015-ci ildə[2] Qarabağın və Gəncənin fəthindən sonra Qarabağın hakimiyyəti yenidən Məhəmməd xanın əlinə keçmişdi.

Mürşidqulu xan atası Məhəmməd xanın ölümündən sonra Qarabağın hakimiyyətinə gətirildi və bir neçə il o məqamda qaldı.

Mürşidqulu xandan sonra qardaşı Məhəmmədqulu xan onun yerinə gəlir. O, h.q. 1037-ci ildə[3] vəzifədən uzaqlaşdırılır, lakin Şah Səfinin dövründə 1041-ci ildə[4] yenidən Qarabağ bəylərbəyliyinə qaytarılır. Klaus Röhrbornun "Səfəvilər dövründə əyalətlərin nizamı" əsərində yazdığından[5] məlum olur ki, Məhəmmədqulu xan Şah Səfinin hökmdarlığının sonuna qədər, yəni h.q. 1052-ci ilədək[6] hakimiyyətdə qalmışdı və İkinci Şah Abbasın* dövründə o, hələ də həmin vəzifədə qalmaqda idi. Lakin onun hökuməti ən çoxu 1056-cı ilədək[7] davam edə bilərdi, çünki Şah Abbasın taxtda əyləşməsinin dördüncü ilində, yəni h.q. 1056-cı ildə Məhəmməd Məsum ibn Xacəgi İsfahani Qarabağın vəziri vəzifəsinə təyin olunarkən Qarabağın hakimi Məhəmmədqulu xan deyil, Mürtəzaqulu xan olmuşdu. Beləliklə, buradan belə qənaətə gəlmək olar ki, Mürtəzaqulu 1056-cı ildə qardaşı Məhəmmədqulu xanın vəfatından sonra təzəlikcə Qarabağın hakimiyyətinə yiyələnmişdi. Məhəmməd Məsum ibn Xacəgi İsfahani özünün "Xülasətüs-siyər" kitabında Məhəmmədqulu xanın xəs-

---

[1] Miladi təqvimilə 1605/1606
[2] Miladi təqvimilə 1606/1607
[3] Miladi təqvimilə 1627/28
[4] Miladi təqvimilə 1631/32
[5] "Səfəvilər dövründə əyalətlərin nizamı". s. 51.
[6] Miladi təqvimilə 1642/43
[7] Miladi təqvimilə 1646/47

tələnməsi və ölümü barəsində belə xəbər verir: "Vücuduna yayılmış və heç bir vəchlə əlacı tapılmamış mərəzin üstün gəlməsi nəticəsində fani dünya ilə vidalaşaraq əbədi dünyaya köçdülər."[1]

Məhəmməd xanın oğlu Mürtəzaqulu xan böyük qardaşının ölümündən sonra İkinci Şah Abbasın* dövründə 1056-cı ildən sonra Qarabağ hakimi oldu.

Məhəmməd xanın oğlu Uğrağan (?) xan atasının yerinə keçib 1073-cü ilədək[2] hökumətdə qaldı.

Uğurlu xan İkinci Şah Abbasın* (hakimiyyət illəri h.q. 1052-1077[3]) padşahlığının sonunda mərkəzi Gəncə olmaqla Qarabağ bəylərbəyliyinə yiyələndi. Bəzi mənbələrdə onu Mürtəzaqulu xanın əmisi oğlu, bəzi kitablarda isə Məhəmmədqulu xanın oğlu və Mürtəzaqulu xanın qardaşı oğlu adı ilə yad edirlər.

Kəlbəli xan Şah Sultan Hüseyn Səfəvinin hakimiyyətinin əvvəllərində, yəni 1106-cı ildə[4] Qarabağ bəylərbəyi yerinə təyin edilmişdi.

Kəlbəli xanın oğlu Uğurlu xan Nadir şah Əfşarın* vaxtında, h.q. 1148-ci ildən[5] Qarabağ bəylərbəyi olmuşdu. O, 1148-ci ildə ləzgilərlə döyüşdə öldürülmüşdü.

Kəlbəli xanın digər oğlu Həsənəli xan əvvəl 1138-ci ildə[6] Bərdə hakimi yerinə təyin edilir, ardınca 1151-ci ildə[7] qardaşı Uğurlu xanın ölümündən sonra Qarabağın hakimiyyətinə gəlir. O, 1155-ci[8], bəzi rəvayətlərə görə isə

---

[1] "Xülasətüs-siyər". s. 323.
[2] Miladi təqvimilə 1662/63
[3] Miladi təqvimilə 1642/66
[4] Miladi təqvimilə 1694/95
[5] Miladi təqvimilə 1735/36
[6] Miladi təqvimilə 1725/26
[7] Miladi təqvimilə 1738/39
[8] Miladi təqvimilə 1742/43

1156-cı ilə[1] qədər Gəncə hakimi olur. Bir başqa qaynaqda da Həsənəli xan Nadir şahın* hakimiyyətinin sonunadək (h.q. 1160-cı il[2]) Qarabağ hakimi kimi göstərilir.

Şahverdi xan 1160-cı ildə Gəncə hökumətinin başına gəlmiş və bəzi mənbələrə görə 1174-cı ilədək[3] Gəncə hakimi hakimi və Qarabağ bəylərbəyi yerində qərarlaşır. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, digər qaynaqlarda onun adı 1179-cü ilədək[4] Qarabağ bəylərbəyi kimi xatırlanır. Bunu da da güman etmək olar ki, Şahverdi xan Uğurlu xanın oğlu olmuşdur, çünki Şahverdi xanın övladı Cavad xan öz oğluna Uğurlu adını qoymuşdu. O vaxtlar nəticələrə cəddlərinin adını qoymaq adətini nəzərə alanda Cavad xanın yeni doğulan oğlunu öz babasının şərəfinə adlandırmağı təbii görünür.

Şahverdi xandan sonra hakimiyyətə Məhəmmədhəsən xan gəldi. Şahverdi xanın hökumətinin 1174-cü ilədək davam etdiyini göstərən mənbələr Məhəmmədhəsən xanın bu vəzifədə 1174-1175-ci illərdə qaldığını yazırlar, lakin başqa qaynaqlarda verilən məlumata görə Şahverdi xanın ardınca oğlu Cavad xan qüdrət sahibi oldu.

1195-97-ci illər[5] ərzində Gəncə İbrahimxəlil xan Cavanşiri* ixtiyarında qalmışdı.

1198-ci ildə[6] Ziyadoğlu-Qacar nəsli yenidən Gəncədə hakimiyyətə gələndən sonra Hacı bəy adlı şəxs (onun öz sələfləri ilə qohumluq əlaqəsi haqqında məlumat əldə edilməyib) 1200-cü ilədək Gəncə hakimi oldu.

---

[1] Miladi təqvimilə 1743/44
[2] Miladi təqvimilə 1747
[3] Miladi təqvimilə 1760/61
[4] Miladi təqvimilə 1765/66
[5] Miladi təqvimilə 1781-83
[6] Miladi təqvimilə 1784

Şahverdi xanın oğlu Cavad xan Ziyadoğlu-Qacar h.q. 1200-cü ildən[1] başlayaraq Ağa Məhəmməd xan Qacarın* dövründə, eləcə də Fəthəli şah Qacarın* hakimiyyətinin əvvəllərində 1218-ci ilə qədər[2] Gəncə hökmdarı olmuşdu. Həmin ildə, birinci İran-rus müharibəsinin başlanğıcında Cavad xan böyük oğlu Hüseynqulu xan ilə Gəncəni müdafiə edərkən şəhadət məqamına yetişmişdi. Onun digər oğlu Uğurlu xan ikinci İran-rus müharibəsinin əvvəlində Gəncə İran ordusu tərəfindən azad ediləndən sonra şahzadə Abbas Mirzə Naibüssəltənə* tərəfindən Gəncə hakimi yerinə təyin olunmuşdu. Lakin onun hakimiyyəti cəmi bir neçə ay davam etmişdi və İran dövləti bu müharibədə məğlub olandan sonra Gəncə yenidən ruslar tərəfindən zəbt edildi və beləliklə Ziyadoğlu-Qacar nəslinin Gəncə hakimiyyətinə həmişəlik son qoyuldu.

[1] Miladi təqvimilə 1785/86
[2] Miladi təqvimilə 1803/04



***Uğurlu xanın şərəfinə inşa edilmiş Karvansara. XVIII əsr.***

# Gəncəli Cavad xanın övladları və nəvə-nəticələri

***Məhəmmədəli Bəhməni Qacar***
***Qafqaz üzrə tədqiqatçı***

Cavad xan Ziyadoğlu-Qacarın 1218-ci ilin şəvvalında[1] rus hərbçiləri tərəfindən öldürülməsi Ziyadoğlu ailəsinin Gəncədəki üç yüzillik hakimiyyətinə son qoydu. Lakin bu nəsil və xüsusilə Cavad xanın oğulları Qafqazdakı siyasi həyata öz təsirini yenə də göstərməkdə idi. Üç bənddən ibarət olan hazırkı yazı Cavad xanın övladlarının və nəvə-nəticələrinin fəaliyyətinə həsr olunubdur.

## 1. Cavad xanın oğulları İran-rus müharibələrində

Cavad xanın böyük oğlu Hüseynqulu xan birinci İran-rus müharibəsində atası ilə bərabər öldürülmüşdü. O, Gəncənin aşağı məhəllələri mücahidlərinin rəisi idi. Döyüş əsnasında o, əlində qılınc, Abbasi küçəsinin başında rusların hücümlarının qarşısını almışdı.[2] Miladi 1804-cü ilin yanvar ayının 3-cü günü sübh vaxtı (Fitr bayramı günü) rus qoşunu indi də yadigar qalan qala bürcünə (Hacı qala) həmlə etdi. Əlində qılınc tutmuş Cavad xan müdafiə olunanların birinci sırasında topun yanında şəhadətə yetişdi və böyük oğlu Hüseynqulu xan həmin yerdə öldürüldü.[3] Vəliəhd Abbas Mirzə Naibüssəltənənin* Napoleon Bonaparta*ünvanladığı

---

[1] Miladi təqvimilə yanvar 1804
[2] Cəmil Quzanlu. "İranla rusun onillik müharibəsi" (Birinci İran-rus müharibəsi). ss.15-19.
[3] Adil xan Ziyadxan. "Qələmin uçuşu". ss. 21-23 və 25 .

məktubundan məlum olur ki, Cavad xanın qətli və Gəncənin ruslar tərəfindən işğal olunmasından sonra Cavad xanın bir neçə oğlu tutulub Rusiyaya aparılmış, bəziləri isə İrana pənah gətirmişdilər. Abbas Mirzə* 1219-cu ildə[1] Napoleona* yazdığı məktubunda bu hadisəni belə şərh etmişdir:

"Bu əzəmətli dövlətin rəhbərləri Rus vilayətlərinə yönəlmiş bayraqları qaldırıb onların[2] İran məmləkətinin sərhəddinə yürüşününün qarşısını almaq üçün hərəkət etdiyi bir vaxtda onların cavabları bu oldu ki, Gəncə və Gürcüstan məmləkətlərini Gürcüstan valisi İrakli* xanın oğullarından və gəncəli Cavad xandan satın alıblar və bu səbəbdən hücuma keçiblər. Birincisi odur ki, adıçəkilən tayfanın müamiləsi həqiqətə xilaf, xalis böhtan və əql ilə məntiqə müxalifdir. Əslində isə hər bir bəsirət sahibinə hava kimi aydın, açıq və aşkardır ki, torpaq sövdəsini çöllü və əkinçi ilə yox, onun yiyəsi ilə görərlər və taxılın ixtiyarı çobanın yox, onun sahibinin əlindədir və iddia olunan bu müamilənin İrakli* xanın övladlarına və Cavad xana nəyin bahasına gəldiyi dəbəllidir: İrakli xanın böyük oğlu Gurgen xan onların qəhr badəsindən zəhər içdi, Gəncə xanı Cavad xanı isə onların amansız qılıncı ölümün ağuşuna göndərdi və onların sağ qalan övladlarının bəziləri Rus vilayətində məhbus, bəziləri isə evindən-eşiyindən, və vətəndən-məskənindən ümidsiz və məyus halda didərgin düşüb bu əzəmətli dostun astanında sığınacaq tapdılar."[3]

Həmin oğullardan ikisi Uğurlu xan Qacar və Əliqulu ağa Qacar olmuşdular. Ruslar Gəncədə yerləşəndən sonra Uğurlu xan İrana getdi. Bir azdan rus dövləti Uğurlu xanın Gəncədə

---

[1] Miladi təqvimilə 1804

[2] Yəni rusların

[3] Səid Nəfisi. "İranın ictimai və siyasi tarixi". Birinci cild. "Qacarlar hakimiyyətinin başlanğıcından Rusiya ilə birinci müharibənin sonuna qədər". ss. 178-179.

əsir düşmüş anasını həmin vaxt Qacarlardan həbs olunmuş bir tanınmış adamın müşayiətilə Abbas Mirzə Naibüs-səltənənin* sarayına göndərdi.[1] İran-rus müharibələrinin ikinci mərhələsində də yerli qüvvələrdən istifadə etmək siyasətini yürütmüş Abbas Mirzə Uğurlu xanla Əliqulu ağanın köməyindən yararlanmışdı:

"İkinci İran-rus müharibəsinin başlanğıcında Abbas Mirzə* Lənkəranın və Salyanın fəthindən sonra Gəncə hakimi Cavad xanın oğlu Uğurlu xanı Xoydan öz yanına çağıraraq onu Məhəmmədvəli xan Əfşar Urumi ilə müttəfiq etdi. O, həmçinin Gəncə üləmalarına və əyanlarına həssas bir məktub yazaraq onlara ruslara qarşı cıhad elan etməyi tapşırdı və Uğurlu xanın qardaşı və onların başçılarından biri olan Əliqulu ağanı Ayrum yolu ilə qacar, ayrumlu, qazaq və şəmsəddinlu tayfalarının başında duranların yanına göndərdi ki, onlar da ruslara qarşı qalxsınlar. Gəncəlilər, Qacar tayfası və ətraf yerlərin sakinləri Uğurlu xanın gəlişindən xəbər alan kimi yekdilliklə rusların əleyhinə üsyan qaldırıb mücadiləyə başladılar. Gəncənin Zorabadında məskunlaşmış ruslar bunu görəndə üsyançıları cəzalandırmaq və Gəncəni ələ keçir-məkdən ötrü döyüşə çıxdılar, gəncəlilər də onların dava çağırışını qəbul edib Gəncənin Xan bağında rusların üstünə gəldilər. Arada qızğın toqquşma baş verdi. Sonda ruslar qırıl-dılar, onların böyük hissəsi qılınca mal oldu, bir çoxu əsir düşdü və səkkiz lülə top da ələ keçdi. O tayfanın ancaq kiçik qismi bir topu götürüb Şəmkur[2] tərəfə qaça bildilər. Uğurlu xan bir dəstə süvari ilə Şəmkurda onların axırına çıxdı. O vaxt Uğurlu xan ata-babalarının yerinə Gəncədə hökumət başında əyləşdi. Məhərrəm ayının on biri, bazar günü rusların başlarını və əsirlərini padşahın[3] önündən keçirtdilər.

---

[1] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.158.
[2] Yəni Şəmkir
[3] Yəni Uğurlu xanın

Həmin məqamda Naibüssəltənə Əmir xan Sərdarın da Gəncədə qalmağına, habelə Abdullah xan Dəmavəndinin və Simnan ordusunun başçısı Novruzəli xanın Gəncə qalasının keşiyində durmalarına fərman verdi.[1]

Mirzə Sadiq Vəqayenigar Mərvəzi də Uğurlu xan və Əliqulu ağa Ziyadoğlu-Qacarların ikinci İran-rus müharibəsində iştirakına işarə edərək həmin vaxt Gəncənin geri qaytarılmasından belə yazır:

"Lənkəran qalasından sonra İran pəhləvanlarından üç nəfər tərəddüd etmədən Salyan qalasına hücuma keçdilər və oranı ələ keçirtdilər. Fəthlər haqqında xəbər Ərdəbildə şahın qulağına çatdı və saysız-hesabsız qənimətlər onun qarşısına qoyuldu. Bütün əsirləri şahın hüzuruna gətirdilər və Fəthəli şah darülxilafə işlərindən ötrü Ərdəbildən yola düşdü. Şah gedəndən sonra Naibüssəltənə Gəncə hakimi Uğurlu xan Ziyadlunu və Məhəmmədəli xan Əfşar Urumini üləmaların Gəncə elatını üsyana təhrik etməyə yönəlmiş məktubu ilə yola saldı, gəncəli Cavad xanın İrəvanda qalan digər oğlu Əliqulu ağanı isə Ayrum yolu ilə Qacar, Ayrumlu, Qazaq və Şəmsəddinlu elatına başçı yerinə göndərdi. Əliqulu ağa adıçəkilən mahala gələndən sonra məlum oldu ki, oradakı tayfaların elbəyi rusların göstərişi ilə o mahalın camaatını rus dövlətinin iradəsi və nüfuzu altına salıb rus zabitlərindən bir neçəsini beş min "saldat"la o mahalda saxlayır. Əliqulu ağa orada Rusiyanın nüfuzunun artması haqqında kifayət qədər məlumat əldə edəndən sonra tədbir görüb bir neçə etimadlı yerli başçıların vasitəsilə Şəmsəddinlu tayfası içində dini şüarlar yayıb camaatı düşmən əleyhinə qiyam qaldırmağa səslədi və nəticədə Qazaq eli ayağa qalxaraq həmin elbəyi yaxalayıb öldürdülər. Gəncənin Zorabadında yerləşən rus başçılarından biri qiyamçıların qarşısını almağa səy göstərdi,

[1] Lisanülmülk Məhəmmədtəqi Sipehr. "Nasixüt-təvarix". Birinci cild.

ancaq iş əldən getmişdi. Bir dəstə “saldat”[1] Gəncəyə çatanda qiyamçılar Xan bağında onların qabağına çıxdılar. Əlbəyaxa döyüşündə “saldat”ların bəziləri öldürüldü, bəziləri isə əsir düşdü və onların bütün təchizatı yerli fatehlərin əlinə keçdi. Lakin onlardan bir dəstə bir lülə topla döyüş meydanından qaçaraq Şəmkur kəndinə pənah apardılar. Onda Uğurlu xan bir süvari dəstəsini onların ardınca göndərdi. Həmin göndərilənlər “saldat”ları Şəmkurun xarabalıqlarında mühasirəyə salıb əsir aldılar. Bu arada bir neçə nəfər gecənin qaranlığından istifadə edib Tiflisə tərəf qaça bildilər. Uğurlu xan o düşmən fərarilərini də tutub Gəncəyə daxil oldu və əcdadlarının yaşadıqları Əsliabad məhəlləsində məskən saldı. Naibüssəltənə bu xəbəri eşidəndən sonra Abdullah xan Dəmavəndini, Novruz xan Şəhnayini və Əmir xan Dolluyini bir neçə dəstə süvari ilə Gəncə ətrafında yerləşdirdi.”[2]

Lakin Uğurlu xanın və Əliqulu ağanın ruslarla döyüşlərdə belə mühüm müvəffəqiyyətlər əldə etmələrinə baxmayaraq İranın ümumi məğlubiyyəti səbəbindən onlar da Gəncəni qoruya bilmədilər və bu şəhər yenidən ruslar tərəfindən işğal olundu.

## 2. Cavad xanın nəvə-nəticələri çar vaxtı və birinci Azərbaycan cümhuriyyəti dövründə

Gülüstan müqaviləsinə görə Gəncə İrandan ayrıldığına bax-mayaraq Ziyadoğlu ailəsi heç vaxt İranla və iranlılarla əlaqələrini kəsməmişdi. Qohumluq bağları bu nəsli Qacarlar sülaləsi ilə bağlayırdı və sülalənin padşahları və böyükləri həmişə Ziyadoğlulara mehriban və ehtiramla yanaşardılar. Qacar şahzadələri də onlara bağlılıq nümayiş etdirərdilər.

[1] Yəni rus əsgəri

[2] Məhəmməd Sadiq Vəqayenigar Mərvəzi. “İran-rus müharibələri tarixi”. ss.242-243.

Ağa Məhəmməd xan Qacarın* qardaşı Fərhad Mirzə Mötəmədüddövlə* özünün 1292-ci ildəki[1] Rusiya səfərində Gəncəyə gələndə bu nəsli xatırlayıb "Səfərnamə"sində belə yazırdı:

"Gəncəyə yetişdik. Bazar ertəsi ramazan ayının iyirmi dördü Gəncəyə gəldik. Səhər Qarqılıçay çaparxanasından yola düşdük və çaparxananın arxasındakı taxtadan düzəldilmiş körpünün üstündən keçdik. Üç vers[2] yürüyəndən sonra yolun sağ tərəfindəki Musalu kəndinə çatdıq. Bu kənd Ziyadoğlu-Qacar tayfasından olan Cavad xanın nəvəsi mərhum İsmayıl paşaya məxsusdur. İndi bu kənd onun oğlu nəvvab Bəhmən Mirzənin* kürəkəni Əbülfəth ağaya keçib. Bəhmən Mirzə Ənuşirvan Mirzənin doğma qardaşıdır və onların anaları mərhum Hüsamüssəltənə Məhəmmədtəqi Mirzənin qızıdır."[3]

Əbülfəth xanın Adil xan və İsmayıl xan adlı oğulları olmuşdur. Onlar soyadlarını "Ziyadxanov" götürmüşdülər. Anaları Azər Humayun xanım Bəhmən Mirzənin* qızı idi.[4] Əbülfəth xanın üç oğlu olub. Birinin ismini atası İsmayıl xanın adına İsmayıl qoymuşdu. Digər iki oğullardan birinin adı Şahverdi xan, o birisinin Adil xan olub.[5] Adil xan öz həyatı və ailəsi haqqında "Qələmin uçuşu" kitabında məlumat vermişdir. O, özü və qardaşları barəsində belə yazmışdır:

"Böyük qardaşım İsmayıl və mən ali hüquq təhsilimizi Moskva universitetində bitirib diplom aldıq, digər qardaşımız Şahverdi xan isə Ali Hərbi Məktəbi bitirəndən

---

[1] Miladi təqvimilə 1875

[2] Vers – rusca "verst" – təqribən 1 km-ə bərabər uzunluq vahidi.

[3] Fərhad Mirzə Mötəmədüddövlə. "Səfərnamə". s.50.

[4] Pərviz Zare Şahmərsi. "Qacarlar dövrünün hökumətində və siyasətində qarabağlıların yeri". "Müasir İran tarixi" tədqiqat fəsilnaməsi. 10-cu il, bahar, № 37. s.58.

[5] "Qələmin uçuşu". ss. 17-18 və 27.

sonra süvari qoşun xidmətinə daxil oldu. İsmayıl xan Rusiya paytaxtı Peterburqda təsis edilmiş Dövlət Dumasına Qafqazın Azərbaycan hissəsinin müsəlmanları tərəfindən vəkil seçilmişdi. Bu məclis qanunların qəbul edilməsində və nazirlərin təyin edilməsində tam ixtiyar sahibi olmaq tələbini irəli sürəndən sonra 1906-cı ilin iyun ayında Nikolay* tərəfindən buraxılmış və bağlanmışdı. Belə bir şəraitdə parlament vəkillərindən təqribən iki yüz nəfər Finlandiyaya gedib orada fövqəladə iclas təşkil etdilər. İsmayıl xan da həmin iclasda iştirak edib orada hazırlanmış və Nikolaya* ünvanlanmış bəyanata imzasını qoymuşdu. Həmin bəyanatın qısa məzmunu belə idi: "Millət! Tam ixtiyar və məsuliyyət sahibi haqqına malik Dövlət Duması açılmayanadək nə qoşuna bir əsgər, nə də imperator büdcəsinə bir rubl belə verməyin." Rusiya imperatorunun fərmanı ilə təşkil olunmuş fövqəladə ali cəza məhkəməsinin hökmü əsasında Finlandiya iclasında iştirak etmiş bütün millət vəkillərini, o cümlədən İsmayıl xanı, tutub həbsxanaya salmışdılar. İsmayıl xan həbs müddəti bitəndən sonra Gəncəyə qayıtdı."[1]

Qafqazda Azərbaycan Cümhuriyyəti dövlətinin təşkil olunması və çar Rusiyası imperatorluğunun süqutundan sonra 1337-ci ilin rəcəb ayında[2] İsmayıl xan nümayəndə heyəti başında İrana daxil oldu. İran qəzetləri İsmayıl xanın gəlişini böyük coşqunluqla şərh edirdilər. "İran" qəzeti 1337-ci ilin rəcəb ayının 17-ci sayında "Bizim qonağımız bizdəndir" adlı məqalədə Ziyadoğlu nəsli ilə Qacarlar arasında qohumluq əlaqəsinə işarə edərək belə yazırdı: "İranda yüz ildən artıq hakimiyyətdə olmuş və sözün həqiqi mənasında İran dövlətinin və millətinin nümayəndəsi". Məqalədə həmçinin Ziyadoğlular haqqında daha geniş məlumat verilmişdi:

---

[1]Həmin əsər. s.19.
[2]Miladi təqvimilə aprel 1919

“Ziyadoğlu (Ziyadxan) tayfası... Gəncədə həmişə ən hörmətli ailələrdən sayılardı və Rusiyanın Gəncəyə yiyələnməsi hadisəsindən qabaq oraya hakim olmuşdu. Onların hakimiyyət dairəsi Qafqazda Araz çayının kənarından (Xudafərin körpüsü) Gürcüstan sərhəddində hal-hazırda Qırmızı körpü adı ilə tanınan yerə və Şulaver kəndinədək uzanırdı.”[1]

İsmayıl xanla Adil xan İranda ezamiyyətdə olarkən daim təmsil etdikləri yenicə təsis olunmuş Azərbaycan Cümhuriyyəti dövlətində İranın mədəni və hüquqi mənafelərini müdafiə edirdilər. Misal olaraq onu gətirmək olar ki, Azərbaycan Cümhuriyyəti təşkil olandan sonra iranlıların “İttihad” mədrəsəsinin binası ingilis hərbçiləri tərəfindən zəbt olunub onların qərargahına çevrilmişdi. Ondan başqa, Azərbaycanda yaşayan İran vətəndaşları hərbi xidmətə çağırılırdı və iranlı tacirlərə öz işləri ilə məşğul olmağa müxtəlif çətinliklər törədilirdi.[2] O vaxt Azərbaycan Cümhuriyyətinin İrandakı səfiri olmuş İsmayıl xan Ziyadxanov fars dilinin və ədəbiyyatının qorunması, İran mədrəsələrinin çoxalması, İran mədəniyyətinin yayılması və o cümlədən “İttihad” mədrəsəsinin ingilis qoşunlarından boşaldılıb yenidən açılması məsələlərində İran dövlətinin tərəfini saxlayırdı. Belə ki, o, “İttihad” mədrəsəsinin boşaldılması və Azərbaycan Cümhuriyyəti ərazisində yaşayan İran təbəələrinin hərbi xidmətə çağırılmaması haqqında İran Xarici İşlər Nazirliyi ilə bağlanan müqaviləyə imza qoymuşdu. Bunun ardınca Xarici İşlər Nazirliyi Bakıdakı konsulluğa teleqraf

---

[1] Həmin əsər. s.2.

[2] Nizam Əli Dəhnəvi. “Qafqazda iranlı mühacirlər” (Onların 1900-1931-ci illərdə mədəniyyət sahəsində fəaliyyətləri). Tehran. İran xarici işlər nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.ş. 1384. s.108. Bax: 13-cü məktub. Şəvval 1337. İranın Bakıdakı konsulluğundan Xarici İşlər Nazirliyinə. Xarici işlər nazirliyinin sənədləri. № 673. H.q. 1337. Qovluq 28. İş 34.

göndərərək adıçəkilən müqavilənin şərtlərini izah etmiş və Azərbaycan dövləti ərazisində yaşayan İran vətəndaşlarını yaranmış çətinliklərin aradan qalxması barədə müjdələmişdi.[1]

Təəssüf ki, İsmayıl xan Azərbaycan yenidən Rusiya və bu dəfə SovetRusiyası tərəfindən işğal olandan sonra 1921-ci ilin əvvəllərində Fəthəli xan Xoyski* və digər ali təhsilli və ziyalı adamlarla bir yerdə tutulub şəhadətə yetirilmişdi.[2] İsmayıl xandan başqa onun qardaşı Adil xan da görkəmli siyası xadimlərdən olmuş və onun fəaliyyəti xüsusi fəsildə nəzərdən keçirilmişdir.

## 3. Adil xan Ziyadxanov – Ziyadoğlu nəslinin son siyasət xadimi

Adil xan gəncəli Əbülfəth xanın ailəsinin ən kiçik oğlu olmuşdu. O özü "Qələmin uçuşu" kitabında belə yazır: "Müəllif Gəncə şəhərində anadan olmuşdu. İki qardaşım var idi və ikisi də məndən böyük olub."[3] Bundan öncə göstərildiyi kimi Adil xanın və qardaşı İsmayıl xanın anası şahzadə Azər Humayun vəliəhd Abbas Mirzənin oğlu Bəhmən Mirzənin* qızı idi. Beləliklə, Adil xan bir tərəfdən Cavad xanın, digər tərəfdən isə şahzadə Abbas Mirzənin nəticəsi olmuşdu.

Adil xan anasıgilin ailəsinə sıx bağlı olmuşdu və buna onun öz yazıları da dəlalət edir. O, bir yerdə anasını belə xatırlayır: "Anam Azər Humayun Bəhmən Mirzənin* qızı və Naibüssəltənə Abbas Mirzənin nəvəsi idi. O, islam dini yolunda olduqca möhkəm dayanmışdı və çox pak və saf

---

[1] Həmin mənbə. s.108. Bax: teleqraf və məktub № 8872, 2282. Ziqədə 1337. İş 34.

[2] "Qələmin uçuşu". s.24.

[3] Həmin əsər. s.17.

əxlaqlı qadın olmuşdu. Həzrət Əmirülmömininə (ə) və o böyüyün nəslinə xüsusi məhəbbəti var idi."[1]

Qeyd olunmalıdır ki, Adil xanın həyat yoldaşının da şahzadə Bəhmən Mirzə ilə qohumluğu var imiş. Adil xan Bakıda məşhur tarixçi Abbasqulu ağa Bakıxanovun oğlu general Həsən ağa Bakıxanovun* qızı Reyhanə xanımla evlənmişdi[2], Abbasqulu ağa isə Bəhmən Mirzə ilə anası tərəfdən qohum olmuşdu. Adil xan Moskva universitetində hüquq sahəsində təhsil almışdı və azəri və fars dillərindən əlavə fransız, rus və ingilis dillərini də bilirdi. O, bir müddət Badkubədə vəkilliklə məşğul olandan sonra qardaşı İsmayıl xanın dəvəti ilə Gəncəyə gəldi və çar Rusiyasının süqutundan və 1918-ci ilin mayında Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra bu dövlətin Xarici İşlər nazirinin müavini vəzifəsinə təyin olundu.[3]

Adil xan 1919-cu ilin iyununda yeni qurulmuş Azərbaycan Cümhuriyyətinin nümayəndəsi qismində İrana getdi. Ancaq 1920-ci ilin yazında rus bolşeviklərinin Qafqaza hücumu nəticəsində Bakı işğal olundu və Adil xanın İrandakı vəzifəsi başa çatdı. Buna görə o, öz həyat yoldaşı və beş qızı ilə 1924/34-cü illərdə Tehranda yaşamışdı. O, bir müddət Tehran bələdiyyəsində, habelə Sosial Təminat Nazirliyinin kənd təsərrüfatı idarəsində çalışmış, 1928/31-ci illərdə [Cənubi] Azərbaycanda dəmiryolu və gəmiçilik şöbəsində xidmət etmiş, 1934-cü ildə Türkiyəyə köçmüş və 1945-ci ildə orada dünyasını dəyişmişdi.[4]

Ziyadoğlu nəslinin hələ Səfəvilər dövründən İrana olan münasibəti elə Adil xanın zamanında da özünü büruzə

---

[1] Həmin əsər. s.27.

[2] Daha doğrusu, Həsən ağa Bakıxanov Abbasqulu ağanın qardaşı Cəfərqulu ağanın oğludur.

[3] Həmin əsər. ss. 3 və 4.

[4] Həmin əsər. ss. 3 və 7.

verirdi. O, həmişə əks-rus mövqeyində dayanar, ürəyi Cavad xana, Abbas Mirzəyə və digər əcdadlarına bağlı olar, Şeyx Şamil kimi şəxslərdən idi ki, daim Rusiya istilaçılıq siyasətinə qarşı mübarizə aparardı. Adil xan öz kitabında Rus imperiyasının süqutu münasibətilə xalqın şadyanalığını və sevincini belə təsvir edirdi:

"Rusiyada yaşamış adamlar əsarət zəncirindən qurtulmasına sevinirdilər və onlardan başqa Rusiya sərhədləri içində yaşamışvə daim rusların istilaçı hücumlarına məruz qalmış millətlər də şadlanırdılar."[1]

Adil xan həmçinin Gəncənin ədəbivə mədəni mərkəz olduğundan yazarkən bu şəhəri Nizamininvə digər böyük şairlərin və məşhur şəxsiyyətlərin məkanı kimi təsvir edirdi və anasının doğma şəhəri Təbrizi də aşağıdakı sözlərlə xatırlayırdı:

"Təbriz şəhəri mənim əxlaqımı tərbiyə etmiş əziz anamın doğulduğu yer olduğuna görə onun ruhuna ehtiram əlaməti olaraq burada anamı bir neçə sözlə yad etməyi özümə fərizə və vacib bildim."[2]

Rusların əleyhinə tutduğu mövqe Adil xanı yalnız atasının vətənində əcdadları ilə bağlılığında özünü büruzə vermirdi. O, yenidən qurulan doğma diyarın inkişafında Abbas Mirzədən nümunə götürürdü və İranın tərəqqisindən də məmnun olduğunu bildirərək belə yazırdı: "İranın bütün ziyalıları əziz vətənin inkişafı yolunda səmimiyyətlə və fədakarlıqla öz vəzifələrini yerinə yetirməyə məşğuldurlar."[3] Başqa bir yerdə Adil xan özünün vətənə bağlılığını belə izhar edirdi:

"Vətən hissi elə böyük qüvvədir ki, dünyanın bütün qüvvələri onun yanında aciz, zəif və gücsüzdürlər və bu ülvi his-

---

[1] Həmin əsər. s.5.
[2] Həmin əsər.
[3] Həmin əsər. s.14.

sin hərarəti hər saniyə canlarını öz balalarından ötrü qurban verməyə hazır olan anaları həmin o əziz balalarını vətəni müdafiə etmək üçün döyüş meydanına göndərməyə sövq edir ... Zərrə qədər şərafətə malik olan hər kəs öz vətənini müqəddəs saymalıdır. Dünyada mənim əziz vətənimdən də qəşəng yerlər ola bilər, amma mənim təsəvvürümdə vətənim Qafqazdan gözəl diyar yoxdur, çünki bu ölkə ata-babalarımın doğma məkanıdır. İran isə anamın vətənidir və bura da, əlbəttə, mənimçün əzizdir və onu da bilməliyik ki, yerin bu guşəsi həqiqətən də Xudavəndin İran millətinə bəxş etdiyi böyük nemətdir."[1]

Adil xanın könlündə vətənpərəstlik hissləri ilə bərabər həzrət Əliyə və onun nəvə-nəticələrinə (ə) xüsusi məhəbbət yer almışdı. O, Kərbəlaya və Nəcəfə getdiyi səfəri şərh edərkən özünün Əli əleyhissalamın ailəsinə olan sevgisi ilə ehtiramını belə bəyan edirdi:

"Həmişə müqəddəs yerlərə ziyarətə getməyi və salamımı təqdim etməyi arzulayırdım və xoşbəxtlikdən bu arzuya çata bildim. Bazar ertəsi günü 1346-cı ilin cümadiüssaninin üçündə[2] günortadan bir saat və on beş dəqiqə keçmiş Nəcəfi-əşrəfdə həzrət Əmirülmömininin (ə) mübarək məqamının qarşısında qızım Mahruxla dayanaraq öz salamımı dünyanın bu böyük bəşərinə təqdim etdim və həmin dəqiqələr həqiqətən mənim həyatımda fövqəladə anlar olmuşdu. Özümü Əlinin minlərlə alisifət müqəddəs şölələrinin yayıldığı nursaçan çeşməyə yaxınlaşdığımı hiss etdim. Vətənə, şərəfə və millətin beytülmalına xəyanət edən bəzi müsəlmanlar mərdimazarlıq yolunu seçərək həqiqətən də bu bütün islam aləminin nümunəsi olanın pak ruhunu incidirlər."[3] O, həmçinin həzrət Hüseyn (ə) haqqında belə

---

[1] Həmin əsər. ss. 31 və 33.
[2] Miladi təqvimilə 28 oktyabr 1927-ci il
[3] Həmin əsər. s.28.

yazır: “Canlarını ədalət yolunda fəda edənlər üçün Seyyidüşşühədanın müqəddəs ruhu əbədi olaraq bir işıqsaçan məşəl kimi yol göstərəcəkdir.”[1]

Adil xan Ziyadxanov 21 azər 1307-ci il tarixdə kənd təsərrüfatı idarəsinə keçdi. O, 1308-ci ilin mehr ayının 22-də ali kənd təsərrüfatı məktəbinə getdi. Onun həmin məktəblə tanışlığı “Qələmin uçuşu” risaləsinin yazılmasına səbəb oldu. O, bu barədə belə yazır:

“Mən kənd təsərrüfatı ixtisasına sahib deyildim, hüquq sahəsində təhsil almışdım. Buna baxmayaraq Kərəcdən Tehrana qayıdarkən kənd təsərrüfatı barədə qeydlərimi yazıb o məktəbin müdavimlərinə bir yadigar kimi təqdim etmək arzusuna düşdüm ... İran gözəlləşdikcə vətən sevgisi daha da artır. Vətən havasının özünəməxsus lətafəti vardır və dünyanın heç bir yeri ona bənzəməz.”[2]

Adil xan qardaşı İsmayıl xanın İrandakı vəzifəsi sona çatandan sonra İrana getdi və orada daim İranla yeni təsis olunmuş Azərbaycan Cümhuriyyəti arasında bağların möhkəmlənməsi üçün çox çalışdı və eyni zamanda Azərbaycanda yaşayan iranlıların hüquqlarının qorunmasına da səy göstərdi. O, 1919-cu ilin iyun ayında Azərbaycan Cümhuriyyətinin İrandakı nümayəndəsi vəzifəsinə təyin edildi və 1920-ci ilin yanvarında İrana daxil oldu və qardaşı kimi iranlılar tərəfindən olduqca mehriban qarşılandı. İran qəzetləri eynilə İsmayıl xanın 1338-ci ilin rəcəb ayında gəlişini şərh etdikləri kimi Adil xanın da gəlişi barədə böyük ruh yüksəkliyi ilə yazırdılar və İranla Azərbaycan Cümhuriyyəti arasında bərabərlik və birlik hisslərini xüsusilə vurğulayırdılar. Belə ki, “Rə’d” qəzeti özünün cümə günü 1338-ci ilin rəbiüssani ayının 24-dəki 217 saylı nömrəsində “İran

---

[1] Həmin əsər. s.29.
[2] Həmin əsər. s.28.

öz əziz qonaqlarını alqışlayır” başlıqlı məqaləsində bunları yazırdı:

“Azərbaycan nümayəndəsinin, ən səmimi qardaşlar elçisinin İrana gəlişi bütün qəlbləri şövq və coşqunluqla, sevgi və məhəbbətlə, sevinc və fərəhlə doldurdu ... Nə xoş hadisə və nə xeyirli haldır ki, möhtərəm məmurlar öz vəzifələrini ən yaxşı tərzdə yerinə yetirməyə qədəm qoydular və İran həmişə iki tərəf üçün qələbə müjdələrinin mənbəyi olacaqdır ... Qara günün və zülmətli güzəranın ardınca nə mübarək vaxt və nə şərəfli zaman vücuda gəldi və haqq ilə ədalətin qüdrətli qolu bizim qardaşlarımızı zülm ilə istibdadın qəhhar əli ilə bizdən uzaqlaşdırmaq və bizə yad etmək istəyən şər qüvvələrin başını əzdi. Muxtariyyət və azadlıq təsiri altında hər iki tərəf ağuşunu açıb üzüağ, şəkksiz-riyasız bir-birini qucaqladı. Keçmişə bir nəzər, ötən əsrin tarixinə bir baxış bizimlə qardaşlarımızı bağlamış və bağlayan sevgi ilə dostluğun aliliyini göstərir. Bizim sərhədlərimizin Qafqazın düz qəlbinədək irəlilədiyi vaxtda da biz öz qardaşlarımızın hökumətini və muxrariyyətini təsdiqləmişdik. Qafqazın yerli rəisləri və məlikləri əyalət hökumətlərini idarə edirdilər və onların özlərinə və istiqlallarına arxalanması o dərəcədə güclü olmuşdu ki, əhalinin təbii təməddünü heç bir dəyişiklikliyə uğramadı və Azərbaycan öz dilini onun tarixi İranın tarixi ilə bağlı olan dövrdə saxlaya bilmişdi. Slavyanların böyük seli cənuba hərəkət etdi. O həmin sel idi ki, Böyük Pyotr* onun yolunu cızmış və xələfləri o yolla da irəliləmişdilər. Həmin hərəkətin təsiri ilə İran əvvəl xəsarətlər almış, biz və qardaşlarımız zalımların basqınlarına məruz qalmışdıq. O sözügedən ən ədalətsiz Türkmənçay müqaviləsini bizim üstümüzə yüklədi. Amma o zor ilə şər qüvvələri bizim aramıza nə qədər kin-küdurət salmaq istəsələr də, bizim qardaşcasına davranışımız o səyləri iflic halına salmış və aramızdakı dostluq ilə şəfqəti qoruyub saxlamışdır.”

İran dövləti və milləti Adil xanı və onunla gələn heyəti çox səmimi qarşılamışdı. “Rə’d” qəzetiningöstərilən sayında Adil xanın başçısı olduğu nümayəndə heyətinin İrana gəlişi bu sözlərlə təsvir edilirdi: “Qarşılayanlar dost və qonşu dövlətin nümayəndələrini böyük coşqu ilə salamladılar. Məclisə daxil olandan vərəsmi ehtiram və qarşılama mərasimini yerinə yetirəndən sonracənab Cəlal Cəlilzadə Şirinli ayağa qalxıb aşağıdakı nitq söylədi:

– Cənablar, biz Allahın dərgahına minnətdarıq ki, O, militarizmin bütün dünyanı kölgəyə salmış zalım və dəhşətli buludlarını öz ədalətli qüdrəti ilə həmişəlik yox etdi ... Biz özümüzü ona görə xoşbəxt və məsud sayırıq ki, əziz Azərbaycan dövlətinin yüksək nümayəndə heyətini, hörmətli ağayi-Adil xan Ziyadxanı və heyətin başqa üzvlərini burada qarşılamaq və öz sevinc hisslərimizi ifadə edən səmimi təbrik sözlərimizi demək üçün mübarək hüzurlarına gəlmək şərəfinə nail olmuşuq (*alqışlar*). Ümidvarıq ki, möhtərəm nümayəndələr qısa zamanda öz milli amallarına və məqsədlərinə nail olaraq öz hüsni-niyyətlərinin gerçəkləşməsində müvəffəqiyyət qazanacaqlar. Bizim həmçinin arzumuz odur ki, iki millət arasındakı qədim tarixə malik mədəni və dini əlaqələr yenidən özünün cavanlıq çağına qədəm qoysun və bu millətlər bir-birinə birlik əllərini uzadıbəsl qarşılıqlı dəstək ittifaqını yaradaraq şanlı gələcəyə və islam tarixində yeni çiçəklkənmə dövrünə yol açmağa müvəffəq olsunlar (*alqışlar və nidalar*). Azərbaycanın hörmətli nümayəndəsi cənab Adil xan Ziyadxan cənab Cəlalın nitqinə cavab olaraq bunları bəyan buyurdular:

– Birincisi, əslində bayram sayılacaq belə bir gündə məni qarşılamaqdan ötrü zəhmət çəkdiyinizə görə sizə ürəkdən təşəkkür edirəm. İkincisi, Sizin nitqinizdə ifadə olunmuş məsələlər mənim də bütün arzularımı əks etdirir. Altı minillik İran dövləti yeni təsis olunmuş Azərbaycan dövləti ilə bir həqiqi ittifaq qurmalı, tam səmimi surətdə bir-

biri ilə əməkdaşlıq etməlidirlər. Bu bizim mədəni, dini, milli və tarixi vəzifəmizdir. Mən xoşbəxt İran torpağına qədəm basdığım gündən İran millətinin və dövlətinin rəsmi dairələrində böyük hörmət görmüşəm ... Ümidvaram ki, öz vəzifəmi yerinə yetirməkdə müvəffəqiyyət qazanaraq ittifaq və birliyə nail olacağam ... Yaşasın İran dövləti! Yaşasın İran milləti! (*təkrar-təkrar "yaşasın!" sədaları, sürəkli alqışlar*).[1]

Bundan qabaq da bəyan oldu ki, Adil xan İranda öz vəzifəsini yerinə yetirdiyi müddətdə öz sələfi, yəni qardaşı İsmayıl xanın yeni təsis olunmuş Azərbaycan dövləti ilə İranın mümkün qədər yaxınlaşmasına yönəlmiş fəaliyyətini davam etdirmişdi. O, öz nitqində Azərbaycanla İranın müştərək tarixə malik olduqlarını vurğulamışdı.

Adil xan Ziyadxanovun Tehranda səfir olduğu vaxtda ən mühüm siyasi addımlarından biri Bakıda İran mədəniyyətinin əsaslarının möhkəmlənməsinə və fars dilinin yayılmasına yönəlmiş səyləri olmuşdur. O, İranın xarici işlər naziri Nüsrətüddövlə Firuzun* İsmayıl xanın zamanında iki dövlət İran və Azərbaycan arasında bağlanmış müqavilənin şərtlərinə əməl olunmamasına etiraz etdiyinə cavab olaraq Azərbaycan dövləti məmurlarının hələ yenicə qurulmuş hökumətin işçiləri olduqlarına işarə etmiş və bütün çətinliklərin tədricən azalaraq nəhayətdə tamamilə aradan qaldırılmasına söz vermişdi.[2]

* * *

(Məqalənin sonunda Cavad xan nəslinin bəzi nümayəndələri haqqında müxtəsər məlumat verilmişdir)

Cavad xan Ziyadoğlu-Qacar – Şahverdi xanın oğlu – qəməri 1200-cü ildə Gəncədə hakimiyyətə gəlmiş və 1218-ci

---

[1] Həmin əsər. ss.61, 63, 66 və 69.

[2] Nizam Əli Dəhnəvi. Göstərilən əsər. ss.107 və 108.

ilin şəvval ayında fitr bayramı günü (miladi 1804-cü ilin yanvarın 3-nə bərabərdir) çar Rusiyasının Sisianovun başçılığı altında ordusuna qarşı müharibədə böyük oğlu Hüseynqulu xanla bir vaxtda şəhid olmuşdur.

Hüseynqulu xan – Cavad xanın böyük oğlu – 1218-ci ilin şəvval ayında fitr bayramı günü rus hərbçiləri tərəfindən şəhadətə yetirilmişdir.

Uğurlu xan – Cavad xanın digər oğlu. İkinci İran-rus müharibəsinin əvvəlində 1241-ci ildə[1] Gəncə İran ordusu tərəfindən geri qaytarılandan sonra Abbas Mirzə Naibüssəltənə* Uğurlu xanı Gəncəyə hakim təyin etmişdi. Lakin iranlılar müharibənin nəticəsində məğlub olandan sonra Uğurlu xan İrana getdi və ardınca rus dövləti onun Gəncədə qalan anasını Gəncədə həbsxanada yatan Qacarlar nəslinin böyüklərindən birinin müşayiətilə Abbas Mirzənin sarayına göndərmişdi.

Əliqulu ağa – Cavad xanın başqa oğlu – birinci İran-rus müharibəsindən sonra İrana getdi və İrəvanda məskunlaşdı. İkinci müharibənin əvvəlində Uğurlu xanın ardınca şahzadə Abbas Mirzənin əmrilə Gəncəyə getdi, gəncəlilərin üsyan qaldırdıqları vaxt Uğurlu xanla və İran qoşunu ilə birlikdə Gəncəyə daxil oldu.

İsmayıl xan – çox güman ki, Uğurlu xanın oğlu və Cavad xanın nəvəsidir. Onun ailəsi sonralar Gəncədəki əmlakının bir hissəsini qaytara bilmişdi. Şahzadə Fərhad Mirzə Mötəmədüddövlə* (Nasirəddin şah Qacarın əmisi) 1229-cu ildə[2] Rusiyada səfərdə olarkən Gəncəyə gəlmiş və öz xatirələrində İsmayıl paşanın oğlu Musalu Məlik Əbülfəth ağaya məxsus kənddən yazmışdı.

Əbülfəth ağa – İsmayıl xanın oğlu – Bəhmən Mirzənin* qızı şahzadə xanım Azər Humayunla ailə qurmuşdu.

---

[1] Miladi təqvimilə 1826-cı ildə

[2] Miladi təqvimilə 1814-cü il

İsmayıl xan – Əbülfəth xanın böyük oğlu – Moskva universitetində ali hüquq təhsilini almışdı. Çar Rusiyası dövlətinə müxalif mövqe tutduğuna görə 1906-cı ildə həbs edilmiş və məhkumluq müddəti bitəndən sonra Gəncəyə qayıtmışdı. İsmayıl xan 1919-cu ildə başçılıq etdiyi nümayəndə heyəti ilə İrana getmişdi.

Şahverdi xan – Əbülfəth xanın ikinci oğlu – ali hərbi məktəbi bitirib süvari qoşunlarında xidmət edirdi.

Adil xan Ziyadoğlu-Qacar – həm də Adil xan Ziyadxanov adı ilə məşhurdur. “Qələmin uçuşu” kitabının müəllifidir. Həmin əsərdə öz həyatından, ailəsindən, babası Cavad xanın şücaətindən, Ziyadoğlu nəslindən, Gəncə şəhərindən, vəliəhd Abbas Mirzədən və şahzadə Bəhmən Mirzədən* bəhs olunur. Adil xan Bakıda Abbasqulu ağa Bakıxanovun oğlu general Həsən ağa Bakıxanovun* qızı Reyhanə xanımla evlənmişdi. Məşhur tarixçi Abbasqulu ağa Bakıxanov anası tərəfdən şahzadə Bəhmən Mirzə* ilə qohum olmuşdu. Adil xan 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin nümayəndəsi sifətində İrana getmiş və bir il yarım sonra rus bolşevikləri Qafqaza hücum edərək o bölgəni işğal etdilər. Nəticədə Adil xanın İrandakı vəzifəsinə xitam verildi. O, arvadı və beş uşağı ilə 1924-cü ilədək Tehranda qaldı, 1924-cü ildə Türkiyəyə köçdü və 1945-ci ildə orada vəfat etdi.

Şahzadə xanım Azər Humayun – şahzadə Bəhmən Mirzənin qızı – şahzadə Ənuşirvan Mirzənin və ordu əmiri şahzadə Məhəmmədəli Mirzə Şüaüssultanın doğma bacısıdır.

Şahzadə Bəhmən Mirzə* (bu məqalənin müəllifi Məhəmmədəli Bəhməni Qacarın babası) – siyasət, tarix və ədəbiyyat sahəsində bir neçə kitabın müəllifidir. Əllamə Əli Əkbər Dehxuda öz “Lüğətnamə”sində onun fəzlindən və biliyindən yazıb. Bəh-mən Mirzə* 1290-cı ildə Qarabağda dünyanın ən mühüm ölkə başçılarına yazdığı məktubda millətlər cəmiyyətinin təşkil olunması təklifini irəli

sürmüşdü. Həmin məktubun əsli bu məqalənin müəllifindədir.

Şahzadə Məhəmmədəli Mirzə – şahzadə Bəhmən Mirzənin* oğlu – 1264-cü ildə[1] hələ uşaq ikən atası ilə bir yerdə Qafqaza və Qarabağa getmişdi. O, sonralar rus süvari qoşununda xidmət edərdi. Nasirəddin şah ikinci dəfə Firəngistana və Rusiyaya səfər etdiyi vaxt Vladiqafqaz şəhərində şahın hüzuruna gəlmiş və onun əmri ilə İrana getmişdi. O, 1297-ci ildən İran ordusunda xidmət etməyə başlamış, 1312-ci ildə ordu əmiri vəzifəsini və 1314-cü ildə Şüaüssultan ləqəbini almışdı. 1322-ci ildə[2] Tehranda vəfat etmişdi.

Şahzadə Ənuşirvan Mirzə Ziyaüddövlə – Məhəmmədəli Mirzənin qardaşı – Nasirəddin şahın dövründə Səmnan hakimi olmuşdu və onun adı Səmnanın qapısı üzərində görünür.

---

[1] Miladi təqvimilə 1264-cü il

[2] Miladi təqvimilə 1904-cü il

# Gəncəli Cavad xan

***Doktor Huşəng Tale***

Ziyadlular Qacar elinin bir qolu və Səfəvilər dövrünün sufizadələrindən və əmirlərindən olmuşdular. “Ziyadlu” ləqəbini Şah İsmayıl* Səfəvi Xızır xanın oğlu Ümmət bəy Qacara əta etmişdi. Ümmət bəy kiçik yaşlı İsmayılı Lahican səfərində müşayiət edən tayfa başçılarından biri idi. Şah İsmayıl hakimiyyətə gələndən sonra Qafqaz məntəqəsinin böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq Şahverdi sultan Ziyadlu-Qacarı mərkəzi Gəncə şəhəri olan Qarabağın bəylərbəyisi yerinə təyin etmişdi ...

Bir neçə əsr sonra Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd xan Qacar* Gürcüstan hakimi İrakli* xanın ruslara meyl göstərdiyini müşahidə edib ona məktub yazır və onu Şahnəvaz xanın yolu ilə getməkdən çəkindirməyə çalışır. Lakin məsləhətin kara gəlmədiyini görən Ağa Məhəmməd xan* Gürcüstanın və ardınca bütün Qafqazın İrandan ayrılmasına yol verməmək məqsədilə o bölgəyə qoşun yeridir. 31 mart 1797-ci il tarixdə Şuşa şəhərində Rusiyaya hücuma keçmək məqsədilə öz qüvvələrini təchiz etməyə məşğul olan Ağa Məhəmməd xan Qacar* qətlə yetirilir. Xainin xəncəri onun bədənini parçalayan vaxt xan öz qatillərinin birini ətəyindən tutub fəryad edir: “Sən Ağa Məhəmmədi öldürmədin, sən İranı öldürdün!”

O hadisədən altı il sonra, 1803-cü ildə ruslar Gürcüstanda bütün müqavimət ocaqlarını dağıdaraq İrakli xanı zindana salıb işgəncə altında Rusiyaya tabe olmağına razılıq verməyini əldə etdilər. Növbəti hədəf Qafqazın döyünən ürəyi Gəncə idi. Gəncəli Cavad xan Ziyadlu-Qacar rusların qarşısına çıxdı. 1803-cü ilin noyabrın 22-də Sisianovun başçılığı altında çoxsaylı rus qoşunu Gəncəyə hücuma keçdi.

Döyüşdən əvvəl Sisianov Cavad xana məktublar yazıb onu təslim olmağa çağırmışdı. Lakin Cavad xan cavabında belə yazmışdı: “Sən öz davanı görmüsən, amma qızılbaşların davasını görməmisən. Döyüşə hazır olduğunu yazırsan ... Biz də döyüşə tədarük görüb hazırlaşmışıq. Nə vaxt dava etmək istəsən, gəl, döyüşək”.

Cavad xan Sisianovun təslim olma təklifini rədd edib əlinin altındakı qüvvələrə və Gəncə camaatına arxalanaraq mərd-mərdanə davaya qalxdı. Nəticədə, şiddətli müqavimətə baxmayaraq, Gəncə şəhəri rusların əlinə keçdi, Cavad xan qətlə yetirildi, şəhəri od vurb külə döndərdilər, adamlara divan tutdular.

Cavad xanın ölümündən sonra zövcəsi Sərvinaz xanım ki, iki dəfə döyüş paltarında əri ilə bərabər qaladan bayıra çıxıb ruslarla vuruşmuşdu, kiçik oğlu Uğurlu xanı yaxın adamlardan biri ilə Təbrizə vəliəhd Abbas Mirzə Naibüssəltənənin* yanına göndərdi. Uğurlu xan İran-rus müharibəsinin ikinci mərhələsində rusların Gəncədən qovulmsından sonra bir neçə ay atasının yerində əyləşdi, lakin İrana zorla qəbul etdirilmiş Türkmənçay müqaviləsi əsasında Gəncəni təhvil verməli oldu. Uğurlu xan Təbrizdə qaldı, ancaq qüssə çəkməkdən çox yaşamadı. Onun oğlu Hacı Cavad və Hacı Cavadın oğlu Hacı Rza tacirlik peşəsinə yiyələndilər, Hacı Rzanın kiçik oğlu Hacı Əli Təqi üzünü siyasətə çevirdi. O, Təbrizdə və İranda Məşrutə dövründə Şeyx Məhəmməd Xiyabaninin* yaxın yoldaşlarından olmuşdu və İranın parlamenti Məclisi-şurayi-milliyə nümayəndə seçilmişdi. Hacı Əli Təqi Gəncei deputatlıq müddəti sona çatmamış vəfat etmişdi. Onun uşaqları Cavad və Rza da atasının yolu ilə getmişdilər.

## Ziyadlular Qafqazda (Birinci Şah İsmayıldan Şah Məhəmməd Xudabəndəyə qədər)

Qacar elinin bir qolu olan Ziyadlular nəsli Səfəvilər sülaləsinin əmirlərindən və sufizadələrindəndirlər. Şah İsmayıl Ziyadlu ləqəbini Xızır xanın oğlu Ümmət bəy Qacara əta etmişdi. Ümmət bəy cavan İsmayılı Lahicana müşayiət etmiş böyüklərdən olmuşdu. Ümmət xanın ölümündən sonra Şahverdi sultan atasının yerinə keçdi.

Səfəvilər hakim sülaləsinin banisi Şah İsmayıl Səfəvi* Şahverdi sultan Ziyadlu-Qacarı Qarabağın bəylərbəyliyinə seçdi, lakin bu hadisənin dəqiq tarixi məlum deyil. Şahverdi xandan sonra həmin vəzifə Xəlil xana keçdi.

1520-ci ilin sentyabrın 21-də Yavuz ləqəbi ilə məşhur Sultan Səlim vəfat etdi və onun yerinə Sultan Süleyman* əyləşdi. Süleyman Osmanlı dövlətində qırx altı illik hakimiyyəti boyu təcavüz və qarət etmə, qatillik və söküb-dağıtma hesabına əraziləri genişləndirmək siyasətini yeridirdi. Sultan Səlimdən üç il sonra 23 may 1524-cü il tarixdə Şah İsmayıl* da vərəm xəstəliyindən öldü. Onun yerini taxtda tutan oğlu şah Təhmasibin cəmi on yaşı olduğundan qızılbaşlar sərkərdələrindən ibarət "Padşahlıq naibliyi şurası" adında bir qurum ölkənin işlərini əlinə keçirtdi.

Sultan Süleyman* Şah İsmayılın ölümündən agah olan kimi Şah Təhmasibə sərt məktub yazdı və həmin məktubda onu İranı işğal edib yer üzündən silməklə hədələdi. Bundan sonra Səfəvilərlə Osmanlılar arasında iyirmi il davam etmiş müharibə 1555-ci ilin may ayının 10-da Amasiya sülh müqaviləsini bağlamaqla başa çatdı. Sözügedən iyirmi il ərzində Qarabağ və Gəncə bəylərbəyliyində Ziyadlular xüsusi rəşadət və igidlik nümayiş etdirmişdilər.

1524-cü və ya 1525-ci ildə Qarabağ bəylərbəyi İmamqulu xan Qacar dünyasını dəyişdi. ”Qarabağ bəylərbəyi

İmamqulu xan Qacar Gəncədə təbii əcəllə vəfat etdi. O vilayətin hakimiyyəti Şahi-cənnətməkanın [Şah İsmayılın] dövründə Qarabağ bəylərbəyi olmuş Şahverdi sultanın nəvəsi Məhəmməd xan ibn Xəlil xana keçdi”.[1]

Qeyd edək ki, “Xüalasətüs-siyər” kitabında həmin hadisələr Təhmasibin şahənşahlıq dövrünə aid olunub:

“Ümmət xan da başqaların yolu ilə bu keçici dünyadan ayrılıb cənnətdəki mənzilinə köçəndən sonra şahənşah həzrətləri[2] onun əziz övladı, dövlət və şücaəti ilə seçilən Şahverdi sultanı nəvazişləri ilə təltif edərək günü-gündən daha yüksək məqamlara qaldırırdılar. Dünyaya ağalıq etmək növbəsi Şah Təhmasibə çatanda isə Şahverdi xan Qarabağın hakimi və Qacar elinin bəylərbəyi məqamına yetişdi və o vilayətdə onun igidliyindən və dilavərliyindən bəhs edən dastanlar qoşdular.”[3]

Şahverdi xan Ziyadlu-Qacarın qəhrəmanlığına işarə edilən kitablardan biri də “Xülasətüt-təvarix”dir. Şah Təhmasibin hakimiyyətinin on dördüncü ilinə aid hissədə (1537 il) müəllif Şahverdi xanın adını çəkir, Əlqas Mirzənin məğlub edilməsində də Şahverdi xan dəfələrlə xatırlanır:

“Şah Təhmasib köç edərək Gəncəyə yetişib bulaq başında əyləşdilər. Bundan sonra İbrahim xan Zülqədəri, Sultan Rumlunu, Göyçə Sultan Qacarı və Şahverdi sultan Ziyadlunu digər qorçularla və beş min yaraqlı süvari ilə bərabər o zamanlar Əlqas Mirzənin ordugahının yerləşdiyi Şamaxıya basqın etməyə göndərdilər ... Əlqas Samur çayının kənarında oturmuşdu. Əmirlər hücuma keçdilər. Şahverdi sultan Ziyadlu və Məhəmməd bəy Türkman təqribən iyirmi nəfər döyüşçü ilə qəflətən Samur çayının sahlində Əlqasın üzərinə gəldilər. Əlqas tez ata minib vadiyə qaçdı. Qazilər

---

[1] “Aləmarayi-Abbasi”. c.1. s.358.
[2] Yəni Şah İsmayıl
[3] “Xülasətüs-siyər”. ss.319-320.

çaydan keçib xəncərlərini və ox-yaylarını çıxarıb həmlə etdilər ... Əlqasdaqürur ilə lovğalıq badəsindən içdiyi təşəxxüs ilə təkəbbür atəşi yatdı və o, darmadağın olub böyük çətinliklə dağlara qaça bildi, əlaltılarının əksəriyyətini isə qazilər ələ keçirtdilər”.[1]

Əlqas Mirzənin Osmanlı sultanını İrana hücuma keçməyə təhrik etməyi məlum olan kimi şahənşah Təbrizə gedib Şənbi-Qazanda ordugah saldı. O, tapşırıq vermişdi ki, osmanlıların gəldiyi yolda “od salınsın ki, heç bir taxıldan-bitkidən əsər-əlamət də qalmasın. Təbrizlilər bütün kəhrizlərə sədd qoydular.”[2]

Şah “Abdullah xan Ustaclunu, Bədir xan Ustaclunu, Şahverdi sultan Ziyadlunu, Əli sultan Ziyadlunu və Sultan Təkəlunu Mərəndə göndərdilər.”[3]

Osmanlı ordusu orada yerləşən silahlı qüvvələrlə toqquşdu. “Əli paşa, Məhəmməd Paşa, Əhməd paşa, Heydər paşa və Əlqas Mirzə qırx nəfər süvari ilə Mərəndin çəmənliyində dayanan adlı-sanlı əmirlərin üzərinə hücuma keçdilər. Bu yandan isə Abdullah xan və Şahverdi sultan Ziyadlu Vəli sultan Təkəlunu qarovula göndərdilər və peşələri qələbə çalmaq olan qazilər Kərdəmeşədə Rum ordusunun ön dəstələri ilə döyüşə girişdilər. Şahverdi sultan mərdcəsinə vuruşaraq bir çox rumlunu qətlə yetirdi.”[4]

Həmin kitabda həmçinin Şahverdi sultanın Şah Təhmasibin şahənşahlığının iyirmi altıncı ilində göstərdiyi igidliyindən və onun tərəfindən bir həmlə ilə Bargiri qalasının alınmasından söhbət gedir:

Təhmasibin hakimiyyətinin iyirmi səkkizinci ilində (1551-ci il) baş vermiş Gürcüstan yürüşündən bəhs edilərkən

---

[1] “Xülasətüt-təvarix”. c.1, s.17.
[2] Həmin əsər. s.324.
[3] Həmin əsər. s.324.
[4] Həmin əsər. s.325.

Şahverdi xan həmçinin yad olunur. Növbəti ilə dair hadisələrdə də onun iştirakından yazılır.

Gürcüstanda qalxmış üsyan haqqında belə deyilir:

"Əmr sahibi Bədir xan Ustaclunun, Şahverdi sultan Ziyadlunun və Əli sultan Təkəlunun həmin istehkama üz tutmalarını israrla tələb etdi. Zəfərçalan qazilər və qisasalan dilavərlər yürüşə çıxıb o qalanı aldılar".[1]

Həmçinin:

"Şahverdi Ziyadlu ilə Ədhəm bəy Rumlu Təxti-Pasinə və Avnikə gedərkən onlarla o yerlərin hakimi Murad bəy arasında döyüş baş verdi. Qazilər onun özünü atdan yerə saldılar və bir çox təbəələrini qətlə yetirdilər. Murad bəy qalaya qaçdı, o riyakarın əmirləri isə dünyanı fəth edən orduya qoşuldular".[2]

Osmanlı sərdarlardan İsgəndər paşanın basqın etməsi xəbəri çatan kimi Şahənşah Təhmasib İsmayıl Mirzəni o sərdarı cəzalandırmaq üçün Ərzuruma göndərdi.

"Şahverdi sultan Ziyadlu və Bədir xan Ustaclu kimi adlısanlı əmirlər şahzadəni müşayiət etməkdən ötrü yola düşdülər. Şahzadə Şahverdi sultanı, Məhəmməd bəy Türkmanı və Ədhəm bəy Rumlunu Pasinə göndərdi, özü də onların arxasınca Pasinə tərəf hərəkət etdi".[3]

Şah Təhmasibin hakimiyyətinin otuz birinci ilində Sultan Süleymanın* Hələbdən Azərbaycan istiqamətində irəliləməsi xəbəri çatanda

"Şahzadə İsmayıl Mirzə divanbəyi Məsum bəylə, möhürdar Şahqulu xəlifə ilə və digər qəhrəman qazilərlə Rum paşasının vilayətinə hücum etmək üçün yola düşür,

---

[1] Həmin əsər. s.351.
[2] Həmin əsər. s.354.
[3] Həmin əsər. s.367.

Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzə isə Şahverdi sultan Ziyadoğlu-Qacarla Kürdüstana yollanır”.[1]

Osmanlı ordusuna qarşı namünəzzəm döyüşlərdə uğurlar əldə edən Şah Təhmasib Sultan Süleymanın Naxçıvana od salıb oranı tərk etdiyini eşidən kimi Şahverdi xanı osmanlılar üçün zəruri olan ərzaq məhsullarını məhv etməkdən ötrü

“... Pasinə yollayır. Adıçəkilən şəxs xotkarın [Sultan Süleymanın*] o diyara gəlməyindən öncə oranı talayıb yandırır və yenidən xoşbəxt taleli ordugaha qayıdır”[2].

Şahverdi xan 1554-cü ildə də digər əmirlər və sərdarlarla bərabər Ərzurumun şərqində yerləşən Pasini azad etmiş qazilərdən olmuşdur.

Ziyadlular nəsli osmanlılarla döyüşlərdə xüsusi fərqlənmişdilər və bu barədə “Aləmarayi-Abbasi”də Sultan Süleymanın ordusuna qarşı Mərənd döyüşündə “Ziyadlular o müharibədə igidliklər nümayiş etdirmişdilər”[3] yazılıbdır.

Bu arada Şah Təhmasib bəzi adlı-sanlı əmirləri, o cümlədən Bədir xanı və Qarabağ hakimi Şahverdi sultan Ziyadlunu Ərzuruma göndərdi və [osmanlılar üzərində qələbə çalmaqda xüsusi şücaət nümayiş etdirdiklərinə görə] Ziyadluya nəvaziş və lütfkarlıq göstərdi”.[4]

Şah Təhmasibin dördüncü Gürcüstan yürüşü zamanı “Şahverdi sultan Ziyadlunun səyi və mərdliyi sayəsində bir neçə qala və qəsr xoşbəxt dövlətin ordusu tərəfindən ələ keçirilmişdi”.[5] Həmin döyüşdə “Ordunun qəlbində yer almış Şahverdi sultan müharibənin şiddətini və düşmənin səbrli olduğunu müşahidə edib gürcü qoşunu üzərinə ildırım sürətli

---

[1] Həmin əsər. s.368.
[2] Həmin əsər. s.369.
[3] “Aləmarayi-Abbasi”. s.72.
[4] Həmin əsər. ss.76-77.
[5] Həmin əsər. s.86.

hücuma keçdi ... gürcülər onun zərbəsinə tab gətirə bilməyib üzlərini qaçmağa qoydular”.[1]

Tale elə gətirdi ki, Şahverdi sultan döyüş meydanında şəhadət dərəcəsinə yüksəldi:

“Şahverdi sultan tabeliyində olan bir neçə nəfərlə təpənin üstünə çıxanda ... türkmanlar bir qafil bəla kimi peyda olub onu qətlə yetirdilər”.[2]

Şahverdi sultan öldürüləndən sonra oğlu İbrahim xan atasının yerinə keçdi, digər övladı Xəlil xan isə Astrabadın bəylərbəyi oldu.

“Xidmətində olmuş üç oğlu ərsəyə qədəm basdılar. Biri Xəlil xan hələ atası həyatda ikən Astrabad bəylərbəyi olmuşdu və indi Astrabadda olan bütün Qacarlar onun xidmətçilərinin qalıqlarıdır. Digəri İbrahim xan atasının vəfatından sonra onu əvəzləyərək hakim yerinə əyləşmiş, on üç il xoşbəxt ömür sürmüş və həyatını dəyişmişdi. Ondan sonra qardaşı Yusif xəlifə bəylərbəyi rütbəsinə yetişmişdi”.[3]

İbrahim xan atası 1555-ci ildə şəhid olandan sonra Qarabağ bəylərbəyi oldu. “Şahzadə od yıl qəməri hicri ilə 972-də[4]Sultanəli Mirzəni* Gəncəyə və Bərdəyə göndərib İbrahim bəy Ziyadlu Müsahib Qacarı ona lələ təyin etdilər. Xoşbəxt şahzadə həmçinin Sultan Mahmud Mirzəni Şirvana göndərmiş və onun lələliyini oranın hakimi Abdullah xan Ustacluya tapşırdılar”.[5]

İbrahim xan Şahənşah Təhmasibin əmirlərindən olmuş Xan Əhməd Gilaninin üsyanını yatırtmaqda iştirak etmişdir. “Xülasətüt-təvarix” kitabında Şah Təhmasibin hakimiyyətinin qırx beşinci ilindən bəhs edilən bölümdə

---

[1] Həmin əsər. s.89.
[2] Həmin əsər. s.108.
[3] “Xülasətüs-siyər”. s.323.
[4] Miladi təqvimilə 1565
[5]”Təkmilətül-əxbar”. s.125.

Azərbaycan ləşgərinin əmirləri sırasında İbrahim bəyin adı çəkilir: "... İbrahim bəy Ziyadlu-Qacar və Qarabağ ləşgəri, Qaraçadağ hakimi Xəlifə Ənsar ilə İbrahim xəlifə Alpavut və Çuxursəəd qoşunu".[1]

"Əhsənüt-təvarix"də də Xan Əhməd Gilaninin fitnəsinə qarşı əməliyyatda İbrahim bəyin iştirakından deyilir.[2]

İbrahim xan on ikiillik hakimiyyətdən sonra vəfat etmiş və təqribən 1575-ci ildə Yusif xan mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyinin başında əyləşir:

"Şahverdi sultan Ziyadlunun oğlu Yusif xəlifə İbrahim xanın yerinə Qarabağ bəylərbəyi və Sultanəli Mirzənin* lələsi oldu".[3]

Şah Təhmasib öləndə Yusif xan Ziyadlu-Qacar Qarabağın və Gəncənin hakimi idi. Ancaq o, İkinci İsmayılın hakimiyyət dövrünün birinci ilində öldürülür. Bəzi tarixçilər bu qətlin səbəbini İkinci Şah İsmayılın* kinliyində görürlər. "Cənnətməkan Şah [Təhmasib] Gəncənin rəhbərliyini və Qarabağın əmirülüməralığını Yusif xəlifə Ziyadluya vermişdi. [Şahın vəfatından sonra] ... bir dəstə əsgər əllərində qılınc Yusif xəlifənin hamamdan çıxmağını gözləyirlər və çıxan kimi onu qətlə yetirirlər. İsmayıl Mirzə bununla kifayətlənməyib anasını və qardaşını da öldürmüşdü. Bu işin nəticəsində İsmayıl Mirzə Gəncə hakimi yerini boşaldıb İmamqulu xan Qacara verdi".[4]

Məlum olduğu kimi, XVI əsrin sonunda osmanlılar yenidən Qafqaza hücum edib böyük əraziləri və o cümlədən Gəncəni işğal etdilər. Böyük Şah Abbasın* taxtda əyləşməsinin üçüncü ilində, yəni 1591-ci ildə, osmanlılar tərəfindən yerindən qovulmuş Qarabağ və Gəncə bəylərbəyi

---

[1] "Xülasətüt-təvarix". c.2, ss.470-471.
[2] "Əhsənüt-təvarix". s.561.
[3] "Aləmarayi-Abbasi". s.140.
[4] Həmin əsər. ss.212-213.

Məhəmməd xan Ziyadlu-Qacar Gəncəni azad etmək üçün hərəkətə keçdi.

"Bir il öncə rumluların həmləsi nəticəsində öz vilayətindən ayrı düşmüş və Arazbara gəlmiş Məhəmməd xan Ziyadlu-Qacarla Qarabağ əmirləribu il Gəncə qalasını ələ keçirmək məqsədi ilə Arazbardan böyük dəstə ilə Qarabağa gəldilər, Gəncə qalasının həndəvərinə yetişdilər və oranı mühasirəyə aldılar ... və qalanı almaq üçün böyük səy göstərdilər".[1]

Məhəmməd xan Gəncəni və Qarabağı azad etməklə sülh danışıqlarında İranın mövqeyini gücləndirmək istəyirdi, lakin osmanlılar "sürətli qasidi Təbriz hakimi Cəfər paşanın yanına göndərdilər. O isə öz növbəsində Şah Abbasın* yanına elçi yollayaraq ərz etdi ki, nə qədər ki, sülhün şərtləri müəyən olunmayıb hal-hazırda Ali-Osman mənsublarının əlində olan mülkə hücuma keçmək ona layiq deyil".[2]

Onda osmanlılarla sülhün bağlanmasını zəruri sayanŞah Abbas Gəncənin azad edilməsinin bu işə zərər yetirəcəyini nəzərə alaraq "Məhəmməd xana və Qacar əmirlərinə humayun hökm göndərərək mühasirəni tərk edib Qarabağ vilayətindən əl çəkmələrini istədi".[3] Amma Məhəmməd xan və digər başçılar "belə asanlıqla o diyarı tərk edib qədim vətənləri ilə əlaqəni kəsə bilməzdilər. Buna görə onlar həmin hökmdən heç də məmnun olmadılar və əllərini mühasirədən çəkmədilər. Bu xəbər Ərzurum sərhəddində sülhə yönəlmiş fəaliyyətin təşəbbüskarı və baisi Fərhad paşaya çatanda ondan [Şah Abbasın* yanına] elçi gəldi və bu məsələ ətrafında danışıqlar başlandı".[4]

---

[1]"Aləmarayi-Abbasi". c.1 s.416.
[2]Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada.

Bundan sonra Şah Abbas Məhəmməd xanın adına aşağıdakı məzmunda bir məktub göndərdi:

"Sizin əcdadlarınız iradə ilə sədaqət üzlərini bu diyara çevirmişdilər və bizim ata-babalarımız onlara şəfqət nümayiş etdirərək ali rütbələrə yüksəltdilər və Qarabağ mülkünü onlara verdilər. Bu gün isə məsləhətimiz odur ki, həmin məmləkətin üstündə münaqişə etməyək. Əgər onlar da bu dövlətin bir cəhətidirlər və məqsədləri bizim razılığımızı qazanmaqdırsa, döyüş yerini tərk edib bu tərəfə gəlsinlər. Biz də Qarabağın əvəzinə digər məmləkətdə onlara yer və məqam inayət edərik".[1]

Şah Abbas həmçinin bunları əlavə etdi:

"Qarabağ heç hara getmir. Əgər Allah qoysa, yenidən asanlıqla əlimizə keçəcək və əgər Allahın qərarı başqa olsa, taleyimizə qarşı bir şey edə bilmərik. Ümidvaram ki, Allahın köməyi ilə haqq yenidən öz yerini tutacaq".[2]

Məhəmməd xan Ziyadlu-Qacar "dövlətsevər bir sufi olmuşdu. O, bu məzmunda müraciət alandan sonra şərəfli razılığın xatirinə qalanın altından geri çəkildi".[3] Lakin o, Arazbara üzünü döndərmədi və gürcü Aleksandr xanın* yanına getdi. Aleksandr xan isə mürvətsizlik nümayiş etdirərək "onu tutub rumlulara təhvil verdi. İslambula göndərdilər və neçə müddət orada məhbus qaldı. Sülh müqaviləsi bağlanandan sonra iki tərəfin dustaqlarını təhvil verəndə Sultan Murad adıçəkiləni azad etdi. Oradan Bağdada gəldi, Mehdiqulu xan Şamlunun yanına Şüştərə getdi, o yerdən də ali dərgaha yetişdi və nəhayət Ərdəbildə məskən saldı".[4]

---

[1] Həmin mənbə. ss.616-617.
[2] Həmin mənbə. s.617
[3] Yenə orada.
[4] Yenə orada.

Bu barədə “Xülasətüs-siyər” kitabında Yusif xan Ziyadlu-Qacarın ölümünə işarə edəndən sonra İkinci İsmayılın* padşahlıq dövrünə aid bölümdə belə yazılıbdır:

“Qarabağ ölkəsi əldən-ələ keçəndən sonra nəhayət Xəlil xan bin Şahverdi sultanın (Şah Təhmasib Səfəvinin vaxtında Qarabağın və Gəncənin hakimi) oğlu Məhəmməd xan həddi-büluğa çatıb ata-babasının mülkünə varis oldu. O, adıçəkilən vilayətdə məskən salandan sonra uzun müddət ruməsilli sərdarlara qarşı mübarizə apardı, onların qalalarına yiyələndi. Sonda müxalif qüvvələrin hücumu nəticəsində doğma məkandan ayrılıb Kaxetin hakimi Aleksandr xan Gürcinin* yanına getdi. Kaxetin hakimi Aleksandr xan isə Məhəmməd xanın əl-qolunu bağlayıb İstanbul ölkəsinə xotkarın yanına göndərdi. O, Yeddiqala qalasında uzun müddət həbsdə qaldı. Axırda Allahın sonsuz lütfü və şahənşahın mürvəti sayəsində o təhlükədən xilas olub müqəddəs yerləri ziyarət etmək şərəfinə nail oldu. Qısa zaman keçəndən sonra ali və əzəmətli padşah Gəncə qalasını rumlulardan təmizlədi və adıçəkilən Məhəmməd xan bəylərbəyliyə təyin edilərək şərəfli bayrağı göylərə qədər qaldırıb ölkənin abadlaşmasına və qoşunun hazırlanmasına başladı”.[1]

Məhəmməd xan Ərdəbildə otursa da Gəncənin azad olunmasına və onun özünün yenidən Qarabağ-Gəncə bəylərbəyi yerinə şah tərəfindən gətirilməsinə inanırdı. “Məhəmməd xan həmişə Ərdəbildə deyərdi ki, tezliklə Gəncə Sultanülövliyanın müqəddəs ruhunun köməyi ilə bu dövlətin əlinə keçəcək və oranın hökuməti canibi-əşrəf[2] tərəfindən mənə tapşırılacaqdır”.[3] Tarix göstərdi ki, onun ümidləri əbəs deyilmiş. Birinci Şah Abbas* 1603-cü ildə özünün zəfər yürüşünə başlayaraq bir-birinin ardınca Təbrizi, Naxçıvanı,

---

[1] “Xülasətüs-siyər”. s.323.
[2]Yəni Şah Abbas
[3]“Aləmarayi-Abbasi”. c.1 s.417.

İrəvanı, Qarabağı, Luristanı, Kürdüstanı, bütün Azərbaycanı, Ermənistanı və Şərqi Gürcüstanı azad etdi. Beləliklə, təqribən 20-illik osmanlı əsarətindən sonra Qarabağla Gəncə yenidən azadlığa qovuşdu və Məhəmməd xan Ziyadlu-Qacar Qarabağ və Gəncə bəylərbəyi məqamına qayıtdı:

"Adıçəkilən Məhəmməd xan Ziyadlu-Qacar qüvvə sahibi və əlahəzrət şahi-zillüllahın sadiq bəndəsi olduğuna görə iyirmi il rumluların əlində qalmış bu vilayəti azad etməkdən ötrü hərəkətə keçmişdi. Taleyin gücü və xoşbəxt falın yardımı ilə 1607-ci ildə həmin mülkü yenidən əbədi dövlətin ixtiyarına qaytardılar və Məhəmməd xan ikinci dəfə o vilayətin şərəfli bayrağını qaldırdı".[1]

Osmanlı sultanın yenidən İrana yürüş etmək fikrinə düşməsi məlum olanda Böyük Şah Abbas divanbəyi Əliqulu xan Şamlunu Təbrizə göndərdi ki, Osmanlı ordusu hərəkətə keçən kimi  xəbər versin. "Gəncə qalasının möhkəm və alınmaz olmadığını nəzərə alaraq qərara gəldilər ki, oranın bəylərbəyisi Məhəmməd xan Ziyadlu-Qacar Gəncədən Tiflisə gedib orada otursun".[2] Məhəmməd xan Tiflisdə "Göy məscid" adı ilə məşhur bir məscid, habelə çoxlu dükan və karvansara tikdirdi.

Şah Abbasın taxta əyləşməsinin iyirmi doqquzuncu ilində Təhmurəs xan Gürci dövlətə qarşı üsyan qaldırdı. Məhəmməd xan o üsyanı yatırdarkən öldürülmüşdü. "Bəzi döyüşçülər ordugahda qalaraqhələ atlanmadıqları bir vaxtda Təhmurəs beş-altı minə yaxın mükəmməl yaraqlanmış adamı ilə çarxçıların[3] üstünə atıldı. Çarxçılar o güruhun zərbəsinə

---

[1] "Aləmarayi-Abbasi". c.1 s.417.

[2] "Cahanarayi-Abbasi". s.877.

[3] Çarxçılar – ordugah salmaq üçün mövqe seçmək, düşmən qüvvələrinin vəziyyəti və tərtibi haqqında məlumat toplamaq, yollarda kəşfiyyat aparmaq üçün ordunun önünə göndərilən xüsusi silahlı dəstə. Çarxçıların rəhbərinə "çarxçıbaşı" deyərdilər. O, döyüş vaxtı tüfəngçilərin rəhbəri "tüfəngçibaşı" ilə birlikdə əməliyyatlar apardı. (bax: Nasir Təkmil

tab gətirə bilməyib dağıldılar. Gürcülərin qılınclarına və süngülərinə tuş gələn Məhəmməd xan Ziyadlu-Qacar tayfasından bir neçə nəfərlə yerə düşüb şəhadət dərəcəsinə yetişdilər”.[1]

“Şeyx Səfidən Şah Səfiyədək” kitabında bu olaylar barədə belə yazılıbdır: “Məhəmməd xan Ziyadoğlu-Qacar öz çarxçıları ilə irəli çıxıb sağ və sol çinahları ələ keçirtdi. Bu anda Təhmurəs altı min nəfərlə çarxçılar dəstəsinə həmlə etdi. Qızılbaşlar bu zərbəyə tab gətirə bilməyib dağıldılar. Peykər Sultan, Dilbər Məhəmməd və digər əmirlər hərəsi bir tərəfdə yerə düşdülər. Məhəmməd xan Ziyadoğlu-Qacar başqa bir neçə nəfərlə şəhadət dərəcəsinə yetişdilər”.[2]

“Məhəmməd xanın şəhadətindən sonra Qarabağ bəylərbəyliyi onun böyük oğlu Mürşidqulu xanın sərəncamına keçdi. Amma bir müddət keçəndən sonra Böyük Şah Abbas* Mürşidqulu xanın yerinə onun kiçik qardaşı Məhəmmədqulu xanı təyin etdi”.[3]

Şah Abbasın taxta əyləşməsinin qırx birinci ilində Məhəmmədqulu xan[4] gürcüstanlı Muravın qaldırdığı üsyanı zamanı “bir balaca səhlənkarlıq və başsoyuqluq göstərmişdi və bu səbəbdən Gəncədə və onun ətrafında hadisələri dəf etməkdə aciz qalmışdı. Nəticədə orduya və rəiyyətlərə çoxlu zərər dəymişdi. [Bu səbəbdən Şah Abbas] onu Qarabağ hakimi vəzifəsindən uzaqlaşdırmış və o vaxtadək Tiflisin və Gürcüstanın işlərini nizama gətirmək tapşırığı ilə o yerlərə ezam olunmuş Davud xan Allahverdi xan* oğlunu bu yüksək

---

Humayun. “Müasir İran tarixi – qoşunda təkamül”. Tehran. “Dəftərepəjuheşhaye-fərhəngi”).

[1] “Cahanarayi-Abbasi”. s.892.

[2]“Şeyx Səfidən Şah Səfiyədək”. ss.251-252.

[3] “Aləmarayi-Abbasi”. c.3 s.1065.

[4] Məhəmmədqulu xan Məhəmməd xanın oğludur.

və dəyərli rütbəyə təyin etmişdi”.[1] Məhəmmədqulu xanın məqamından uzaqlaşdırıldığı tarix – tuşqan yıl 1037.[2]

Lakin Şah Səfi Səfəvinin padşahlığı dövründə Davud xan Qarabağ bəylərbəyi vəzifəsini əldən verdi. Şah Səfi onun özünün taxt-taca sahib olmağında mühüm işlər görmüş İsfahan darğası Xosrov Mirzə Baqrationa (Rüstəm xana) şahanə lütf ilə inayət göstərərdi və axırda onu qullarağasıbaşı vəzifəsinə təyin etmişdi. Davud xan bundan çox qəzəblənmiş və ordunun Bağdad yürüşü zamanı verilən bir qonaqlıqda Şah Səfinin hüzurunda qullarağasıbaşını tənqid atəşinə tutub məsxərəyə salmışdı. Şah isə Rüstəm xanın xatirinə Davud xanı məclisdən qovmuşdu. Onda Davud xan Gürcüstana qaçmışdı. Bundan sonra Şah Səfi 30 oktyabr 1631-ci il tarixdə Məhəmmədqulu xanı yenidən Qarabağ bəylərbəyi yerinə seçdi.[3] Bu seçimin səbəblərindən biri haqqında başqa mənbədə belə deyilir:

“Gürcülərlə döyüşdə Qarabağ Qacarlarından bir dəstə öldürüləndən sonra və gürcülər yeniləndən sonra Şah Səfi 1042-ci ildə Məhəmədqulu xan Ziyadoğlu-Qacarı yenidən Qarabağ əmirülümərası və hakimi yerinə təyin etdi. O, Gəncəyə getdi və oranı özünə iqamətgah seçdi”.[4]

Bundan sonra Məhəmmədqulu xan osmanlılarla döyüşlərdə şahı müşayiət edərdi. O, 1633-cü ildə Van qalasının azad olunmasında və həmçinin 1635-ci ilin yanvarın 10-da İrəvan qalasının azad olunmasında Osmanlı qoşununun qovulmasında iştirak etmişdi.[5]

Məhəmmədqulu xan Şah Səfi hakimiyyətinin sonuna qədər Qarabağ bəylərbəyi oldu və İkinci Şah Abbasın*

---

[1] “Cahanarayi-Abbasi”. s.1066.
[2] Miladi təqvimilə 1628
[3] “Xülasətüs-siyər”. s.144.
[4] “İranın ictimai və siyasi tarixi”. c.1. s.39.
[5] “Xülasətüs-siyər”. ss.172 və 215.

dövründə də öz hökmranlığını sürdürdü. “İkinci Şah Abbasın hakimiyyətinin dördüncü ilində, yəni 1056-cı ildə[1] Qarabağ bölgəsi üzrə vəzir məqamına təyin olundu, qocalıb zəifləyəndə isə həmin diyara Mürtəzaqulu xan Ziyadlunun vəziri kimi ezam olundu və elə oradaca dünyasını dəyişdi”[2].

Məhəmmədqulu xanın ölümündən sonra onun kiçik qardaşı Mürtəzaqulu xan Qarabağ bəylərbəyi oldu”.

“Xülasətüs-siyər” kiatbının müəllifi özü Mürtəza xan Ziyadlu-Qacarın hökumətinin üzvü olmuş və öz əsərində Ziyadlu nəslinə ayrı bir fəsil həsr etmişdi. O, Gəncə şəhəri və Mürtəzaqulu xan haqqında belə yazır:

“Beşinci iqlimdə yerləşən vüsətabad Gəncə ... O gözəl məskən, əlhümdülillah, bizim zəmanədə cənnət bağları ilə rəqabət aparan bir nümunəyə çevrilmiş, geniş ərazisi cənnətməkana bərabər olmaqdan dəm vurar, ənbər torpağı müşksaçan nafə ilə bəhsə-bəhsə girər. Bu ölkənin uzunluğunu ölçüyə gətirəndə bir fərsəxə[3], eni isə yarım fərsəxə bərabərdir və bu ərazidə behiştvari bağ-bostanı olmayan bircə qarış torpaq gözə dəyməz və hər evin sakinləri böyük çaydan bəhrələnərlər. Mən könüllər cənnətinin bir nümunəsi olan o bağda məskən salanda əzəmətli və xoşbəxt əmirlərin və qüdrətli xanların ən birincisi, bəxti həmişə cavan olan və rəyi hər zaman üstün gələn, bacarıqlı, ağıllı və qorxmaz mübarizin, uğurlu gələcək sahibi Mürtəzaqulu xan Ziyadlu Müsahib Qacarın (Allah-təala onun şənini qorusun!) astanasının xidmətinə və qulluğuna yetişdim”.[4]

Mürtəzaqulu xanın ölümündən sonra onun əmisi Məhəmmədqulu xanın oğlu Uğurlu xan Qarabağ bəylərbəyi

---

[1] Miladi təqvimilə 1646
[2] “Xülasətüs-siyər”. ss.324-325.
[3] Fərsəx (fərsəng) – təqribən 6 km.
[4] “Xülasətüs-siyər”. s.172.

oldu. “Uğurlu xan əmisinin vəfatından sonra 1047-ci ildə[1] Qarabağın hakimi oldu. Uğurlu xan İkinci Şah Abbasın* sarayındakı divan məmurlarından idi və siyasət ilə idarəçilik sahələrindən savayı şairlikdə də ad qazanmışdı”.[2]

Uğurlu xan şeir divanının sahibidir. O, əvvəllər özünə “Ziyadi” təxəllüsünü götürmüşdü, amma sonra Şah Təhmasibin onun əcdadına verdiyi ləqəbi, yəni “Müsahib” təxəllüsünü seçdi. Onun Astani-Qüdsi-Rəzəvi kitabxanasında[3] 555 şifri altında saxlanılan divanı fars dilində yazılmış dörd min iki yüz beyti ehtiva edir. Həmin divanın mətni onun nəvəsi gəncəli Cavad xan Ziyadlu-Qacarın əmri ilə köçürülmüşdü.

Uğurlu xan Şah Süleymanın padşahlığı dövründə də Qarabağ bəylərbəyi olmuşdu. O, 1695-ci ildə vəvat edəndən sonra Qarabağın və Gəncənin hakimi yerinə Kəlbəli xan Ziyadlu-Qacar gəldi. Kəlbəli xan Şah Sultan Hüseynin zamanında həmçinin Qarabağın və Kaxetin bəylərbəyi olmuşdu. Şah ona şərəfli “əmirülümərа” ləqəbini vermişdi. 1702-ci ildə Gürcüstan hakimi Gergin xan* [IX Georgi] mərkəzi hökumətə qarşı üsyan qaldırdı. Onda Şah Sultan Hüseyn Kəlbəli xana bu fitnəni yatırtmağı tapşırdı. Kəlbəli xan Gergin xanı* darmadağın etdi.[4]

Birinci Şah Təhmasibin hakimiyyəti illərində Qarabağ əyaləti iki çayın, yəni Kür ilə Arazın arasındakı qədim Arranın böyük hissəsinə şamil olub və bəzi hallarda onun hüdudları Tiflisədək uzanırdı. Birinci Şah Abbasın* zamanında onun ərazisi qərb istiqamətində Loriyə və Pəmbəkə qədər genişlənmişdi.[5]

---

[1] Miladi təqvimilə 1664

[2] Əli Pursəfər. “Qacarlar dövründə Qafqazın yerli hökumətləri”. ss.152-153.

[3] Sözügedən kitabxana Məşhəd şəhərində yerləşir.

[4] Bax: “İranın siyasi və ictimai tarixi”. c.1. s.30.

[5] Bax: “Səfəvilər dövründə əyalətlərin nizamı”. s.7.

Nadir şah Əfşarın* osmanlılarla ilk döyüşlərindən başlayaraq Kəlbəli xan, Uğurlu xan və Həsənəli xan Gəncei Qarabaği həmişə onu müşayiət edənlərdən olublar. Gəncə döyüşündə və ondan sonra Abdullah paşaya qarşı əməliyyatda Kəlbəli xan, Uğurlu xan və Həsənəli xan fəal iştirak etmişdilər. Uğurlu xan 9 dekabr 1738-ci il tarixdə Nadir şahın* qardaşı İbrahim xanla bərabər şəhadətə yetişdi. 1740-cı ildə Nadir şah ləzgilərin qiyamını yatırtmaq üçün Məşhəddən Dağıstana yola düşdü. Bu uğurlu əməliyyatdan sonra o, Dağıstandan qayıdarkən Şamaxıda bir neçə əmiri müxtəlif vilayətlərə hakim təyin etdi və o zaman Həsənəli xan Ziyadlu-Qacara Gəncə hökumətini tapşırıb yola saldı.

Həsənəli xandan sonra Şahverdi xan Ziyadlu-Qacar bu yeri tutdu. O, 1747-ci ildən 1761-ci ilədək Qarabağın və Gəncənin bəylərbəyi olmuşdu.[1] Kərim xan Zəndin* hakimiyyəti dövründə əvvəl Şahverdi xan, ardınca da qardaşı Rzaqulu xan həmin vəzifə başında olmuşdular. Buna bəzi mənbələrdə, o cümlədən "Mücməlüt-təvarix"in 457-ci səhifəsində işarə edilir.

Bundan sonra 1796-cı ilin Novruz bayramı günü Ağa Məhəmməd xan Qacar* Gəncə hakimi yerinə Cavad xan Ziyadlu-Qacarı seçir. Cavad xan İran dövləti tərəfindən təyin olunmuş sonuncu Gəncə bəylərbəyi olmuşdur. Ziyadlular Səfəvilər sülaləsinin sufilərindən və sufizadələrindən idilər və üç yüz ilə yaxın, yəni Səfəvilərin hakimiyyətə gəlişindən Qafqazda rus istilasına qədər, babadan ataya və atadan oğula Gəncə əyalətinin bəylərbəyiləri olmuşdular.

1803-cü ilin noyabrında ruslar Qafqazın qəlbinə – Gəncə şəhərinə yürüşə başladılar. General Sisianov Cavad xana məktub yazaraq onu təslim olmağa çağırmışdı. Cavad xan qətiyyətlə onun təklifini rədd edib yazırdı ki, "Siz qalaya daxil olmaq üçün mənim cəsədimi qala divarının altında

[1] Bax: "Xəlifələrin və hökmdarların şəcərənaməsi". s.281.

parça-parça etməlisiniz”. Sonrakı hadisələr barədə “Məasirüs-sultaniyyə” əsərində məlumat verilir:

Şəhər əhalisi yerli qüvvələrə arxalanaraq Gəncəni qəhrəmancasına müdafiə edirdi. Lakin sonda ermənilərin xəyanəti və Şəmkirlə Şəmsəddinludan olan hərbi dəstələrin ayrılması səbəbindən Cavad xan geri çəkilib şəhər qalasına pənah aparmalı oldu və Azərbaycandan Abbas Mirzənin ordusunun gəlişi ümidilə qanının son damlasınadək qalanı müdafiə etdi. Onun məktubları şah sarayına çatmış və Fəthəli şah onun köməyinə qoşun göndərmişdi. Lakin məsafənin uzaq olması və qışın çox sərt keçməsi ezam olunmuş qüvvələrin vaxtında yetişməsinə maneçilik törətdi və yalnız çapar Səid bəy Qulam özünü qalaya çatdıra bilmişdi.

Hücum edənlər şəhərə gələn suyun yolunu kəsməklə müdafiə olanların həyatını təhlükəyə saldılar. 1218-ci ilin ramazan ayının son gününün[1] şaxtalı və zülmətli gecəsində ruslar Qarabağ və Tiflis darvazalarını böyük toplardan atəşə tutdular, şəhərə şərq və qərb istiqamətlərdən həmlə etdilər, dan yeri ağaranadək qalaya od yağdırdılar.

Fitr bayramı gününün səhəri açılanda qalanın altmış addımlığında idilər. Şəhər əhalisi neftə batırılmış keçə və pambıq parçalarını yandırıb rusların başları üstünə atırdılar. Qanlı döyüş günortayadək davam etdi. Günortadan sonra general Portyankinin dəstələri topxana atəşinin himayəsi altında nərdivanları qalanın divarlarına söykədib hasar bürclərini ələ keçirtdilər. Lakin Cavad xan öz silahdaşları ilə düşmənləri bu bürclərdən aşağı salmağa müvəffəq oldu.

Döyüş əsnasında başqa iki bürc ruslar tərəfindən işğal olundu, Cavad xan da yaralandı. Cavad xanın oğlu Hüseynqulu ağa atasının imdadına gəldi, ancaq o, oğlunu başqa mövqeyin müdafiəsinə göndərdi, özü isə əlində sıyrılmış qılınc topun üstünə çıxdı və qanının son damlasına

---

[1] Miladi təqvimilə 13 yanvar 1804

qədər qəhrəmanlıq göstərdi, axırda mərdcəsinə canını tapşırdı, oğlu da şəhid oldu.

Ruslar şəvvalın ikisində Gəncə qalasını ələ alıb şəhər darvazalarını xalqın üzünə bağladılar və hamısını qətliam etdilər, hər yeri talayıb dağıtdılar, məscidləri viran qoydular.

Cavad xanın və oğlu Hüseynqulu ağanın şəhadəti xəbəri evə çatanda vay-şivən səsindən topların, şamxalların və tüfənglərin gurultusunu belə eşitmək olmurdu. Bu qovğanın içində evin xanımı Sərvinaz xanım fəryad etdi:

"Cavad xanı öldürüblər, amma İran ölməyib! Hər yerdə səngər düzəldin və Cavad xana qovuşmağa hazır olun. Ardınca dedi: – "Şahnamə"ni gətirin ki, fal açaq. Bu gün döyüş günüdür, Hafizin "Divan"ının yeri deyil. Kitabı açanda uca səslə dedi: – Nəyi buyurduqlarını dinləyin! Buyururlar ki:

Hamımız başdan-başa ölümə gedək,
Bu, ölkəni düşmənə verməkdən yaxşıdır.

Kitabı bağlayıb dedi: – Eşitdiniz? İndi əməl edin!

Sərvinaz xanım rusların yürüşü başlayan kimi əyninə döyüş paltarını geyib həmişə Cavad xanla bərabər vuruşmağa atılırdı. Cavad xan iki dəfə qaladan çıxıb rusların sıralarını əzəndə o, ərinin yanında olmuşdu".

Əlbəttə, Gəncə xanımlarından və cavan gəlinlərindən bir çoxu Sərvinaz xanım kimi hərbi libas geyinib həyat yoldaşlarının, atalarının və qardaşlarının yanında vuruşub vətən yolunda şəhidlik mərtəbəsinə yüksəldilər.

Ruslar Cavad xanın xanımının əsir aldıqları haqqında yalançı şayiə yaydılar. Vaxtilə osmanlılar da Çaldıran döyüşündən sonra Şah İsmayılın zövcəsini əsir götürdüklərini uydurmuşdular.

Görəsən, doğrudanmı fala baxanda "Şahnamə"dən bu beyt gəldi ya o, bunu kitabın sətirləri arasından oxudu? İki nəfərdən başqa bütün kişilər və qadınlar, uşaqlar və qocalar o

döyüşdə öldürüldü. O sağ qalan iki nəfər isə Cavad xanın azyaşlı oğlu Uğurlu xan və ailənin yaxın adamlarından biri idi ki, evin xanımı həmin uşağı Təbrizə Abbas Mirzə Naibüssəltənənin*yanına aparmağı tapşırmışdı.

Ruslar bütün Gəncəni talayıb dağıtdılar və o arada Cavad xana hədiyyə olunmuş nəfis Qur’an nüsxəsi də əldən getdi. Həmin Qur’anı 2016-cı ildə Rusiya prezidenti Vladimir Putin İran İslam Cümhuriyyətinin dini rəhbəri Seyyid Əli Xamenei ilə görüşdüyü zaman ona hədiyyə etmişdi.[1] Gəncə faciəsində yeddi min nəfər şəhadətə yetişmiş və əksəriyyəti qadınlar olan on səkkiz min nəfər əsir düşmüşdü. Əsasən qadınlardan, ağsaqqal kişilərdən və azyaşlı uşaqlardan ibarət olan beş yüz nəfər şəhərlini məscidə apardılar. Sisianovun əmrilə onların hamısı məsciddə qətliam oldular. Onun göstərişi ilə şəhərin böyük Cümə məscidini kilsəyə çevirdilər, şəhərin adını isə dəyişdirib imperatorun arvadı şərəfinə Yelizavetpol qoydular.

Fətəli şah* bir müddət sonra Azərbaycana oğlu Abbas Mirzənin* rəhbərliyi altında daha böyük qüvvələr göndərdi. İran ordusu rusları zəbt etdikləri ərazidən qovmağa müvəffəq oldu. Gəncə qısa müddətə azad olandan sonra Cavad xanın yeganə sağ qalmış oğlu Uğurlu xan buranın hakimiyyətinə yetişdi. Lakin çox keçmədi ki, torpaqlar yenidən əldən getdi və Uğurlu xan çarəsiz qalıb Təbrizə yollandı.

[1] Moskva Universiteti Şərqşünaslıq fakültəsinin verdiyi izahata görə sözügedən Qur’an nüsxəsi bəni-Ümeyyə xəlifəsi Mərvan İbn Həkəmin dövrünə (684-685) aiddir və Şam valisi onu osmanlı Sultan Səlimə hədiyyə etmişdi. Ondan sonra digər bir osmanlı hökmdar bu kitabı Fətəli şah Qacarın oğlu Abbas Mirzə Naibüssəltənəyə bağışlamışdı. Abbas Mirzə isə həmin Qur’anı İran-rus müharibəsində göstərdiyi rəşadətə görə həmin illərdə Gəncə hökmdarı Cavad xana bəxş etmişdi. SSRİ vaxtı bu Qur’an nüsxəsi Stalinin əmri ilə Leninqrad şəhərindəki Ermitaj muzeyində saxlanılırdı.

İranın boynuna zorla qoyulmuş rüsvayçı Türkmənçay müqaviləsi bağlanandan sonra Uğurlu xan doğma Gəncədən uzaq düşməsinə dözməyib bu dünyadan getdi. Onun oğlunun adı Hacı Cavad xan olmuşdu. Hacı Cavadın oğlu Hacı Rza atası kimi ticarəti özünə peşə seçmişdi (Təbrizin Şeşgəlan məhəlləsində indi da yerində qalanikimərtəbəlibina onun tərəfindən təqribən 1894-cü ildə tikilmişdi).

Hacı Rzanın üç oğlu və yeddi qızı olmuşdu. Onun Hacı Əlinəqi adlı böyük oğlu siyasətə qoşularaq Məşrutə dövründə mühüm işlər görmüşdü. O, Şeyx Məhəmməd Xiyabaninin* yaxın silahdaşlarından olmuş və bir dövr Təbriz camaatı tərəfindən millət vəkili seçilmişdi. O həmçinin bir müddət Urmiyanın ədliyyə rəisi vəzifəsini icra etmişdi. O, Məşrutə dövrü mübarizlərinin ön sırasında yer tutmuş və Təbriz əncüməninin təsisçilərindən biri olmuşdu. Bu mübarizənin cərəyanında onun evi iki dəfə qarət edilib dağıdılmışdı.

Xalq hərəkatı məğlubiyyətə uğrayandan sonra Hacı Əlinəqi hökumət təqibindən gizlənməyə məcbur olmuşdu. O vaxt Rusiyanın Qafqazdakı canişininin nümayəndəsi həmin dövlətin Təbrizdəki konsulu ilə birlikdə onun qaldığı yeri öyrənib yanına gəlirlər. Canişinin nümayəndəsi Hacı Əlinəqini Rusiya dövlətinin vətəndaşlığını qəbul etməyə çağırır. Bu halda onun rus imperatorunun himayəsi altına keçəcəyini və bütün qarət olunmuş malın və əmlakın ona qaytarılacağını vəd edir və hətta bir şeyin tapılmayacağı təqdirdə çatışmayan malın dəyərini canişinin xəzinəsindən ödəniləcəyinə söz verir. Lakin gəncəli Cavad xanın nədidəsi rusların kələyini və məkrini anlayıb onlara belə cavab verir: “Mən İran torpağında gədalığı Rusiyanın padşahlığından üstün tuturam. Mənim cəddim Cavad xan vətən yolunda şəhid olub, mən də şəhidliyə hazıram”. Hacı bu sözləri deyib qonaqpərvərik adətlərinə xilaf çıxaraq rusları evindən qovur.

Hacı Əlinəqinin iki oğlu və iki qızı olmuşdu. Övladlar da onun yolunu tutmuşdular. Oğlu Cavad Gəncei bir müddət Təbrizdən İranın parlamenti Məclisi-şurayi-milliyə nümayəndə seçilmişdi. O həmin illərdə parlamentin "Xüsusi neft komissiyası" rəisi doktor Məhəmməd Müsəddiqin müavini olmuşdu. Həmin komissiyanın gördüyü iş İran neft sənayesinin milliləşməsi ilə nəticələnmişdi.

Hacı Əlinəqinin digər oğlu Rza Gəncei şəmsi hicri ilə 1322-ci ildə[1] özünün sərt və möhkəm siyasi mövqeyi ilə seçilən "Baba Şəməl" adlı həftəlik dərgisinin başında durmuşdu. İran mətbuatını tədqiq edənlər ölkədə siaysi həcvdən yazarkən onun banisi Übeyd Zakanidən sonra ən çox Əliəkbər Dehxudanın ("Çərəndü pərənd") və Rza Gənceinin ("Dər dilhayi-Baba Şəməl") adlarını çəkirlər.

---

[1] Miladi təqvimilə 1944



***Orta əsrlər dövrünə aid hərbi geyim (Yaraq-əsləhə).***



***Orta əsrlər dövrünə aid hərbi geyim (Dəbilqə).***

# Ziyadoğlu-Qacar nəsli – Gəncədə İran sərhəddinin qoruyucuları

***Məhəmmədəli Bəhməni Qacar***
***Qafqaz üzrə tədqiqatçı***

Ziyadoğlu-Qacar nəsli Gəncədə İran sərhəddini qoruyanlardan olublar. "Gəncə Səfəvilər hakimiyyətinin əvvəlindən qəməri 13-cü əsrin başlanğıcınadək İran əyalətlərindən biri olmuşdu. Bu şəhər Səfəvilər hakimiyyətə gələndən sonra Qarabağ bəylərbəyliyinin mərkəzi idi və Səfəvilər dövrünün əvvəllərində Gəncədə məskən salmış Ziyadoğlu-Qacar nəsli bütün bu müddət ərzində mərkəzi Gəncə olmuş Qarabağa hökmranlıq ediblər. Bu nəslin sonuncu xanı Cavad xan Ziyadoğlu-Qacar İran-rus müharibələrinin birinci mərhələsində hücum edən rus qüvvələrinə qarşı döyüşərək böyük oğlu Hüseynqulu xanla birlikdə şəhadətə yetişdi. Onun ardınca ikinci İran-rus müharibəsi zamanı Gəncə geri qaytarılandan sonra Cavad xanın o biri oğlu Uğurlu xan Naibüssəltənə Abbas Mirzənin* fərmanı ilə Gəncəyə hakim təyin edildi. Lakin sonda Gəncə ruslar tərəfindən işğal olundu".[1] Əslində "Ziyadoğlu" Şah İsmayıl Səfəvi tərəfindən Xızır xanın oğlu və Qacar elinin başçısı Ümmət bəyə verilmiş bir ləqəb idi və ondan sonra Qacar elini həmin ləqəblə çağırmağa başladılar. Bu tayfanın cəddi Qarımış Xızır adı ilə məşhur Xızır bəy Qacar elinin başçılarından idi. Səfəvilər nəslinə olan sədaqət onu əvvəllər məskunlaşdığı Rum vilayətindən Azərbaycana və İraqa köçməyə vadar etdi və o, burada Səfəvilərin tərəfdarları sırasına qoşuldu.[2] Qeyd

---

[1] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". ss. 145-147.

[2] Məhəmməd Məsum bin Xacəgi İsfahani. "Xülasətüs-siyər" (Şah Səfi Səfəvinin tarixi). s.219.

edək ki, Qacar eli Şamda və Anadoluda məskən salmış və sonradan "Qızılbaş" adı ilə tanınmış elatlardan olmuşdur.[1]

Təbriz universitetində keçirilmiş "İran Səfəvilərin dövründə" adlı konfransda deyilirdi ki, Anadoluda məskunlaşmış tayfalar səfəvilərin ardıcılları və müridləri idilər. Fəzlüllah bin Ruzbehan Xünci İsfahani[2] Talışın və Anadolunun əmirlərini özünün ən yaxşı havadarları adlandıraraq yazır ki, Şeyx Səfiəddin* "Ərdəbilə irşad kölgəsini saldı" və Talışın əmirləri ilə Rum məmləkətinin böyükləri onun xidmətinə toplandılar. Sonralar Şeyx Cüneyd* Səfəvilərin nüfuzunu döyüşkənlik ruhunun yaradılmasına yönəldib və şəxsi qüdrəti hesabına bu amili daha da artırıb müridlərini öz ətrafında cəmləşdirdi. Şeyx Cüneydin* ölümündən sonra onun müridləri oğlu Şeyx Heydərin* başına yığıldılar. Anadoludakı müridlər də onlara qoşuldular. Bu müridlər öz öndərlərini ziyarət etmək üçün nəzirlərlə və hədiyyələrlə Ərdəbilə gələrdilər. Vəziyyət o yerə çatmışdı ki, böyük qüvvəyə malik olan Rum (Osmanlı) sultanı İkinci Bayəzid* Heydərin Osmanlı məmləkətinin qonşuluğunda artan nüfuzundan və qüdrətindən nigaran olmuşdu. Heydərin göstərişi ilə müridlər başlarına qırmızı külah qoydular və bundan sonra "qızılbaş" adı ilə məşhur oldular. Şeyx Heydərdən sonra oğlu İsmayıl Gilana gəldi. On iki yaşlı Şah İsmayıl 1500-cü ildə öz hərəkətinə başlayaraq ona etiqadları olan yeddi nəfər sufi ilə Gilandan Anadoludakı Ərzincana gəldi və yolda saysız-hesabsız ardıcılları ona qoşulurdu. 1501-ci ilin hadisələrini şərh edən Həsən bəy Rumlu bunları yazmışdı: "İsgəndərəbənzər xaqan [Şah İsmayıl] Ərzincanda

---

[1] Türkəsilli və şəqaqi kürdləri kimi qeyri-türkəsilli qızılbaşlar XVI əsrdə qoşunun baniləri və hökumət ordusunun nəcibzadələri kimi çox böyük etibar və nüfuz sahibi olmuşdular. Bax: Valter Heynts. "İranda dövlətin təşkili".

[2] Əbulxeyr Fəzlüllah ibn Ruzbehan əl-Xünci əl-İsfahani əl-Əmini (1457-1521) – tarixçi, "Tarixi-aləmarayi-Əmini" əsərinin müəllifi.

cəlalət sahibi olandan sonra əfşarlar, qacarlar, vərsaqlar (?) cahanpənah dərgahına toplandılar. Əbdi bəy Şirazi onların sayının 12 min olduğunu qeyd etmişdir. Şah İsmayıl vəziyyəti özünün cəngavər müridləri ilə müzakirə edib Ərzincandan yola düşdü. O, əvvəl Şirvanşah Fərrux Yasarı məğlub etdi, ardınca Naxçıvanın Şərur bölgəsində Ağqoyunlu Əlvəndi sıradan çıxartdı və bu qələbələrdən sonra təmtəraqlı şəkildə Təbrizə daxil oldu. Şah İsmayıl Təbrizdə padşah taxtında əyləşdi.[1]

Sözügedən Qacarlar və digər tayfalar qəlbən Səfəvilərin tərəfində idilər və bu səbəbdən Osmanlı hökumətinə qarşı müxalif mövqedə durmuşdular və elə buna görə də Xızır bəy öz eli ilə Anadoludan və Şamdan İrana gələrək qızılbaşların arasında yer aldı. O, tədricən öz dövrünün rəhbərlərinin birinə çevrildi. Məhəmməd Fəthüllah ibn Məhəmməd Təqi Sarəvi Qacar elinin Şamdan hərəkət edib Gəncədə və Azərbaycanda məskunlaşması haqqında yazanda onu vurğulayır ki, hər biri səmada bir Ay olan, bəlkə sübh Günəşi olan bu tayfanın əsli cənnətvari Şam vilayətindən Azərbaycanın Gəncəsinə gəldilər.

Qacar elinin başçısı Xızır bəy İranda bir az qalandan sonra haqqa qovuşdu. Onun böyük oğlu Ümmət bəy atasının ölümündən sonra Lahicanda Şah İsmayılın* hüzuruna yetişdi və etiqadın səmimiliyinə, eləcə də göstərdiyi xidmətinə görə "qızılbaş" ləqəbini aldı.[2] Ümmət bəy İsmayıl Mirzə ilə bərabər Lahicana gələnlərdən idi. O, qədim zamanlardan Səfəvi sufilərinə ən yaxın dəstək olan Lahici sufilərin sırasına qoşuldu.[3] Ümmət xanın vəfatından sonra Şahverdi

---

[1] Bax: Məqsud Əli Sadiqi. Konfransın məqalələr toplusu. H.ş. 1383. Tarix bölməsi. Hüseyn Mircəfəri. ss.905-916.

[2] "Xülasətüs-siyər". s.5.

[3] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.147.

xan Qacar elinin başında yer aldı. “Xülasətüs-siyər” əsərində Şahverdi xanın elxan olması barəsində belə yazılıbdır:

“Ümmət xan da başqaların yolu ilə gedib bu fani dünyaya əlvida deyəndən sonra cənnətdəki mənzilinə yetişdi. Bundan sonra şahənşah həzrətləri onun övladlarına iltifat göstərərək onun əziz oğlu, dövlət ilə şücaətin əlamətləri üzündə aydın görünən Şahverdi sultanı öz himayəsi altına aldı və gündən-günə öz nəvazişlərini və lütfünü artırardı. Dünyaya ağalıq etmək növbəsi Şah Təhmasibə çatanda Şahverdi xan Qarabağ əyalətinin başçısı və Qacar eli ilə oymağının bəylərbəyisi rütbəsinə yüksəldi. Həmin vilayətdə onun şücaəti ilə igidliyi haqqında dastanlar yazdılar”.[1]

Şahverdi xan Ziyadoğlu-Qacarın döyüşçü hünərindən dəfələrlə bəhs olunan kitabların içində “Xülasətüt-təvarix” əsəri də yer tutmaqdadır. Həmin kitabın müəllifi Şah Təhmasibin hakimiyyətinin on dördüncü ilində, yəni qəməri 944-cü ildə[2] baş vermiş hadisələrdən yazarkən Şahverdi xanı yad edir.[3] Adıçəkilən kitabda həmçinin Şah Təhmasibin səltənətinin iyirmi üçüncü, iyirmi dördüncü və iyirmi beşinci illərinə həsr olunmuş bölümlərdə Şahverdi xanın şücaətindən söhbət gedir. Müəllif Şahverdi xanın Sultan Süleymanın* qüvvələrinə qarşı döyüşdüyünü belə təsvir edir:

“...Bu tərəfdən Abdullah xan, Şahverdi xan Ziyadoğlu və Əli Sultan Təkəlunu Qaravəlliyə göndərdilər və nüsrətpeşə[4] qazilər meşədə Rum ləşgərinə çatıb onların üstünə cumdular. Şahverdi sultan kişi kimi vuruşdu və rumluların bir çoxunu qətlə yetirdi”.[5]

---

[1] “Xülasətüs-siyər”. ss.319-320.
[2] Miladi təqvimilə 1537/38
[3] Qazı Əhməd bin Şərəfəddin Hüseyn Hüseyni Qumi. “Xülasətüt-təvarix”. s.277.
[4] Nüsrətpeşə – peşəsi zəfər çalmaq olan.
[5] “Xülasətüt-təvarix”. s.325.

Yenə də Şah Təhmasibin hakimiyyətdə olduğu iyirmi altıncı ilində Şahverdi sultanın igidliyi haqqında söz açır və yazır:

“Bargiri qalasının Şahverdi sultan Ziyadoğlu tərəfindən fəthi haqqında

Həmin ildə Şahverdi sultan Ziyadoğlu-Qacar Naxçıvandan Bargiri qalasına hücuma keçdi. Bu zaman Süleyman bəy Kürd oranı ələ keçirmək xəyalına düşüb Sultan Süleymanın yanından həmin qalaya gəldi. O gecə Şahverdi sultan 240 nəfərin başında qalaya yetişdi. Rüstəm kimi qüdrətli qazilər tərəddüd etmədən özlərini qalaya atdılar. Qılınclar çəkildi, kürdlərlə rumlulardan iki yüz nəfərə yaxın adam o dünyaya yollandı. Süleyman bəyi də ali dərgaha göndərdilər”.[1]

Şah Təhmasibin padşalığının iyirmi səkkizinci ilində Gürcüstana qoşun çəkilməsi barədə söyləyərkən Şahverdi sultan xatırlanır. İyirmi doqquzuncu ilində də o, şahın əmrilə osmanlılara qarşı döyüşə gedir və yenə həmin ildə bu hadisə qeyd edilir: “Arzusuna çatmış şah Şahverdi sultanı və Ədhəm bəy Rumlunu Pasinə basqın edəndən sonra Tiflisə göndərdilər”. Onun ardınca həmin il Şahverdi xanla bir çox qoşun əmirindən bəhs olunur:

“Şahverdi xan kimi tanınmış əmirlərdən min nəfər Tehran qorçusu və altı yüz nəfər Naxçıvan qorçusu şahı müşayiət edərkən hərəkətə keçdilər. Şahverdi xan Ziyadoğlunu, Məcid bəy Türkmanı və Ədhəm bəy Rumlunu Pasinə göndərdilər. Şah özü isə nəfis nəfəslə bir dəstə əsgərlə Pasinə gəldilər”.[2]

Otuz birinci il hadisələri haqqında belə deyilir:

---

[1] “Xülasətüt-təvarix”. s.327.
[2] “Xülasətüt-təvarix”. s.s. 351, 353 və 355-357.

“Bu il Sultan Süleymanın* Hələbdən Azərbaycana tərəf gəlməsi xəbəri təsdiqlənən kimi arzusuna çatmış hökmdar, məmləkət sahibi zəfərçalan əsgərlərin hazırlığına başladı. Şahzadə İsmayıl Mirzə Məsum bəy Divanbəyi, Şahqulu xəlifə Möhrdad və digər yaraqlı qazilər dəstəsilə bir yerdə Rumun Paşa vilayətinə hücuma keçdi və Bəhram Mirzənin oğlu şahzadə Sultan Hüseyn Mirzəni Şahverdi sultan Ziyadoğlu-Qacarla birlikdə Kürdüstana göndərdi ... Dinin pənah gətirdiyi şah Şahverdi sultanı Pasinə yolladılar və adıcəkilən o diyarı hökmdarın gəlişindən öncə yaxıb-yandırıb əzəmətli orduya qoşuldu”.[1] Şah Təhmasib Şahverdi sultanın 961-ci ildə[2] osmanlılarla döyüşlərdə göstərdiyi xidmətini yüksək qiymətləndirmişdi. “Xülasətüs-siyər” kitabında ona “Müsahib” ləqəbinin verilməsinə işarə edilir:

“Şahın Şahverdi sultan Ziyadoğluna göstərilən inayəti günü-gündən artmaqda idi. O, Şəki diyarında Danqı mahalını almış, Qarabağda “ehdasi-ərbəə”[3] haqqına malik olmuş, hər il Şirazdan və digər bölgələrdən lazım olanları satın alıb gətirmək üçünmin tümənlik ənam sahibi olmuşdur. Bundan əlavə əzəmətli ləqəb almışdı və başucalığı gətirən başqa şəfqətlərlə təltif edilmişdi. Böyüklər iş görəndə, belə görərlər. Əgər bu şücaətin və dərya qədər nəhəng qəhrəmanlığın cüzi bir hissəsini təsvir etmək istəsələr, yetmiş mən[4] kağızlıq məsnəvi yazmalı olarlar”.[5]

Onu da qeyd etməyə dəyər ki, Amasiya əhdnaməsi bağlanandan iki il sonra, yəni 1557-ci ilin may ayının or-

---

[1] “Xülasətüt-təvarix”. s.s. 368-369.

[2] Miladi təqvimilə 1554

[3] Ehdasi-ərbəə – hakimə cinayətkara qarşı dörd cür cəriməni (kötəkləmək, kor etmək, namusuna təcavüz etmək və öldürmək) tətbiq etməyə icazə verən hal.

[4] Mən – yerdən asılı olaraq 3-12 kq-a bərabər olan çəki vahidi. Məsələn, Təbriz məni 3 kq-a bərabər idi.

[5] “Xülasətüs-siyər”. s.322.

talarında, Şah İsmayılın* fərmanı ilə İsmayıl Mirzə Qəhqəhə[1] qalasındakı zindana salınmışdı. “Kitabüs-seyr” əsərinin müəllifi bu işin səbəbini osmanlılarla müharibə zamanı İsmayıl Mirzə ilə Şahverdi sultan Ziyadoğlu-Qacarın əqidələri arasında yaranmış ixtilafa bağlayaraq yazır:

“İsmayıl Mirzə adıçəkilən sultanın ona verdiyi əziyyətdən şikayətlənir. Cah-calal sahibi cənnətməkan həzrət öz ali təbini və dərin bəsirətini göstərib kimin kim olduğunu üzə çıxardır. O gün Müsahib ləqəbli Şahverdi sultan üstün gəlir, İsmayıl Mirzə isə Qəhqəhə qalasının məhbusu olur”.[2]

“Xülasətüs-siyər” kitabı müəllifinin bu mövqeyi Səfəviyyə əsri tarixyazanlarının mövqeyi ilə üst-üstə düşmür. O dövrün tarixçilərinin əksəriyyəti, habelə Səfəvilərin tarixini tədqiq edənlər İsmayıl Mirzənin zindana düşməsinin səbəbini Şah Təhmasibin ona qarşı olmasında və tərsliyində görürlər və xüsusilə şahda şəkk-şübhənin yaranmasında baş vəzir Etimadüddövlə* Məsum bəy Səfəvinin təsirinə işarə edirlər. Valter Heynts göstərilən əsərin 39-40-cı səhifələrində yazır ki, “Şah Təhmasibin ürəyinə saldığı şübhələrin hamısı əsassız deyildi. İsmayıl Mirzə ilə qatı düşmənçilik etmiş Məsum bəy şaha işarə vermişdi ki, oğlu açıq-aşkar çox təhlükəli planlar qurur, çünki atasının icazəsi olmadan ordu yığmağa başlayıbdır. Şah hələ qardaşları Əlqasilə Samın qaldırdığı qiyamları unutmamışdı və nəticədə bu itaətsizlik nişanələrindən hirslənib qəzəbləndi. Oğlunun əsgərlərin xüsusi sevgisini qazanması onun nəzərində bu təhlükəni daha da

---

[1] Qəhqəhə qalası Ərdəbilin qərbində, Savalan dağlarında yerləşir. Qalanın özü dağın zirvəsində tikilmişdir. Onun bir tərəfini çox hündür daş divarı təşkil edir. Qəhqəhə adını o qalaya əlçatmaz olduğuna görə qoymuşdular ki, düşmənlər ona həmlə edəndə qaladakılar onları rişxəndlə qarşılayardılar. Onun bu cür möhkəm olmasından istifadə edərək içində həm dustaqları, həm də dövlətə məxsus qiymətli daş-qaşları saxlayardılar. Bax: “İkinci Şah İsmayıl”. ss.39-40.

[2] “Xülasətüs-siyər”. ss.322-323.

artırmışdı. Odur ki, biz tərəddüd etmədən deyə bilərik ki, Şah Təhmasib oğlunun əli ilə səltənət taxtından devrilməsindən təşvişə düşmüdü. Üstəlik onu da hesaba almışdı ki, əgər oğlu Amasiya sülh müqaviləsinə riayət etməsə, bu hal onun Babi-ali[1] ilə yenidən toqquşması ilə nəticələnə bilər". "Künhül-əxbar" əsərinin müəllifi "Ali" ləqəbli Mustafa bin Əhməd həm də o fikirdədir ki, şah oğlu İsmayılın pozğunluğundan və əyyaşlığından cana gəlmişdi və bunun da ehtimalı böyükdür, çünki son vaxtlar peşmanlıq və tövbəkarlıq atəşi şahın zehnində yenidən alovlanmağa başlamışdı. İsgəndər Münşinin "Aləmarayi-Abbasi" və Həsən Rumlunun "Əhsənüt-təvarix" kitablarında yazıldığı kimi, o, 1556-cı ildə meyxanaların, qumarxanaların və digər eyş-işrət yuvalarının bağlanmasına göstəriş vermişdi və şahın qəsrində tiryəki suya tökmüşdülər.

Şah Təhmasibin hakimiyyətinin otuz ikinci ilində Şahverdi xan osmanlılarla apardığı döyüşlərə əlavə olaraq şah tərəfindən gürcü üsyançılarını əzmək əmrini aldı, çünki gürcülər yenidən İrana müxalif bayraq qaldırmışdılar. "Xülasətüt-təvarix"də bu mövzuda belə yazılıb:

"Şahverdi sultan Ziyadoğlu-Qacar şahın əmrilə üzərində gürcülər tərəfindən müxalifət bayrağı qaldırılmış qalanı fəth etdi və otuz minə yaxın əsir götürdü. Şah qışı Gürcüstanda keçirib günəşin bəzi günlərdə balıqlar bürcündə olduğu həmin ilin səfər ayında Qarabağa tərəf köç etdilər. Həmin ilin rəbiüləvvəl ayının ilk günündə arzusuna çatmış şah Gəncəyə buyurdu. O pakizə bölgəyə və gözəl diyara gəlib oranın hakimi Şahverdi sultan Ziyadoğlu-Qacarın mənzilində əyləşdi və səkkiz gün Gəncədə qaldı. Adıçəkilən sultan xidmətkarlıq və fədakarlıq mərasimlərini yerinə ye-

[1] Babi-ali – Osmanlı sultanının sarayı, Osmanlı dövləti.

tirdi. Bundan sonra oradan da köç edib üzünü Bərdə yoluna tutdu".[1]

Digər mənbədə belə deyilir:

"Şah Təhmasib qoşunu Gürcüstana yeritdiyi zaman Gəncədə Şahverdi sultan Ziyadoğlunun evində qonaq olmuşdu. Şahverdi sultan öz tayfanın birinci şəxsi və başçısı idi.O, Qarabağdahakimiyyətə yiyələndi və bu hökmdarlıq hüququ onun ailəsində qaldı. Gürcü qaynaqlarına görə şah bu yürüşdən sonra Qarabağ bəylərbəyliyini təsis etməyə qədəm qoydu və Mukənin[2], Kərəxin (?), Şəmşədillunun[3] və Tiflisin hakimləri üzərində nəzarəti Gəncə hakiminə tapşırdı".[4]

Beləliklə, təqribən 1555-ci ildə mərkəzi Gəncə olmaqla Qarabağ bəylərbəyliyi təsis edildi. "Səfəvi hökmdarlarının dövründə ləqəblər və məvaciblər" adlı kitabda[5] Qarabağ bəylərbəyliyi barəsində aşağıdakılar yazılıb:

"Qarabağ ölkəsinin bəylərbəyliyi və onun əmirləri.Adı yuxarıda çəkilən bəylərbəyliyin bütün mədaxili və on nəfər əmiri.

Ləqəblər: Əzəmət ilə şövkətin pənah gətirdiyi yer, həşəmət ilə cəlalət sahibi, alicah böyük əmirlərin əmiri ... Xan Ziyad-oğlu-Qacar Müsahib.

---

[1] "Xülasətüt-təvarix". s.372.

[2] Gürcü rəvayətlərində Muğan "Mukən" adı ilə yad edilir. Muğan Araz çayının cənub-şərqində və Kür çayının cənub-qərbində yerləşən əraziyə deyilir. Gülüstan və Türkmənçay sülh müqavilələrinin şərtlərinə görə bu ərazi iki yerə bölündü. Bir hissəsi İran İslam Respublikasının Ərdəbil ostanına, o biri hissəsi isə Azərbaycan Respublikasına daxildir.

[3] Şəmşədillu gürcü rəvayətlərində Şəmsəddinlu mahalına deyilən addır. Şəmsəddinlu Gəncə ətrafında yaşamış tayfadır.

[4] Klaus Röhrborn. "Səfəvilər dövründə əyalətlərin nizamı". s.4.

[5] Mirzə Əli Nəqi Nəsiri Ordubadi. "Səfəvi hökmdarlarının dövründə ləqəblər və məvaciblər". ss.79-80.

Adıçəkilən ölkənin bəylərbəyliyi həmişə Qacar tayfasının və Ziyadoğlu elinin ixtiyarında olduğunu və göstərdiyi hüsni-xid-mətin əvəzinə bu tayfaya "Müsahib" ləqəbi verildiyini nəzərə alaraq həmişə bu tərzdə yazılmalı və həmin ada dəyişiklik edilməməlidir.

Mədaxil: Səkkiz min altı yüz on doqquz tümən və on min [dinar] kəsrlə.

Xidmətçilər: 1372 nəfər".

Həmin kitabda Bərdə ölkəsinin hakimi haqqında belə yazılıbdır:

"Ləqəblər: Əmrə görə.

Adıçəkilən ölkənin hakimi Kəlbəli xan Qacara "nəvvabi-maliki-rəqab" ləqəbi əlavə buyurulsun.

Mədaxil: Üç min iki tümən və üç min dinar kəsrlə.

Xidmətçilər: 419 nəfər".

"Xülasətüt-təvarix"də Şah Təhmasibin hakimiyyətinin otuz üçüncü ilindən bəhs edilən bölümdə Şahverdi sultan Ziyadoğ-lunun gürcülərlə müharibədə göstərdiyi hünərindən və igidliyindən dəfələrlə deyilir.[1]

Bundan sonrakı il Şahverdi xan Ziyadoğlu şahın əmri ilə yağı gürcülərin başını əzmək üçün Gürcüstana ezam olunur. "Xülasətüt-təvarix"də bu barədə belə yazılır:

"Bu il Şahverdi xan Ziyadoğlu-Qacar Qarabağ qoşunu ilə Gürcüstana ezam olunmuşdu. Simon zəfərşüar əsgərlərin qorxusundan dağlara və meşəyə qaçdı. Döyüşkən qazilər və tündxasiyyət dilavərlər bütün o vilayəti və düşmənlərin mövqelərini dağıtdılar və sağ-salamat, qənimətlə və qələbə ilə Gəncə vilayətinə qayıtdılar".[2]

---

[1] "Xülasətüt-təvarix". s.383.

[2] "Xülasətüt-təvarix". s.392.

Beş ildən sonra gürcü üsyançıların yenidən Şahverdi xan tərəfindən darmadağın edilməsi haqqında belə yazılıb:

"Bu il Gürcüstan hakimi Luasat (Luarsab) oğlu Simon Ləvənd (Levon) bəy Gürci oğlu Gərəginlə (Georgi) birlikdə yürüş etmək iddiasına düşüb Gürcüstan vilayətinin bütün yan-yörəsinə adamlar göndərdilər və o tərəflərdən ordu yığılmasını tələb etdilər. Qısa vaxtda bundan qabaqkı zamanlarda qoca göyün gözü o diyarda görmədiyi qədər ordu toplandı. Bu xəbər Şahverdi sultanın qulağına çatan kimi o, Qarabağ ordusu ilə Gəncə bölgəsindən çıxıb imansız düşmənlərin qalalarına və qəsrlərinə üz tutdu. Gərəgin tülkü aslandan qaçan kimi üzü vadiyə qaçdı. Qacar şirləri və müzəffər qəhrəmanlar o itsifət yaramazları alçaqlıq torpağına basdırdılar".[1]

Şahverdi xan Ziyadoğlu öz hakimiyyəti altındakı bölgədə, yəni Qarabağ əyalətində və Gəncə vilayətində İranın sərhədçisi vəzifəsini yerinə yetirməklə yanaşı Səfəvi şahənşahlığına tabe olan bütün torpaqlarında və İran məmləkətinin hər bir nöqtəsində digər hərbi tapşırıqlara da məmur edilirdi. "Əhsənüt-təvarix" kitabında Şahverdi xanın Hind qüvvələrinə qarşı İranın şərqi bölgələrində və Qəndəhar şəhərində vuruşmağa ezam olunması haqqında deyilir və h.q. 944-cü ilin[2] hadisələri barədə belə bəyan olunur:

"Həmin il Mirzə Kamran böyük ordu ilə Hind ölkəsindən Qəndəharın həndəvərinə gəldi. Budaq xan Qacar Şahverdi bəy Ziyadoğlu-Qacarı qəhrəmanlıq meydanının atlıları ilə onu qarşısını almağa göndərdi. Şahverdi bəy Ziyadoğlu-Qacar kiçik qoşunu ilə şəhərin ətrafında Mirzə Kamrana çatdı və dava-dalaşın sonunda əsir düşdü. Budaq

---

[1] "Xülasətüt-təvarix". ss.420-421.

[2] Miladi təqvimilə 1537/38

xan məcbur olub sülh istədi. Mirzə Kamran da Şahverdi bəyə hörmət edib onu sərbəst buraxdı”.[1]

Şahverdi xan Ziyadoğlu h.q. 971-ci ildə[2] həyatla vidalaşdı. Onun İran sərhəddinin qorunmasında göstərdiyi fədakarlıq İranın tarixinə bir igidlik nümunəsi kimi həmişəlik yazılıbdır.

“Təkmilətül-əxbar” kitabında 971-ci ilin hadisələri bölümündə əvvəl Şah Təhmasibin bacısının ölümü haqqında xəbər verilir, ardınca Şahverdi xanın vəfatı barədə belə deyilir:

“Siçqan yıl 971-ci ildə, yeni siçan ilinin novruz gecəsində şahi-nemətüllahın evində qalan ali hökmdarın bacısı Mehdülya Xanışbəyim xanım baqi dünyaya qovuşdu və şahinemətüllah o ülyahəzrətin nəşini ətəbati-aliyata[3] apardı... Həmin ildə Gəncənin və ona tabe olan torpaqların hakimi olmuş Şahverdi sultan Ziyadoğlu-Qacar Müsahib vəfat etdi və onun oğlu İbrahim bəy qaimməqam oldu, atasının əmrilə “Müsahib” ləqəbi onun ləqəblərinə əlavə olundu və ən böyük oğlu Xəlil sultan özü bundan əvvəl yüksək vəzifə alaraq Astrabadın hakimi olmuşdu.[4]

“Xülasətüs-siyər” kitabında da Şahverdi sultanın oğulları, Xəlil xanın Astrabadın bəylərbəyi yerinə təyin olunması və İbrahim xanın atasının yerinə keçməsi haqqında belə yazılıbdır:

“... Amma onun üç oğlu ərsəyə qədəm basmışdılar: biri atasının sağlığında Astrabadın bəylərbəyisi olmuş Xəlil xandır və bu gün Astrabadda yaşayan bütün qacarlar onun xidmətində dayanıblar; digəri atasının ölümündən sonra

---

[1] Həsən Rumlu. “Əhsənüt-təvarix”. s.367.
[2] Miladi təqvimilə 1563
[3] Ətəbati-aliyat – şiə imamlarının (ə) dəfn olunduğu məkanlar.
[4] Əbdi bəy Şirazi. “Təkmilətül-əxbar” (Səfəvi padşahları haqqında əvvəldən h.q. 978-ci ilə qədər dəqiq xəbərlər). s.122.

onun yerinə vilayət hakimi olmuş İbrahim xandır ki, on iki il xoşbəxt ömür sürüb bu dünyadan köçdü və onun ardınca Yusif xəlifədir ki, qardaşından sonra bəylərbəyi rütbəsinə yetişdi".[1]

İbrahim xan Ziyadoğlunun Qarabağdakı hakimiyyəti mövzusuna keçməzdən qabaq hələ atası sağ ikən Astrabadın bəylərbəyi vəzifəsinə təyin olunmuş Şahverdi xanın Xəlil xan adlı oğlunun da Şah Təhmasibin zamanında müharibələrə ezam olunduğunu qeyd edək. "Xülasətüt-təvarix" kitabının səhifələrində Şah Təhmasibin hakimiyyətinin qırx üçüncü ilinə həsr olunmuş bölümdə onun adı çəkilir.[2] Həmin kitabda həmçinin iki il sonrakı hadisələr haqqında məlumat verilərkən Xəlil xanın Xanəhməd Gilaninin yenilməsində iştirakından söhbət açılır.[3] Xəlil xan Ziyadoğlu-Qacar 1571-ci ildə vəzifəsindən uzaqlaşdırılandan sonra onun yerinə hakimiyyətə gəlmiş İsgəndər bəy Əfşarla döyüşdə öldürülmüşdü.[4]

İbrahim xan Ziyadoğlu həmin h.q. 971-ci ildən Qarabağın hakimi oldu. "Təkmilətül-əxbar" kitabında bu xəbər belə verilmişdir:

"... və od yıl h.q. 972-ci ildə bu aləmdəkilərin şahzadəsi Sultanəli Mirzəni* Gəncə ilə Bərdəyə göndərib İbrahim bəy Ziyadoğlu Müsahib Qacarı da ona lələ qoydular. Arzusuna çatmış şahzadə Sultan Mahmud Mirzəni Şirvana göndərdi və onun lələliyini Abdullah xan Ustacluya tapşırdılar".[5]

İbrahim xan Ziyadoğlu da Xanəhməd Gilaninin üsyanının yatırılması zamanı Şah Təhmasibin ordu əmirlərinin sırasında olmuşdu. "Xülasətüt-təvarix"də Şah Təhmasib

---

[1] "Xülasətüs-siyər". s.323.
[2] "Xülasətüt-təvarix". s.453.
[3] "Xülasətüt-təvarix". ss.475-76.
[4] "Təkmilətül-əxbar". s.132.
[5] "Təkmilətül-əxbar". s.125.

Səfəvinin hakimiyyətinin qırx beşinci ilindən və Xanəhməd Gilani ilə müharibədə iştirak etmiş əmirlərdən belə deyilir:

Azərbaycan ordusunun əmirlərindən: İbrahim bəy Ziyadoğlu-Qacar və Qarabağ qoşunu, Qaraçadağ hakimi Xəlifə Ənsar ilə İbrahim xəlifə Alpavut və Çuxur-Səəd qoşunu”.[1] “Əhsənüt-təvarix” kitabında da Xanəhməd Gilani ilə döyüşdə İbrahim bəy Ziyadoğlunun adı çəkilmişdir”.[2]

İbrahim xan Ziyadoğlunun ölümündən sonra (hakimiyyət başında on iki il olduğunu nəzərə alaraq həmin hadisənin h.q. 982 və ya 983-cü ildə[3] baş verdiyini təxmin etmək olar) qardaşı Yusif xan mərkəzi Gəncə olmaqla Qarabağın hakimi yerinə təyin edildi. “Aləmarayi-Abbasi” kitabında Şah Təhmasibin məşhur əmirləri arasında Yusif xan Ziyadoğlunun adı çəkilərək belə yazılmışdır:

“Şahverdi sultan Ziyadoğlunun oğlu Yusif xəlifə İbrahim sultanın yerinə Qarabağ bəylərbəyi və Sultanəli Mirzənin* lələsi olmuşdu, amma hələ də ali dərgahda qalmışdı və Yusif xəlifənin qardaşı Süleyman bəy Ziyadoğlu əmir rütbəsinə yüksəlmişdi”.[4]

Faruq Sümər “Anadolu türkləri” kitabında Yusif bəy Ziyadoğlu-Qacar haqqında belə yazmışdır:

“Şah Təhmasib öləndə qacarların ən yüksək təbəqəli bəylərindən biri Yusif xəlifə idi, Qarabağ valisi və Sultanəli Mir-zənin* lələsi vəzifəsinə təyin olunmuşdu”.[5]

Səfəvilər dövrünün tarixçiləri İkinci Şah İsmayılın şahən-şahlıq taxtına əyləşməsindən sonra Yusif xəlifənin öldürülməsindən xəbər verirlər. “Xülasətüt-təvarix”də h.q.

---

[1] “Xülasətüt-təvarix”. ss.470-71.

[2]“Əhsənüt-təvarix”. s.561.

[3] Miladi təqvimilə 1575/76

[4] İsgəndər bəy Türkman. “Aləmarayi-Abbasi”. s.140.

[5] Faruq Sümər. “Səfəvi dövlətinin təşkilində və inkişafında Anadolu türk-türklərinin rolu”. s.120.

984-cü ilin[1] hadisələri arasında Gəncə hakimi Şahverdi xanın oğlu Yusif xəlifənin qətlə yetirilməsindən bəhs olunur.[2] Yusif xəlifənin hakimiyyəti bir ildən artıq çəkmədi. Röhrborn "Səfəvilər dövründə əyalətlərin nizamı" kitabında onun hakimiyyətdə olduğu müddətin ən geci 1577-ci ildə bitdiyini (yəni öldürüldüyünü) zənn etdiyini yazır.[3] "Xülasətüs-siyər" əsərində Məsum bəy Xacəgi İsfahani Yusif xəlifənin öldürülməsi haqqında yazarkən İkinci Şah İsmayılın* hələ vəliəhdlik dövründə Yusif xanın atası Şahverdi sultan Ziyadoğlu ilə yola getmədiyinə işarə edərək Yusif xanın ölümünün səbəbi kimi İkinci Şah İsmayılın* kinküdurətini göstərir:

"İkinci Şah İsmayıl onun yatağını torpaqdan düzəltdi və Qarabağ ölkəsi başqasına keçdi".[4]

Həmin məsələ barədə digər mənbədə belə deyilir:

"Peykər bəy Qacar Gəncə hakimi olmuş Yusif xəlifə Ziyadoğlunu hamamda öldürdü və bu ağır cinayətlə kifayətlənməyib hamıdan xəbərsiz onun evinə getdi və onun anasını qətlə yetirdi və bundan sonra qəhhar padşahın əmrilə həbs edildi".[5]

"Xülasətüs-siyər" kitabında yazıldığı kimi, Yusif xan Ziyadoğlu öldürüləndən sonra bir müddət Qarabağ hökuməti Ziyadoğlu nəslinin bir neçə başqa nümayəndəsinə həvalə edilmişdi. Beləliklə, İkinci Şah İsmayılın birillik hakimiyyəti və Şah Sultan Məhəmmədin padşahlığı dövründə Qarabağ hökuməti İmamqulu xan Qacarın əlində oldu və bu tarixdən başlayaraq Böyük Şah Abbasın* yüksəlməsinə qədərki zaman kəsimini əhatə edən çoxlu əsərlərdə onun adı çəkilir.

---

[1] Miladi təqvimilə 1576/77.
[2] "Xülasətüt-təvarix". s.628.
[3] "Səfəvilər dövründə əyalətlərin nizamı". s.62.
[4] "Xülasətüs-siyər". s.323.
[5] Mahmud ibn Hidayətüllah Əfuştəi Nətənzi. "Nəqavətül-asar fi zikriləxbar". s.33.

Məsələn, “Nəqavətül-asar” əsərinin müəllifi h.q. 987-ci ildə[1] Osmanlı qoşunu İrana hücuma keçəndə baş vermiş hadisələrdən bəhs edərkən onun haqqında belə yazmışdı:

“Gəncənin və Bərdənin hakimi İmamqulu xan Qacar, habelə o ölkənin və diyarın digər əmirləri və hakimləri bu əhvalatdan xəbər tutan kimi qoşun yığmağa və onu silahla təyin etməyə başladılar”.[2] Bu kitabda ardıcıllıqla İmamqulu xanın göstərdiyi rəşadət haqqında məlumat verilir. İmamqulu xan 996-cı ildəki[3] ölümünə qədər (Şah Abbasın* taxta çıxdığı il) həmçinin Qarabağın bəylərbəyi olmuşdu. Onun vəfatından sonra Şah Abbas Qarabağdakı hakimiyyəti yenidən Ziyadoğlular nəslinə qaytardı və Xəlil xan bin Şahverdi sultanın oğlu və Yusif xan Ziyadoğlunun qardaşı oğlu Məhəmməd xan Ziyadoğlu-Qacarı rəsmi surətdə mərkəzi Gəncə olmaqla Qarabağın hakimi vəzifəsinə gətirdi. “Şeyx Səfidən Şah Səfiyədək” əsərində bu barədə belə yazılıb: “Həmin il [996] Qarabağ bəylərbəyi İmamqulu xan Qacar Allahın rəhmətinə qovuşdu və onun vəzifəsini Xəlil xan Ziyadoğlu-Qacarın övladı Məhəmməd xana buyurdular”.[4] “Aləmarayi-Abbasi”də də bu mətləbə işarə edilir:

“Gəncədə öz təbii əcəli ilə vəfat etmiş Qarabağ bəylərbəyi İmamqulu xanın ölümündən sonra Şahverdi sultan Ziyadoğlunun o vilayətin hakimiyyəti cənnətməkan şahın vaxtında Qarabağ bəylərbəyi olmuş Xəlil xan adlı oğlunun övladı Məhəmməd xana həvalə edildi. Adıçəkilən İmamqulu xan Qacar oymağından olmuş, İsmayıl Mirzədən tərbiyə almış və sonralar Qarabağın hakimi zirvəsinə qədər yüksəlmişdir. O, İsgəndər tək şan-şöhrətli padşahın və onun

---

[1] Miladi təqvimilə 1579

[2] Həmin əsər. s.78.

[3] Miladi təqvimilə 1587

[4] Seyyid Həsən bin Mürtəza Hüseyni Astrabadi. “Şeyx Səfidən Şah Səfiyə qədər”.

möhtərəm övladı Sultan Həmzə Mirzənin zamanında rumlularla müharibələrdə mərdliyini nümayiş etdirmiş, on ilə yaxın Qarabağın əmirülümərası yerində oturmuş və o tərəflərdə tam ixtiyar və iqtidar sahibi olmuşdur."[1]

Şah Abbas* 996-cı ildə[2] padşahlıq taxtına əyləşəndən sonra iki qatı düşməni ilə üz-üzə gəlmişdi: İranın şimal-şərqində özbəklər və şimal-qərbində osmanlılar.[3]Bu hökmdar özbəkləri qovmaq üçün əvvəl osmanlılarla sülh müqaviləsini bağladı. O, həmin sülhnaməyə imza qoymaqla artıq baş vermiş işi təsdiqləmiş oldu, yəni osmanlıların Məhəmməd şahın səltənəti dövrünün sonuna qədər zəbt etdikləri ərazinin onlara məxsus olduğu ilə razılaşdı və beləliklə Təbriz, Qaraçadağ, Gəncə, Qarabağ, Gürcüstan, Kürdüstan, Luristan, Nəhavənd məntəqələri və ətraf torpaqlar bu müqavilənin şərtlərinə görə Osmanlı dövlətinin bir hissəsinə çevrildi. Şah Abbasın cəmi iki yolu var idi: biri ürəyini sıxaraq gerçək vəziyyəti qəbul etmək, digəri isə davaya başlamaq. Amma o, hətta bir an belə vuruşmaq haqqında düşünmədi.[4] Şah Abbasın qərarı belə olmuşdu: əvvəl özbəkləri Xorasandan çıxartmaq, ardınca da türklərin başını əzib onları Azərbaycandan və ölkənin qərb və şimal-qərb bölgələrindən rədd etməsi məsələsinə keçmək.

Şah Abbas* özünün ilk hökmranlıq ilində (h.q. 996-cı il) İmamqulu xan Qacarın ölümündən sonra Məhəmməd xan Ziyadoğlu-Qacarı Gəncə və Qarabağ hakimi yerinə təyin etdi, amma sonuncu osmanlılarla döyüşdə düşmən əlinə keçib zindana düşdü. "İran ilə Osmanlı dövlətləri arasında sülh danışıqları gedən vaxt Qacar xanlarından və Qarabağ əmirlərindən bir neçə nəfər Gəncə şəhərini azad etmək

---

[1]"Aləmarayi-Abbasi". s.385.
[2]Miladi təqvimilə 1587
[3] Lüsyen Lui Blan. "Şah Abbasın həyatı". ss. 60-61.
[4] "Şah Abbasın həyatı". ss. 84-85.

xəyalına düşərək oranı mühasirəyə aldılar. Onlar həmçinin sülh danışıqlarının əsas hədəflərindən biri olmuş Qarabağın və onun mərkəzi Gəncə şəhərinin sülhbağlama şərtlərindən çıxarılmasını istəyirdilər. Ondan sonra onlar Qarabağa qoşun çəkərək Gəncə qalasını osmanlıların əlindən alıb dağıtmaq və bu minvalla Qarabağı İranın tərkibinə qaytarmaq niyyətində idilər. Qaladakılar Osmanlı dövləti tərəfindən Təbrizə hakim təyin olunmuş Cəfər paşaya sürətli qasidlə məktub göndərib onu məsələdən agah etdilər. Paşa öz nümayəndəsini Şah Abbasın sarayına yollayıb bəyan etdi ki, sülh müqaviləsi bağlamayınca osmanlıların əlində olan mövqelərə hücumlara son qoyulmalıdır. Həmin vaxt Səfəvilər dövlətinin nümayəndəsi də sülhnamənin şərtlərini müzakirə etmək və müqavilənin bağlanması üçün hazırlıq görməkdən ötrü Osmanlı dərgahına göndərilmişdi və Şah Abbas adıgedən sülhnamənin bünövrəsini titrədəcək bu hərəkətləri bəyənmədi. Buna görə o, Qacar əmirlərinə mühasirədən əl çəkib Qarabağdan vaz keçmək əmrini verdi. Uzun illər o hüdudlarda yaşamış və bu diyarın mənfəətini əldə etmiş Qacar eli osmanlılara tabe olmaq istəmədi. Onlar ayaqlarını yerə basıb mühasirədən əl çəkmədilər. Həmin vaxt sülh müqaviləsini hazırlamaqla məşğul olmuş osmanlı sərdar Fərhad paşanın iqamətgahı Ərzurumda idi. O, həmin xəbəri eşidən kimi öz nümayəndəsini şahın hüzuruna göndərərək mühasirə məsələsini yerinə qoymağı israrla tələb etdi. Şah qacarlardan bir etibarlı adamı qacar əmirlərinin yanına yollayıb Qarabağdan əl çəkməyin dövlətin mənafeyi üçün mühüm olduğunu onlara xatırlatdı və eyni vaxtda Qarabağın əvəzinə istədikləri yeri özləri üçün seçməyi onların ixtiyarına buraxdı. Qacar əmirləri dövlətçilik naminə şahın sözünə riayət edib müxtəlif yerlərə səpələndilər. Bu hadisələr cərəyan edərkən Məhəmməd xan Ziyadoğlu-Qacar əsir düşdü. Onu İstanbula aparıb həbsxanaya saldılar. O, bir müddət belə qaldı və müqavilə bağlanandan sonra Sultan

Murad xanın əmri ilə azad edilib Bağdada gəldi, oradan şahın hüzuruna yetişmək şərəfinə nail oldu, hökmdar tərəfindən əzizləndi və sonda Ərdəbilə yollanaraq orada məskən saldı. Lakin Məhəmməd xan Gəncəni geri qaytarmaqdan ümidini kəsmədi və bir gün bu şəhəri rumlulardan alıb yenidən oranın hakimi olmaq üçün fürsət axtarırdı. Həmin arzu 1015-ci ildə[1] Böyük Şah Abbasın* əli ilə Gəncənin fəth edilməsi nəticəsində gerçəkləşdi və Məhəmməd xan Ziyadoğlu-Qacar oranın hökuməti başına gətirildi."[2]

Lakin biz yenidən Məhəmməd xanın məhbus olduğu vaxta qayıdırıq. 1007-ci ilə qədər Şah Abbas əsasən özbəklərin Xorasandan qovulmasına məşğul olmuşdu. O, bu mübarizədən qalib çıxandan sonra Heratdan hərəkət etdi, ardınca Hüseyn xan Ziyadoğlu ilə bir yerdə Məşhəddən Astrabada gəldi. Şah Abbas orada Hüseyn xanı Astrabadın hakimi yerinə seçdi, özü isə Mazandarana yola düşdü.[3]

Ölkənin şərq sərhədlərini möhkəmləndirəndən sonra Şah Abbas üzünü Osmanlı qəsbkarlarına çevirdi və 1012-ci ilin rəbiüləvvəlində[4] Səfəvilərin ordusu Təbrizlə Naxçıvanı azad etdi[5] və bunun ardınca 1014-cü ilin məhərrəm ayında[6] İrəvan İrəvan şəhəri də İran döyüşçülərinin əlinə keçdi.

O zaman padşah Hüseyn xan Ziyadoğlu-Qacarı mərkəzi Gəncə şəhəri olmaqla Qarabağın hakimi təyin etmişdi və Hüseyn xan osmanlılar tərəfindən Gəncə bəylərbəyi yerinə qoyulmuş Davud paşanın rəhbərliyi altındakı qoşunun yolunu kəsib İrəvanda döyüşənlərin köməyinə gəlməyinin qabağını almışdı. Lakin sonra Qarabağda təkbaşına vuruşmaq məcburiyyətində qalmış Hüseyn xan Davud paşanın

---

[1] Miladi təqvimilə 1607

[2] Rza Cahansuz. "Qacarların yüksəlişi tarixi". ss. 44-45.

[3] "Şah Abbasın həyatı". s.126.

[4] Miladi təqvimilə avqust-sentyabr 1603

[5] "Şah Abbasın həyatı". 161-162.

[6] Miladi təqvimilə may-iyun 1606

yeddi minlik ordusunun qarşısında tab gətirə bilməyib Araza tərəf çəkilmişdi. Hüseyn xan tərəfindən səfərbər olunmuş qəbilələrdən birinin döyüşçüləri  bu hərəkət zamanı xəyanət edib ordunun bütün ləvazimatını və şey-şüyünü oğurlayıb aparmışdılar. Əlinin altındakı vəfalı əsgərlərin miqdarı beş yüznəfərdənartıqolmayan Hüseyn xan Ziyadoğlu Araz çayının sahilində dayandı. Davud paşa da Gəncəni zəbt edib orada mövqe tutdu.

Şah Abbas* İrəvanı ələ keçirəndən sonra düşmənlərdən və Hüseyn xana xəyanət edənlərdən qisas almağı, şəxsi mənafei xatirinə şahsevənləri (yəni Hüseyn xanın tərəf-darlarını) atıb gedənləri cəzalandırmağı vacib bildi.[1] O, düşməni İrəvandan qovandan sonra 1015-ci ilin səfər ayının 29-da[2] Gəncəni də fəth etdi. Gəncə ələ keçəndən sonra Qarabağ da asanlıqla azad edildi. Şah Abbas* Gəncə ilə Qarabağın üzərində öz hakimiyyətini bərqərar edəndən sonra Hüseyn xan Ziyadoğlu-Qacarın əvəzinə oranın hakimi yerinə Məhəmməd xan Ziyadoğlu-Qacarı gətirdi.[3] Yuxarıda qeyd etdiyimiz kimi, Məhəmməd xan Gəncənin Osmanlı qüv-vələri tərəfindən işğalından qabaq da (yəni 996-cı ildən) o bölgənin hakimi olmuşdu, lakin sonradan döyüşdə əsir düşmüş və bir müddət Rum ölkəsində dustaq qalmışdı. O, yalnız Şah Abbas* tərəfindən Gəncənin azad edilməsi nə-ticəsində yenidən həmin yerə təyin olunmuşdu və Ziyadoğlu-Qacar nəsli ikinci dəfə Qarabağa və onun mərkəzi Gəncəyə hakimlik etməyə başlamışdı. “Xülasətüs-siyər” kitabında İkinci Şah İsmayılın vaxtında Yusif xanın ölümünə işarə ediləndən sonra bu barədə belə yazılmışdır:

“Şah Təhmasib Səfəvinin zamanında Qarabağa və Gəncəyə hökmranlıq etmiş Xəlil xan bin Şahverdi sultanın

[1] “Şah Abbasın həyatı”. s.168.
[2] Miladi təqvimilə 5 iyul 1606
[3] “Şah Abbasın həyatı”. s.191.

(İbrahim xanın qardaşı oğlu) oğlu Məhəmməd xan həddi-büluğa çatandan sonra ata-babalarının ölkəsi Qarabağa varis oldu. O vilayətdə məskunlaşan kimi rumәsilli sərdarlarla davaya girişdi, onların qalalarını aldı. Lakin sonda müxalif qüvvələr[1] onu doğma vətənindən didərgin saldılar. Onda o, Kaxet haklimi Aleksandr xan Gürcinin* yanına getdi və Aleksandr xan Məhəmməd xanın qollarını bağlayıb İstanbul ölkəsinə, xotkarın yanına yolladı. O, həmin yerdə uzun müddət Yeddiqala qalasında dustaq qaldı, axırda Tanrının sonsuz lütfü və şahənşahın xoş münasibəti sayəsində o təhlükədən qurtuldu və ərş astanını öpmək şərəfinə nail oldu. Bir az keçəndən sonra Əlinin (ə) davamçıları məskəninin şanlı padşahı Gəncə qalasını rumluların əlindən azad edib adıçəkilən Məhəmməd xanı oraya bəylərbəyi qoydu. O da iftixar bayrağını göylərə qədər yüksəldib səyini ölkənin abadlanmasına və qoşunun yaraqlanmasına yönəltdi”.[2]

Məhəmməd xan Gəncənin 29 səfər 1015-ci il[3] tarixdə azad olunması günündən 1024-cü ildə[4] gürcü üsyançıları ilə döyüşdə qətlə yetirilənə qədər Gəncə hökumətinin və Qarabağ bəylərbəyliyinin başında durdu. Məhəmməd xan Ziyadoğlu-Qacar İranın sərhədlərini qorumaqda göstərdiyi igidliyi və fədakarlığı ilə bu nəslin tarixinə daha bir şanlı səhifə yazdırdı. O barədə aşağıda bəhs olunur.

Hələb şəhərində qoşun yığmaqla məşğul olan osmanlılarla üz-üzə gəlməyi qarşısına məqsəd qoymuşŞah Abbas 1615-ci il yayının başlanğıcından Azərbaycanda ordu təşkil etməsinə əmr verdi. O, bu işi divanbəyi, yəni, müasir aləmdə ölkənin daxili işlər vəziri Əliqulu xan Şamluya tapşırdı və eyni vaxtda Qarabağ hakimi Məhəmməd xan Ziyadoğlu-

---

[1] Yəni Osmanlılar

[2] “Xülasətüs-siyər”. s.323.

[3] Miladi təqvimilə 5 iyul 1606

[4]Miladi təqvimilə 1615

Qacara onun nəzərində müdafiə üçün yararsız olan Gəncə qalasını tamamilə dağıdıb bütün hərbi qüvvələri ilə Tiflis şəhərində onlara qoşulmağı əmr etdi. Bu bir ehtiyat tədbiri idi, çünki Şah Abbasın keçən ilki hərbi yürüşə cavab olaraq Öküz paşanın öz qoşunu ilə Gürcüstanda hərəkətə keçməsi xəbəri gəlib onlara çatmışdı. Alaverdin gürcüləri öz dini bayram mərasimini yerinə yetirdikdən sonra Davud bəy Vəkilin və Təhmasib adlı birisinin təhriki ilə iranlıların bir silahlı dəstəsinin başına qətliam gətirdilər və bu hadisə üsyanın başlanğıcına işarə oldu.

Davud xan o saat Təhmurəs xanı[1] yanına çağırdı. İranın məşhur sərkərdəsi Allahverdi xanın* oğlu Davud xan mərkəzi Gəncə şəhəri olan Qarabağın bəylərbəyi idi. O, tuşqan yıl 1036-cı ildə[2] Şah Abbas tərəfindən bu yerə təyin olunmuş və Şah Səfi hakimiyyətə gələndən sonra oradan kənarlaşdırılmışdı.[3] Cümşid Givinaşvili özünün "İran-Gürcüstan araşdırmaları" kitabında Davud xanın həmin yerə h.q. 1034-cü (m. 1625-ci) ildə seçildiyini göstərir. Adıçəkilən mənbədə deyilir ki, Davud xan 1631-ci ilin əvvəllərində Şah Səfinin qəzəbiinə tuş gələrək Gürcüstana qaçmışdı. Davud xan Kaxetə çatan kimi öz silahdaşlarına o bölgədəki qızılbaşların üzərinə hücum etməyi əmr etdi. Bektaş yüzbaşı qorçunun başçılığı altında olmuş qızılbaşlar sayca az olduqlarından son adamadək qətlə yetirildilər. Üsyan Kaxetdən Şirvana keçdi. Yerli hakimlərdən Vəli Məlik ləqəbi ilə məşhur Məlik Piri adlı birisi Dağıstana qaçmaq üçün fürsət axtarırdı və öz qəbilələrini Təhmurəsin tərəfinə çəkdi.

---

[1] Təhmurəs xan – Birinci Teymuraz, Kaxetin valisi. Onun bacısı Davud xanın zövcəsi idi. Davud xan və qardaşı İmamqulu xan Allahverdi xanın oğulları olmuşdular. Bax: Cümşid Givinaşvili. "İran-Gürcüstan araşdırmaları". s.59.

[2] Miladi təqvimilə 1627

[3] "Səfəvilər dövründə əyalətlərin nizamı". s.51.

Vəli Məlik rəhbərləri Məhəmmədhüseyn sultan Şirvani olan Ərş qaladakı İran silahlı dəstələrini tamamilə məhv edə bilərdi, amma o, qırqlular və zülqədərlular üzərində qələbə çalmağa müvəffəq olmadı. Azərbaycanda Bəradust kürdləri gürcülərə baxıb qəflətən Dimdim qalasını ələ keçirb onun bütün müdafiəçilərini öldürə bildilər. Qalanın əmiri Qurban xan Bigdeli o vaxt qalada olmamışdı. Bu həmlənin nəticəsində kürd tayfalarının çoxusu itaətsizlikdən dəm vurdular. Dimdim qalası asanlıqla, doqquz gündən sonra süquta yetdi və Marağa hakimi Ağasultan Məhəmmədin qoşununun əlinə keçdi, Təbriz hakimi Pir Budaq xan ortaya çıxdı və Gürcüstandakı iş çətinləşdi, çünki Şah Abbas* Teymurazın* və Vəli Məlikin üsyanından xəbər tutan kimi İsfəndiyar bəy Ərəbgərlunun rəhbərliyi altında bir dəstə tüfəngçini Əliqulu xan Şamlunun yanına göndərdi və onu Gürcüstandakı üsyanı yatırtmağa məmur etdi. Əliqulu xan özünün on beş min nəfərlik orusunu Tiflisə qədər çatdırdı, ancaq əlinin altında altı min nəfərdən çox olmayan Teymurazın* üstünə getmək üçün Tiflisdən çıxarkən onun hücumuna məruz qaldı. Gürcülərin silahlı süvariləri onun üstünə elə cumdular ki, aralarında hərc-mərclik və nizamsızlıq yarandı və hamısı üzü Tiflisə qaçdılar. Gürcü süvariləri qaçanları təqib edərək bir çoxunu sıradan çıxartdılar. İran ordusu orada ağır məğlubiyyətə uğradı, çoxlu döyüşçü və bir neçə əmir, o cümlədən Məhəmməd xan Ziyadoğlu və Kuhidümün hakimi Hüseyn xan Gilani öldürüldülər. Əliqulu xan Məhəmməd xan Ziyadoğlunun oğlu Mürşidqulu bəyi qacar döyüşçüləri və tüfəngçilərlə Tiflisdə qoyub özü ordunun qalan hissəsi ilə Gəncəyə getdi və oranın dağıdılmış evlərində mövqe tutdu. Bundan sonra o, buradan Şah Abbasa başına gələnləri haqqında hesabat göndərdi.[1] "Şeyx Səfidən Şah Səfiyədək" kitabında sözügedən hadisələr belə təsvir olunur:

---

[1] Lüsyen Lui Blan. Göstərilən əsər. ss. 251-252.

“Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu-Qacar çarxçıları[1] irəli göndərib özü sağ və sol cinahlara başçılıq edirdi. Bu vaxt Təhmurəs özünün altı min nəfəri ilə çarxçıların üstünə cumdu və qızılbaşların ordusu bu zərbəyə tab gətirə bilməyib dağıldı. Bir tərəfdən Peykər Sultan, Dəlir Məhəmməd və digər əmirlər yenildilər, Məhəmməd xan Ziyadoğlu-Qacar və başqaları şəhadət dərəcəsinə yetişdilər.”[2]

Məhəmməd xan müharibədə göstərdiyi fədakarlıqdan əlavə ölkənin divan və hökumət işlərində də yaxından iştirak edirdi. Pavel Luft Şah Səfinin dövründə baş vəzir işi öhdəsində olmuş Saru Təqinin* səriştəsini və bacarığını şərh edərkən belə yazır: “Saru Təqi h.q. 1044-cü ildə (m.1634) baş vəzir işini yerinə yetirirdi. O, həmin dövrdə sarayın ən məşhur və nüfuzlu şəxsiyyətlərindən biri idi. Birinci Şah Abbas bu kasıb, lakin çox səriştəli və fəal gəncə bənd olub daim onu nəzarət altında saxlayardı. Saru Təqi İsfahana gəlməmişdən qabaq Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlunun vəziri kimi fəaliyyət göstərdiyi vaxt dövlət işlərində məlumat və təcrübə əldə etmişdi.[3]

Şah Abbas həmin döyüşlərdə gürcülərin və kürdlərln qızıl-başları qırması və Məhəmməd xan Ziyadoğlunun öldürülməsi xəbərini eşidəndə həm osmanlıların, həm də bu qiyamçıların başını əzmək qərarına gəlir. O, 1616-cı ilin martın əvvəlində Luarsabı Astrabada göndərərək göz altına

[1] Çarxçılar – ordugah salmaq üçün mövqe seçmək, düşmən qüvvələrinin vəziyyəti və tərtibi haqqında məlumat toplamaq, yollarda kəşfiyyat aparmaq üçün ordunun önünə göndərilən xüsusi silahlı dəstə. Çarxçıların rəhbərinə “çarxçıbaşı” deyərdilər. O, döyüş vaxtı tüfəngçilərin rəhbəri “tüfəngçibaşı” ilə birlikdə əməliyyatlar apardı. (bax: Nasir Təkmil Humayun. “Müasir İran tarixi – qoşunda təkamül”. Tehran. “Dəftərepəjuheşhaye-fərhəngi”).

[2] “Şeyx Səfidən Şah Səfiyə qədər”. s.207.

[3] Pavel Luft. “İran İkinci Şah Abbasın dövründə”. s.142.

alır, İsa xanı Dəmavəndə yollayır, özü isə Fərəhabadı tərk edib Gilan-Ərdəbil yolu ilə Qarabağa irəliləyir. Bütün əmirlər Gəncədə toplaşırlar. Şah Pir Budaq xanı və Gənc Əli xanı osmanlı sərhəddini qorumaqdan ötrü Azərbaycana göndərir və qoşunun qalan hissəsi ilə Tiflisə daxil olub oranı davasız ələ keçirir. Hökmdar Luarsabın nəvəsini, Şah Təhmasibin vaxtında oranın tiyuldarı olmuş Kartvel xanı Baqrat Mirzəni taxtda əyləşdirir və bundan sonra Kaxet ölkəsində ordugah salır. Şah Abbasın* ordusu Kaxetə yaxınlaşanda Teymuraz Başaçığa qaçıb oranın xanına pənah aparır. Nəhayət, Şah Abbas gürcü üsyançıları üzərində zəfər çalır. Bu əməliyyatda altmış min gürcü öldürülmüş, yüz otuz min nəfərə yaxın isə əsir alınmışdı.[1]

Bundan sonra Şah Abbas İrəvanı mühasirəyə almış osmanlıları ağır məqlubiyyətə uğratdı və Kaxetdəki üsyançıları yenməyə yollandı. Bu hücumun nəticəsində on min gürcü əsir düşdü. Bunun ardınca ordu ikinci dəfə Zakum bölgəsinə keçdi və üç min gürcü ailəsini Mazandarana köçürtdü. Bundan qabaq əsir alınanlar da onlarla bir yerdə köçdülər.[2] Beləliklə, Şah Abbas osmanlıların İran sərhəddinə təcavüz edən zaman onlarla əlbir olanları cəzalandırdı, osmanlıların özlərini də ağır məqlubiyətə uğratdı.

Məhəmməd xan Ziyadoğlu öldürüləndən sonra Gəncə üzərində hakimiyyət (Qarabağ bəylərbəyliyi) onun böyük oğlu Mürşidqulu xana həvalə edildi. Mürşidqulu xan Ziyadoğlu-Qacar hakimiyyətin başında olarkən rəiyyətlərin könlünü ala bilmədi və Şah Abbas ondan ümidini kəsib yerini Mürşidqulu xanın kiçik qardaşı Məhəmmədqulu xana verdi. Adıçəkilən xan hələ cavanlıq çağında olduğuna görə

---

[1] "Şah Abbasın həyatı". ss. 253-254.
[2] Həmin əsər. ss. 257-258.

öz işini vəzir-vəkillə məsləhətləşib görərdi və Qarabağ vilayəti uzun müddət əminamanlılq şəraitində qaldı.[1]

Məhəmmədqulu xan Ziyadoğlunun 1624-cüilədək Qarabağın hakimi olması məlumdur, çünki onun adı Şah Abbasın sərdarlarından olmuş və Kaxetdə gözlənilən üsyanı yatırtmaq məqsədilə şahın əmrinə əsasən həmin il oraya yollanmış Qaraçaqayla birlikdə çəkilir.[2] Məhəmmədqulu xanın adını həmçinin 1678-ci ildə osmanlılarla davaya göndərilmiş ordu rəhbərlərinin sırasında görmək olar.[3] "Xülasətüs-siyər" kitabında yazılana görə, Məhəmmədqulu xan sonradan Şah Abbasın gözündən düşdü və nəticədə şah hakimiyyəti Ziyadoğlu ailəsindən alıb Allahverdi xan Gürcinin* oğlu Davud xana verdi. "Xülasətüs-siyər"in müəllifi bu barədə belə yazır: "... O [Məhəmmədqulu xan], iftiraçıların sözünün qurbanı olub doğma diyardan uzaq düşdü və Allahverdi xanın oğlu Davud xan həmin vilayətə təyin edildi".[4]

Məhəmmədqulu xan hakimiyyətdən tuşqan yıl[5] 1037-ci ildə[6] uzaqlaşdırıldı. Həmin tarixdə Davud xan Qarabağ vilayətinə təyin olundu.[7] Şah Səfi səltənət taxtına əyləşəndən sonra Davud xan Qarabağın hakimiyyətindən kənarlaşdırıldı.[8] Bunun tarixçəsi belədir.

---

[1] "Xülasətüs-siyər". s.324.
[2] "Şah Abbasın həyatı". s. 259.
[3] Həmin əsər. ss.309-310.
[4] "Xülasətüs-siyər". s.324.
[5] Tuşqan yıl – dovşan ili, qədim türk təqvimində on ikiillik dövrün dördüncü ili.
[6] Miladi təqvimilə 1627/28
[7] Məhəmməd Tahir Vəhid Qəzvini. "Tarixi-cahanarayi-Abbasi" (və ya "Abbasnamə"). s.219.
[8] "Səfəvilər dövründə əyalətlərin nizamı". s.51.

Şah Səfi 1629-cu ildə İsfahanın darğası olmuş və Sam Mirzənin[1] taxt-taca gəlməsində mühüm rol oynamış Xosrov Mirzə Baqrationa[2] şahanə lütf ilə hüsn-rəğbət göstərib onu qullarağasıbaşı vəzifəsinə təyin etmişdi. Davud xan bunu eşidəndə çox qəzəblənmiş və Bağdada qoşun yeridilən zaman təşkil olunmuş ziyafətdə Şah Səfinin hüzurunda təzə qullarağasıbaşının işini məsxərəyə salmışdı. Şah Rüstəm xanın* xatirinə Davud xanı məclisdən xaric etdi, Davud xan da Gürcüstana qaçdı.[3] Bundan sonra o, öz qaynı Birinci Teymurazla* birləşib mərkəzi hökumətə qarşı fəaliyyət etməyin yolunu axtardılar. Əlbəttə, belə addımlar bundan qabaq da atılardı. Gürcü və erməni qaynaqlarda Davud xanın 1623-cü ildə Kaxetin Mastaqopi adlı yerində baş vermiş üsyanın təşkiltçıları ilə əlaqəsi olduğu göstərilir. Davud xan 1625-ci ildə[4] mərkəzi Gəncə olmaqla Qarabağ bəylər-bəyliyinə təyin ediləndən sonra Kaxetin valisi Birinci Teymurazla*, habelə Kaxetin və Kartvelin mərkəzdən uzaqlaşmaq və ayrılmaq məqsədini güdən digər nüfuzlu tayfaları ilə əlaqələrini gizlətməyi məsləhət gördü və ələl-xüsus Şah Abbasın ölümündən sonra İranın daxili siyasətində vaqe olan dəyişiklikləri ilə cərəyanları və eyni zamanda Səfəvi-Osmanlı münasibətlərini müşahidə etmək yolunu tutdu.[5]

Gürcülərin Gəncədəki qonşusu Ziyadoğlu-Qacar eli ilə münasibətləri heç də yaxşı deyildi və aralarında tez-tez dava düşürdü. İş o yerə çatdı ki, on yeddinci əsrin dördüncü onilliyinin əvvəllərində, daha dəqiq desək, 1733-cü ildə daim

---

[1] Yəni Şah Səfinin

[2] Yəni Rüstəm xana

[3] "İran-Gürcüstan araşdırmaları". ss.60-61.

[4] Bu tarixi (h.q. 1036-cı ilə müvafiqdir) Cümşid Givinaşvili "İran-Gürcüstan araşdırmaları"əsərinin 61-ci səhifəsində göstərir, lakin "Səfəvilər dövründə əyalətlərin nizamı" kitabında (s.51) Davud xanın təyinatının 1626-cı ilə (h.q. 1035) təsadüf etdiyinə işarə vardır.

[5] "İran-Gürcüstan araşdırmaları". s.61.

mərkəzi hökumətə qarşı həmahəng fəaliyyətlərini gücləndirməyi düşünən Kaxetin valisi Birinci Teymurazla* Davud xan Qərbi Gürcüstanın bir qisminin hökmdarı Aleksandrla*, Qərbi Gürcüstanın bölgələrindən olan Odişinin hökmdarı Levan Dadiani ilə, eləcə də Mesxeti və Karletinin hökmdarı ilə birləşərək Gəncəyə və bütün Qarabağ əyalətinə hücuma keçdilər və o bölgəni qarət edib qacar elindən yeddi yüz nəfəri qətlə yetirdilər. Həmin əməliyyatda erməni yepiskopu da öz silahlı dəstəsi ilə iştirak etmişdi.[1]

Bu hadisənin ardınca Davud xan öz ailəsi ilə Birinci Teymurazın yardımından istifadə edərək bir müddət Gürcüstanın Qori şəhərində qaldı, sonra isə osmanlıların əlində olan torpaqlara köçdü.[2]

Gürcülərin bu Gəncə yürüşündən bir az öncə, yəni 1631-ci ilin oktyabr ayında, Şah Səfi 1628-ci ildə Şah Abbas tərəfindən hakimiyyətdən kənarlaşdırılmış Məhəmmədqulu xan Ziyadoğlu-Qacarı yenidən Qarabağın və Arranın hakimi yerinə təyin etmişdi.[3] Bəzi rəvayətlərdə Məhəmmədqulu xanın bu təkrar təyinatı barədə belə nəql olunur:

"Gürcülərlə döyüşdə Qarabağ Qacarlarından bir dəstə öldürüləndən sonra və bunun ardınca gürcülərin özləri darmadağın ediləndən sonra 1042-ci[4] ildə Şah Səfi Məhəmmədqulu xan Ziyadoğlu-Qacarı yenidən Qarabağın əmirülümərası və hökmdarı yerinə təyin etdi. O, Gəncəyə gedib öz hakimiyyətini sürdürdü".[5]

---

[1] Həmin əsər. s.61.
[2] Həmin əsər. s.62.
[3] "Xülasətüs-siyər". s.144.
[4] Miladi təqvimilə 1632/33
[5] Səid Nəfisi. "İranın ictimai və siyasi tarixi". Birinci cild. 1335. s.39.

Mirzə Məhəmməd Tahir Vəhid Qəzvini də "Tarixi-cahanarayi-Abbasi" kitabında piçi yıl[1] 1042-ci ilin (Şah Səfinin taxtı əyləşməsinin dördüncü ili) hadisələrini şərh edərkən bu macəranı belə təsvir edir:

"Bu ildə baş vermiş daha bir hadisə Davud xanın macərası və Təhmurəsin Qarabağa gətirilməsidir. Həmin macəra belə baş verdi. Yunut yıl[2] ilində Davudi-mərdud[3] Bağdad səfərinə çıxdı. O, zəfərçalanı[4] müşayiət edərkən ondan çıxan nalayiq hərəkət səbəbilə onu məiyyətlərin sırasından birbaşa xaric etmək hökmü gəldi. Rüxsət alıb Qarabağa yollanandan sonra özünün çirkin batini hisslərini cilovlaya bilməyərək Təhmurəsi Qarabağ ölkəsinə gəlməyə təhrik etdi. O, özünü müşayiət etməyə göndərilmiş Qacar qazilərinə xatırlatdı ki, Təhmurəs dostluq münasibətini nümayiş etdirmək xatirinə onun yanına gəlir və həmin camaat onun murdar məkrli niyyətindən qafil olaraq hazırlıq və tədarük görmədən Təhmurəsi qarşılamağa çıxdılar. Görüşəndən sonra gürcülər o xoşniyyətli dəstənin böyük hissəsini qılıncdan keçirib həlak etdilər və bunun ardınca Gəncənin və ətraf ərazinin sakinlərini talan və qarət badına verdilər. Davudi-mərdud belə hərəkətindən sonra orada qala bilməyib Təhmurəslə birlikdə Gürcüstana yollanda, oradan da İstanbula üz tutdu. Bu əhvalatı ərz edəndən sonra sipəhsalar[5] sipəhsalar[5] Gürcüstana gedib Təhmurəsi cəzalandırmaq tapşırığını aldı. Qarabağ ölkəsi Məhəmməd xanın oğlu Məhəmmədqulu xana bağışlandı. Sipəhsalarla qullarağası[6]

[1] Piçi yıl – pişik ili, qədim türk təqvimində on ikiillik dövrün doqquzuncu ili.

[2] Yunut yıl – at ili, qədim türk təqvimində on ikiillik dövrün yeddinci ili.

[3] Davudi-mərdud – mürtədd Davud.

[4] Yəni Şah Səfini

[5] Sipəhsalar – ordu başçısı.

[6] Qullarağası – Səfəvilər dövründə, uzun müddət onlardan sonra və hətta Qacarların zamanında qulamların başçısı və şah sarayına ən yaxın

Rüstəm xan* qələbə ilə həmrah olan əsgərləri götürüb Gürcüstana yola düşəndən sonra Kartvelin başçıları bu xoşbəxt ordunun gəlişi xəbərini eşidib Təhmurəsdən üz döndərdilər və onu sipəhsaların yanına gətirməyi qərara aldılar. Təhmurəs həmin işdən xəbər tutub aradan çıxdı və Başıaçıq ölkəsinə qaçdı. Gürcüstan hakimiyyəti isə Rüstəm xana verildi".[1]

Hər halda Məhəmmədqulu xan Ziyadoğlu-Qacarın yenidən Qarabağ hakimi təyin olunandan sonra döyüşlərdə göstərdiyi igidlik və şücaət mövzusu dilə-ağıza düşdü. 1043-cü ildə Şah Səfi Azərbaycan ölkəsinə yola düşüb Van qalasını mühasirəyə alan vaxt Məhəmmədqulu xanın həmin hadisələrdə iştirakı və xüsusilə çərşənbə axşamı günü rəbiüssani ayının yeddisində[2] baş verənlər "Xülasətüs-siyər" kitabının 172-ci səhifəsində yad edilir. Həmin radələrdə Məhəmmədqulu xanın Təbriz darüssəltənəsində şahın hüzuruna yetişməsi də sonrakı səhifələrin birində qeyd olunur.[3] 1045-ci ilin səfər ayında[4] isə Məhəmmədqulu xanın İrəvan qalasının fəthində və osmanlıların oradan qovulmasında iştirak etməsi haqqında bəhs olunur.[5]

Məhəmmədqulu xanın Qarabağdakı hakimiyyəti Şah Səfinin hökmranlığının sonuna qədər, yəni 1642-ci ilədək

---

adamlardan biri olmuşdur. Onu ad-san sahiblərindən seçərdilər, ləqəbi "rüknüddövleyi-Əliyyeyi-aliyyə" və "alicah" idi, qorçubaşıdan sonra yer alardı və qulamların işinə baxardı. (Bax: "Müasir İran tarixi – qoşunda təkamül". Birinci cild. s.41). Qullar (və yaxud qulamlar) uşaqlıqdan sarayda böyüyüb tərbiyə almış və ölkənin xəzinəsindən məvacib alan çərkəz, gürcü, erməni, dağıstanlı və bəzən zənci qulamları (Bax: həmin əsər. s.39).

[1] "Tarixi-cahanarayi-Abbasi". s.248.

[2] Miladi təqvimilə 11 oktyabr 1633

[3] "Xülasətüs-siyər". s.175.

[4] Miladi təqvimilə iyul-avqust 1635

[5] "Xülasətüs-siyər". s.215.

davam etdi və ondan sonra İkinci Şah Abbasın* dövründə, 1642-1667-ci illərdə də o, həmin vəzifədə qaldı.[1]

Məhəmmədqulu xandan sonra onun kiçik qardaşı Mürtəzaqulu xan hakimiyyətə gəldi.[2] "Xülasətüs-siyər" kitabının müəllifi Məhəmməd Məsum bin Xacəgi İsfahaninin həyatından bəhs edilərkən belə yazılır:

"İkinci şah Abbasın hakimiyyətinin dördüncü ilində, yəni 1056-cı ildə[3], Qarabağ (Gəncə) bölgəsinə gəldi, qoca vaxtında Mürtəzaqulu xan Ziyadoğlu-Qacarın vəziri yerinə gətirildi və "Təzkireyi-Nəsrabadi" kitabının müəllifi Məhəmməd Tahir Nəsrabadinin sözünə görə həmin yerdə vəfat etdi".

Bu məlumata istinad edərək belə nəticəyə gəlmək olar ki, İkinci Şah Abbasın padşahlığının dördüncü ilində Məhəmməd Məsum Qarabağa gəlmiş və Məhəmmədqulu xan vəfat etmişdi, çünki Məhəmməd Məsum Mürtəzaqulu xanın vəziri yerinə göndərilərək bu diyara gəlmişdi və Gəncədə Mürtəzaqulu xanın xidmətinə yetişmişdi. Beləliklə, Məhəmmədqulu xan Ziyadoğlunun ölümü 1056-cı ilə təsadüf edir.

Məhəmməd Tahir Vəhid Qəzvini "Tarixi-cahanarayi-Abbasi" kitabında dövlətin baş əmirləri sırasında Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu-Qacarın adını çəkir.[4] Yuxarıda qeyd olunduğu kimi, "Xülasətüs-siyər" kitabının müəllifi Məhəmməd Məsum bin Xacəgi İsfahani özü Mürtəzaqulu xanın hökumətində yer almışdı. O, öz kitabının ayrı bir bölümünü Ziyadoğlu ailəsinə həsr etmiş və orada Gəncə şəhəri və o zamankı Gəncə hakimi Mürtəzaqulu xan haqqında söz açmışdır. Bölümün əvvəlində belə yazılıb:

---

[1] "Səfəvilər dövründə əyalətlərin nizamı". s.51.
[2] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.152.
[3] Miladi təqvimilə iyul-avqust 1646
[4] "Tarixi-cahanarayi-Abbasi" . s.329.

"...Mən yazıq bəndə aləmin pənah gətirdiyi dərgahdan məhrum olandan sonra tale məni beşinci iqlimdə[1] yerləşən vüsətabad Gəncəyə gətirdi. Avam və alçaq adamların tapdağı altında həmişə yerlə yeksan olmuş o gözəl məskən, əlhəmdülillah, bizim zəmanədə cənnət bağları ilə rəqabət aparan bir nümunəyə çevrilmiş, geniş ərazisi cənnət məkanına bərabər olmaqdan dəm vurar, ənbər ətirli torpağı müşksaçan nafə ilə bəhsəbəhsə girər. Bu ölkənin uzunluğunu ölçüyə gətirəndə bir fərsəxə[2], eni isə yarım fərsəxə bərabərdir və bu ərazidə behiştvari bağ-bostanı olmayan bircə qarış torpaq gözə dəyməz və hər evin sakinləri böyük çaydan bəhrənələrlər ... Mən cənnət bağına bənzər o bustanda məskən salanda qüdrətli xanların içində tayı-bərabəri olmayan, uğurlu xanların ən əzəmətlisi, cavan bəxtli, qələbə fikirli, bacarıqlı, bilikli və döyüşkən, mübariz və üzüaçıq Mürtəzaqulu xan Ziyadoğlu Müsahib Qacarın (Allah-təala onun şan-şöhrətini qorusun!) astanına yetişmək və xidmətində durmaq şərəfinə nail oldum. O vaxt mən o cənətvari diyarın ortabab bir məntəqədən yenidən tikilmiş və abad məkana çevrildiyini gördüm. O ölkənin rəiyyətləri istirahət beşiyində asudəhal ... və bu bəndə həmin yüksək səviyyəli qəbulunda süfrənin arxasında əyləşəndə ali humayun cənabdan bu nüsxəni düzüb-qoşmaq tapşırığını aldım. O anda mən bu yüksək rütbəli xanın ata-babaları haqqında məlumatı ərz etmə mərtəbəsinə çatdırmağı vacib bildim ki, bütün əhali həmin ali sülalənin sufiliyini, sədaqətini və paklığı qulağına sırğa etsin. Onların göstərdikləri o bəyənilən

---

[1] Qədim coğrafiyaşünaslar bütün dünyanı yeddi iqlimə bölmüşdülər və Mirzə Məsum bəy Gəncə şəhərini beşinci iqlimə aid etmişdi, lakin Bətlemyus Azərbaycanı, Ermənistanı, Arranı və Marağanı dördüncü iqlimdən sayırdı və onun "Yerin surəti" kitabında dördüncü iqlimin təsviri var. (Bax: "Azərbaycan binalarının siyahısı". s.151).

[2] Fərsəx (vəya fərsəng) – təqribən 6 km-ə bərabər olan uzunluq ölçüsü, ağac.

xidmətləri günəşdən belə yuxarı yüksəlsə də və təsvir ilə tərifə ehtiyacları olmasa da, mən onların tarixçələrindən bir bəndi bu yazıya daxil etməyi lazım bildim”.[1]

“Xülasətüs-siyər” kitabının müəllifi Ziyadoğlu sülaləsinin müxtəsər tərcümeyi-halının xatiməsində bunlara işarə edir:

“Buna görə gündən-günə yüksələn bu dövlətin zamanında belə vərasətin və ərazinin darailiyinə məmur olmuş[2] Mürtəzaqulu xanın dövlətinin lap əvvəlindən və, demək olar ki, körpə vaxtından alnındakı gözəlliyi xalq açıq-aydın görürdü və xalqın da sifətində xoşbəxtlik zahir olmuşdu”.

Tuşqan yıl[3] 1073-cü ildən[4] Gəncənin və Qarabağ bəylərbəyliyinin hakimiyyəti Mürtəzaqulu xanın əmisi oğlu Uğurlu xana yetişdi.[5] Bəzi sənədlərdə Uğurlu xan Məhəmmədqulu xan Ziyadoğlunun oğlu kimi göstərilir və bu barədə belə yazırlar:

“Uğurlu xan – Məhəmmədqulu xanın oğlu – əmisinin ölümündən sonra 1074-cü ildə[6] Qarabağın hakimi oldu. Uğurlu xan İkinci Şah Abbasın sarayında divan məmurlarından olmuşdu və siyasi və inzibati işlərdən başqa onun

---

[1] “Xülasətüs-siyər”. s.319.

[2] “darailiyə məmur olmuş” – yəni bu vilayətin hakimiyyətini əlində saxlamışdı. Səfəvilər dövründə darai, bəylərbəyi, əmirülümərа, tiyuldar və ümumən hakim istilahları sinonim kimi işlənirdi. Şah öz əmirlərinin arasından əyalətlərə və vilayətlərə hakimləri seçib təyin edərdi və onlara əmirülümərа və ya bəylərbəyi deyərdilər. Əmirlər ostanın və ya şəhristanın hakimləri idilər və həmin mahalın tiyuldarı və ya, o zamanın dili ilə desək, daraisi olardılar. (Bax: “Şah Abbasın həyatı”. ss. 39-40).

[3] Tuşqan yıl – Dovşan ili, qədim türk təqvimində on ikiillik dövrün dördüncü ili.

[4] Miladi təqvimilə 1662

[5] “Səfəvilər dövründə əyalətlərin nizamı”. s.52.

[6] Miladi təqvimilə 1663

şairlik istedadı da var imiş. O, fars və türk dillərində şeir deyərdi”.[1]

Uğurlu xan İkinci Şah Abbasın şahənşahlığının son dörd ilində də Qarabağ hakimi olmuşdu.[2] O, Şah Süleymanın padşahlığı zamanı (1077-1105)[3] da mərkəzi Gəncə olmaqla Qarabağın hakimiyyəti başında qalmışdı. Uğurlu xanın vəfatı tarixi ehtimalən 1106-cı il olmuşdu, çünki ondan sonra gələn birinci hakim, yəni Kəlbəli xan, Gəncədəki hakimiyyəti 1106-cı ildə ələ keçirmişdi.

Şah Sultan Hüseyn Səfəvi hakimiyyətə (h.q. 1105-1135)[4] gələndən sonra 1106-cı ildə Kəlbəli xan Qarabağın və və Kaxetin hakimi oldu və digər mərhəmət və lütfkarlıq əlamətləri sırasında ona “xocəsteyi-əmirülümərai” və “valayi-əmirülümərai” ləqəbləri verildi.[5] Həmin ildə Kəlbəli xan Ziyadoğlu-Qacarın Qarabağ bəylərbəyi və Kaxet hakimi vəzifələrinə təyin edilməsi münasibətilə şah tərəfindən ona hədiyyələr də əta edildi. Kəlbəli xanın Qarabağa və Kaxetə təyin olunması haqqında fərman bu məzmunda idi:

“Alicah Kəlbəli xan Ziyadoğlu-Qacara Qarabağ ölkəsinin hakimi yüksək rütbəsi, valayi-əmirülümərai ləqəbi, vacib məsələlərdə sərbəst davranmaq hüququ, Gürcüstan səfərinə ezam olunan müzəffər qoşunun dəyərli başçısı vəzifəsi, fəxrli xələtlər, tac, tumar və şahın libasından şərəfli paltar, qiymətli daş-qaşla bəzənmiş qılınc, döyüş günü üçün bir dəst silah, yel süräti ilə qaçan və mükəmməl yaraqlanmış at, Kaxet valilərinəverilən qədim düstur o etibar sahibi sufizadəyə təqdim olunsun...”[6]

---

[1] Əli Pursəfər. “Qacarlar dövründə Qafqazın yerli hökumətləri”. ss.152-153.
[2] “Səfəvilər dövründə əyalətlərin nizamı”. s.52.
[3] Miladi təqvimilə 1666-1694
[4] Miladi təqvimilə 1694-1722
[5] “Səfəvilər dövründə əyalətlərin nizamı”. s.34.
[6] Məhəmməd İbrahim Zeynəlabidin Nəsiri. “Dəsturi-şəhriyaran”. s.56.

"Xubua"[1] məcmuəsindəki 18 saylı sənəddə, fərmanlardan birinin altında Kəlbəli xan Qacarın vurduğu möhürdə aşağıdakılar yazılıbdır:

"Əz tərəfe-şahe-Hoseyninəsəb
Kəlbəli yaft Mosaheb ləqəb"[2]

1114-cü ildə[3] Gürcüstan padşahı Gergin xan* [IX Georgi] Şah Sultan Hüseynə qarşı üsyan qaldıranda şah Gəncə hökmdarı olmuş Kəlbəli xan Ziyadoğlunu ordusu ilə onun üstünə göndərdi. Kəlbəli xan onu məğlub edib bir daha Tiflisi aldı.[4] Belə güman etmək olar ki, Kəlbəli xan Uğurlu xanın oğludur, çünki onun oğlunun adı Uğurlu xan olub və bu hal babanın adını nəvəyə qoymaq adətinə uyğun gəlir. Kəlbəli xan hökuməti illərində, Nadir şah Əfşarın şahənşahlığına qədər Ziyadoğlu nəslinin taleyi aydın deyil.[5]

Şah Sultan Səfəvinin hakimiyyəti sona çatandan sonra və Səfəvilər dövlətinin süquta uğramağının ardınca osmanlılar Azərbaycana və Qafqaza hücuma keçərək İranın şimal-qərb və qərb məntəqələrini Nəhavəndədək işğal etdilər. Osmanlıların mərkəzi Gəncə olmuş Qarabağda və mərkəzi İrəvan olmuş Çuxur-Səəddə hökmranlığı Nadir şah Əfşarın meydana gəlməsi və onun 1148-ci ildə[6] osmanlı qüvvələri üzərinə hücuma keçməsi nəticəsində sona çatdı. Mirzə Məhəmməd Kazım Mərvi "Aləmarayi-Nadiri" kitabının birinci cildində bu barədə belə yazır:

---

[1] M.Xubua – gürcü maarifçilərindən və 1949-cu ildə Gürcüstan muzeyi tərəfindən nəşr edilmiş "Fars hökmləri və fərmanları" kitabının müəllifi olmuşdur (bax: "İran-Gürcüstan araşdırmaları. s.87).

[2] Tərcüməsi:
"Hüseynnəsəb şah tərəfindən Kəlbəli Müsahib ləqəbini aldı"
Mənbə: "Səfəvilər dövründə əyalətlərin nizamı". s.41.

[3] Miladi təqvimilə 1703

[4] "İranın ictimai və siyasi tarixi". s.30.

[5] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.153.

[6] Miladi təqvimilə 1735

“Zamanın sahibqiranı Rum ordusu dənizindəki dalğaların təlatümündən xəbər alan kimi öz əsgərlərinin arasına gəldi. Əvvəl atdan yerə düşdü, ehtiyac üzünü O Şəriksiz Həzrətə tutdu, sifətini zillətlik torpağına sürtdü, ardınca da acizlik və mütilik dili ilə Gecənin və Gündüzün Sahibindən qələbə üçün mədədlə yardımı bu şəkildə istədi:

*Limüəllifihi*

Elahi, toyi rəhbəro rəhnəma,
Toyi cormbəxşaye-hər binəva.
To kərdi məra dər cəhan bərqərar,
To kərdi məra Nadere-ruzqar.
Be İranzəminəm ço kərdi bolənd,
Be fəzlət be do pay rounəq bebənənd.
Məkon pişe-Rumi məra xaro zar,
Be həqqe-Mohəmməd Əba Həşto Çəhar.[1]

“Xülasə, həzrət sahibqiran Həzrət Bari-təalanın dərgahına öz halından şikayət edəndən sonra fərəh tozunu sahibqiranlığın aləmi bəzəyən yanaqlarına səpdi, Allahın köməyi ilə yel sürəti ilə yürüyən günəşvari ata mindi, ən əzəmətli əmirləri və xanları, o cümlədən: İmamverdi xan və

---

[1]Tərcüməsi: *Müəllifin [sözü]*

İlahi, sənsən rəhbər və yolgöstərən,
Sənsən hər zavallının günahını bağışlayan.
Sən məni bu dünyaya gətirdin,
Sən məni dövranın Nadiri etdin.
İran ölkəsini sən ucaltdın,
Sənin fəzlinlə iki ayaq üstdə qalxdılar.
Məni rumluların yanında rüsvay etmə,
Səkkiz ilə Dördün atası Mühəmmədin haqqına.

Burada Səkkiz ilə Dörd on iki imama (ə) işarədir.

Əliqulu bəy Əfşarı, Məhəmmədhüseyn xan Qacarı, Qəni xan Əfqanı, Şəhidqulu bəy Kürdü, Nəcəf Sultan Qaraçorlunu, İsmayıl xan Xüzeyməni, Mügənxan bəy Mərvini, İmamverdi xan Bayatı ... və Lütfəli xanı, Kəlbəli xanı və Fəthəli xanı (o həzrətin qardaşlarını), Kəlbəli xanı, Uğurlu xanı və Həsənəli xan Gəncei Qarabağini ... və həzarə, cəmşidi, qərayi, bəğayiri və qülcai[1] sərkərdələrini və sair əmirlərini və yüksək məiyyətin xidmətçilərini çağırıb hər birinə öz dəstəsi ilə müharibəyə və mücadiləyə hazırlıq görməyi əmr etdi".[2]

1148-ci ildə[3] başlamış bu döyüşlərin cərəyanında osmanlı ordusu ağır məğlubiyyətə uğradı və Gəncə qalasındakı silahlı qüvvələrin başçısı Əli paşa səfər ayının on altısında, Tiflisdəki qüvvələrin başçısı İshaq paşa isə rəbiüləvvəlin iyirmi ikisində bütün döyüş sursatını və topxanasını təhvil verərək təslim oldular. Onun ardınca cümadiyüləvvəl ayının 15-də Teymur paşa və 22-də Hüseyn paşa Qars və İrəvan şəhərlərini təslim edəndən sonra Tiflis müqaviləsinin imzalanması Qafqaz döyüşlərinə son qoydu. Həmin müqavilənin şərtlərinə görə Osmanlı dövləti Qafqazda və Azərbaycanda bütün torpağı İrana qaytardı, özünün şərq ordusunu tərksilah etdi, İran isə öz qüvvələrini Bağdad həndəvərindən geri çağırdı. İranın qərb sərhədləri Gürcüstandan və Qara dəniz sahilindən başlayaraq Ararat [Ağrı dağı] dağlarına, oradan da Kürdüstan dağlarına, Zaqrosa və Fars körfəzinə qədər uzanırdı.[4]

Gəncənin fəthindən sonra Ziyadoğlular yenidən bu şəhərə və Qarabağ bəylərbəyliyinə hakim oldular və 16 səfər 1148-

---

[1]həzarə, cəmşidi, qərayi, bəğayiri və qülcai – Əfqanıstanda yaşayan tayfalar.

[2] Mirzə Məhəmməd Kazım Mərvi (Mərvin vəziri). "Aləmarayi-Nadiri". s. 397.

[3] Miladi təqvimilə 1735

[4]Nurullah Larudi. "Qılınc oğlu Nadir". s.120.

ci il[1] tarixdən Ziyadoğlu Kəlbəli xanın oğlu Uğurlu xan Qacar Qarabağın və Gəncənin hakimiyyətinə, qardaşı Həsənəli xan isə Bərdə əyalətinin hakimiyyətinə sahib oldular. "Ələmarayi-Nadiri" kitabında bu barədə belə deyilir:

"Əmir əziz humayun ölkəni Rum tayfasının kirindən pak edəndən sonra Gəncə sakinlərindən olmuş Kəlbəli xan Ziyadoğlu-Qacarın oğlu Uğurlu xanı Qarabağın və Gəncənin hakimi vəzifəsinə yüksəltdi, adıçəkilənin qardaşı Həsənəli xanı isə Bərdə əyalətinə təyin buyurdu".[2]

Əlbəttə Nadir şah dövlətin başına gələndən sonra Ziyadoğlular nəslinə müəyən mənada pis münasibət göstərdi və nəticədə onların hakimiyyət dairəsi yalnız Gəncə ilə məhdudlaşdı.[3] Tədqiqatçıların bir qismi bunun səbəbini Uğurlu xanın Muğan çölündə onun İran taxtına çıxmağına müxalif olmağında və Ziyadoğlu nəslinin Səfəvilərə meyil göstərmələrində və onların yenidən hakimiyyətə gəlmələrini arzuladıqlarında görürlər. Məhz buna görə Nadir şah İranda hakimiyyəti ələ alandan sonra onların gücünü məhdudlaşdırmağa çalışdı. O vaxt onun bu istiqamətdə gördüyü işlərə nəzər salaq: Qarabağ əhalisinin bir hissəsini Xorasana köçürtdü, Bərgüşadın və bütün Qarabağın məliklərini onların ixtiyarından alıb Azərbaycanın sərdarına tapşırdı, Hulagu xanın Türküstandan gətirdiyi Qazax mahalını və Birinci Şah Abbasın* İraqın Bozcalusundan (Bozçalu?) gətirib Gürcüstan sərhəddində yerləşdirdiyi Bozcalu mahalını Gürcüstan valisinin ixtiyarına verdi. Bu səbəbdən adları çəkilən

---

[1]Miladi təqvimilə 7 iyul 1735

[2]"Ələmarayi-Nadiri". s.409.

[3] Səfəvilər dövründə Gəncə Qarabağ əyalətinin mərkəzi sayılırdı. Buradan belə nəticəyə gəlmək olar ki, Qarabağ da Ziyadoğluların ixtiyarında olmuşdu. Bu mövzuya Zəndilər dövrünə dair kitablarda da işarə olunur və həmin mənbələrdə Ziyadoğluların adı Gəncənin və Qarabağın bəylərbəyləri qismində çəkilir.

xanlar bir xeyli zəyifləyərək təkcə Gəncənin və onun ətrafındakı ərazilərin hakimiyyəti ilə kifayətlənməli oldular.[1]

Qeyd olunmalıdır ki, bundan sonra Kərim xan Zəndin* dövrünədək Ziyadoğlu xanlarına Qarabağ bəylərbəyləri deyərdilər, lakin Kərim xan Zəndin zamanında Qarabağ valisi olmuş və h.q. 1179-cu ildə[2] rəsmən Qarabağ hakimi yerinə təyin edilmiş İbrahimxəlil xanın hökmranlığı tədricən zəyifləyərək yalnız Gəncə ilə məhdudlaşmışdı. Uğurlu xan Ziyadoğlu 1151-ci ilədək Gəncənin və Qarabağın hakimi oldu. Həmin il Nadir şahın* qardaşı İbrahim xan (Azərbaycan ordusunun başçısı) Nadir şahın fərmanı ilə ləzgiləri əzmək məqsədilə Qafqaza yürüş etdi. İbrahim xan Gəncəyə daxil olandan sonra bir neçə gün orada Uğurlu xanın qonağı oldu[3] və iyirmi gündən sonra Gəncə mahalını tərk edib ləzgilərin üzərinə hərəkətə keçdi. İbrahim xanın ləzgilərlə müharibəsi əsnasında baş vermiş hadisələrin şərhində Uğurlu xan və qardaşı Həsənəli xan Gəncənin və Bərdənin hakimləri kimi yad edilirlər.[4] Həmin döyüşlərin cərəyanında Uğurlu xan İbrahim xan Əfşarla bir gündə – 1151-ci ilin şaban ayının 27-də[5] – şəhadətə yetişdi.[6] İbrahim xan öldürüləndən sonra "Nadir şah ləzgilərdən qisasını almaq və onları məğlub etmək üçün 1153-cü ilin zihiccə ayının 26-da Məşhəddən Dağıstana tərəf hərəkət etdi".[7] Nadir şah ləzgiləri darmadağın edərək o tayfadan 12 min

---

[1] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.154.
[2] Miladi təqvimilə 1765/66. Zəndiyyə dövrünün tarixi mənbələrindən məlum olur ki, həmin il Kərim xan Zənd Şiraza yollanarkən İbrahimxəlil xanı Qarabağ valisi vəzifəsinə təyin etdi. Bu barədə sonrakı səhifələrdə bəhs ediləcəkdir.
[3] "Aləmarayi-Nadiri". s.658.
[4] Həmin mənbə. s.669.
[5] Miladi təqvimilə 9 dekabr 1738
[6] Həmin mənbə. s.675.
[7] "Qılınc oğlu Nadir". s.215.

nəfəri öz qoşununa qatdı və üç ildən sonra 1156-cı ildə Dağıstandan qayıtdı. O, geri qayıdan yolda bir dəstə əmirlərlə vilayət hakimlərini xidmət yerlərinə göndərib öz hüzurundan mürəxxəs edir. Bu yerdə Gəncə hakimi Həsənəli xan Ziyadoğlu-Qacarın da adı həmin şəxslərin arasında nəzərə çarpır. "Aləmarayi-Nadirinin" müəllifi bu barədə belə yazır:

"Nadir şah Şamaxıya çatandan sonra öz ordusunu gözdən keçirir və Məhəmmədəli xan Qırqluya on iki min nəfəri verib onu Şirvanın və Dərbəndin ixtiyar sahibi edir. O, daha sonra Qurban bəy Özbəyi və Məhəmməd Rza xan Əfşarı İrəvan məmləkətinin sərdarı yerinə qoyur, Gəncə hakimi Həsənəli xana və Gürcüstan valisi Xancana o məmləkətləri tapşırır və onun özünü müşayiət etmiş Azərbaycan vilayətləri hakimlərini və zabitlərini mürəxxəs edib yola salır".

Nadirin Dağıstandan hərəkətə düşməsi tarixində ixtilaf mövcuddur. "Aləmarayi-Nadiri"nin müəllifi 1156-cı ili göstərir, halbuki "Cahangüşayi-Nadiri"də Nadirin Dağıstandan bazar ertəsi günü, 1156-cı ilin zihiccə ayının 16-da[1] qayıtması qeyd olunur.[2] Ehtimal var ki, 1155-ci il olmalıdır. Uğurlu xanın kiçik qardaşı və Kəlbəli xanın oğlu Həsənəli xan Ziyadoğlu-Qacar Gəncə hakimi olmuşdu. Həsənəli xandan sonra Şahverdi xan Ziyadoğlu hakimiyyəti əlinə aldı. "Xəlifələrin və hökmdarların şəcərənaməsi" kitabında yazıldığına əsasən, Şahverdi xan 1160-cı ildən 1174-cü ilə qədər[3] Qarabağın (Gəncənin) hakimi olub.[4]Onun Həsənəli xan və Uğurlu xanla qohumluq əlaqəsi aydın deyil.

---

[1]Miladi təqvimilə 31 yanvar 1744
[2]"Aləmarayi-Nadiri". ss.868-869.
[3]Miladi təqvimilə 1747-61
[4] Zambaver (Edvard fon). "Xəlifələrin və hökmdarların şəcərənaməsi". s. s. 281.

Bəlkə də o, Uğurlu xanın və ya Həsənəli xanın oğlu, ya da yaxın qohumu olmuşdu. 1162-ci ildə[1] Gürcüstan padşahı Heraklius[2] kələk quraraq o bölgənin bir çox böyük əmirini, o cümlədən Şahverdi xanı əsarətə saldı. Tutulanlar yalnız Şəki hakimi Hacı Çələbinin* və Şamaxı hakimi Ağarəzi bəyin köməyi ilə canlarını əsarətdən qurtara bildilər.[3]

Zəndiyyə dövrünün tarixi qaynaqlarında Şahverdi xandan və qardaşı Rzaqulu xandan bəhs olunur. O cümlədən "Gitigüşa" kitabında[4] 1174-75-ci illərin[5] hadisələrindən söz gedən yerdə bu nəsldən olan xanlar xatırlanır və Qarabağ bəylərbəyi Şahverdi xan Ziyadoğlu-Qacarın qardaşı gəncəli Rzaqulu xanın adı çəkilir.[6] Bu kitabda Azərbaycanın və Qafqazın başçıları ilə Kərim xan Zəndin* görüşünə işarə edilir və onlardan bəzilərinin adları sadalanır:

Fəthəli xan Əfşar, Kazım xan Qaraçadaği, Pənah xan Cavanşir*[7], Nəcəfəli xan və Şahbaz xan Dünbüli, Əhməd

---

[1] Miladi təqvimilə 1749

[2] İrakli

[3] Əli Pursəfər. "Qacarlar dövründə Qafqazın yerli hökumətləri". s.155.

[4] Gitigüşa kitabı – Bax: Mirzə Məhəmməd Sadiq Musəvi İsfahani. "Tarixi-gitigüşa dər tarixi-Zəndiyyə". H.ş. 1393.

[5] Miladi təqvimilə 1760/61

[6] Şahverdi xan gəncəli Cavad xanın atasıdır. Tarixi yazılarda bu məsələyə işarə edilir. Məsələn, Səid Nəfisi gürcü mənbələrinə əsaslanaraq Şahverdi xanın oğlu Cavad xanın Ağa Məhəmməd xan Qacarla h.q. 1209-cu (m. 1795-ci) ildə görüşdüklərini qeyd edir. (Bax: "İranın ictimai və siyasi tarixi". s.312).

[7] Pənah xan Cavanşir İbrahimxəlil xan Cavanşirin atasıdır. 1174-75-ci illərdə baş vermiş hadisərə dair yazılarda Pənah xanın yanında onun hökmranlıq etdiyi vilayətin adının çəkilmədiyinə əsaslanaraq belə bir qənaətə gəlmək olar ki, həmin illərdə Pənah xanın ailəsi hələ Qarabağ hakimiyyəti başında oturmamışdı və mərkəzi Gəncə olaraq Qarabağ hökuməti Ziyadoğlu-Qacar nəslinin əlində idi. Məhz bu səbəbdən tarixi mənbələrdə Ziyadoğlu xanları gah "Qarabağ bəylərbəyi", bəzi hallarda "Gəncə bəylərbəyi" və ya bütün Səfəviyyə və Əfşariyyə dövrlərində

xanın köçü və evi ki, özü Xoy ilə Salmasdan mürəxxəs olaraq durub yeni təyinat gözləmək tapşırığını almışdı, Hacı Əli Məhəmməd xan Marağai, Hacı xan Kəngərlu Naxçıvani, Çuxur-Səəd bəylərbəyi Hüseynəli xan İrəvaninin qardaşı oğulları, Qarabağ bəylərbəyi Şahverdi xan Ziyadoğlu-Qacarın qardaşı Rzaqulu xan Gəncei[1], Əmirgünə xan Əfşar, İrluy Tarəmi, habelə başqa ulusların və elatların, Urumi əfşarlarının, şəqaqilərin və şahsevənlərin ağsaqqallarla başçıları və digər şəxslər ki, münşiyanə fəndlərdən və cəsur mübaliğələrdən uzaq, adıçəkilən ölkənin itaətsizlər zümrəsi idilər, qısa zamanda əl-ələ verib görüşdülər.[2]

Başqa yerdə həmçinin belə deyilir:

Kərim xan Zənd* Marağanı, Xoyu və Salması ələ keçirəndən sonra Urmiya qalasının üstünə yürüş etdi və Fəthəli xan 9 ay Urmiya qalasının divarları içində sığınandan sonra

---

olduğu kimi, "mərkəzi Gəncə olaraq Qarabağ bəylərbəyi" adlandırılmışdılar.

[1] Səfəviyyə dövründə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyi ayrı bir inzibati vahid olmuşdu. Ümumiyyətlə həmin dövrdə bütün İran məmləkəti dörd valilikdən və on üç bəylərbəylikdən təşkil edilmişdi. Bəylərbəyliklər aşağıdakılar idi: Qəndəhar, Şirvan, Herat, Azərbaycan, Çuxur-Səəd, Qarabağ, Astrabad, Kuh-Giluyə, Kirman, Mərvi-Şahcan (Mərvi-Şahcəhan), Qələmrəv Əli Ləşgər, müqəddəs Məşhəd və Qəzvin darüssəltənəsi (Bax: "Müasir İran tarixi – qoşunda təkamül". s.124).

Başqa bir mənbədə də Səfəvilər dövründə İran vilayətlərinin adları çəkilir və əyalətlərin mərkəzləri həmçinin qeyd olunur. (Burada hər əyalət mərkəzinin və hakim iqamətgahının adı əyalətin özünün adı ilə eyni olmasa, mötərizədə göstərilib).

Şirvan (Şamaxı), Qarabağ (Gəncə), Çuxur-Səəd (İrəvan), Azərbaycan (Təbriz), Diyarbəkir (Qaraaməd), Ərzincan, Qələmrəv Əli Ləşgər (Həmədan), İraqi-Əcəm, Kirmanşahan və Kəlhər, İraqi-Ərəb (Bağdad), Fars (Şiraz), Kuh-Giluyə (Bəhbəhan), Kirman, Qəndəhar, Bəlx, Mərv, Məşhəd, Herat, Astrabad. (Bax: "Səfəvilər dövründə əyalətlərin nizamı". s.2).

[2] Həmin mənbə. s.114.

nəhayət 1176-cı ilin şabanında[1] qalanı təslim etdi. Bu məqamda Kərim xan Zənd Tiflisdə olan Azad xan Əfqanı yanına çağırdı və onun gəlişindən sonra İraqa yollandı. Fəthəli xan Əfşarı, Pənah xan Cavanşiri*, Kazım xan Qaraçadağini, Şahbaz xan və Nəcəfqulu xan Dünbülini, Həsənəli xan Qacar İrəvanini, Naxçıvan hakimi Hacı xan Kəngərlini, Gəncə bəylərbəyi Şahverdi xan Ziyadoğlunun qardaşı Rzaqulu xanı və Marağa hakimi Hacı Məhəmmədqulu xanı köçləri və uşaqları ilə öz ətrafına yığıb İraqa gətirdi və bir müddət İraqda dayanandan sonra 1179-cu ildə Şiraza daxil oldu.[2]

"Gülşəni-murad" kitabında[3] Rzaqulu xan Ziyadoğlunun məqamı Gəncə hakimi, Şahverdi xanın məqamı isə Qarabağ bəylərbəyi göstərilir. Onların bir-biri ilə görüşləri Kərim xan Zəndin* Zəki xanı tutmaq məqsədilə Azərbaycandan İsfahana və Kaşana hərəkəti zamanı mübarək qoy yıl[4] 1176-cı ilin rəbiüssaninin səkkizində[5] baş tutmuşdu.[6] Didər tarixi mənbələrdə də Azərbaycanın böyükləri ilə Kərim xan Zəndin görüşünə işarə var və belə yazılır: "1175-79 illərdə[7] Kərim xan o bölgənin, xüsusilə Marağanın, Qaraçadağın, İrəvanın, Çuxur-Səədin və Gəncənin böyüklərinə xüsusi lütfkarlıq

---

[1] Miladi təqvimilə fevral/mart 1763

[2] Əbulhəsən bin Məhəmmədəmin Gülüstanə. "Mücməlüt-təvarix". s.457.

[3] Əbulhəsən Qəffari Kaşani və Mirzə Məhəmməd Bağır Qəffari Kaşani. "Gülşəni-murad". ss.222-223.

[4] Qoy yıl – qədim türk-monqol on ikiillik təqviminin səkkizinci (qoyun) ili.

[5] Miladi təqvimilə 26 oktyabr 1762

[6] "Gülşəni-murad" kitabında Şahverdi xanın görüşü şərh olunarkən 1176-cı ildə Kərim xanla görüşə gələnlərin arasında Pənahəli xanın adının yanında sahib olduğu mənsəb göstərilməyib. Buradan məlum olur ki, həmin il Şahverdi xan Ziyadoğlu-Qacar hələ Qarabağ bəylərbəyi idi.

[7] Miladi təqvimilə 1761-65

nümayiş etdirmişdi”[1]. Buradan belə nəticəyə gəlmək olar ki, Həsənəli xan Ziyadoğlu-Qacarın Gəncədə və Qarabağda hakimiyyəti başa çatandan sonra (Nadir şah Əfşarın padşahlığının sonlarında[2]) Şahverdi xan onun yerinə gəldi. Şahverdi xanın hakimiyyəti 1174-cü ilədək[3] davam etdi və “Xəlifələrin və hökmdarların şəcərənaməsi” kitabında yazılandan məlum olur ki, 1174-cü ildə Məhəmmədhəsən xan meydana gəldi. 1195-ci ildən 1197-ci ilə qədər[4] bir ara dövrüdür ki, bu vaxt Gəncə qarabağlı İbrahimxəlil xana tabe olmuşdu. Ardınca 1198-ci ildə[5] Hacı bəy Gəncədə hakimiyyəti ələ aldı. Hacı bəyin Şahverdi xan Ziyadoğlu ilə qohumluq əlaqəsi aydın deyil. Hacı bəy 1200-cü ilədək[6] Gəncə hakimi oldu və həmin il Şahverdi xanın oğlu Cavad xan Ziyadoğlu Gəncədə hakimiyyətin başına keçdi.[7] Şahverdi xanın hakimiyyətinin sona çatması məsələsinə dair “Xəlifələrin və hökmdarların şəcərənaməsi” kitabında verilən məlumatla Zəndiyyə dövrünün tarixçilərinin yazıları bir-birindən fərqlənir. Məsələn, “Gitigüşa” və “Gülşənimurad” əsərlərində qoy yıl 1176-cı ilin hadisələri təsvir edilərkən Şahverdi xan Ziyadoğlu Qarabağ bəylərbəyi və Gəncə hakimi kimi yad olunur.

Nəzərə çatdırılmalı daha bir məsələ Qarabağ bəylərbəyliyinin Kərim xan Zəndin* hökuməti dövründə vəziyyəti və mövqeyidir. Bu vaxt, Səfəvilərin və Əfşarların dövründə olduğu kimi, Şahverdi xanın adı həmişə mərkəzi Gəncə olan

---

[1] Qulamrza Vərəhram. “Zəndiyyə əsrində İranın siyasi-ictimai tarixi”. ss.95-96.
[2] Nadir şah Əfşarın 11 cümadiüssani 1160 (20 iyun 1747) tarixdə qətlə yetirilmişdi.
[3] Miladi təqvimilə 1760/61
[4] Miladi təqvimilə 1781-83
[5] Miladi təqvimilə 1784
[6] Miladi təqvimilə 1786
[7]“Xəlifələrin və hökmdarların şəcərənaməsi”. s.281

Qarabağ bəylərbəyliyinin başçısı kimi çəkilsə də, Kərim xan Zəndin zamanında Qarabağ bölgəsinin siyasi və coğrafi vəziyyətində müəyyən dəyişikliklərin baş verməsi üzə çıxır. Bu təbəddülatların xüsusiyyətinin və səbəblərinin Arazın o tayındakı bölgənin bir çox amilləri ilə əlaqəsi vardır. Amma aydın olan odur ki, Səfəvilər sülaləsinin 907-ci ildə[1] hakimiyyətə gəlişindən sonra Qafqaz məntəqəsi və özəlliklə Gəncə ilə Qarabağ Səfəvilər nəslinin ixtiyarına keçmişdi. Həmin vaxtlar atası Səfəvilərin tərəfdarı olaraq Anadoludan və Şamdan Azərbaycana gəlmiş Xızır xanın oğlu Ümmət xan Qacar Lahicanda Şah İsmayılın* hüzuruna yetişib onun ardıcılları arasında yer aldı, ondan sonra oğlu Şahverdi xan Şah İsmayılın* hökumət dairəsində nailiyyətlər əldə etdi və Şah Təhmasib Səfəvinin əmri ilə Qarabağın başçısı və Qacar oymağının və elinin bəylərbəyi rütbəsinə yüksəldi.[2] “Səfəvilər dövründə əyalətlərin nizamı” əsərinin müəllifi Röhrborn bu təyinatı 961-962-ci illərə[3] aid edir və Şah Təhmasibin gəlişindən sonra Gürcüstan yürüşündən belə yazır:

“Şah Təhmasib qoşunu Gürcüstana yeritdiyi zaman Gəncədə Şahverdi sultan Ziyadoğlunun evində qonaq olmuşdu. Şahverdi sultan öz tayfanın birinci şəxsi və başçısı idi.O, Qarabağdahakimiyyətə yiyələndi və bu hökmdarlıq hüququ onun ailəsində qaldı. Gürcü qaynaqlarına görə şah bu yürüşdən sonra Qarabağ bəylərbəyliyini təsis etməyə qədəm qoydu və Mukənin (Muğan), Kərəxin (?), Şəmşədillunun (Şəmsəddinlu) və Tiflisin hakimləri üzərində nəzarəti Gəncə hakiminə tapşırdı”.[4]

---

[1] Miladi təqvimilə 1502

[2] “Xülasətüs-seyr”. s.320.

[3] Miladi təqvimilə 1554-55

[4] “Səfəvilər dövründə əyalətlərin nizamı”. s.4.

Buna əsasən Şahverdi xan Ziyadoğlu-Qacarın Qarabağ hökumətinin başına gəlməsi və Qarabağ bəylərbəyliyinin təsis edilməsi tarixi, yəni h.q. 962-ci il[1], məlum olur. Qarabağ bəylərbəyliyi təsis olunduğu gündən onun mərkəzi və hakiminin iqamətgahı Gəncə şəhəri olub. Həqiqətən də, Qarabağ bəylərbəyi eyni vaxtda Gəncə hakimi olmuşdu və Gəncədə otururdu. Ziyadoğlu ailəsinin hökmranlığı Qarabağ bəylərbəyi və Gəncə hakimi adı ilə nəsildən nəslə keçərək Nadir şah dövrünün sonuna qədər davam etdi. Həsənəli xan Ziyadoğlu Nadir şahın* vəfatına qədər Gəncədə hökmranlıq etdi və Qarabağ bəylərbəyi oldu.

Kərim xan Zəndin* dövrünə dair tarixi mənbələrdə də Ziyadoğluların Qarabağ hakimləri olduqlarından geniş yazılır. Məsələn, 1174-75-ci illərdə[2] baş vermiş hadisələr şərh olunarkən Azərbaycan və Qafqaz böyüklərinin Kərim xan Zəndlə görüşləri haqqında bundan əvvəlki səhifələrdə də deyildiyi kimi məlumat verilir və Şahverdi xan Ziyadoğlu-Qacarın qardaşı gəncəli Rzaqulu xanın adı Qarabağ bəylərbəyi qismində çəkilir.[3] Həmin hal o zamankı tarixi qaynaqlarda 1179-cu ilədək[4] müşahidə olunur. 1179-cu ildə isə ilk dəfə Pənah xan Cavanşir* Qarabağ hakimi kimi göstərilir. Pənah xan həmin şəxs idi ki, o vaxtadək Şuşa qalasında oturar və bölgənin mühüm xanlarından sayılardı, lakin adı heç vaxt Qarabağ hakimi kimi çəkilməzdi. Con Rey Perri özünün "Kərim xan Zənd 1174-79-cu illər arasında" adlı əsərində Pənah xan Cavanşirin Kərim xan Zəndlə* yaxın olmasına diqqət çəkir və yazır ki:

"Hicri 1175-ci ilin zilhiccə ayının 15-də ki, miladi 1765-ci ilin iyuluna bərabərdir, Kərim xan ordusu ilə təbrizlilər və

---

[1] Miladi təqvimilə 1555
[2] Miladi təqvimilə 1761-62
[3] "Tarixi-gitigüşa". s.114.
[4] Miladi təqvimilə 1766

yerli hökumət tərəfinfən qarşılanmış və böyük bayram təşkil olunmuşdu. Bir həftədən sonra Kərim xanın Pənah xanın yanına göndərdiyi səfir adı çəkilənin itaət sözləri ilə geri qayıtdı. Bunun ardınca Pənah xan* qəbul olundu və qonşusu Kazım xan Qaraçadağinin üstünə hücuma keçmək əmrini aldı. Pənah xanın Kərim xanla xoş münasibət yaratmaqda israrlı olmağın səbəblərindən biri oğlu İbrahimxəlil xanın Fəthəli xanın Urmiyadakı iqamətgahında qalmağı idi. O, hələ də bir girov qismində o şəhərdə yaşayırdı".[1]

Qarabağlı Pənah xan Cavanşirin* torpağı Qaraçadağla[2] qonşu və onun şimalında yerləşirdi. O, 1163-cü ildən[3] ta Gürcüstan padşahının himayəsi altına girənədək vaxtaşırı gah əfqanlarla, gah da qacar[4] və əfşar tayfaları ilə

---

[1]Con Rey Perri. "Kərim xan Zənd 1174-79-cu illər arasında". s.131.

[2] Qaraçadağ və ya Qaradağ (Arasbaran) bölgəsi Araz çayının cənubunda yerləşir. Həmin çay bu bölgəni Arazın şimalındakı diyardan, yəni Qarabağdan ayırır. Belə bir təbii məkan siyasi sərhədçəkmə əməliyyatının nəticəsində dəyişdi və Qarabağla Araz çayı sahili arasında ayırıcı bir məntəqə təyin olundu. Bu məntəqə coğrafi nöqteyi-nəzərdən Qarabağın bir hissəsi kimi rəsmən tanınmadı. Sabiq sovet Azərbaycan respublikasının bir hissəsi olmuş həmin məntəqədən Qarabağ bölgəsi ilə onun cənubunda yerləşən və İran ərazisinin bir hissəsi olan Qaraçadağ diyarı arasındakı coğrafi əlaqəni kəsmək üçün istifadə etməyi çalışdılar və beləliklə Qarabağ məhdudlaşmış coğrafi bölgə şəklində Azərbaycan cümhuriyyəti sərhədlərinin içində və iki respublikanın, yəni Azərbaycanın və Ermənistanın əhatəsində qaldı. Nəticədə o bölgənin İranla əlaqəsi kəsildi. Lakin aydındır ki, Qarabağ torpağı qədim Arranın bir bölgəsi olmuşdu və Araz çayı onu İranın Qaradağından ayırır.

[3] Miladi təqvimilə 1750

[4] 1757-ci ilin payızında Məhəmmədhəsən xan Qacar Şuşa qalasına yürüş etmişdi. Məqsədi həm İbrahimxəlil xanı yeni müttəfiqlərinin dəstəkləmələrinə mane olmaq, həm də buranı öz təzyiqi altında saxlamaq idi. Təhmurəs və İrakli Qacar xanı ilə ittifaq qurmağa cəhd göstərsələr də, kənara çəkildilər, Şirvanın və İrəvanın hakimləri, eləcə də Gəncə hakimi Ziyadoğlu-Qacar Məhəmədhəsən xana itaət ilə beyətlərini ifadə etdilər. (Bax: "Kərim xan Zənd 1174-79-cu illər arasında". s.102).

düşmənçilik etdiyinə görə məşhur Şuşa qalasında qalmağa məcbur olmuşdu. 1175-ci ilin yayında[1] Kərim xanın qüvvələri Araz çayının sahilinə çatanda o, Kazım xan Qaraçadaği ilə müharibə vəziyyətində idi. Kazım xan Qaraçadaği Nadir şahın* ölümündən sonra əvvəl Azad xana təslim oldu, ondan sonra da digərlərdən asılı vəziyyətdə qalmışdı və Kərim xana tabe olmaq sərəncəmını verməklə öz mövqeyini təsbit etdi. Pənah xan Cavanşir* də Kazım xan kimi özünün Kərim xandan tabe olduğunu elan etdi və Zəndin qüvvələri ilə birlikdə Şiraza qayıtdı. Həmin günlərdə onun böyük oğlu İbrahimxəlil xan[2] Kərim xan Zənd* tərəfindən Qarabağ hakimi adını alaraq onun yerində oturdu.[3] Tarixi qaynaqlardan məlum olur ki, Kərim xan Zənd 1179-cu ildə[4] Şiraza daxil oldu.[5] Buna görə İbrahimxəlil xan Cavanşirin* Qarabağ bəylərbəyi kimi rəsmən tanınması məhz 1179-cu ilə təsadüf edir. Əlbəttə, bəzi tarixi qaynaqlarda Kərim xan Zəndin Şiraza yola düşdüyü vaxt onunla görüşməyə gələn və bəzi başqalarda onunla bərabər Şiraza gedənxanların arasında Pənah xan Cavanşirin* adı çəkilərkən onun Qarabağ bəylərbəyi olması göstərilməmişdi, Şahverdi xan Ziyadoğlu isə Gəncə bəylərbəyi adı ilə qeyd olunmuşdu.[6] Tarixdən məlumdur ki, Pənah xan Cavanşir Şuşa qalasına sığınaraq Qacarların (Ziyadoğluların) Gəncə və Qarabağ üzərindəki

---

[1] Miladi təqvimilə 1762

[2] İbrahimxəlil xan Cavanşir – Pənah xan Cavanşirin oğlu – məşhur Cavanşir elinin dördüncü başçısı idi. Bu el Nadir şahın zamanında Xorasana və Əfqanıstana köçürülmüşdü. İbrahimxəlil xan İranla Rusiya arasındakı ixtilaflarda rusların tərəfini saxlayıb qiyam qaldırdı, lakin sonra peşman oldu. Rus qoşununu və onlara tabe olanları Şuşa qalasında qətlə yetirdilər. (Bax: "Kərim xan Zənd 1174-79-cu illər arasında". s.41).

[3] Həmin mənbə. s.299.

[4] Miladi təqvimilə 1766

[5] "Mücməlüt-təvarix". s.457.

[6] Həmin mənbə. s.457.

hökmranlığını rəsmən tanımırdı.[1] Onun ardınca Pənah xan Cavanşir* də Şuşa ilə Qarabağı tədricən Gəncədən ayırmışdı, yəni təqribən Kərim xan Zəndin* Şiraza hərəkət etdiyi ildən (1179) Ziyadoğluları tədriclə Gəncə hakimi adı ilə yad etdməyə başladılar. Cavanşir ailəsinin Qacarlarla düşmənçiliyi Ağa Məhəmməd xan Qacarın* və Fəthəli şahın zamanında da davam etdi. Belə ki, Ağa Məhəmməd xanın ruslara və gürcülərə qarşı apardığı döyüşlərin cərəyanında İbrahimxəlil xan gürcülərlə bərabər Ağa Məhəmməd xan Qacara və Ziyadoğlulara qarşı birləşdi və son nəticədə elə rusla tərəfindən də öldürüldü.

Ağa Məhəmməd xan Qacar iş başına gələrək Kərim xan Zəndin ölümündən sonra (1193[2]) ölkənin aradan getmiş ərazi və siyasi birliyini bərpa edib İran dövlətinin qüdrətini qərbdən şərqə və cənubdan şimala genişləndirməyi bacardı. Ağa Məhəmməd xan Qafqaz bölgəsində həmçinin İran dövlətinin gücünü və hakimiyyətini möhkəmləndirdi. Bu vaxt hələ Səfəvilər dövrünün başlanğıcından İran hüdudlarının qorunması yolunda daim fədakarlıq göstərmiş, İran dövlətinin Qafqaz bölgəsindəki təsirini həmişə artırmağa çalışmış və Nadir şahın* vəfatından sonrakı dövrdə dəfələrlə gürcülərin hücumlarına və basqınlarına məruz qalmış Ziyadoğlu nəsli[3] onlara qohum olmuş Ağa Məhəmməd xanın və Qacarlar tayfasının güclənməsindən ruhlanaraq öz düşmənlərindən qisas almaq üşün hazırlıq görməyə başlamışdı və elə bu səbəbdən Gəncə hakimi Cavad xan Ziyadoğlu-Qacar öz əcdadlarının yolunu tutaraq İran şahənşahına öz itaətini bildirmiş və Ziyadoğlulara, əslində isə

---

[1]"Kərim xan Zənd 1174-79-cu illər arasında". s.102.

[2] Miladi təqvimilə 1779

[3] Ziyadoğlular 1007-1012-ci illər (1599-1604) arasında iki qola bölündülər: bir dəstəsi Gəncədə qaldı, digəri isə Astrabada getdi. Onların nəvə-nəticələri Gəncədə və Astrabadda (Gürganda) indi də yaşamaqdadırlar.

ümumilikdə İran dövlətinə qarşı üsyan qaldırmış gürcüləri əzməyi Ağa Məhəmməd xan Qacardan* istəmişdi. Cavad xanın hakimiyyət dövrü Ziyadoğluların Aranda başçılıq etmələrinin son mərhələsi oldu və, əlbəttə, bu zaman baş vermiş hadisələr ayrı bir araşdırma aparmağı tələb edir.



***Cavad xanın göstərişi ilə memar Kərbəlayi Sadıqın layihəsi əsasında Gəncə İmamzadə abidəsində inşa edilmiş giriş hissəsi. XVIII əsr.***



# İranla Azərbaycan Cümhuriyyəti arasında əlaqələrdə Ziyadxanov qardaşlarının rolu
## (İran Xarici İşlər Nazirliyinin sənədləri əsasında)

*Doktor Hüseyn Əhmədi*

Səfəvilər dövründən başlayaraq Gəncədə hakimiyyət başında olmuş Ziyadoğlu-Qacar nəslinin təsir hüdudları Tiflisdən Xudafərin körpüsünə qədər ərazini əhatə edirdi. Şiəməzhəb Səfəvi hökmdarlarından olmuş və Səfəvilərin vaxtında qəbul edilmiş hakimlik rütbələri sırasında Gəncənin və Qarabağın əmirülümərа vəl-izam və bəylərbəyi ləqəblərini qazanmış Ziyadoğlular ailəsi Nadir şah Əfşarın* hökumətindən uzaqlaşmağa çalışmışdılar. Muğan çölündə keçirilmiş qurultayda bu nəslin nümayəndələrinin iştirak etməmələrini görən Nadir şah adıçəkilən ailənin təsir gücünü zəiflətmək məqsədilə Qazax-Borçalı mahallarını Gürcüstan hakiminin tabeliyinə keçirtdi, Cavanşir, Otuziki və Kəbirlu elatlarını isə Xorasana köçürtdü və Çələberddən (Cıraberd), Xaçından, Talışdan, Varındadan(?) və Dizakdan (Duzax) beş məliklik düzəldərək erməni məliklərindən hər birinə əşrafi və dərbari ləqəblərini verməklə Qarabağı Gəncədən ayırıb bilavasitə öz nəzarəti altına saldı və hər məlikə, xüsusilə Allahqulu sultana, hesabatı şəxsən özünə təqdim etməyi tapşırdı.[1]

Bütün bu səylərə baxmayaraq Nadir şah adıçəkilən nəslin Gəncədə qazandığı nüfuza xələl gətirə bilmədiyini görəndən sonra bu məqsəddən vaz keçdi, amma onun belə pis niyyətli olmasına rəğmən Ziyadoğlulardan İranın əleyhinə bir hərəkət gəlmədi.

---

[1] Mirzə Adıgözəl bəy. "Qarabağnamə". ss. 6-7;
Mirzə Yusif Qarabaği. "Tarixi-Safi". ss.139 və 183-184.

Ziyadoğluların Gəncədəki hakimiyyəti 1803-cü ildə Sisianovun hücumuna qədər davam etdi.[1]

Ziyadoğlu-Qacar nəslinin və xüsusilə gəncəli Cavad xanın şiəliyə və İrana meyilli olmağı əsasən aşağıdakı amillərdən qaynaqlanırdı:

1. Nadir şahın* 1747-ci ildə ölümündən sonra 50 ilə yaxın İran hökuməti Qafqaz üzərində tam hökmranlığı ələ keçirə bilmirdi. Nəticədə Gürcüstan hakimi Heraklius (İrakli*), Şirvan hakimi Mir Mustafa xan, Talış xanı Mir Mustafa xan*, Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir*, Naxçıvan xanı Kəlbəli xan itaətsizlik və üsyan yolunu tutdular, amma Ziyadoğlu-Qacar nəsli İrana sadiq qaldı.

2. Ağa Məhəmməd xan Qacarın* iş başına gəlişindən sonra Qafqaz bölgəsində əksər xanlar sərbəst hərəkət etməyə başladıqları halda gəncəli Cavad xan Qacar xana qarşı durmadı. O, hətta Gürcüstan hakimi İrakli* və İbrahimxəlil xan Cavanşirlə* mübarizədə Ağa Məhəmməd xanın tərəfini tutdu və Şuşanın mühasirəsində xüsusi səy göstərdi. Ağa Məhəmməd xanı Tiflisə hücum edib o şəhəri almağa sövq edən də məhz Gəncə xanı olmuşdu.[2]

3. Gəncəli Cavad xanın İran tərəfdarları olan ermənilərlə sıx əməkdaşlığı millətpərəstliyin ona xas olmadığına bir işarədir. Məlik Məclum (və ya Məcnun) həmişə İran hökumətinə sadiq qalan erməni rəhbərlərindən olmuşdu və Cavad xanın Şuşanın mühasirəsi və ardınca Tiflisin alınması zamanı onunla birgə hərəkət etməsi diqqətə layiq hadisədir. Pənah xan Cavanşirin* Qarabağda iş başına gəlişindən sonra bir çox erməni Məlik Abunun və Məlik Məclumun başçılığı altında Qarabağı tərk etdilər. Gəncəli Cavad xan h.q. 1202-ci ildə[3] beş yüz erməni ailəsini Şəmkirdə və min ailəni

---

[1] Əbdürrəzzaq bəy Məftun Dünbüli. “Məasirüs-sultaniyyə”. ss.108-109.
[2] Rzaqulu bəy. “Qafqaz haqqında üç risalə”. s. 68.
[3] Miladi təqvimi ilə 1787/88

Şəmşaridə (Şəmşədil?) yerləşdirdi. Sərkis Gəncə ermənilərinin üsqüfi-əzəmi[1] oldu. Cavad xan ermənilər üçün aylıq məvacib təyin etdi və onlar üçün Azlıqlar üzrə İşlər İdarəsini yaratdı. Cavad xanın ermənilərə kömək etməsindən sonra İbrahimxəlil xan Cavanşir* onunla düşmən oldu.

4. Rusiya bu bölgəyə daxil olandan sonra, birinci İran-rus müharibəsi ərəfəsində yerli xanlar bir-birinin ardınca hədə-qorxu hədəfinə çevrildilər, rusların yalançı vədlərinə uyaraq onlarla müqaviləərər bağladılar və onların tələsinə düşdüklərini anlayanda artıq gec idi. İbrahimxəlil Cavanşir kimilər Abbas Mirzənin ordusuna təslim olarkən ailəsindən otuz nəfəri qətlə yetirdilər və bundan sonra Talış xanı Mir Mustafa xan* kimi digər xanların rusların müqabilində dayanmağa gücləri qalmamışdı. Cavad xanın isə qeyri-müsəlman hakimiyyəti qəbul etməmək üçün fərasət ilə dərrakəsi çatdı. O, Gəncə qalasında rus əsgərləri tərəfindən mühasirəyə alınandan sonra təpədən dırnağadək silahlanmış Rusiya ordusunun öhdəsindən gələ bilməyəcəyini anlasa da, 1803-cü ildə Sisianovun Gəncə hökumətini saxlamaq, canını, malını və ailəsini qorumaq şərtilə təkrar-təkrar təslim olma tələblərini rədd edərək rus generalına ətraf ərazinin yeddi yüz ildən artıq Gəncəyə məxsus olduğunu, Gəncənin isə İran və müsəlman torpağına bağlı olduğunu yazmışdı.

Adil xan Ziyadxanov bu barədə belə yazır:

"General Sisianovun sərkərdəliyi altında rus imperatorunun qoşunu İran dövlətinin himayəsi altında olan Qafqazın istilasına başlayanda, Gəncəyə Tiflis tərəfindən hücumlar təşkil olundu. Cavad xan Gəncə qalasının müdafiəsini şəxsən öz üzərinə götürdü. O, general Sisianovdan çox əlverişli şərtlər almışdı. Bu şərtlərə əsasən Cavad xanın ailəsi Gəncə əyalətinin bütün əmlakını atadan oğula keçməklə əlində saxlayırdı, Cavad xan və onun nəsli irsən

---

[1] Üsqüfi-əzəm – baş yepiskop, patriarx.

Gəncənin müstəqil xanları yerində qalırdılar. Bunun əvəzinə Gəncə İranın himayəsi altından çıxıb rus imperatorunun himayəsi altına keçməli və hər il iyirmi min manatı imperatorun xəzinəsinə ödəməli idi. Bununla belə, Cavad xan bütün yuxarıda sadalanan şərtləri rədd edib rəzillik yükü altına getmədi”.[1] Cavad xanda ruslarla osmanlılar kimi İranın və şiəliyin düşmənlərinə qarşı mənbələrdən və sənədlərdən də bilinən nifrət hissi ondakı İrana hüsni-rəğbətin olmağını, şiəliyə əsaslandığını və onda tayfabazlığa meylin olmadığını isbat edir.

5. Cavad xanın oğullarının onun şəhadətindən sonra mərkəzi İran dövlətinə pənah aparmaları və İran-rus müharibələrində iştirak etmələri də bu nəslin müsəlman İran dövləti ilə köklü surətdə bağlı olduğundan xəbər verir.[2] Ziyadoğlu-Qacar ailəsinin uzun illər boyu Gəncəyə hakim olması yerli əhalinin həmişə İranın düşmənlərinə qarşı çıxış etmələrinə səbəb olmuşdur və bunun ən parlaq nümunəsi kimi gəncəlilərin ikinci İran-rus müharibəsi ərəfəsində qiyam qaldırdıqlarını göstərmək olar.

## Ziyadoğlu ailəsinin Rusiyada inqilabdan əvvəlki fəaliyyəti

İsmayıl xanla Adil xan Ziyadxanovların atası Cavad xan Ziyadoğlu-Qacarın nəvəsi, onların ana tərəfdən babaları isə Abbas Mirzə Naibüssəltənənin* oğlu Bəhmən Mirzə* olmuşdur. Adil xanla qardaşı Gəncədə doğulmuşdular. Hər ikisi ali təhsilini Moskva universitetinin hüquq fakültəsində almışdır.[3]

---

[1] Adil xan Ziyadxan. “Qələmin uçuşu”. s.21.

[2] Məhəmməd Sadiq Vəqayenigar Mərvəzi. “İran-rus müharibələri tarixi”. ss. 242-243.

[3] Adil xan Ziyadxan. Göstərilən əsər. ss.17-18.

Qafqazın müxtəlif şəhərlərində türklərlə ermənilər arasında toqquşmalar başlayanda İsmayıl xan bəzi gəncəlilərlə birlikdə düşmənə müqavimət göstərmək üçün qüvvə toplamağı təşkil etdilər. Onlar həmçinin bu qarşıdurmanın əmələ gəlməsində Rusiyanın rolunu hər iki tərəfə izah etməyə çalışdılar. Qafqazın azərbaycanlı müsəlmanları tərəfindən Rusiyanın Birinci Dumasına nümayəndə seçilmiş İsmayıl xan öz çıxışlarının birində bunları söyləmişdi:

"Dövlət orqanları biz müsəlmanlara deyirlər ki, "ermənilər sizi müstəmləkəyə çeviriblər. Onlar silahlanıb özləri üçün dövlət təşkil edəcək və sizi tamamilə yer üzündən siləcəklər". Ermənilərə isə deyirlər ki, "panislamizm fikri müsəlman cəmiyyətinin bütün təbəqələrində kök salıbdır. Bir gün müsəlmanlar sizin üçün qətliam düzəldəcəklər". Bununla əlaqədar bəyan edirəm ki, biz müsəlmanlarla ermənilər arasında iqtisadiyyat zəminində heç vaxt ədavət olmayıb. Biz mehriban qonşular kimi bir yerdə yaşamışıq və bir-birimizlə dost olmuşuq. Keçmişdə aramızda heç bir silahlı qarşıdurma da baş verməyib. Əgər haradasa bir qətl hadisəsi olubsa, istisna-hal olub və heç vaxt geniş vüsət almayıb".[1]

Onun Dövlət Dumasında deputatlıq müddəti çox qısa olub, çünki II Nikolayın* 6 iyun 1906-cı il tarixli fərmanına əsasən Duma buraxılmışdı.[2] İkinci Dumaya seçilmək üçün müsəlmanlara cəmi dörd yer verilmişdi və İsmayıl Ziyadxanov deputat seçilməmişdi.[3] Sonra o, imperatorun əleyhinə yazılmış bəyannaməni imzaladığına görə bir neçə illiyə zindana düşmüşdü.[4]

---

[1] Tadeuş Svetoxovski. "Rus Azərbaycanı". s.56.
[2] Adil xan Ziyadxan. "Qələmin uçuşu". s.18.
[3] Tadeuş Svetoxovski. Göstərilən əsər. s.62.
[4] Adil xan Ziyadxan. Göstərilən əsər. s.19.

## İrandakı fəaliyyət

Qafqaz ölkələri çar rejimi devriləndən sonra 1918-ci ildə müstəqilliyi əldə etdilər. İsmayıl xan və Adil xan Ziyadxanov qardaşlarının ikisi də yenicə təşkil olunmuş Azərbaycan Cümhuriyyətinin hökumətində vəzifə aldı.

1918-ci ilin may ayının 28-də Azərbaycan öz istiqlaliyyətini elan edəndən sonra hökumət başçısı Fətəli xan Xoyski* ölkənin müstəqilliyinin rəsmi surətdə tanınması, habelə ticarət və müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilələrin bağlanması üçün başqa dövlətlərə müraciət etdi. İran Qafqaz ölkələrinin müstəqilliyinin Paris Sülh Konfransında qəbul olunana qədər həmin dövlətlərin müstəqilliyini qanuni şəkildə tanımağı bir məqsəd qoymasaydı da[1], Azərbaycan hökuməti İsmayıl xan Ziyadxanovu müqavilə bağlamaq üçün İrana ezam etmişdi.[2]

İranın Bakıdakı konsulu İranla Azərbaycan arasındakı ticarət sazişinin olmaması səbəbindən Bakı gömrük məmurları tərəfindən Bakıda saxlanılan İran ticarət mallarının təhvil verilməsi üçün Ziyadxanovla müzakirə aparmaqdan ötrü 1919-cu ilin mart ayının 11-də Xarici İşlər nazirinə məktubla müraciət etmişdi.[3] O, başqa bir məktubda müsavat rəhbərlərinin türklərlə farslar arasında ixtilaf yaratmaq və İranın Qafqaz bölgəsində nüfuzunu azaltmaq cəhdlərini göstərib İsmayıl Ziyadxanov kimi adamları İrana meyilli şəxslər adlandırmışdı: "... İsmayıl Ziyadxanov və bəzi başqa rəislər ali dövlətin (yəni İranın) təbəələri ilə lazımi, həmrah və münasib mövqedə olduqlarını nümayış

---

[1] Kavə Bayat. "Qafqaz üzərində tufan". s.21.

[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, S-51/1.

[3] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1337. Qovluq 13, İş 18, S-19.

etdirirlər...”. Onun fikrincə Azərbaycanın rəsmi orqanları Qafqaz Azərbaycanı hökumətinin rəsmi surətdə tanınması məqsədilə İranı təzyiq altına salmaq üçün İran ticari mallarını zəbt etmişdilər. Ziyadxanov Bakıdakı konsula vəd etmişdi ki, İranın rəsmi orqanları ilə danışıqlar sona çatandan sonra İranın ticarət mallarının buraxılması üçün müvafiq addımlar atılacaqdır.[1] İranın Bakıdakı konsulunun ifadəsinə görə, Azərbaycan Cümhuriyyətinin ali rütbəli məmurları bəyan etmişdilər ki, iki dövlət arasında rəsmi müqavilə bağlanmayana qədər bu mallar sahiblərinə təhvil verilməyəcəkdir.[2]

İsmayıl xan 1919-cu ilin aprel ayının ortalarında İrana gəldi. İran Azərbaycanın nümayəndəsini mehribanlıqla qarşıladı. Bir İran qəzeti “Bizim qonağımız” başlıqlı məqalədə belə yazırdı:

“...Bu möhtərəm qonaq bizlərdəndir, yəni İranda yüz ildən artıq hökm sürmüş və sözün həqiqi mənasında İran dövlətinin və millətinin nümayəndəsi olan tayfadandır. İsmayıl xan həmin Ziyad xanın tayfasındandır ki, həmişə Gəncədə ən hörmətli xanlardan sayılırdı...”.[3]

İsmayıl Ziyadxanov İrana gələndən sonra Rusiya üzrə İdarənin müdiri Mötəsimüssəltənə İranın Azərbaycana yardım göstərməyi asanlaşdırmaq və İranın bitərəfliyinə son qoymaq üçün İsmayıl xanla müvəqqəti müqavilə imzaladı.[4] 1919-cu ilin iyun ayının 5-də imzalanmış müqavilə ticarət işlərinə və hüquqi məsələlərə dair on dörd maddədən ibarət

---

[1] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1337. Qovluq 13, İş 18, S-20.
[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1337. Qovluq 13, İş 18, S-13/1.
[3] Kavə Bayat. “Qafqaz üzərində tufan”. s.21.
[4] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1336. Qovluq 42, İş 56, S-26.

idi.[1] Bu müqavilədə Azərbaycanın müstəqilliyini İran tərəfindən rəsmi surətdə tanınması və iki ölkə arasında müştərək sərhədlərin müəyyənləşməsi məsələlərinə toxunulmasa da, İranın mənafeyinə cavab verən məqamlaröz əksini tapmışdı. Həmin müqavilədəki maddələrdən birinə əsasən İran vətəndaşları Azərbaycanda hərbi xidmətdən azad olunmuşdular. Həmçinin qərara alınmışdı ki, İrana məxsus olan və Bakı gömrüyündə saxlanılan bütün poçt və ticarət malları İran tərəfinə qaytarılsın. İsmayıl xan da malları Azərbaycan Cümhuriyyətinin məmurları tərəfindən zəbt olunmuş tacirlərə ziyanın dövlət tərəfindən ödənilməsini Bakıya qayıdandan sonra təmin etməyi öhdəsinə götürmüşdü.[2]

İsmayıl Ziyadxanov Azərbaycan Cümhuriyyətinə qayıdandan sonra bu ölkənin rəhbər orqanları rəsmi müqavilənin olmaması səbəbilə sazişin sözügedən maddələrindən heç birinə əməl etmədilər və İranın Bakıdakı konsuluna bunları dedilər:

“Madam ki, İran rəsmi şəkildə bizi tanımır və bizimlə rəsmi müqavilə bağlamır, biz də heç bir işdə kömək etməyəcəyik və hətta İran məmurlarını rəsmən tanıya bilmərik...”.

Bu ölkənin bütün rəsmi və qeyri-rəsmi qəzetləri və jurnalları Ziyadxanovu bu müqaviləni imzaladığına görə qınadılar. Azərbaycan Cümhuriyyətinin rəhbər orqanları İran vətəndaşlarına qarşı sərt mövqe tutdular. İranın Tiflisdəki konsulu Müəzzizüddövlə bu vəziyyətdən yeganə çıxış yolunu İranın rəsmi orqanlarının Azərbaycan

---

[1] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1337. Qovluq 13, İş 18, S-22.

[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, S-51/2, 51/4.

Cümhuriyyətinin hökuməti ilə danışıqlara gedərək müqavilənin imzalanmasında görürdü.[1]

İranın Xarici İşlər naziri Nüsrətüddövlə* Azərbaycan Cümhuriyyətinin Xarici İşlər nazirinin müavini və eyni zamanda Azərbaycan Cümhuriyyətinin İrandakı nümayəndəsi və səfiri yerinə seçilmiş Adil xan Ziyadxanovla 1919-cu ilin sentyabrın üçündə Bakıda görüşərək Azərbaycan hökuməti məmurlarının İran vətəndaşlarına qarşı dosta yaraşmayan hərəkətləri barəsində danışıqlar aparmış və "... İran vətəndaşlarının hərbi xidmətə cəlb olunması, iranlıların Bakıdakı mədrəsəsi binasının zəbt edilməsi, İran vətəndaşlarına məxsus ticarət mallarının Bakıdan tranzit yolu ilə keçirilməsi məsələsində çətinliklərin yaranması və İran vətəndaşlarına məxsus malların bir qisminin yolda saxlanması..." haqqında izahat istəmişdi.[2]

Adil Ziyadxanov İranınXarici İşlər nazirinin şikayətinə cavab verərkən aşağıdakıları demişdi: "... Azərbaycan Cümhuriyyətinin hökuməti yenicə təsis olunub və hələlik işləri təbii məcraya salmayıbdır. Bizim məmurlarımız işlərin tənzimlənməsində və əlaqələrin qorunmasında hələ müvəffəqiyyət əldə edə bilməyiblər. Mən şəxsən ali dövlətin başçıları mənim səlahiyyətimi İran sarayında təsdiqləyən kimi Tehrana tərəf yola düşməzdən qabaq ixtilafa bais olmuş məsələləri həll edib ali dövlətin tam razılığına nail olacağımatəminat verirəm...".[3]

İranın Tiflisdəki konsulu bu hərəkətləri qeyri-məntiqi kimi səciyyələndirərək yeni yaranmış Ermənistan və Gür-

---

[1] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, S-50.

[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15/1, İş 16, S-142.

[3] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1339. Qovluq 15/1, İş 16, Sənəd 143.

cüstan ölkələrinin yaxşı rəftar etdikləri haqqında belə yazırdı:

"Qafqazda təsis olunmuş digər hökumətlər din, qanun və əxlaq baxımından bizdən bir xeyli fərqləndiklərinə baxmayaraq xarici əlaqələrin və münasibətlərin möhkəmlənməsi xatirinə fövqəladə səylər göstərirlər, İran vətəndaşlarının işlərinin sahmana salınması və onların hüquqları ilə mənafelərinin qorunması üçün ali dövlətin məmurları ilə hər cür əməkdaşlıq edirlər. Onların iqtidarları dairəsindəki ərazidə sakin olan İran vətəndaşlarının yaşayışları və asayişləri qorunur. Təəssüf ki, ali dövlət Azərbaycan hökumətindən islam həmrəyliyinə müvafiqliyi gözlədiyi halda Sizin hökumət məmurlarınızın İran vətəndaşları ilə özlərini kobud və bədniyyətli aparması o dərəcəyə çatmışdır ki, Bakıda və Gəncədə yaşayan bütün İran vətəndaşları və tacirləri Tiflisdəki Baş konsulluğa şikayətlərlə müraciət edirlər. Onlara yerli məmurlar tərəfinfən düşmən münasibət göstərilir və hər dəfə həm Bakıdakı konsulluq, həm də Tiflisdəki Baş konsulluq etirazlarını bildirəndə eynilə Sizin izharınıza bənzər cavab alırlar. Belə bədniyyətlilik və pis rəftar yükünü daşımağın artıq mümkün olmadığını nəzərə alaraq xarici işlər nazirinin hüzurunda Sizə rəsmi şəkildə bəyan edirəm ki, əgər Sizin hökumətiniz İran vətəndaşlarının asayişının, hüquqlarının və mənafelərinin qorunması yolunda təcili addımlar atmasa və öz rəftarına dəyişiklik gətirməsə, mənim təbəəsi olduğum dövlət çarəsiz qalıb Azərbaycan hökumətini əziyyətə salacaq tədbirlərə əl atacaqdır".[1]

İranın Xarici İşlər naziri həmçinin adıcəkilənin İran rəsmi orqanları tərəfindən bir nümayəndə qismində qəbul olunmasını ixtilafların aradan qaldırılması və tacirlərin, eləcə də digər İran vətəndaşlarının şikayətlərinə son qoyulması

---

[1] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, Sənəd 49.

üçün zəruri saymışdı. Adil Ziyadxanov iki dövlət arasında xoş münasibətləri yaratmaq və İranın rəsmi orqanlarını və vətəndaşlarını razı salmaq üçün lazımi addımlar atmağı öhdəsinə götürdü.[1] Bu müzakirələrin iştirakçılarından biri, İranın Bakıdakı konsulu Saidülvəzarə özünün Xarici İşlər Nazirliyinin rəhbərliyinə yazdığı məktubunda İranın Qafqaz bölgəsində nüfuzunun artması və Azərbaycan Cümhuriyyəti ilə iqtisadiyyat və ticarət sahəsində əlaqələrin yaxşılaşması üçün Adil Ziyadxanovu Azərbaycan Cümhuriyyətinin rəsmi nümayəndəsi qismində qəbul etməyi məsləhət görmüşdü.[2]

İranın Tiflisdəki konsulunun 27 sentyabr tarixli bildirişə görə Azərbaycan Cümhuriyyəti bu ölkədəki İran vətəndaşlarını əsgəri xidmətdən və hərbi rüsum ödəməkdən azad etmişdi.[3] Sözügedən bildirmədə bu qanunun qəbul olunmasında və icrasında Adil Ziyadxanovun oynadığı rola bir işarə öz əksini tapmasa da, onun bu məsələdə əvəzsiz xidməti güman edilir. Həmin ayda İran Qafqaz ölkələrində yaşayan öz vətəndaşlarının vəziyyətini yaxşılaşdırmaq məqsədilə özünün bu ölkələrlə münasibətlərini islah etmək və müxtəlif sahələrə dair müqavilə bağlamaq üçün Seyyid Ziyaəddin Təbatəbainin* rəhbərliyi altında nümayəndə heyətini Qafqaza göndərir.[4] İki aydan sonra həmin nümayəndə heyəti Bakıda yaşayan iranlıların, habelə Azərbaycan Cümhuriyyətinin bəzi məsul şəxslərinin, (onların arasında Adil xan Ziyadxanov da var idi) müşayiətilə

---

[1] Həmin mənbə.
[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1339. Qovluq 15/1, İş 16, Sənəd 144.
[3] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 5, Sənəd 3.
[4] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 5, Sənəd 11.

Bakıya daxil olur.[1] 1919-cu ilin dekabrın səkkizində Azərbaycan Cümhuriyyətinin hökumət nümayəndələri (o cümlədən Adil xan Ziyadxanov) ilə İran tərəfi arasında Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin binasında iqtisadi məsələlər və ixtilafların aradan qaldırılması ətrafında danışıqlar başlandı.[2]

1920-ci ilin yanvarın 15-də Adil xan Ziyadxanov Azərbaycan Cümhuriyyətinin rəsmi nümayəndəsi qismində İrana gəldi.[3] Bu vaxt İranın nümayəndə heyəti Azərbaycan tərəfi ilə müzakirələrdə iştirak etməkdə idi. Həmin ilin fevralına qədər müxtəlif sahələrdə əməkdaşlıq haqqında müqavilələr imzalandı, lakin bəzi işlərdə, o cümlədən malların tranzitlə keçməsi məsələsində, razılıq əldə edilməmişdi.

İran nümayəndə heyətinin üzvlərindən biri Xarici İşlər Nazirliyinə 4 fevral 1920-ci il tarixdə yazdığı məktubda Azərbaycan tərəfinin danışıqlar zamanı diplomatik qaydalara müvafiq olmayan şəkildə rəftar etməyindən şikayətlənirdi.[4] Ehtimal ki, Adil xan Ziyadxanovun danışıqlarda iştirak etməməsi belə vəziyyətin yaranmasına səbəb olmuşdu. Müsavat firqəsi üzvlərinin əksəriyyəti Osmanlı dövləti ilə əməkdaşlığın tərəfdarı idi, lakin bəzi dövlət adamları, o cümlədən Fətəli xan Xoyski* və Adil xan, İranla da möhkəm siyasi əlaqələrin qurulmasını istəyirdilər. Adil xan müxtəlif ölkələrlə ittifaqa girməyin faydasından söhbət edərkən demişdi ki, Avropa və Amerika ölkələri hədəflərinə çatmaq üçün millətindən və məzhəbindən asılı olmayaraq bir-birilə ittifaq qurduqları halda biz müsəlmanlar elmi

---

[1] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, Sənəd 15.

[2] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, Sənəd 95/1.

[3] Adil xan Ziyadxan. Göstərilən əsər. s.61.

[4] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, Sənəd 96/1, 96/2.

inkişafımızı məhz islam bayrağı altında qazandığımızı unudaraq "... elmi düsturları firqəbazlıq, məzhəbbazlıq və sairə düsturları ilə əvəz etmişik və nəticədə o əziz gülüstanın güllərini bir boğucu qaz kimi cəhalət və ədavət ilə zəhərləmişik...".[1]

İranın diqqətini cəlb etməyin Adil xan Ziyadxanov və Xoyski üçün başqa səbəbi də var idi. Paris Sülh Konfransında İranın nümayəndələri İranla Rusiya arasındakı müqavilənin ləğv edilməsini və Qafqaz torpaqlarının İrana qaytarılmasını gündəmə salmışdılar.[2] Ola bilsin ki, məhz bu məsələ Azərbaycan Cümhuriyyətininbəzi rəhbərlərinin İranla dinc əlaqələrin qurulması fikrindən döndərən amilə çevrilmişdir. Xarici İşlər Nazirliyinin özünün Qafqaza göndərdiyi nümayəndə heyətinin rəhbəri Seyyid Ziyaəddin Təbatəbaiyə* ünvanladığı təlimatında belə deyilirdi:

"...Əgər Azərbaycan Cümhuriyyətinin hökuməti İran dövlətinin keçmişinə və gələcəyinə nəzər salsa, onda İran dövlətinin qonşuluqda və sərhəddin o biri tayında yeni müsəlman dövlətinin yaranmasına nə dərəcədə maraqlı olduğunu görər. Şübhəsiz ki, İran dövləti imperator və müstəbid qonşusunun təzyiqindən nə qədər əziyət çəkibsə, indi yanında bir müsəlman cümhuriyyətinin qurulmasından bir o qədər özünü rahat hiss edir...".[3]

Adil xanın İrandakı fəaliyyəti o qədər də uzun çəkmədi. 1920-ci ilin aprelin 28-də Nəriman Nərimanovun* başçılığı altındakı Rusiyapərəst bolşeviklərin fəaliyyəti nəticəsində Azərbaycan Cümhuriyyəti şura hökuməti tərəfindən işğal olundu. 1921-ci ilin iyunun 22-də sovet nümayəndisinin İrana gəlişindən sonra Adil xanın nümayəndəlik fəaliyyəti

---

[1] Adil xan Ziyadxan. Göstərilən əsər. s.31.
[2] Tadeuş Svetoxovski. Göstərilən əsər. s.169.
[3] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15, İş 15, Sənəd 51/4.

qanundan kənar oldu. Rusiya tərəfdarları olan Azərbaycan bolşeviklərinin Azərbaycan Cümhuriyyətinin sabiq hökumətinin məmurlarına qarşı düşmən mövqedə olduqlarını nəzərə alaraq Adil xan İranın himayəsi altında qalaraq müxtəlif sahələrdə çalışdı.[1]

İsmayıl xan Ziyadxanov bolşeviklər tərəfindən həbs edildi. İran onu xilas etmək üçün çox səy göstərdi. 7 yanvar 1921-ci il tarixdə Mənşurülmülkə[2] İsmayıl Ziyadxanovun azadlığa buraxılması üçün lazımi sənədlər toplamağı tapşırıldı.[3] Lakin Mənşurülmülk bir neçə gündən sonra xəbər verdi ki, Azərbaycanın Nəriman Nərimanovun* rəhbərliyi altındakı yeni hökuməti Müsavat firqəsinin və Azərbaycan Cümhuriyyətinin rəhbərlərindən bəzilərini, o cümlədən İsmayıl Ziyadxanovu, güllələyib.[4] Adil Ziyadxanov isə 1934-cü ildə İrandan Türkiyəyə köçdü və 1945-ci ildə Türkiyədə vəfat etdi.[5]

Ziyadxanov qardaşları İranla dostluq əlaqələrinin qurulmasının tərəfdarları idilər. İsmayıl xan İran dövləti ilə müqavilə bağlamaqdan ötrü çalışmışdı. Adil xan da iki ölkə arasında əlaqələrin yaxşılaşması üçün səy göstərmişdi. Onların ailələrinin Abbas Mirzə Naibüssəltənə* Qacarla qohumluq əlaqədə olması buna təsir edə bilərdi, lakin, onların fikrincə, burada daha mühüm dəlil İranla bir müsəlman ölkəsi kimi yaxşı münasibət yaratmağın Azərbaycan Cümhuriyyətinin müstəqilliyi üçün zəruri olması idi.

---

[1] Adil xan Ziyadxan. Göstərilən əsər. ss.12, 13.

[2] Mənşurülmülk o dövrdə İranın Xarici İşlər Nazirliyində işlər müdiri vəzi-fəsində çalışırdı.

[3] İran Xarici İşlər Nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1338. Qovluq 15/1, İş 16, Sənəd 2.

[4] İran xarici işlər nazirliyinin sənədlər və tədqiqat xidmətləri mərkəzi. H.q. 1339. Qovluq 15/1, İş 55, Sənəd 9.

[5] Adil xan Ziyadxan. Göstərilən əsər. s.7.

# Müsahib Gəncəvi və onun "Divan"ı

***Firəngiz Xəlilova***
***şərqşünas-tədqiqatçı***

Müsahib Gəncəvi mərkəzi Gəncə şəhəri olmaqla Qarabağ vilayətinin bəylərbəyisi Uğurlu xanın ədəbi təxəllüsüdür. Onun təvəllüd tarixi dəqiq bəlli olmasa da, 1695-ci ildə dünyasını dəyişdiyini ehtimal etmək olar. Onun həyatı barəsində məlumatı biz müxtəlif mənbələrdən əldə edirik.

Mirzə Məhəmməd Tahir Nəsrabadi İsfahani özünün "Təzkireyi-Nəsrabadi" kitabının "Əmirlər, xanlar və mülazimlər haqqında" adlı birinci bölümündə bunları qeyd edir:

"Uğurlu xan Qarabağın bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlunun övladıdır. Onların oymağı cəsarət və igidliklə məşhurdur və Səfəviyyə tarixində bu barədə deyilir. Xülasə, adıçəkilən alişan qabiliyyət, ağıl və insanlıq sahibi olan bir gəncdir. Bir müddət Qumun darğası olmuşdur. O vaxtlar Əllamə Mövlana Əbdürrəzzaqdan dərs öyrənirdi. Ondan sonra iki il İsfahanın mirabı olmuşdur. Həmin vəzifədə olarkən özünün və rəiyyətlərin abrını qorumuşdur. Xatirələr gülşənini ədalət suları ilə təravətləndirib sevindirmişdir. Bu qabiliyyətinə görə əmisi Mürtəzaqulu xanın vəfatından sonra adıçəkilən vilayətin bəylərbəyi olmuşdur. Şeirləri və müəmmaları nəzmlə tərtib etmək təbi ilə rəğbət qazanmışdır. Özünə "Ziyadi" təxəllüsünü seçmişdir". [1]

Məhəmməd Tahir Vəhid Qəzvininin də Uğurlu xan haqqında yazdıqları diqqətə layiqdir:

---

[1] Nəsrabadi Mirzə Məhəmməd Tahir İsfahani. "Təzkireyi-Nəsrabadi". s.576.

“Müsahib” təxəllüslü eşikağasıbaşı Uğurlu xan İkinci Şah Abbasın hakimiyyətinin 22-ci ilinə bərabər olan 1074-cü hicri ilində[1] Qarabağ və Gəncə bəylərbəyi oldu və, deyilənə görə, Şah Süleymanın zamanında da həmin vəzifədə qalmışdı”[2].

Uğurlu xan bir siyasi xadim və sərkərdə olmaqla yanaşı istedadlı şair və böyük “Divan” sahibi kimi də şöhrət qazanmışdır. Şeirlərinin əksəriyyəti fars dilindədir. Müsahib Gəncəvinin Azərbaycan türkcəsində yazdığı cəmi iki qəzəli bu günümüzə gəlib çatmışdır. Biz həmin qəzəlləri məqalənin sonunda gətirmişik. Hal-hazırda dünyada ona məxsus “Divan”ın üç nüsxəsi mövcuddur.

Həmin nüsxələrdən biri Gəncənin sonuncu hökmdarı Cavad xan Ziyadoğlu-Qacarın sifarişi ilə köçürülmüşdü. Əlbəttə, Cavad xan öz ulu babasının xatirəsini yad etmək məqsədilə Uğurlu xan Müsahibin “Divan”ını yazdırmaqla milli ədəbi irsimizin qorunmasına böyük xidmət göstərmişdir. Təəssüf ki, müasir dövrə qədər gəlib çatmış bu qiymətli abidə Cavad xanın şəxsi kitabxanasını cəmi altı il bəzəyə bilmişdi. Gəncə xanı işğalçı rus qoşunları ilə qanlı vuruşmada qəhrəmanlıqla döyüşərək 1804-cü ilin yanvarın üçündə şəhid olduqdan sonra onun əmlakı ilə bərabər kitabxanasındakı qiymətli əlyazma kitabları da talan edilmişdi. “Şair” təxəllüslü Əbdürrəhman Ağa ibn Molla Əli Ağa Dilbazoğlu öz şeirlərində bu döyüşün dəhşətli səhnələrini və Cavad xanın qətlindən sonra Gəncənin zəbt olunmasını ürək ağrısı ilə təsvir etmişdir.[3]

Sonrakı 128 il ərzində qəribə taleli “Divan” əlyazması müxtəlif şəxsi kitabxanalarda sakin olmuş və, nəhayət, 1932-

---

[1] Miladi təqvimilə 1663/64

[2] Məhəmməd Tahir Vəhid Qəzvini. “Abbasnamə”.

[3] Sözügedən şeirlər hazırkı kitabın “Əlavələr” bölməsində təqdim olunubdur.

ci ildə Mirzə Rzaxan Nayini tərəfindən hazırda mühafizə olunduğu elmi müəssisəyə – Məşhəddəki Astani-Qüdsi-Rəzəvi kitabxanasına vəqf edilmişdir.[1]

Cavad xanın bu sahədə olan fəaliyyətinə dair digər mənbələrdə də məlumat verilir. Belə ki, XIV əsr müəllifi Ziyaəddin Nəxşəbinin qədim hind nağılları əsasında 1330-cu ildə farsca yazdığı "Tutinamə"nin yeni variantı olan "Quş dili" (Lisanüt-teyr) əsəri də onun sifarişi ilə köçürülmüşdür. Əxlaq-tərbiyə məzmunlu bu nəsr əsərinin müəllifi Azərbaycan ədibi Möhsün bin Əbdülhəmid Nəsiridir. Həmin kitabın mətni AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun mütəxəssisləri tərəfindən hazırlanaraq nəşr edilmişdir.[2]

Professor S.Şükürovun Cavad xanın həyat və fəaliyyətinə həsr etdiyi əsərində aşağıdakı sətirlər diqqəti cəlb edir:

"İnkarolunmaz bir həqiqət də belədir ki, tarixdə Şahverdi xanın arvadı – Cavad xanın anası Şərəfcahan bəyim nəcabətli yerin qızı olmuşdur. Balaca Cavadın uşaqlığı anasının nəzarəti altında keçmiş, oxumağı-yazmağı evə çağırılmış molladan öyrənmişdir. O, Qur'ani-Kərimi oxuyub başa çatmış, gözəl xətti olmuşdur. Qur'anın avazla oxudulması Cavadda poeziyaya xüsusi meyl oyatmış, məhz buna görə də o, elmə, şeirə, sənətə üstünlük vermişdir ...".[3]

Yuxarıda qeyd olunduğu kimi, müxtəlif ölkələrin kitabxanalarında sözügedən "Divan"ın üç nüsxəsi saxlanılmaqdadır.

<u>Məşhəd nüsxəsi.</u> Məşhəd şəhərinin Astani-Qüdsi-Rəzəvi kitabxanasında 555/4579 şifri ilə qorunub saxlanılır. Bu

[1] Bax: Məşhəd. Astani-Qüdsi-Rəzəvi kitabxanası. Şifr: 555/4759.

[2] Bax: Möhsün bin Əbdülhəmid Nəsiri. "Quş dili". Nəşrə hazırlayanlar Möhsün Nağısoylu və Söhrab Bayramlı. Redaktorlar Raqub Kərimov və Rauf Şeyxzamanlı. Bakı. "Nurlan". 2009.

[3] S.Şükürov. "Gəncəli Cavad xanın hekayəti". ss.47-48. Gəncə. "Gəncə" nəşriyyatı. 1992.

əlyazma Ağakişi Gəncəvi ləqəbi ilə məşhurlaşmış katib Məhəmməd Kərbəlayı Əlibaba Sərraf oğlu tərəfindən h.q. 1212-ci ilin ramazan ayının 30-da[1] köçürülərək tamamlanmışdır. 459 qəzəldən, 7 saqinamədən, 16 müsəddəs-tərkibdən, 8 mürəbbe-tərkibdən və 41 rübaidən ibarətdir. Ümumi həcmi 4357 beytdir.

Tbilisi nüsxəsi. Tbilisi şəhərinin Kekelidze adına Əlyazmalar İnstitutunda RK-61/197 şifri ilə saxlanılır. Naməlum katib tərəfindən h.q. 1098-ci ilin səfər ayının 15-də[2] köçürülərək xətm olunmuşdur. Bu nüsxə təkrarlanan beytləri çıxmaq şərtilə 472 qəzəldən, 7 saqinamədən, 16 müsəddəs-tərkibdən, 11 mürəbbe-tərkibdən, 61 müəmmadan, 67 rübaidən və ümumilikdə 4600 beytdən ibarətdir.

Misir nüsxəsi. Qahirə şəhərinin "Darül-kütub vəl-vəsaiq əl-qövmiyyə" adlı kitabxanasında 9295 şifri ilə mühafizə olunur. Əlyazmada katibin adı və köçürülmə tarixi göstərilməsə də onun paleoqrafik əlamətlərinə və yazı xüsusiyyətlərinə əsaslanaraq bu kitabın XVII əsrin sonlarında yazıldığını təxmin etmək olar. Misir nüsxəsi 519 qəzəldən, 7 saqinamədən, 16 müsəddəs-tərkibdən, 11 mürəbbe-tərkibdən, 61 müəmmadan, 67 rübaidən və cəmisi 4980 beytdən ibarətdir.

## Qəzəllər

Sən saqiyi-naz oldun bülbüllər arasında,
Mən məsti-niyaz oldum novgüllər arasında.

Bu şür ki, sən saldın bülbüllər arasında,
Müşkül ki, dəxi sönsün od güllər arasında.
Şahbaz gözün bir gün pərvaz elədi, cana,
Könlüm quşunu gördüm cəngəllər arasında.

[1] Miladi təqvimilə 18 mart 1798
[2] Miladi təqvimilə 31 dekabr 1686

Xətti-siyəhin, ya Rəbb, vəsfində nə yazmış kim,
Zülfün dil uzadıbdır sünbüllər arasında.

Gər könlümü, ey saqi, almaq ələ istərsən,
Axtar tapasan şayəd kaküllər arasında.

Cadu gözünə zülfün mənzuri-nəzər oldu
Kim, ovçi tapar kamin zəngüllər arasında.

Dur başınçün, zahid, əfsanəni kutah et,
Ağırlığını salma yüngüllər arasında.

Bəzmində Müsahib çox mina kimi qan içdi,
Gəh ağladı, gəh güldü gül güllər arasında.

***

Qışı novbahar qıldın, nə əcəb gəlişdürür bu,
Nə işvədir, nə adət, nə əcəb rəvişdürür bu.

Sənin üzünü görəndə rəgü pey tənimdə titrər,
Yüz alışı istəməz, nə bəlalu qışdurur bu.

Dəhənində gahi-gövhər gülüşündən oldu zahir,
Sədəf işrə incüdür, ya ağızında dişdürür bu.

Qulaq as sümüklərimdən nə nəva ki, nalə çəkməz,
Neyi-bəzmə saz olubdur, bir ovuc-qamuşdurur bu.

Varubən xəyal içində yüzünə nəzarə qıldım,
Yuxu gəlməmiş görübdür səna bəzm ki, dışdurur bu.

Nə cədəl çu könlüm aldın, təni-xaki qələsində,
Nə hücumdur, nə qovğa, sanasan yerişdürür bu.

Xəbər al, Müsahibindən nə çəkir cəfa əlindən,
Belə bixəbər olma ki, bir özgə işdürür bu.

# Cavad xan nəslinə aid epiqrafik abidələr

*Elnur Həsənov*
*AMEA Gəncə Bölməsi*

Görkəmli dövlət xadimi, tarixi şəxsiyyət, Gəncə bəylərbəyliyinin şərəfli şəcərəsinin mərd və əbədiyaşar davamçısı Cavad xan 1748-ci ildə Gəncə şəhərində doğulub. Cavad xanın atası Şahverdi xan 1756-cı ildən 1761-ci ilə qədər Gəncənin xanı olmuşdu. Gəncəlilərin növbəti üsyanından sonra hakimiyyətə əvvəlcə Rəhim bəy, bir müddət keçəndən sonra isə 1786-cı ildə onun qardaşı Cavad xan gəlir. Gəncə üzərinə tez-tez baş verən basqınlardan can qurtarmaq məqsədilə Cavad xan öz hərbi hissələrini 1785-ci ildə Tiflis üzərinə yürüşə gedən Ağa Məhəmməd şah Qacarın* ordusuna qoşur. Qacarın qoşunları geri qayıtdıqdan sonra Cavad xanla II İrakli arasındakı münasibətlər daha da gərginləşir. II İraklinin, Qarabağ xanı İbrahim xanın və onun qohumu Avar Umma xanın dəstələri Gəncəni mühasirəyə alırlar. Uzunmüddətli mühasirə uğursuzluqla başa çatsa da, onun aradan götürülməsi üçün Cavad xan Tiflisdə əsir aldığı döyüşçüləri geri göndərməli və İbrahim xanın hərbi xərclərini ödəməli olur.

Cavad xanın anası Şərəf Cahan bəyim də əsil-nəcabətli bir nəsildən idi.Cavaddan başqa ailənin Tuti bəyim, Xurşid bəyim və Heyransa xanım adında üç qızı da vardı. 1780-ci ildə Cavad xan adi bir kəndli qızı olan Şükufə xanımla, 1790-cı ildə isə Şəkixanının bacısı Məliknisə (Bəyim xanım) xanımla ailə qurur. Cavad xanın ikinci arvadı onun ölümündən sonra Şəkiyə, qardaşının yanına getmiş və orada da dünyasını dəyişmişdir. Məliknisə xanımın məzarı da Şəkidədir. Şükufə xanımdan Cavad xanın üç oğlu Uğurlu xan, Əliqulu xan və Hüseynqulu xan, dörd qızı – Tuti Bikə,

Püstə bəyim, Xatunbəyim, Balacabəyim dünyaya gəlmişlər. Uğurluxan 1801-ciildə Məhəmməd xanın qızı Cahanbəyimlə evlənib. Doğulan uşağa Cavad adı veriblər. Hüseynqulu xan (1784-1804) Şəmşəddinli Nəsib Sultanın qohumu Zeynəb xanımla evlənib. Cavad xanın xələflərindən bir neçəsi Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra Ziyadxanov soyadını almışlar. İndi də onların bir çoxunun davamçıları Bakıda və Gəncədə yaşayırlar.

Cavad xanın hakimiyyəti dövründə Gəncədə hərtərəfli inkişaf müşahidə edilirdi. Ticarət genişlənir, müxtəlif sənət sahələri inkişaf edir. Yaşayış binaları, karvansaralar, məscidlər tikilir. Cavad xanın sarayında alimlər, yazıçılar və şairlər toplaşırdı. Orada görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin atası, memar, alim Kərbəlayı Sadıq da çalışmışdır. Gəncə ruslar tərəfindən işğal olunduqdan sonra Cavad xanın qızı Püstə xanım Mirzə Şəfini öz yanında idarə işinə götürür, Şəmkir döyüşündən sonra isə Uğurlu xan bacısını özü ilə İrana aparır. Cavad xanın nəvəsi Uğurlu xanın qızı və sonuncu Qarabağ xanı Mehdiqulu xanın həyat yoldaşı Bədircahan bəyim tanınmış şairə və ictimai xadim idi. Cavad xanın nəvəsi Kəlbəli xan Müsahib Azərbaycan və fars dillərində gözəl şeirlər yazıb. Cavad xanın qardaşı Fəthəli bəy Ziyadoğlu Hali Gəncəli tanınmış şair olub. Onun əsasən Azərbaycan dilində yazılmış divanı hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılır.

Görkəmli Azərbaycan yazıçısı Möhsün Nəsiri də Gəncə xanının sarayında yaşayıb-yaratmışdır. O, Cavad xanın sifarişi ilə qədim hind nağıllarının əsasında yaradılmış "Tutinamə" əsərini Azərbaycan dilində yazmışdır.

Cavad xanın göstərişi ilə memar Kərbəlayi Sadıqın layihəsi ilə Gəncə İmamzadə abidəsində giriş hissə yenidən

bərpa və inşa edilmişdir. Burada şəhərin tarixini əks etdirən mühüm daş kitabələr qorunub saxlanılmışdır[1].

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanın qəhrəmanlıq tarixinin görkəmli şəxsiyyəti olmuş Gəncənin sonuncu xanı Cavad xanın şəhid olmasından sonra işğalçı çar Rusiyası təhlükəsindən qorunmaq üçün yerli camaat onun nəşini bir müddət Səbzikar adlı qəbiristanlıqda insanların ümid, pəhah yeri bildiyi Əsgər ağa Goraninin sərdabəsində qorumuşlar. Bu dövrdə yaşamış görkəmli şəxsiyyətlərdən biri Əsgər ağa (Adıgözəlzadə) Goraninin Azərbaycan ədəbiyyatı, mədəniyyəti və dövlət idarəçiliyi sahəsində əhəmiyyətli xidmətləri olmuşdur.



***Cavad xanın əski məzar daşı***

Əsgər ağa Gorani kimi şəxsiyyətin yetişməsi isə məhz Gəncənin elmi-mədəni mühitinin nəticəsi olub. Əsgər ağa Haqverdi bəy oğlu 3 may 1857-ci ildə Gəncə vilayətinin

[1] Həsənov E.L. Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, s. 12-18

Goran-Boyəhmədli kəndində anadan olub.O, tarixçi Mirzə Adıgözəl bəy Qarabaği bəyin nəvəsidir. Mükəmməl təhsil almış Əsgər ağa müxtəlif yerlərdə çalışmış, o cümlədən beş il ərzində Gəncə bələdiyyə idarəsinin rəisi, Yelizavetpolda (Gəncədə) Mixaylovsk məktəbinin fəxri nəzarətçisi vəzifələrində işləmiş, Gəncədə öz hesabına qız məktəbi açmışdır. Bu görkəmli şəxsiyyətin Gəncədə əxz etdiyi yüksək mənəvi dəyərlər onun xeyriyyəçilik fəaliyyətinə şərait yaratmışdır. Nizami Gəncəvinin türbəsi vaxtilə Mirzə Adıgözəl bəy Qarabaği və Əsgər ağa Gorani tərəfindən təmir etdirilmişdir.

Xalqımızın elmi-mədəni həyatında mühüm xidmətləri olmuş Əsgər ağa Gorani 9 mart 1910-cu ildə vəfat edib. Onun məzarı Gəncə şəhərinin “Səbzikar” adlanan 1 saylı şəhər qəbiristanlığındadır. Yuxarıda qeyd etdiyimiz kimi, dəyərli xalq qəhrəmanı və sərkərdəsi Cavad xan Ziyadoğlu-Qacarıncəsədi bir müddət məhz Əsgər ağa Goraninin sərdabəsində qalmış, sonradan isə yenidən öz əvvəlki dəfn yerində – Şah Abbas məscidinin həyətində torpağa tapşırılmışdı.

Şeyx Zaman da görkəmli xəttat-həkkak, rəssam olub. O, Cavad xan nəslinin nümayəndələrinə aid abidələri hazırlayıb. Şeyx titulu onun alim olduğunu göstərir. Hər iki Gəncə xəttat-həkkakının hərəsinin özünəməxsus üslubu vardır. Baxmayaraq ki, hər iki usta məşhur xəttat idi, amma işləri üzərində “Əl-əbd Əl-muzənnib” – günahkar qul kimi imza atıblar[1].

Cavad xanın başdaşı haqqında. Gəncədə Şah Abbas məscidi adlanan Came (giriş qapısı üzərində kiçik daş kitabə olan bina) məscidinin cənubunda Cavad xanın türbəsi var idi. 1962-ci ildə türbənin döşəməsinə döşəmə vurulan zaman məzarlar üzərindəki baş daşları türbədən kənara atılmış,

---

[1] Nemətova M.S. Gəncənin epiqrafik abidələri. Elm və həyat jurnalı, Bakı: Elm, 2012, №3, s. 155

onlardan yalnız biri-Cavad xanın baş daşı Came məscidində yerləşən tarix-diyarşünaslıq muzeyinə qoyulmuşdur. Baş daşı Camedən götürülüb Nizami adına tarix-diyarşünaslıq muzeyinin "Cavad xan guşəsi"nə qoyulmuşdur.

Gəncəli xəttat-həkkak Şeyx Zaman tərəfindən hazırlanmış bu abidə Cavad xan Ziyad oğlu Qacarın iki oğlu – Əliqulu ağa (vəfatı h. 1261/1345 il), Həbib paşa (vəfatı h. 1272/1356-cı il), Zeynəb xanım (vəfatı h. 1274/1353-cü il), Əhməd xanın qızı və İsmayıl Paşanın qadını Xurda Bəyimə (vəfatı h. 1236/1321-ci il) aiddir.

1990-cı ildə AMEA Tarix İnistitutunun elmi arxivində V.M. Sısoyevin 1936-cı ildə çəkdiyi Cavad xanın baş daşının foto-plyonkası tapılmışdır.

Cavad xanın əski baş daşı ağ mərmərdən düzbucaqlı formada olub üzərində kitabə vardır. Nəstəliq xəttilə yazılmış mənzum kitabənin mətni belədir: "Hazahi boqətün xüsusi Cavad xan Ziyad oğlu silsilə – ya Qacar, Bəylərbəyi – ya Gəncə"[1].

Təəssüf ki, Cavad xan nəslinə aid, onun sağlığında özü və ailə üzvləri üçün tikdirdiyi məqbərə Sovet hakimiyyəti dövründə dağıdılıb.

Çar Rusiyasının Qafqaz üzrə təyin olunmuş bir komandanı Markiz Paulicci 1812-ci ildə Cavad xanın 3 il ev dustağı olmuş ailə üzvlərini azad edib onların İrana getmələrinə kömək etmişdir. Onun məktubunda deyilirdi: "Öz vətəninə layiqincə xidmət edən adamları sevdiyim üçün Cavad xana haqq qazandırıram. O şəhəri müdafiə edərək, əlində silah ölmüşdür. Mənim Cavad xana dərin hisslərimi və xüsusi hörmətimi nəzərə alaraq, onun nəslindən olanların hamısına azadlıq verdim".

---

[1] Nemətova M.S. Gəncənin epiqrafik abidələri. Elm və həyat jurnalı, Bakı: Elm, 2012, №3, s. 155-156

Cavad xanın ölümündən 90 il sonra onun qəbrinin üzərinə baş daşı qoymaq mümkün olmuşdur.

Cavad xanın türbəsini bərpa edib, ağ mərmərə qeyd olunan kitabəni yazıb, qəbrinin üzərinə qoymaq məqsədəuyğun olardı.

Cavad xan epitafiyasının sözüylə desək: «Baxın ha, bu fani dünyada o nəsildən bu yerdə bu məqbərə əbədi qalsın»

# Qacarlar sülaləsi və onların Gəncə xanlığını idarəetməsi tarixindən

***İlqar Niftəliyev***
***tarix üzrə fəlsəfə doktoru***

XVI əsrin ortalarında Azərbaycanın bütün ərazisi Səfəvilər dövlətinin tərkibinə daxil oldu. Bu ərazi 4 bəylərbəyliyə bölünürdü: Azərbaycanın cənub torpaqlarını əhatə edən Təbriz bəylərbəyliyi, mərkəzi Şamaxı olmaqla keçmiş Şirvanşahlar dövlətinin əsas ərazilərini özündə birləşdirən Şirvan bəylərbəyliyi, mərkəzi Gəncə olmaqla Araz və Kür çayları arasındakı əraziləri əhatə edən Qarabağ bəylərbəyliyi və mərkəzi İrəvan olmaqla Şimali Azərbaycanın qərb ərazilərini əhatə edən Çuxursəd bəylərbəyliyi. Bəylərbəyliklərin başında Səfəvilər dövlətinin yaradılmasında və möhkəmləndirilməsində mühüm rol oynayan tanınmış feodal sülalələrinin nümayəndələri dururdu.

Belə sülalələrdən biri Qacarlar idi. Qacarların tarixi maraqlı və dramatikdir. Onlar parlaq qələbələr və acı məğlubiyyətlərlə, sürətli yüksəliş və süqutlarla müşayiət olunan çoxəsrlik mübarizənin çətin yollarını keçmişlər. Bir çox əsrlər ərzində Qacarların ən görkəmli nümayəndələri İran və Azərbaycan ərazilərində baş vermiş qızğın tarixi hadisələrdə fəal iştirak etmişlər. Onlar döyüşlərdə məşhurlaşmış və ad-san qazanmışlar.

Tarix elmində Qacarların mənşəyi və onların Azərbaycanda yerləşdirilməsi haqqında müxtəlif fərziyyələr mövcuddur. Əbdürrəzzaq Dünbülinin «Məasiri-Sultaniyyə» əsərində Qacar tayfasının monqol dövründə sulduz, cəlair və tanqut[1]

[1] Петрушевский И.П. Очерки истории феодальных отношений в Азербайджане и Армении в XVI – в начале XIX вв. Л., 1949. s.96.

adlı üç parçalanmış tayfanın birləşməsi nəticəsində yarandığı bildirilir. Qacarlar haqqında məlumatlara Bakıxanovda da rast gəlirik: «Qacarlar – bu Hülaku xan (Çingiz xanın nəvəsi) tərəfindən İrana köçürülmüş 200 minlik Cəlair türklərinin tayfasıdır». Bakıxanov «Məasiri-Sultaniyyə» əsərindən bir parçanı nümunə göstərir, burada deyilir: «Sartak – bu tayfanın ən nüfuzlu adamlarından biridir, Arqun xanın müəllimi, Xorasan və Təbəristanın hökmdarı olmuşdur. Onun Qacar adlı oğlu var idi və tayfanın adı da buradan meydana gəlmişdir». Sonra oxuyuruq: «Qacarların bir hissəsi nə vaxtsa Anadoluya və Suriyaya köçürülmüşdür. Əmir Teymur (Teymurləng) 50 minlik qacarlar ailəsini Qafqaza köçürmüş və onları İrəvanda, Gəncədə və Qarabağda yerləşdirmişdir, burada zaman-zaman onların sayı artmışdır. İrəvan və Gəncə xanları Qacarlardan olmuş və onların da sonuncusu Ziyadoğlu əvvəllər Xudafərin körpüsündən, Gürcüstandakı Qırmızı Körpü deyilən yerdən bir az yuxarıda yerləşən Şulaver kəndinə qədər olan ərazilərin hakimi olmuşdur»[1] .

Türk tarixçisi Z.Toqanın fikrincə, Qacarlar Azərbaycana Oğuz xanının İrana yürüşləri dövründə gəlmişlər və monqolların Azərbaycana yürüşləri zamanı Xalxalın ətrafında yaşamışlar. Hülaku xana kömək edən Qacarlar onlarla birlikdə Dəməşqə yollanmış, Əmir Teymur və Qaraqoyunlular sülaləsinin hökmranlığı dövründə isə yenidən Azərbaycana qayıtmışlar[2]. «Qızılbaşların tarixi» əsərinin müəllifinin təsdiq etdiyi kimi, Qacarlar qədim zamanlardan Gəncədə və

[1] Бакиханов А.А. Гюлистани-Ирам. Баку, 1991.ss.172-173.
[2] Тоган З.В. Об этнографии Азербайджана. “Azerbaycanın Yurtbilgisi”. İstanbul, 1933. См. Наджафлы Т. Карабах в XV столетии.

Bərdədə yaşamış, onların bir hissəsi isə Dəməşq şəhərindən gəlmişdir[1].

Bu faktlar bir daha təsdiqləyir ki, qədim Oğuz tayfalarından olan Qacarlar hələ monqol hücumlarından qabaq Azərbaycanda yaşamış və monqolların təzyiqi altında başqa türklərlə birlikdə Şərqi Anadoluya çəkilmişlər. XV əsrdə Qacarlar Ağqoyunlu ittifaqına daxil olmuşlar. XV əsrin 90-cı illərində Qarabağda yaşamış Qacarlar Ağqoyunlu taxt-tacı uğrunda qızğın mübarizədə fəal iştirak etmişlər, bu da o dövrün mənbələrində öz təsdiqini tapır.

F.Sümerə görə Uzun Həsənin nəvəsi Rüstəm Mirzənin Əlincə qalasından azad olunmasında və onun taxta gətirilməsində mühüm rol Gəncə ətrafında yaşamış Qacarlara məxsusdur[2]. 1497-ci ildə Gödək Əhməd tərəfindən məğlubiyyətə uğramış Rüstəm şah yenə də Gəncə ətrafında yaşamış Qacarlardan olan bəyə pənah gətirmiş və ondan kömək istəmişdir. Qacarlardan olan bəyin ona kömək etməsinə baxmayaraq o, 1497-ci ilin yazında döyüşdə məğlub olub əsir düşmüş və öldürülmüşdü. F.Sümerin fikrincə, o zaman Qacar nəslinin başında Ziyad bəy dururdu[3].

XV əsrin sonuncu rübündə Şeyx Heydərin ətrafında toplanmış Qızılbaşların müxtəlif qəbilələri arasında Qarabağ Qacarları xüsusi rol oynamışlar. İ.Petruşevskiyə görə, XV əsrin sonunda, nə vaxtsa Ağqoyunlu ittifaqına (Ağqoyunlu

---

[1] История Кызылбашей. Перевод и комментарии М.А. Махаммади. Баку, 1993. См. Наджафлы Т. Карабах в XV столетии. http://karabakh-doc.azerall.info/ru/articls/artc116-29. php.

[2] Сюмер Ф. Роль тюрков Анадолу в создании и развитии Сефевидского государства. Анкара, 1976. См. Наджафлы Т. Карабах в XV столетии.

[3] Həmin mənbə.

Qacarlar) daxil olmuş türk əsilli Qacarlar Qızılbaşlara birləşdi[1].

Səfəvilər dövründə Qacarların nüfuzu sürətlə artır. 1499-cu ildə İsmayıl Lahıcı tərk edib Ərdəbilə hərəkət edən zaman onun ən sadiq müridlərindən biri Qara Piri bəy Qacar idi. Zeynalabdin Əli özünün «Təkmilətül-əxbar» əsərində yazır ki, cəsurluğuna görə «Tozqoparan» ləqəbi almış Qara Piri bəy Qacar İsmayıl tərəfindən 1501-ci ildə Ağqoyunlu Əlvəndə qarşı göndərilmiş ön sırada gedən qoşunların başçısı təyin etmişdir[2] . Qacarlar Qızılbaş tayfalarının tərkibinə daxil olur və onların köməyi ilə Səfəvilər Azərbaycanda, sonra isə İranda öz hakimiyyətini qururlar. Şah İsmayıl onlara tutduqları ərazilərə sahiblik haqqında sənəd verir, onların torpaq mülklərini qanuniləşdirir[3] .

Şəkiyə ilk Səfəvi hakimi Toyqun bəy Qacar (1551) təyin olunmuşdur. I Şah Abbasın* dövründə Çuxursəd bəylərbəyliyinin hakimi Əmirgünə xan Qacar olmuşdur. Osmanlılarla döyüşdə göstərdiyi igidliyə görə «Sarı Aslan» ləqəbi almışdır. 1625-ci ildə Əmirgünə xanın ölümündən sonra bu vəzifəyə onun oğlu, Birinci Şah Abbasın ən tanınmış sərkərdəsi Təhmasibqulu bəy Qacar təyin edildi. Bütövlükdə XVII əsr ərzində Ağçaqoyunlu Qacarların ayrı-ayrı nümayəndələri Çuxursəd bəylərbəyliyini idarə etmişlər[4] .

Ziyadoğlu Qacarların nümayəndələri demək olar ki, fasiləsiz, XVI əsrdən başlayaraq Qarabağ bəylərbəyliyini, sonra isə onun ərazisində yaranmış Gəncə xanlığını idarə etmişlər.

---

[1] Петрушевский И.П. Очерки истории феодальных отношений в Азербайджане и Армении в XVI – в начале XIX вв. Л., 1949. s.91.

[2] Эфендиев О. Образование Азербайджанского государства Сефевидов в начале XVI в. Баку, 1961. s.146.

[3] Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997. s.262.

[4] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2010. s.41

Səfəvi hökmdarı I Təhmasib qızılbaş Qacar tayfasından olan əmir Şahverdi bəy Ziyadoğlunu Qarabağ bəylərbəyi və Qacar tayfasının başçısı təyin etmişdir. 1547-ci ildən isə o, sultan titulu daşımışdır[1] . Gəncə və Qarabağdan başqa Şəmşəddil və Qazax da qacarlara tabe idi. Gəncə ilə birlikdə onlar da öz hərbi dəstələrini çıxarırdılar. Səfəvilərin hakimiyyəti dövründə mühüm siyasi rol oynamış Gəncəli Şahverdi ən nüfuzlu bəylərbəylərdən biri olmuşdur[2] .

Görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Türkmən Münşi (1560-1634) özünün məşhur «Tarixi-aləmarayi-Abbasi» əsərində yazır: «Qarabağ qışlaq və yaylaqları, təmiz havası və sıx ormanları olan ən gözəl bir diyardır. Qarabağın ən qədim əhalisi qacarlar və onlara qohum olan tayfalar burada gözəl bağlar salmışlar». Bu tayfalar haqqında xatirələr indiki Füzuli şəhərinin yaxınlığında yerləşən kəndin (Qacar) və Zəngəzurdakı Qacar (indiki Qacaran) şəhərinin adlarında əbədiləşmişdir[3]. Sultan Şahverdinin üç oğlundan böyüyü Xəlil xan Astrabadın bəylərbəyi və orada məskunlaşmış Qacar tayfasının bir qolunun başçısı olmuşdur. Məhz Astrabad qolunun nümayəndələri, Ağa Məhəmməd şah Qacardan başlayaraq, İrana hakimlik edəcəklər (1796-1925). Başqa iki oğlu isə – İbrahim xan və Xəlifə Yusif ardıcıl olaraq 1576-cı ilə qədər Qarabağ bəylərbəyləri və orada yaşayan qacarların başçıları olmuşlar.

II Şah İsmayıl Ziyadoğlu nəslini onda günahlandırırdı ki, guya Sultan Şahverdinin təsiri nəticəsində hər şeydən ehtiyatlı olan atası I Şah Təhmasib tərəfindən o, siyasi məhbusların salındığı Qəhqəhə zindanına atılmış və orada 20

---

[1] Петрушевский И.П. Очерки истории феодальных отношений в Азербайджане и Армении в XVI – в начале XIX вв. Л., 1949. s.122.

[2] Альтман М.М. Исторический очерк Гянджи. Баку, 1949. ss.84-85.

[3] Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997. s.261.

il zindan həyatı keçirmişdir. 1576-cı ildə baş vermiş daxili toqquşmalar zamanı Xəlifə Yusif Ziyadoğlu şah taxtı uğrunda mübarizədə II İsmayılın rəqibi olan qardaşı Heydər Mirzənin tərəfini saxlayırdı. Ona görə II İsmayıl Xəlifə Yusifi bəylərbəyi və Qacar tayfasının başçısı vəzifələrindən məhrum etdi, amma Qarabağ bəylərbəyliyini başqa qızılbaş tayfasından olan əmirə tabe etməyə cürət etmədi. Şah əvvəlcə Xəlifə Yusifin qardaşı oğlu sultan Peykəri, sonra isə İmamqulu xanın nəvəsini bəylərbəyi təyin etdi. Sonuncu isə Məhəmməd Xudabəndənin (1578-1587) şahlığı dövründə 1580-ci ildə Şirvan bəylərbəyi təyin edildi, bu zaman Qacar tayfasının bir hissəsi Şirvana köç etdi və tayfa əyanlarına orada torpaq hədiyyə edildi. Sultan Şahverdinin nəvəsi və Astrabad xanı Xəlilin oğlu Məhəmməd xanın bəylərbəyliyi dövründə Ziyadoğlular sülaləsi türk qoşunları tərəfindən təkcə Şirvandan deyil, həmçinin Qarabağdan sıxışdırılıb çıxardıldı (1588). Bu zaman[1] bütün Qacar tayfası Qarabağı məcburi tərk edib Ərdəbilə köçür. XVII əsrin əvvəlində Osmanlı-Səfəvi müharibələrinin yeni mərhələsinin gedişi zamanı Qarabağ I Şah Abbasın* qoşunları tərəfindən azad edildikdən sonra qacarlar köhnə yerlərinə qayıtdılar və şah yenidən Qarabağın idarə olunmasını Ziyadoğlu sülaləsinə verdi. Bu sülalənin nümayəndələrindən olan Hüseyn xan, sonra Məhəmməd xan ikinci dəfə buranın bəylərbəyi oldular. 1614-1615-ci illərdə Kartli və Kaxetiya üsyanları zamanı Gəncədə Səfəvi hakimiyyətinə qarşı əhali üsyan etdi və Məhəmməd xan özünün bir neçə rəiyyəti tərəfindən öldürüldü. Bunlardan sonra ardıcıl olaraq Qarabağı Məhəmməd xanın övladları Mürşüdqulu xan və Məhəmmədqulu xan idarə etmişlər.

---

[1] Петрушевский И.П. Очерки истории феодальных отношений в Азербайджане и Армении в XVI – в начале XIX вв. Л., 1949. s.122.

I Şah Abbasın hakimiyyətinin son illərində Məhəmmədqulu xan Ziyadoğlu Qacar bəylərbəyi vəzifəsindən kənarlaşdırıldı. Qarabağın idarəçiliyi tanınmamış nəsildən olan Davud xana verildi. Burada I Şah Abbasın qüdrətli hərbi-köçəri Qızılbaş tayfalarına qarşı yönəlmiş siyasətini görmək olur. Göründüyü kimi, bu tədbir adlı-sanlı Qacar tayfasının zəifləməsi və bu tayfanı mərkəzi şah hakimiyyətinin itaətkar alətinə çevirmək məqsədini güdürdü. Lakin I Şah Abbasın ölümündən bir neçə il sonra şah hakimiyyətinə qarşı qiyamda Davud xanın özünün əli olduğu məlum olur. Qarabağ bəylərbəyliyi və qacar tayfasının başçısı vəzifəsi Məmmədqulu xan Ziyadoğluna qaytarıldı və onun varisi oğlu Murtuzaqulu xan oldu. Murtuzaqulu xan 1663/1664-cü ildə vəfat etdi və onun varisi qardaşı oğlu I Uğurlu xan oldu. Bundan sonra Nadir şaha qədər hakimiyyət Qarabağ bəylərbəyliyini Ziyadoğlu sülaləsinin əlindən almağa cəhd göstərməmişdir[1].

Peterburq müqaviləsinə görə (1723) Rusiyanın Xəzəryanı əraziləri və İstanbul müqaviləsinə görə (1724) Osmanlı imperiyasının Azərbaycanın çox hissəsini işğal etmələrindən sonra əvvəlki bəylərbəyliklərə bölünmə inzibati-idarəetmə sistemi demək olar ki, dağıdıldı. Onların əvəzində rusların və osmanlıların işğal etdikləri ərazilərdə yeni hərbi-inzibati idarəetmə sistemi yaradıldı.

1735-ci ildə Azərbaycan ərazilərinin rus və osmanlı işğalından azad olunmasından sonra 1736-cı ildə hakimiyyətə gəlmiş Nadir şah* əvvəlki Səfəvi inzibati bölgüsünü bərpa etmədi, əksinə, keçmiş bəylərbəyliklərin ərazilərini, mərkəzi Təbriz olmaqla Azərbaycan adı altında inzibati-ərazi vahidi tərkibində birləşdirdi və qardaşı İbrahm xanı onun başçısı

---

[1] Петрушевский И.П. Очерки истории феодальных отношений в Азербайджане и Армении в XVI – в начале XIX вв. Л., 1949. ss.123-124

təyin etdi. Beləliklə, ölkəninin cənub və şimalını əhatə edən Azərbaycan adı siyasi əhəmiyyət kəsb etdi. İndi imperiyanın mərkəzi və kənar ərazilərini əsasən türk əsilli Əfşarlar idarə edirdi. Nadir şahın bu siyasəti Səfəvilər hakimiyyəti dövründə bəylərbəyliklərə rəhbərlik etmiş sülalələrin nümayəndələrini mülklərindən və imtiyazlarından məhrum edirdi. Ona görə də Qacarlar tayfasından olan Ziyadoğlu nəslinin nümayəndələri Səfəvi dövlətini bərpa etmək bayrağı altında Nadir şahın hakimiyyətinə qarşı çıxış edirdilər. Nadir şah bundan xəbər tutan kimi Gəncə bəylərbəylərini zəiflətmək məqsədi ilə bir çox tədbirlər həyata keçirdi. Bu məqsədlə Qazax və Borçalı əhalisi Gürcüstan əmirlərinin tabeliyinə verildi; Qarabağdan cavanşir, otuziki və kəbirli tayfalarının bir hissəsi Xorasana köçürüldü; Qarabağın beş məlikliyinə yumruq kimi birləşmək və Gəncə xanlarına baş əyməmək əmri verildi, lazımi hallarda bilavasitə Nadir şaha müraciət olunmalı idi. II Uğurlu xan Ziyadoğluna Gəncə bəylərbəyi titulu saxlanılmaqla yalnız Gəncə verilmişdir.

Beləliklə, Ziyadoğluların iqtisadi və siyasi mövqelərinə tutarlı zərbə vurulmuş oldu. Mirzə Adıgözəl bəyin yazdığı kimi «Gəncə xanlarının ixtiyarı əllərindən alınmış və onların qanadları sınmış olduğundan zəif bir vəziyyətdə qalmışdılar»[1] 1738-ci ildə II Uğurlu xan Carda baş vermiş üsyanı yatıran zaman Nadir şahın qardaşı İbrahimlə birlikdə həlak olurlar. II Uğurlu xanın ölümündən sonra, Gəncə bəylərbəyliyini onun varisi II Şahverdi xan Ziyadoğlu idarə edirdi. Onun hakimiyyətinin ilk illəri haqqında yalnız o məlumdur ki, o, Nadir şahın tərəfində deyildi. Tarixi mənbələrə görə, Şahverdi xan 1743-cü ildə Şirvanda baş vermiş Sam Mirzənin üsyanını müdafiə etmiş və əvəzində bəylər-

---

[1] Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948. ss.107-108.

bəyi vəzifəsindən məhrum olmuş və Gürcüstanda özünə sığınacaq tapmışdır[1].

Lakin Nadir şahın dövlətinin dağılması onun viranə qalmış ərazilərində müxtəlif gücə malik feodal dövlətlərin yaranmasına gətirib çıxarmışdır. Azərbaycanın ərazisi xanlıqlara, sultanlıqlara və məlikliklərə bölünmüşdür. Qarabağ bəylərbəyliyi daha çox parçalanmaya məruz qalmışdır; onun ərazisində Qarabağ və Gəncə xanlıqlarından başqa beş məliklik və bir neçə sultanlıq yaranmışdır. Bu siyasi qurumlar kiçik ərazilərə malik idi və onlarda hakimiyyət bir qayda olaraq irsi xarakter daşıyırdı.

Xanlıqların adları siyasi mərkəzin adı və onların hökmdarlarının silki titulları ilə müəyyən olunurdu; bu zaman etnik mənşə öz ifadəsini tapmırdı. Eyni zamanda xanlıqlar əsasən tərkibi etnik türklərdən ibarət olan ərazilərdə və tarixi Azərbaycanın hüdudlarında təşəkkül tapmışdır. Xanlıqların, sultanlıqların və məlikliklərin sonrakı tarixi göstərdi ki, onların bir çoxu bu və ya digər xanlıqların ərazisi olmuş və ya ən azından onların himayəsinə keçmişdir. Bu siyasi qurumlar arasında olan münasibətlər Rusiyanın, İranın və Türkiyənin təsir dərəcəsi ilə müəyyən olunurdu. Nəticədə, xanlıqların siyasi sərhədləri qeyri-sabit xarakter daşıyırdı.

Nadir şahın ölümündən sonra onun Gəncəyə hakim təyin etdiyi Hacı xan üsyan nəticəsində qovuldu. Vəziyyətdən istifadə edən II Şahverdi xan Ziyadoğlu Kartli çarı Teymurazın köməyi ilə Gəncəyə qayıtdı və Ziyadoğlular ailəsinin hakimiyyətini bərpa etdi[2]. O, Şərəfcahan bəyimlə evli idi və ondan dörd oğlu, üç qızı var idi. Böyük oğlu Məhəmmədhəsən xan (1738-1778) Qazıqumuxlu Surxay xanın bacısı Huri Bikə ilə evli idi. Sonra isə yaşa görə Məhəmməd xan (1742-1785), Cavad xan (1748-1804) və Rəhim bəy gəlirdi.

---

[1] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003. s.15.
[2] Həmin mənbə. s.18.

Şahverdi xanın böyük qızı Tuti bəyim Qarabağ xanı İbrahimin zövcəsi idi, ikinci qızı Xurşid bəyim böyük bacısının ölümündən sonra 1761-ci ildə həmin İbrahim xana ərə gedir. Kiçik qızı Xeyirnisə bəyim əvvəlcə Şəki xanı Hüseyn xana ərə getmiş, amma onun ölümündən sonra İbrahim xanın oğlu Məmmədhəsən ağaya ərə getmişdir. Hakimiyyətin ilk illərində II Şahverdi xan Qarabağ hökmdarı Pənah xanla və şimal qonşuları ləzgilərlə dostluq münasibətləri saxlayırdı. Bu haqda «Car müharibələri xronikası»nda qeyd olunur ki, «...car və talaylarla Gəncə hökmdarı Şahverdi xan arasında bu zaman tam razılıq hökm sürürdü»[1]. XVIII əsrin ikinci yarısında Gəncə xanlığının xarici siyasətinin əsas istiqaməti öz ərazilərini onun torpaqları hesabına genişləndirmək istəyən Kartli-Kaxetiya çarı və Qarabağ xanı ilə qarşılıqlı əlaqələr qurmaqdan ibarət idi. Gürcü çarları Teymurazın, sonra isə II İraklinin Gəncə xanlığını öz tabeçiliyinə keçirmək istəməsi onunla izah olunurdu ki, bu xanlıq böyük gəlirlər əldə edirdi. Teymuraz və II İrakli daima pula ehtiyac duyurdu və onların xəzinəsi adətən boş olurdu. Çar gəlirləri böyük deyildi və müəyyən hissəsi də oğurlanırdı. Beləliklə, gürcü hökmdarları öz gəlirlərini Azərbaycan xanlıqlarının, o cümlədən Gəncə xanlığının torpaqlarını işğal etmək hesabına artırmaq istəyirdilər[2].

1752-ci ildə İrakli Şəki xanı Hacı Çələbiyə qarşı məkrli plan qurmaq qərarına gəlir. Mənbələrdən məlum olur ki, gəncəli II Şahverdi xanın da bu işdə əli olub. Rus xronikaçısı Butkov bu hadisələri belə təsvir edir: «Bu vəziyyətdə İrakli Şəki, Şamaxı, Gəncə və Qəbələ xanlarına təklif etdi ki, İranda şah olmadığı üçün sakitlik pozulub, ona görə o, bir gürcü

[1] Həmin mənbə. s.20
[2] Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948. ss.122-123.

çarı kimi İranda asayişi bərpa etmək və şahı seçmək vəzifələrini öz öhdəsinə götürməyə hazırdır, amma həmin xanlar yalnız söyüşlə rədd cavabı vermədilər, həm də ona quyu qazmağa başladılar. Beləliklə, 1752-ci ildə gəncəli Şahverdi xan çar Teymurazdan uzaqlaşdı və ondan hər ildə tələb olunan vergini vermək istəmədi. Çar Teymuraz oğlu İrakli ilə birlikdə Şahverdi xanı cəzalandırmaq üçün yola düşdü. Hacı Çələbi xan Şirvan və ləzgi qoşunlarını toplayıb Gəncə xanının müdafiəsinə qalxdı və 1752-ci il aprelin 12-də Gəncə ətrafında Teymurazı darmadağın etdi»[1]. Lakin mənbələr əsasında xanların fikirlərinə və davranış motivlərinə nüfuz etmək çətin ki, mümkün olsun. Hətta gürcü mənbələri də etiraf edirlər ki, Gəncə və Qarabağ xanları zahirən İrakli ilə ittifaqda olsalar da növbəti döyüşdə Hacı Çələbi xanın tərəfinə keçməli və ona qarşı xəyanət planları qurmalıdırlar; buna görə də şərait İraklini düşərgəsinə gəlmiş Azərbaycan xanlarını tutub əsir götürməyə məcbur etmişdir. İstənilən halda İrakli bu hərəkətləri ilə özünün əsl niyyətlərini büruzə vermişdir. Tezliklə II Şahverdi xan və Hacı Çələbinin oğlu Ağakişi bəy böyük ordu ilə gürcü çarlarına qarşı çıxış etdilər. Onlara həmçinin qazaxlılar və borçalılar qoşuldu. Lakin 1752-ci ilin avqustunda II Şahverdi xan uğurlar əldə etməyib Gəncəyə doğru geri çəkilməyə məcbur oldu. Atakişi bəy isə Qazax və Borçalı mahalını tərk edib Şəkiyə qayıtdı[2].

Gürcü mənbələrinə əsasən, təxminən 1754-cü ildə Şahverdi xan yenidən öz elçisini sülh haqqında danışıqlar aparmaq üçün Teymurazın və İraklinin yanına göndərir. Bundan sonra II Şahverdi xanın yanına qayıdan elçi çarın iradəsinə şahidlik etməsini aşağıdakı sözlərlə deyir: «Onlar sülh müqa-

[1] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. СПб, 1869. ss.239-240.
[2] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003. s.25.

viləsindən başqa heç nə arzulamadılar»[1]. Danışıqların sülhlə qurtarması gəncəlilərin şimaldan gözlədiyi təhlükənin qarşısını aldı və Şahverdi xana müvəqqəti dinclik dövrünü verdi.

Lakin xanlığın uzunmüddətli müstəqilliyini təmin etmək üçün Şahverdi xan yaxın qohumu olan Məhəmmədhəsən xan Qacarla öz münasibətlərini möhkəmləndirmək qərarı verdi, bu vaxta qədər o, Səfəvi imperiyasının keçmiş ərazilərində tam hakimiyyətə yiyələnmək uğrunda mübarizədə real namizəd olmuşdur.

Səfəvi imperiyasının sərhədlərini bərpa etmək uğrunda mübarizəyə qoşulan Məhəmmədhəsən xan Qacar əsas zərbəni Azərbaycanın cənub xanlıqlarına istiqamətləndirdi. Bu kampaniyanın gedişində o, Gəncə xanı II Şahverdinin timsalında sadiq müttəfiqini tapdı. II Şahverdi xan qaradağlı Kazım xanla Təbrizin tutulması uğrunda urmiyalı Fəthəli xana qarşı Qacarın yürüşündə fəal iştirak edir və Təbriz alınır. Bu uğur Məhəmmədhəsən xana Azərbaycanın şimal xanlıqlarına qarşı yürüş etməyə imkan verir. Buna bəhanə isə bir çox Azərbaycan xanlıqlarının, məhz Qarabağ, Şəki, Şamaxı, Quba və Bakı xanlarının onun tərəfində durmamasıdır[2] . Lakin Qacarın Qarabağ xanlığına və Gürcüstana qarşı hərbi kampaniyaları 1757-cu ildə olduqca uğursuz oldu. Öz növbəsində Gəncə xanının Məhəmmədhəsən xanın tərəfində olması onun Gürcüstan və Qarabağ xanı ilə münasibətlərini gərginləşdirdi. 1759-cu ildə Məhəmmədhəsən xan Şiraz uğrunda mübarizədə həlak olması II Şahverdi xanı Qarabağ xanının və gürcü çarının hərbi təzyiqlərini müstəqil dəf etməyə və onlar arasındakı ziddiyyətlərdən istifadə edərək manevr etməyə məcbur etdi. Belə ki, rus konsulu P.Çekalevski öz raportunda Pənah xanın II Şahverdini Məhəmmədhəsən

[1] Həmin mənbə. s.26.
[2] Həmin mənbə. s.26.

xana vasitəçilik etdiyinə görə cəzalandırması və Gəncəyə birgə gürcü-Qarabağ hücumunun təşkili haqqında məlumat verir: «Qarabağlı Pənah Cavanşir gürcü qoşununun köməyi ilə gəncəli Şahverdi xanın üzərinə müharibə etməyə getdi və şəhəri bir müddət mühasirədə saxladı; Şahverdi xandan böyük məbləğdə pul alıb və yerli sakinlərdən ibarət yeddi yüzə yaxın ailəni götürüb öz torpaqlarına qayıtdı»[1] .

1761-ci ildə II Şahverdi xanın ölümündən sonra Gəncədə hakimiyyətə onun oğlanlarından biri, təşəbbüskar dövlət və siyasi xadim kimi səciyyələnən Məhəmmədhəsən xan gəldi. Belə siyasət Gəncə xanlığının müstəqil dövlət kimi formalaşmasına və güclənməsinə köməklik göstərdi. Lakin gürcü çarına verilən illik 10 min tümən məbləğində vergi Gəncənin iqtisadiyyatına mənfi təsir edirdi. Ona görə Məhəmmədhəsən xan həmin məbləğin verilməsindən imtina etdi. Qardaşının ölümündən sonra hakimiyyətə gələn Məhəmməd xan bu siyasəti davam etdirdi. II İrakli* zəngin Gəncənin itirilməsi ilə barışa bilmirdi; Gəncəni tutmaq üçün qoşun toplamağa başladı və Qarabağ xanı İbrahim xanla ittifaq bağlamağa qərar verdi. Beləliklə, 1780-ci ilin əvvəlində müttəfiqlərin qoşunları Gəncə qalasını mühasirəyə aldı. Başda Məhəmməd xan olmaqla qalanın qarnizonu uzun müddət müqavimət göstərə bilmədi və müttəfiqlərin qoşunlarına məğlub oldu. Məhəmməd xan özü ailəsi ilə birlikdə əsir düşdü, sonra isə gözü çıxarıldı[2] .

Gəncəni tutduqdan sonra qaliblər xanlığı idarə etmək üçün öz nümayəndələrini təyin etdilər. Lakin ikihakimiyyətlilik uzun sürmədi. Artıq 1783-cü ilə doğru vəziyyət o dərəcədə dəyişdi ki, II İrakli və İbrahim xan* arasında gərginlik yarandı. Bunun da əsas səbəbi onların hər birinin Gən-

[1] Həmin mənbə. s.27-28.
[2] Həmin mənbə. s.36.

cənin tam hökmdarı olmaq iddiası idi. Bu məqsədinə çatmaq üçün II İrakli gəncəlilərin gözündə özünü xeyirxah və ədalətli göstərməyə cəhd edirdi; xanlığın sakinlərinin üçillik vergidən azad olunması haqqında fərman bunu təsdiqləyir. İbrahim xan da öz növbəsində Gəncə əhalisini öz tərəfinə çəkməyə və «gizli olaraq çar İrakliyə zərər vurmağ»a çalışırdı. O, xalqı itaətsizliyə çağıran bir neçə partiya yaratdı və Ziyadoğlulardan olan Hacı bəyin köməyi ilə 1783-cü ildə üsyan qaldırdı. Lakin bu onunla qurtardı ki, hər iki hökmdarın nümayəndələri şəhərdən qovuldu və 1783-cü ilin sonunda Hacı bəy Ziyadoğlu «özü ölkəni idarə etməyə başladı»[1] .

Lakin Gəncənin başı üzərində yeni təhlükə Rusiyanın Cənubi Qafqazdakı siyasətinin fəallaşması ilə bağlı idi. Osmanlı Türkiyəsinə (1768-1774) və onun yaxın müttəfiqi Krım xanlığına (1783) qarşı uğurlu hərbi əməliyyatdan sonra öz uğurlarını genişləndirmək məqsədi ilə çar Rusiyası hökuməti tərəfindən Cənubi Qafqazı işğal etmək üçün bütöv fəaliyyət planı yaradıldı.

Bu siyasətin həyata keçirilməsi gedişində Rusiya ənənəvi olaraq hərbi-diplomatik addımlardan istifadə edir və inandığı II İraklinin köməyinə ümid bəsləyirdi. 1782-ci ilin sonunda II İrakli rus imperatoru II Yekaterinaya* onun Rusiyanın himayəsinə keçməsi haqqında müraciət etdi. Onun təqdim etdiyi şərtlər arasında Gürcüstana bitişik ərazilərin, Gəncənin və İrəvanın idarəçiliyi, Axalsıx və Qars vilayətlərinin əldə edilməsi, həmçinin ləzgilər tərəfindən alınmış torpaqların geri qaytarılması dururdu. Bu şərtlərin yerinə yetirilməsi təqdirdə İrakli İran və Türkiyə ilə müharibədə öz xidmətlərini vəd edirdi. Lakin 1783-cü ilin iyulunda himayədarlıq haqqında imzalanmış Georgievsk müqaviləsi İrak-

[1] Həmin mənbə. s.37.

liyə gözlənilən nəticəni vermədi. Amma İrakli Gəncə üzərində öz təsirini itirməsi ilə barışmaq istəmir. Artıq 1784-cü ilin payızında o, rus qoşunlarının köməyi ilə Gəncə üzərinə yürüş etməyə qərar verir. II İraklinin niyyətlərini qabaqcadan nəzərə alan gəncəli Hacı bəy şəhərin müdafiəsi üçün Dağıstandakı canqutay qumuqlarının hökmdarı Əli bəyi dəvət etdi, o da Qarabağ xanı İbrahimin xahişi ilə gəncəliləri müdafiə etmək üçün hazır olduğunu bildirdi. Bunun da nəticəsində başda polkovnik Burnaşev olmaqla rus qoşunları uğursuzluğa məruz qaldı və o, Gəncəni tutmaqdan imtina edib Tiflisə qayıtdı[1] .

1785-1786-cı illər, İrakli və İbrahim xan arasında Gəncə uğrunda mübarizənin yeni mərhələsi ilə səciyyələnir. Bu mübarizənin gedişində Rəhim bəy Ziyadoğlu xan taxta çıxır. Butkovun yazdığı kimi, qardaşı Məhəmməd xanın İbrahim xan tərəfindən edam edilməsindən sonra o, Şuşa qalasından qaçdı[2] . Gəncədə baş vermiş sonrakı hadisələr ona gətirib çıxardı ki, təxminən 1786-cı ilin yayında İbrahim xanın köməyi ilə Şahverdi xanın oğlu Cavad xan Ziyadoğlu Gəncə xanlığının taxtına çıxdı, onun qardaşı Rəhim bəy isə II İraklinin yanında özünə sığınacaq tapmağa məcbur oldu. İbrahim xanın 1786-cı il iyulun 17-də II İrakliyə yazdığı məktubda Gəncə sakinlərinin xahişinə əsasən Cavad xanı «müəyyən müddətə» xanlığın hökmdarı kimi təsdiq edilməsi haqqında xəbər verilir[3] . İbrahim xanın məktubundan görünür ki, məcburi razılığa baxmayaraq, Cavad xanın hakimiyyətə gəlməsi onu az qane edirdi. Ona görə Qarabağ xanı arxasında Rusiyanın dayandığı II İrakli ilə barışıq yolları axtarırdı.

---

[1] Həmin mənbə. s.42.
[2] Həmin mənbə. s.45.
[3] Həmin mənbə. s.47.

Cavad xanın hökmranlığı dövrü Gəncə xanlığı tarixinin ən parlaq səhifəsidir. Cavad xanın müasirlərindən biri S.S. Kovalenski 1800-cü ildə Gürcüstan haqqında qeydlərində onun haqqında belə rəy vermişdir: «Cavad xan əlli yaşında, Qacar nəslindən olan ağıllı, hiyləgər və öz siyasəti, həmçinin gözəl danışığı ilə şöhrət tapmış insandır»[1] . XIX əsr rus və Azərbaycan salnaməçiləri P.Butkov, N.Dubrovin, Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Cavad xanı hiyləgər hökmdar kimi qələmə vermişlər və onu, Qarabağ xanı İbrahim xandan, Quba xanı Fəthəli xandan fərqli olaraq Azərbaycan xanları arasında anti-rus əhval-ruhiyyəsini müdafiə etməkdə və beləliklə, «Orta əsr durğunluğuna qərq olmuş İran və Türkiyənin» xeyrinə seçim etməkdə ittiham edirdilər. Azərbaycan tarixinin xanlıqlar dövrünü öyrənən ilk sovet tədqiqatçılarından biri Leviatov yazırdı: «Şuşa qalasının mühafizəsi zamanı düşmən tərəfə keçmiş gəncəli Cavad xan Ağa Məhəmməd şahın düşərgəsində yerləşirdi. Gəncənin idarə olunmasını gücləndirmək məqsədi ilə Ağa Məhəmməd şah onun bütün niyyətlərinə hər cəhətdən köməklik göstərirdi. Vətənə xəyanət etmiş firavanlıq axtaranlar Ağa Məhəmməd şaha qoşulurdular».[2] Cavad xanın hakimiyyətdə olması dövrü Qacarların, Osmanlı Türkiyəsinin və Rusiyanın Cənubi Qafqaz uğrunda mübarizəsinin kəskinləşməsi dövrünə təsadüf edirdi. Sözsüz ki, bu ziddiyyətlər xanlığın daxili və xarici siyasətində özünü büruzə verirdi. Cavad xan II İrakli və Qarabağ xanı İbrahim xanın ittifaqından ehtiyatlanırdı, çünki onlar dəfələrlə xanlığın müstəqilliyini zəiflətməyə çalışırdılar. Lakin Rusiyanın köməkliyi ilə Kartli-Kaxetiya çarlığının güclənməsi şəraitində Cavad xanın Qa-

---

[1] Акты Кавказской Археографической комиссии. т.1. Тифлис, 1866. № 34,120

[2] Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948. ss.171-172.

carların cənub qolunun nümayəndəsi və öz qohumu Ağa Məhəmməd şahla yaxınlaşması təbii idi.

Azərbaycan tarixşünaslığında Ağa Məhəmməd şah* Qacarın iblisanə obrazı bütövlükdə saxlanılır, bu da sovet tarixşünaslığının qoyduğu ağır izdir. Azərbaycana münasibətdə Ağa Məhəmməd şah Qacarın siyasətinin qiymətləndirilməsində stereotip təfəkkür müəlliflərə imkan vermir ki, əvvəlki sovet müddəalarını yenidən nəzərdən keçirərək, onun xanlıqlara qarşı ziddiyətli münasibətinin səbəblərini düzgün müəyyən etsinlər. Etiraf etmək lazımdır ki, Qacarın siyasəti faktiki olaraq keçmiş Səfəvi dövlətinin sərhədlərinin, yəni vahid Azərbaycanın bərpasına yönəldilmişdir. Bu mənada Qacarlar (M.Adıgözəl onları qızılbaşlar dövləti adlandırır - İ.N.) Səfəvilərin layiqli davamçıları idi. Təsadüfi deyil ki, Ağa Məhəmməd şahı hakimiyyətə türk tayfaları gətirmişdir. Sonralar onların bir hissəsi Qacarlar dövlətində mühüm dövlət vəzifələrini tutdular.

Ağa Məhəmməd şah Qacar 130 ilə yaxın İranı idarə edən türk sülaləsinin banisi oldu. Gənclik illərində yaşamış olduğu faciəvi hadisələr Ağa Məhəmmədin xasiyyətinin formalaşmasında və onun dövlət xadimi kimi təşəkkül tapmasında dərin izlər qoymuşdur. Atasının ölümündən sonra Ağa Məhəmməd Zəndlərlə mübarizə aparmağa başlayır, lakin döyüşlərin birində əsir düşür və tezliklə Kərim xan Zəndin hörmətli «qonağı» olur və onun yanında 16 il qalır. İndiyə qədər tarixçilərə qaranlıq qalan odur ki, nəyə görə Kərim xan Zənd Ağa Məhəmmədi öldürməmiş və ya onun gözünü çıxartmamışdır, belə ki, o zamanlar hökmdarlar öz rəqibləri ilə belə rəftar edirdilər. Rəvayətlərdə bu, olduqca sadə izah olunur. Kərim xan Zənd* biləndə ki, Ağa Məhəmməd axtalanmışdır, o, taxt uğrunda mübarizədə onu rəqib kimi görmür, ona görə də öldürmür. Kərim xan Zənd Ağa Məhəmmədi çıxıb getmək hüququ alınmaqla Tehranda yanında saxlayır. Orada Ağa Məhəmməd mədrəsəyə gedir, mühazirələrə qulaq asır,

münazirələrdə iştirak edir, daima özünün yaxınları və həmvətənləri ilə yazışır. Kərim xan Zənd paytaxtı Şiraza köçürür və Ağa Məhəmmədi özü ilə oraya aparır. O, İranın qədim mədəniyyət mərkəzlərindən birinə düşərək təhsilini davam etdirir, dini, fəlsəfəni, riyaziyyatı, poeziyanı, astronomiyanı və astrologiyanı öyrənərək böyük uğurlar əldə edir. Gözəl hafizəsi sayəsində Ağa Məhəmməd Qurandan, fəlsəfi əsərlərdən parçaları, az tanınmış şairlərin şeirlərindən nümunələri misal gətirə bilirdi. Ədəbi məclislərdə o, böyük nüfuza malik olur, məsləhət və arayışlar üçün ona müraciət edirlər[1]. Kərim xan Zəndin ölümündən sonra Ağa Məhəmməd Astrabada yollanır. Astrabadda möhkəmləndikdən sonra uzun amansız mübarizə nəticəsində İsfahanı, Yəzdi, Kirmanı, sonra isə Şirazı özünə tabe edir. Ağa Məhəmməd xan Xəzər dənizinin bütün cənub sahillərini ələ keçirmək üçün inadlı mübarizə aparır. Gilanda Hidayət xanın, sonra isə doğma qardaşı Murtuzaqulu xanın[2] güclü müqaviməti ilə qarşılaşır.

1791-ci ildə Ağa Məhəmməd xan Cənubi Azərbaycan xanlarını itaətə gətirdi. 1794-cü ildə Ağa Məhəmməd xan şah titulunu qəbul edir. Burada onun Azərbaycanda hakimiyyəti ələ almaq iddiaları öz əksini tapdı, çünki İranda mövcüd olan ənənəyə əsasən şah bütün Azərbaycanın və Gürcüstanın hakimi olmalı idi[3]. Ağa Məhəmməd şahın tacqoyma mərasimi Nadir xanın Muğanda taxta oturması nümunəsi üzərində həyata keçirilmişdir. Ağa Məhəmməd şah Ərdəbildə şeyx Səfiəddin türbəsində xeyir-dua verilmiş tacla və şah qılıncı ilə təltif edilərək taxta çıxarıldı. Bu hadisə onun Səfəvilərin varisi olduğunu nümayiş etdirirdi. O, bütün va-

---

[1] Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997. ss.264-265.

[2] Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948. ss.161-162.

[3] Həmin mənbə. ss.162-163.

sitələrlə ali hakimiyyətin Qacarlar sülaləsinə məxsus olduğunu vurğulayırdı. Bundan əlavə, hakimiyyət uğrunda mübarizədə Əfşar, Həlac, Bayat, Qaragözlü türk-azərbaycan tayfalarına arxalanırdı[1] .

O dövr sənədlərinin təhlili göstərir ki, Ağa Məhəmməd şahın Cənubi Qafqaza yürüşü ərəfəsində Azərbaycan xanları arasında birliyin və birgə müdafiə haqqında razılığın olmaması, onların bir-birinə qarşı düşmənə çevirməsi barədə kifayət qədər məlumatı var idi. Onun Şimali Azərbaycan xanlarını danışıqlar yolu ilə özünə tabe etmək cəhdləri uğurla nəticələnmədi. Yalnız II İraklinin fəaliyyətindən narazı olan Cavad xan onun çağırışına cavab verdi. Qeyd etmək lazımdır ki, 1786-cı ildə Cavad xan tərəfindən Gəncədən qovulmuş və II İraklinin yanında sığınacaq tapmış qardaşı Rəhim xan hər an II İraklinin dəstəyi ilə Gəncə taxtını qaytarmaq istəyirdi. Ağa Məhəmməd şahın* dəstəyinə ümid edən Cavad xan onunla görüşdə Kartli-Kaxetiya çarlığına qarşı təşkil olunacaq yürüşdə öz köməkliyini göstərməyə söz verirdi. Cavad xanın Ağa Məhəmməd şahla danışıqları İraklini çox narahat edirdi. Məhz buna görə də, II İrakli Rusiyada olan oğlu şahzadə Mirian vasitəsi ilə rus imperatorundan köməklik istəyir[2] . 1795-ci ilin mayında Ağa Məhəmməd şahın əmri ilə Ərdəbildə Cənubi Qafqaza hücum etmək üçün Nurəli xanın başçılığı ilə qoşun toplanır. 1795-ci ilin yazında Ağa Məhəmməd şah yürüşə başlayır. Müasirlərinin fikrincə, şah 85 minlik böyük bir ordu toplayır. Araz çayını keçən kimi, o, qardaşı Əliqulu xanı qoşunla İrəvana göndərir; şəhər döyüşsüz təslim olur. İyun ayında Ağa Məhəmməd şahın qoşunları Şuşaya yaxınlaşır və qalaya bir neçə uğursuz yürüş təşkil edirlər. Şuşanın mühasirəsi 33 gün çəkir. Nəhayət,

---

[1] . Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997. s.267.

[2] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003.s.56.

Şuşa qalasının qısa müddətdə alınmasının mümkün olmamasını başa düşən Ağa Məhəmməd şah avqustun əvvəlində Gürcüstana yürüş edir. Bu məsələdə Cavad xanın xidməti danılmazdır. Bu dövrdə Cavad xan Ağa Məhəmməd şahın düşərgəsində idi və şahı Şuşanın mühasirəsini dayandırmaq və Tiflisə yürüş etməyə sövq edirdi[1]. Şuşadan İran qoşunları Ağdama yollanır, burada gəncəli Cavad xan və şəkili Məhəmmədhəsən xan öz dəstələri ilə gələrək Ağa Məhəmməd şah Qacarın ordusuna qatılırlar. Elə bu xanlar da ordunu ərzaq və sürsatla təmin edirdilər. Sentyabrın əvvəllərində Ağa Məhəmməd şahın qoşunları Gəncəyə daxil olur. Tiflisin zəif müdafiə olunması haqqında məlumat alan şah, dərhal hücuma keçməyi qərara alır. 1795-ci il sentyabrın 12-də Ağa Məhəmməd şahın qoşunları Tiflisi ələ keçirir. Bu hadisəni təsvir edərkən, Butkov yazırdı: "Ağa Məhəmməd xan bir sutkaya Gəncədən Tiflisə çatır, halbuki məsafə 120 verst idi ... onun yanında həm gəncəlilər, həm də irəvanlılar var idi ... köməksiz şəhəri ələ keçirdi ... qarət etdi, yandırdı, şah sarayını daşlardan ibarət dağa çevirdi; Avlabarla Tiflisi birləşdirən və Kür çayının üzərindən keçən daş körpünü dağıtdı. Tiflisi qarəti zamanı Rusiya sarayı tərəfindən verilmiş tacı və II Yekaterina tərəfindən hədiyyə edilmiş 12 topu, 10 min xaçpərəst olan insanı özü ilə apardı"[2].

Ağa Məhəmməd şahın Tiflisi işğal etməsi xəbəri tezliklə Peterburqa çatdı. Ağa Məhəmməd şahın qoşunlarının Tiflisi tərk etmək xəbərini II Yekaterinaya çatdıran general Qudoviç ona verilən tapşırıqlara əsasən, 1795-cı il noyabrın ikinci yarısında Daryal vasitəsi ilə Gürcüstana altı çöl topu ilə silahlanmış iki süvari dəstəsi göndərir. 1796-cı ilin əvvəlində

[1] Həmin mənbə.s.57.
[2] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. СПб, 1869. ss.339-340.

xeyli kömək alan II İrakli* və İbrahim xan* qoşun ilə Gəncəyə yaxınlaşırlar. Gəncə məsələsinin həllində maraqlı olan İbrahim xanın II İrakliyə yazdığı məktubda deyilir: "Gəncə bizim ümumi düşmənimizdir, elə bu səbəbdən də bu işə son qoymaq lazımdır"[1]. Cavad xan qalanın müdafiəsinə hazırlaşırdı. Gəncə qalası çox güclü idi, onu ələ keçirmək elə də asan deyildi, mühasirə uzanırdı. Mühasirəyə alınmış Gəncə xanı Cavad xan İbrahim xana girovları, II İrakliyə əsir alınmış gürcüləri qaytarmağa məcbur olur, eyni zamanda hər il 15 minlik bac ödəməyi vəd edirdi. Bu çətin vəziyyətdən çıxış yolları axtaran Cavad xan sentyabr ayında V.Zubova* müraciət edərək, Ağa Məhəmməd şah təhlükəsinin qarşısını almaq üçün Gəncəyə rus qoşunlarının göndərilməsini xahiş edirdi[2]. Əslində isə, Rusiya təbəəliyini qəbul etməyə tələsən Cavad xan özünü II İrakli və İbrahim xandan qorumaq istəyirdi. Cavad xana onun ərazilərinin gələcəkdə II İrakliyə verilməsinin Rusiya planlarında olması məlum idi. 1796-cı il 19 fevral reskriptinə əsasən II Yekaterina V.Zubova tapşırırdı ki, Gəncə və İrəvan Gürcüstana birləşdirilsin; belə olan halda, II Yekaterinanın fikrincə, "Gürcüstan güclənər və Rusiyanın köməkliyi olmadan belə türklərlə müharibə olan zaman bizim üçün əhəmiyyətli olan axtarışlar aparar"[3]. Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, Cavad xan ərazilərini işğaldan qorumaq üçün Gəncə qalasını müqavimətsiz Rimski-Korsakova təslim edir[4]. Bir neçə ildən sonra (1803-cü il) Cavad xan bu hadisələri xatırlayaraq Sisianova yazırdı: "... o vaxt mən Gəncəni sənin padşahına

---

[1] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003.s.61.
[2] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. СПб, 1869. s.406.
[3] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003.s.66.
[4] Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948.ss.181-186.

təslim edəndə, fars şahı Xorasanda idi, əlim ona çatmırdı, mən rus padşahına, eyni zamanda böyük monarxa təslim olmağı vacib hesab etdim”[1] .

1796-cı ilin noyabrında imperatriçə II Yekaterinanın ölümündən sonra rus taxtına sahib olan I Pavel* rus qoşunlarının tezliklə Cənubi Qafqazdan çıxarılması əmrini verdi. Çar reskriptinə əsasən rus qoşunlarının Azərbaycandan çıxarılması 1797-ci ilin dekabrında başlandı. Rimski-Korsakovun dəstələri Gəncə xanlığının ərazilərini tərk etdilər. Lakin, rus hökuməti gələcəkdə ona qarşı müti və etibarlı olmayan Cavad xanla iş görmək istəmirdi. Bu məsələ haqqında A.Bakıxanovun məlumatı olduqca maraqlıdır: “... ruslar Gəncə qalasını tərk edəndə, qalanı ona (Cavad xana – İ.N.) deyil, gürcü valisinə verdilər. Vali İrakli xan, qarabağlı İbrahim xan və şəkili Səlim xan* qoşunla Gəncənin xaricinə gəldilər. Şəmsəddinli Əli Sultanı vali tərəfindən naib sifətilə Gəncəyə hakim təyin etdilər. Cavad xan çarəsiz qalıb qaçmaq fikrinə düşdü, lakin onun arvadı Şükufə xanım adam göndərib Əli Sultana keçmişdə Cavad xanın etmiş olduğu yaxşılıqları və onu həbsxana cəzasından necə azad etdiyini ona xatırlatdı. Əli Sultan da, zatında olan vəfadarlıq və insanlığı üzündən, Cavad xanın hüzuruna gəlib ixlas və təzim ilə qalanın açarını təslim etdi və onun xidmətində durdu. Bu hadisədən sonra Gəncə əhalisi və digər xanlar Əli Sultanın mərdliyinə təəccüb qalaraq Cavad xana tabe oldular” [2] . Beləliklə, Cavad xan yenidən Gəncədə öz hakimiyyətini saxlaya bildi.

1797-ci ilin yazında Ağa Məhəmməd şah Azərbaycana yeni - ikinci yürüş etmək üçün qoşun toplamağa başladı. Öz keçmiş xidmətlərinə arxalanan Cavad xan, Ağa Məhəmməd

---

[1] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868,№1173,589.

[2] Бакиханов А.А. Гюлистани-Ирам. Баку, 1991.s.178.

şahın tələbi ilə iyunun əvvəlində şah qoşunları tərəfindən işğal edilmiş Şuşaya gəldi. Lakin Ağa Məhəmməd şah Zubovun yürüşü zamanı lazımi müqavimət göstərmədiyinə görə Cavad xanı həbs etdirir[1] . Lakin Şuşanın işğalının səkkizinci günündə Ağa Məhəmməd şah qəflətən qətlə yetirilir, Cavad xan azad olunur və öz vilayətinə tələsir. Beləliklə, XVIII əsrin 90-cı illərinin sonunda Gəncə xanlığı yenidən siyasi müstəqilliyinə qovuşur. Gəncə xanlığına qarşı ənənəvi olaraq iddialar irəli sürən Qarabağ xanlığı və Kartli-Kaxetiya çarlığı heç də özlərinin yaxşı dövrlərini yaşamırdılar. 1798-ci ildə Kartli-Kaxetiya çarı İraklinin 80 yaşında vəfat etməsindən sonra taxta onun oğlu XII Georgi çıxır. Atasından fərqli olaraq, Georgi Cavad xana qarşı açıq düşmənçilik mövqeyində dayanmırdı. İki hökmdar arasında ən kəskin məsələ Şəmşəddil məsələsi idi. Belə ki, Şəmşəddil hələ Səfəvilər dövründən Qacarların irsi torpağı idi, lakin Nadir şah Ziyadoğluların onu dəstəkləmədikləri üçün onları cəzalandıraraq Şəmşəddili Kartli çarı Tehmuraza verir. Georgi Şəmşəddili Gəncəyə qaytarmağa söz versə də, vədinə əməl etmir. 1801-ci il sentyabrın 12-də I Aleksandr tərəfindən imzalanmış manifestə əsasən Kartli-Kaxetiya çarlığı ləğv edilir və Şərqi Gürcüstan Rusiyaya birləşdirilir. Bu dövrdə Şəmşəddil məsələsi Cavad xan tərəfindən Qafqazda yerləşdirilmiş rus ordusunun komandanlığı qarşısında qaldırılır. Bu məsələ ilə bağlı 1801-1802-ci illərdə fəal məktublaşma gedir. Cavad xanın Şəmşəddil məsələsində mövqeyi 1801-ci ildə Qafqazda rus ordusunun komandanı Knorrinqə yazdığı cavab məktubunda öz əksini tapmışdır: "Siz mənə yazırsınız ki, güya Şəmşəddil mənə Ağa Məhəmməd xan tərəfindən verilmişdir. Şəmşəddili bizə heç kim verməyib, deməli, heç kimin də onu bizdən almağa, yaxud verməyə haqqı çatmır. 700, yaxud 600 il ərzində Şəmşəddil mənim nəslimə mənsub olub və bizə

[1]Həmin mənbə.s.179.

qulluq edib. Hərdən belə olurdu ki, bu tayfanın bir hissəsi, bizdən narazı olaraq Gürcüstana birləşirdi, sonradan ya özləri, ya Gürcüstan hakiminin məsləhəti ilə bizə qayıdırdı. Hər halda bu tayfanın bizdən başqa sahibi olmayıb ...”[1]. Maraqlıdır ki, Knorrinq Şəmşəddilin Gəncəyə məxsus olduğuna inanırdı: “mən inanıram ki, bu ərazi qədimdən Gəncəyə məxsus olub”. Lakin vəzifə borcunu yerinə yetirən Knorrinq 1802-ci ildə Gəncə xanına cavab məktubunda yazırdı: “Çar Georginin dövründə Şəmşəddil Gürcüstandan asılı vəziyyətdə idi. Gürcüstan zati-alilərinin böyük hakimiyyətini qəbul etdiyi üçün, mən məcburam ki, onun ərazisini sonuncu çarın vaxtında olduğu kimi saxlayım”[2]. Lakin tərəflər bu məsələni danışıqlar yolu ilə həll edə bilmədilər. Rus komandanlığı Şəmşəddildə öz hərbi gücünü artırırdı, bununla da bu məsələdə heç bir güzəştə getməyəcəyini Cavad xana açıq-aydın göstərirdi.

Bu arada, 1802-ci il 8 sentyabr tarixində çar I Aleksandr milliyyətcə gürcü olan general-leytenant Pavel Dmitriyeviç Sisianovu Knorrinqin yerinə Qafqazdakı qoşunların komandanı təyin edir[3]. Sisianov öz işlərinə 1803-cü ilin fevralında başlayır. General Knorrinq “Gürcüstanın xaricində baş verən işləri” təsvir etmək məqsədilə 1802-ci il dekabrın 4-də Sisianova ünvanladığı məktubda Cavad xanı belə səciyyələndirmişdir: “Cavad xan Gürcüstanın ən başlıca bədxahlarından biridir. Onun Gürcüstan əyaləti olan Şəmşəddilə öz iddiaları var. Şəmşəddil Gəncənin sərhədində yerləşir və güya ki, qədimdən Gəncəyə məxsus olub”[4]. Cavad

---

[1] Акты Кавказской Археографической комиссии. т.1. Тифлис, 1866. №817,608.

[2] Акты Кавказской Археографической комиссии. т.1. Тифлис, 1866. №826,612.

[3] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1866. №1,3.

[4] Акты Кавказской Археографической комиссии. т.1. Тифлис, 1866.

xana oxşar münasibət Kovalenskinin 1802-ci il dekabrın 17-də Sisianova imzaladığı məktubda da bildirilir: ”Gəncə hakimi Cavad xan son vaxtlara qədər Gürcüstana bədxah münasibətini İranın şəxsi siyasəti pərdəsi altında gizlədirdi, son zamanlar isə özünü ifşa etməyə başlayıb ...”[1]. Beləliklə, hələ baş komandan vəzifəsinə keçməyən Sisianovda Cavad xan haqqında güclü rəqib kimi ümumi təsəvvür yaranmışdı. Təsadüfi deyil ki, Tiflisə gələn kimi Sisianov Cavad xana məktub göndərir. 1803-cü il fevralın 25-də Gəncə xanına yazılmış məktubda Sisianov tələb edirdi ki, Cavad xan Rusiyanın himayədarlığını qəbul etsin və sadiqliyinin təzahürü kimi oğlu Uğurlu xanı Tiflisə göndərsin: “Bu tələblərin yerinə yetirilməsini Sizin səmimi xeyirxahlığınız kimi qəbul edərəm və onda ... Gəncə və Gürcüstan arasında heç bir fərq olmaz”[2]. Lakin tezliklə, Cavad xandan cavab məktubu gəlir. Bu məktubda Gəncə xanı tabe olmaqdan, xüsusilə də Rusiya təbəəliyini qəbul etməkdən imtina edir. Buna səbəb kimi “İran hökmdarı Baba xandan fərmanın alınması göstərilirdi”[3] .

1803-cü il martın 20-də Sisianov imperator I Aleksandr-dan* Cənubi Qafqazda hərbi əməliyyatların layihəsi olan “ali” reskript alır[4]. XIX əsrin əvvəlləri çarizmin “Şərq siyasətini” əks etdirən bu layihədə Azərbaycan torpaqlarının işğalı da öz əksini tapmışdır. 1803-cü il aprelin 27-də, Sisianov cavab raportu yazaraq, qoşunların azlıq etdiyini xəbər verir, qoşunlarının artırılmasını xahiş edir və Cənubi

---

№817,608. №513,410

[1] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. №1166,586.

[2]Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. № 1169,588.

[3] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. № 566,289.

[4] Həmin mənbə.

Qafqaz ərazisində rus qoşunlarının gələcək hərəkətləri haqqında öz fikirlərini açıqlayır. Burada Gəncənin işğalını ön plana çıxarır və bunu Cavad xanın Şəmşəddilə mütəmadi hücumları ilə izah edir; eyni zamanda Cavad xana dair öz şübhələrini də imperatorla bölüşür: "bütün bunlara Tiflis camaatının gəncəlilərlə sıx əlaqələr qurması, müqavimətin hazırlanması ilə bağlı şübhələrimiz də əlavə olunur"[1]. Bundan sonra Şimali Azərbaycan xanlıqlarına özünəməxsus qapı rolunu oynayan və bununla da Rusiya imperiyası üçün böyük maraq kəsb edən Gəncə xanlığına qarşı qüvvə toplamağa başladı. Sisianov mümkün dərəcədə tez hücuma başlamaq istəyirdi, çünki o bilirdi ki, Cavad xan nəinki Rusiyanın himayədarlığını qəbul etmək istəmir, əksinə var gücü ilə müdafiəyə hazırlaşır. Cavad xanın ona "böyük fərman" verən Fəthəli şah Qacarla münasibətləri Sisianovu çox narahat edirdi. Narahatçılığın əsas mənbəyi Qacarların qoşunlarının Gəncəyə doğru mümkün ola biləcək irəliləməsi idi. Öz növbəsində Cavad xan rus qoşunlarının Gəncəyə hücumunun qaçılmaz olmasını dərk edirdi. O, hələ hərbi əməliyyatlardan əvvəl, öz nümayəndələrini dostluq əlaqələri qurmaq məqsədi ilə İbrahim xanın hüzuruna göndərir və "dostluq rəmzi olaraq xana iki mis top və hədiyyə bəxş edir"[2]. Noyabrın 29-da öz qoşunu ilə Şamxora gələn Sisianov Cavad xana içərisində Gəncənin təslim olması tələbi olan məktub göndərir. Burada o, Gəncənin işğalını güya ki, ədalətli tarixi səbəblərlə əsaslandırmağa çalışırdı. Gəncənin çariça Tamaranın* dövründə gürcülərin hakimiyyəti altında olmasını və güya əsl gürcü torpağı olmasını iddia edən Sisianov tarixi bilməməsini bir daha nümayiş etdirir; çünki, o, istər çariça Tamara, istərsə də onun əcdadlarının dövründə

[1] Həmin mənbə.
[2] Həmin mənbə.

Azərbaycanın müsəlman əhalisinin Gəncəni ələ keçirmək istəyən gürcü qoşunlarına qarşı uzunmüddətli və qanlı mübarizəsini unudur.

Cavab məktubunda Sisianovun iddialarını rədd edən Cavad xan düşmənin üstün qüvvəyə malik olmasına baxmayaraq, axıra qədər öz əraziləri uğrunda mübarizə aparacağını bildirir.

Öz məktubuna cavab alan knyaz Sisianov Gəncə xanlığının erməni əhalisinin xidmətlərindən istifadə etmək qərarına gəlir və bu məqsədlə də onlara rus qoşunlarını müdafiə etmək təklifi ilə 1803-cü il noyabrın 30-da müraciət edir: "Hökmdarımın adına and verirəm ki, Gəncə əyalətinin ərazilərinə qalib rus qoşunları ilə mən daxil olarkən, yalnız o kəslər ki, güclü böyük rus taxtına sığınacaqlar, heç bir ziyana düşmədən müsəlmanların sıxışdırmalarından azad olacaqlar və istədikləri vaxt Gürcüstana gedə bilərlər; biləcəklər ki, orada dövlət kəndlisi olacaq, heç bir mülkədardan asılı olmayacaqlar"[1]. Beləliklə, I Pyotrdan başlayaraq hər zaman rus qoşunlarının Azərbaycan torpaqlarına yürüşü ərəfəsində olduğu kimi Sisianov da öz işğalını din pərdəsi altında həyata keçirirdi.

1803-cü ilin noyabrında rus qoşunları Gəncəyə hücuma başladılar. Hücumun ilk həftələrində şəhər müdafiəçilərinin güclü müqaviməti rusları manevrlər etməyə, fəal yürüşləri uzunmüddətli mühasirə ilə əvəzləməyə vadar etdi. Bu hadisələrin gedişində Sisianov Cavad xana şəhərin təslim olması haqqında yeni-yeni təkliflər göndərərək, ona diplomatik təzyiq göstərirdi. Lakin Cavad xan yenilməz olaraq qalırdı. Belə şəraitdə yanvarın 1-də Sisianov hərbi şura çağırır, burada şəhərə növbəti hücum 1804-cü il yanvarın 3-ü, səhər saatlarına təyin olunur. Son nəticədə rus qoşunlarının canlı qüvvədə və

---

[1] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. №1174,590.

hərbi təçhizatda üstün olmaları hərbi əməliyyatların taleyini həll etdi. Gəncənin alınması istər müdafiəçilər arasında, istərsə də əhali arasında kütləvi itkilərə gətirib çıxardı. 1804-cü il yanvarın 8-də Sisianovun verdiyi məlumata əsasən, müdafiəçilər arasında “1500 insan həlak olmuş, 17224 kişi və qadın əsir alınmış, yaralılar haqqında məlumat yoxdur”[1]. Gəncənin alınmasından üç il sonra Uğurlu xan Peterburqa məktub yazaraq bildirirdi ki, təkcə həlak olan yerli sakinlərin sayı 3700 nəfər idi[2].

Gəncə xanlığının alınması digər Şimali Azərbaycan xanlıqlarının işğalı üçün yol açdı və onların taleyini həll etdi. Gəncənin işğalının əhəmiyyəti haqqında Sisianov Qafqazın mülki qubernatoru Kasparova 1804-cü il yanvarın 8-də ünvanladığı məktubda yazırdı: “Gəncə qalasının yeri bütün Azərbaycanı qorxuda saxlamağa imkan verir, bu qələbəni Rusiya üçün çox əhəmiyyətli olmasını sübut edir, məhz bu səbəbdən Sizə təklif etmək istəyirəm ki, Sizə etibar olunmuş quberniyanın hər yerində bu möhtəşəm qələbə haqqında məlumat verəsiniz”[3]. 1804-cü il martın 8-də çara ünvanladığı məktubda Sisianov yaltaqcasına Gəncənin adının dəyişdirilməsini xahiş edir: “... əgər zati-aliləri mənim təklifimi dəyərləndirsə, imperatriçə həzrətləri Yelizaveta Alekseyevnanın müqəddəs adı ilə şəhərin adını bəzəmək istərdim: Yelisavetpol”. İmperatorun razılığını alan Sisianov hətta belə bir sərəncam imzalayır: çar reskriptinin elan olunmasından 1 ay sonra, yaxud aprelin 1-dən, kimsə xahişnamələrdə və ya

---

[1] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. №1182,592.

[2] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868.№1188,595..

[3] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. №1182,592.

aktlarda Gəncənin Yelisavetpol deyil, köhnə adı ilə qeyd etsə, o, bir manat dəyərində cərimə olunacaqdır[1].

Gəncə faciəsi uzun müddət Gəncəni idarə etmiş Ziyadoğlu nəslinin hakimiyyətinə son qoydu. Cavad xanın ailəsi ağır tale ilə üzləşdi. Cavad xan və onun ortancıl oğlu Hüseynqulu xan Gəncə qalasının müdafiəsi zamanı qəhrəmancasına həlak oldular. Cavad xan Gəncədə Birinci Şah Abbas* tərəfindən tikdirilmiş ”Cümə məscidinin” yaxınlığında dəfn edildi. Xanın iki oğlu Uğurlu xan və Əliqulu xan qalanın alınması zamanı mühasirəni yara bilmiş və İbrahim xanın yanına gedə bilmişlər. Şəkili Məhəmmədhəsən xanın doğma bacısı olan, Cavad xanın həyat yoldaşı Mələknisə bəyim 10 yaşlı qızı Şirin xanımla əsir düşmüş və Sisianovdan xahiş etmişdir ki, onları qardaşının yanına buraxsınlar. Məhəmmədhəsən xanın özü də “dostluq əlaməti olaraq həlak olmuş xanın köməksiz və yiyəsiz qalmış ailəsini onun yanına buraxmağı xahiş etmişdir”. Sisianovun razılığı ilə Mələknisə bəyim və Şirin xanım Şəkiyə getməyə icazə aldılar. Şirin xanımın gələcək taleyi haqqında məlumdur ki, o, 1815-ci ildə Məhəmməd xanın nəvəsi Cəfərqulu xanla ailə qurmuşdur[2]. İkinci İran-rus müharibəsinin (1826-1828) başlamasından sonra Cavad xanın böyük oğlu Uğurlu xan 1826-cı il iyulun 26-da Gəncəni azad edir və qısa müddətə olsa da, xanlığı bərpa edir. 1826-cı il sentyabrın 13-də Uğurlu xanla döyüşdə Gəncənin rus qoşunları tərəfindən ikinci dəfə alınması məşhur medalyer qraf Fyodor Tolstoyun “Yelizavetpol uğrunda döyüş. 1826-cı il” adlı medalın buraxılması ilə dəyərləndirilmişdir.

Cavad xanın gələcək nəslinin taleyi müxtəlif olmuşdur. Onlar Cavanşirlər, Rəfibəylilər, Naxçıvanskilər, Mehmanda-

---

[1] Акты Кавказской Археографической комиссии. т.2. Тифлис, 1868. №1194,597.

[2] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003.s.107.

rovlar kimi məşhur Azərbaycan ailələrinin taleyini təkrar etmişlər: ailənin faciəli günləri şanlı səhifələrlə əvəz olunurdu. Cavad xanın nəvəsi, Uğurlu xanın qızı, sonuncu Qarabağ xanının həyat yoldaşı Bədircahan bəyim məşhur şairə və ictimai xadim idi. Cavad xanın digər nəvəsi Kəlbəli xan Müsahib Azərbaycan və fars dillərində şeir yazırdı. Cavad xanın qardaşı Fəthəli bəy Ziyadoğlu Hali Gəncəli məşhur şair idi. Cavad xan nəslinin bəzi nümayəndələri Ziyadxanov soyadını daşıyırdılar. Onların içərisində XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın görkəmli siyasi və ictimai xadimləri Adil xan və İsmayıl xan Ziyadxanovlar da var idi[1] .

Qacarlar sülaləsinin cənub qolunun nümayəndələrinin taleyi daha maraqlı olmuşdur. Şah ailəsinin nümayəndələrindən biri Fəthəli şah Qacarın (Baba xan) oğlu, 1834-1848-ci illərdə İranda hakimiyyətdə olmuş Məhəmməd şahın kiçik qardaşı Bəhmən Mirzə saray ədavətindən və təhlükədən qaçmaq üçün ölkəni tərk edir və yaşamaq üçün Rusiyaya köçür. 1873-cü ildə Rusiyaya səyahət edən İran şahı Nasirəddin öz əmisi Bəhmən Mirzə* və onun ailəsi ilə görüşür. Onlar öz hökmdarının əfvini qazanır və Qacarlar şah evinin bütün hüquqları onlar üçün bərpa edilir. Bununla yanaşı, Bəhmən Mirzənin törəmələri Rusiyada yaşamağa davam edir, mədəni-intellektual sahədə nailiyyətlər əldə edir, rus ordusunda xidmət edir, bir çox hərbi kampaniyalarda iştirak edirlər. Şahzadə Bəhmən Mirzənin 31 oğlundan on səkkizi rus ordusunun zabitləri idi. Onların adlarına Qərbi Qafqaz və Orta Asiya yürüşləri, 1877-78-ci illər türk-rus müharibəsi, 1900-1901-ci illər Çin yürüşü, 1904-1905-ci illər rus-yapon müharibəsi, I Dünya müharibəsi dövründə fərqlənənlər siyahısında

---

[1] Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, 1997.s.274.

rast gəlmək olur. Azərbaycan Xalq Cümhuriyyətinin silahlı qüvvəllərinin formalaşmasında Bəhmən Mirzə nəslinin nümayəndələrinin xidmətləri əvəzsizdir. Əks-sovet Gəncə üsyanının (1920-ci il 25-30 may) təşkilinə görə Georgi kavaleri, general-mayor Feyzulla Mirzə, Gəncənin keçmiş komendantı general-mayor Əmir Kazım Mirzə güllələnmişlər[1]. Bu gün də Qacarlar və Ziyadoğlular nəslinin (istər ata, istərsə də ana xəttinin) nümayəndələri Şimali və Cənubi Azərbaycanda yaşamağa davam edir, xalqının inkişafında mühüm rol oynayırlar.

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. c.2. Bakı, 2005.ss.93-94.

# Fəthəli bəy Ziyadoğlu-Qacar

***Rauf Şeyxzamanlı***
***şərqşünas***

Ziyadoğlu-Qacar nəsli Azərbaycanın ən böyük və tanınmış nəsillərindən biridir. Əlbəttə, bu ailənin adı çəkiləndə ilk növbədə yada millətimizin qəhrəman oğlu, rus işğalçılarına qarşı qeyri-bərabər davada şəhid olmuş gəncəli Cavad xan gəlir. Lakin onu da qeyd etməliyik ki, həmin nəsil Azərbaycana digər görkəmli şəxsləri, o cümlədən siyasət, dövlət, mədəniyyət və elm xadimlərini də bəxş etmişdir və onların arasında Fəthəli bəyin özünəməxsus yeri vardır.

Fəthəli bəy Cavad xanın doğma qardaşı və silahdaşı olmuşdur. O, həmçinin Hali ləqəbi ilə yazdığı şeirləri ilə şöhrət qazanmışdır. Hali Gəncəvi haqqında ən dolğun məlumatı biz məşhur tarixçi və təzkirəçi Əbdürrəzzaq bəy Dünbülinin "Nigaristani-dara" təzkirəsindən (Tehran Universiteti Kitabxanası, Ş:6151, v.158b-159b) oxuya bilərik. Biz burada həmin məlumatı ixtisarla təqdim edirik.

"Məğfur xaqan Gəncənin hakimiyyətini Cavad xana tapşırmışdı. Şəhid xaqanın başına Şuşa qalasında o gözlənilməz hadisə gəldikdən [Ağa Məhəmməd şah Qacarın* öldürülməsi nəzərdə tutulur] sonra taxt və bəxt xosrovlar xacəsinin, zaman sultanları sərvərinin [Fəthəli şah Qacarın] (Allah onun mülkünü və səltənətini əbədi etsin!) əlinə keçdi. Hali qardaşı tərəfindən humayun cülus münasibəti ilə təbrik məktubu və peşkəşlərlə darülxilafətə göndərilmişdi. O, şahın hüzurunda iştirak etmək şərəfinə nail olmuşdur. Bundan sonra Farsda və Xorasanda, eləcə də İraqla Azərbaycanın bəzi vilayətlərinin hüdudunda iğtişaşlar baş verdi, qələbə çalan qaan diqqətini bu nizamsızlıqların aradan götürülməsinə yönəltməyə məcbur oldu. Bu vaxt Gürcüstan valisi fürsətdən istifadə edib

Rusiyanın ayağını o yerlərə gətirdi. Hali yenidən şahənşahın dərgahına göndərildi. Hələ mənzilə çatmamış rusların Gəncə qalasını istila etmələri və Cavad xanın şəhid olması xəbəri gəlib çatdı. Dünyanın pənah gətirdiyi şahənşah [Fətəli şah] Cavad xanın qəhrəmanlığını davam etdirmək və müsəlmanların mövqeyini möhkəmləndirmək məqsədi ilə Nəvvab Naibüssəltənəni [Fətəli şahın oğlu, Azərbaycan vilayətinin valisi, ordu başçısı Abbas Mirzəni*], onun igidlər ordusunu və dağ kimi güclü əmirləri o hüdudlara göndərdi. Nəvvab Naibüssəltənə dəfələrlə Qarabağ və Gəncəyə qoşun yeritmiş, işpoxtura [işğalçı rus ordusunun başçısı, vəzifəsinin rəsmi adı "inspektor" olmuş Pavel Sisianova* Azərbaycanda istehza ilə verilmiş ləqəbdir] və Rusiyanın digər sərdarlarına qarşı nümunəvi döyüşlərə başçılıq etmişdi ki, onların hamısı müəllifin "Cahanara" və "Məasiri-sultaniyyə" kitablarında zikr olunub. Nəhayət, Nəvvab Naibüssəltənə Gəncəyə gəlib Cavad xanın ailəsini, övladlarını, qadınlarını, həmçinin bir sıra digər gəncəliləri rusların zərbələrindən və zülmündən çıxartdı. Hali də əvvəldən axıra kimi dünya şahənşahının rikabında və onun hakimiyyəti altında döyüşmüş, vəliəhdin sarayına gəlmişdi. Həzrət vəliəhd onu layiqincə dəyərləndirib ona maaş təyin etmişdi. O, həmişə kəramətli əmirlərin sırasında yer almışdı. Bütün böyüklər və sədrlər, xüsusilə məğfur sədr [şah] və Möhrüddövlə Hacı Məhəmməd Həsən xan Mərvəzi Qacar, qaimməqam və seyyidül-vüzəra həmişə ona ehtiramla yanaşırdılar. Əmiri-kəbir Əbülfəth xanla, əmiri-nizamlarla, əmiri-cüyuşlarla [ordu başçıları ilə] lütf və dostluq şəraitində olmuşdur. Şeirləri türk dilindədir. Heç biri yeni məzmundan xali deyil. Az danışan yoldaş, xoşxasiyyət və mehriban olmuşdur. Darüssəltənə Təbrizdə hicrətin1241-ci ilində [m.1825] xəstələnib vəfat etdi".

Fətəli bəyin adına biz digər mötəbər mənbələrdə də rast gəlirik. Hüseyn Əfəndi Qayıbov "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı kitabında "Qəzəl min

kəlami-Fəthəli bəy Gəncəvi" başlığı altında Halinin bir beytini və ona İbrahim xanın, Məhəmmədqasım bəyin, Axund Molla Əli Həkimin və Axund Molla Əli bin Vaqifin cavablarını təqdim etmişdir. Abbasqulu ağa Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində ən tanınmış şairlərlə yanaşı Fəthəli bəyin də adını yad etmişdir.

Fəthəli bəy Hali Gəncəvinin şeirlərinin əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Əvvəldən naqis olan Б:1829 şifrəli cüngə naməlum katib Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Firdövsinin, Hafiz Şirazinin, Şeyx Bəhaəddinin və digər məşhur müəlliflərin əsərləri ilə bərabər Fəthəli bəy Halinin də şeirlərini şikəstə-nəstəliq xətti ilə köçürmüşdür. Həmin əlyazmada şairin ümumilikdə 91 şeiri yer alır ki, onlardan 82-si Azərbaycan türkcəsində, qalanları isə fars dilindədir. Professor Kamil Allahyarov "Keçmişimizdən gələn səslər" bülletenində (1982-ci il, 2-ci buraxılış) bu şeirlərin başqa nüsxəsinin İrəvandakı Mətndaran (Matenadaran) kitabxanasında olduğunu qeyd etmişdir.

Fəthəli bəy Hali Gəncəvinin ədəbi irsindən bir neçə nümunəni oxucuların diqqətinə çatdırırıq:

## Rübai

Nuri-sinənişin dürüst çün tir gərək,
Gər əyri ola, bürişdə şəmşir gərək.

Zəncirə vətən eylədim, ey əhli-Xuda,
Divanəyə, əlbəttə ki, zəncir gərək.

## Qitə

Bəndeyi-xalisi-dirin ulüləmri-hüsn,
Ərzi-əhvalı edər olsa səmi, olsa bəsir.

Dün səadət bəni-dilxəstəyə çün oldı rəfiq
Şadü xoşvəqt hüzurında olub feyzpəzir.

Buldı təqrib ilə əbvabi-məqalati-fütuh.
Oldı əsrari-hekayati-xəfi faşü səmir.

Xeyir xəbər ki, zikr oldı, rəvan əmr etdin,
Ey uşaqlar, gəzün əkməkü axtarma pənir.

Şəkli çün əhsəni-əşkal, üzi faqelövn,
Zuravər oldı bana bin əbdi-fəqir.

Dedim, ey Hatəmi-Tai, süfreyi-cudında gəda
Xani-bəzlində bəni zayidə bir qismətgir.

Şimdi bən möhtəsibəm, nola, kərəm eyləyəsən,
Danla həngami-nəharında bana bircə fətir.

Çün əllati-riza var dedim, ey ləb, xamuş,
Yetür rizqi-nəharın, o Kərim, o Kəbir!

Müqriyi-məscid adına dedi bangi-səlat,
Nəsəqi-sərbaza səla verdi, səla təblü nəfir.

Nuri-qürsi-qəmər dəsturi-ərzə
Təbəqi-niliyi-gərdunə gəlüb kasi-münir.

İştəha safü gözüm yolda ki, əlvə’d qərib,
Şad dil dəsti-ağa əbr olur, əbri-mətir.

Bu təfaüldə bənü fikri-dəqiqəndişə,
Bu təəmmüldə bənü əqli-cəhandideyi-pir.

Nə təmə’dir dedi ey tame’i-mövqe nəşinas,
Nə həvəsdir dedi ey xami-təmənnaya əsir.

Tə’mi-lövzinə məs’ul güvara olmaz,
Həbbəza, xani-qənaətdə iki qürsi-şəir.

Bilürəm bən ki, əbəs eyləmişəm bəlkə qələt,
Sizə bu babdə, ya Rəbb, nə deyər mirü vəzir.

**Nəzm**

Aləmi dutdı bənim naleyi-zarım, ya Rəbb!
Rəhm etməz nə içün halimə yarım, ya Rəbb?!

Səbrdir çareyi-hicran dedilər, bən bilürəm
Olmasa səbr, nədir çareyi-karım, ya Rəbb?!

Etməzəm nalə və tə`n eyləməz el, gizlü qalur
Qəmi-pünhanım ola səbrü qərarım, ya Rəbb!

Şərhi-daği-qəm hicranə zəbandır guya
Laleyi kim bitürər xaki-məzarım, ya Rəbb?!

Kim bilür dərdimi yüz səfhə sinə əşkim ilən
Yazmasa mərdümək mərdin qissə nigarım, ya Rəbb!

Yetmədim, xaki-rəh oldum bu təmənna ilə bən
Daməni-yarə yetə bəlkə qübarım, ya Rəbb!

Kuyi-çövkanə başım ərseyi-meydandə haçan
Səgirdir rəxşini ol şahsüvarım, ya Rəbb!

Badeyi-ləli-ləbindən bana verməz saqi
Rəfi-müşkil ki, ola rənci-xümarım, ya Rəbb!

Seyd bir qəmzə ilə Halini etdi, getdi
Şuxi-şəmşirzənü şiri-şikarım, ya Rəbb!

# İKİNCİ HİSSƏ

## Gəncəli Cavad xanın Sisianova yazdığı məktub

*Dekabr 1803*

Bu saat sənin göndərdiyin məktubu aldım. Gəncənin Tamaranın* vaxtında Gürcüstana tabe olduğunu yazırsan. Bu sözü heç eşidən olmayıb. Amma mənim əcdadlarım Abbasqulu xan[1] və başqaları Gürcüstan üzərində hakimiyyəti əllərində saxlamışdılar. Əgər inanmırsınızsa, Gürcüstanın ağsaqqallarından öyrən ki, Abbasqulu xan Gürcüstanın hakimi və valisi olub ya yox. Onun Gürcüstanda tikdirdiyi məscidlə dükanlar indi də yerində qalır. Gürcülər onun çoxlu xələtlərini və yazılarını evlərində saxlayırlar. Gəncə ilə Gürcüstan arasındakı sərhəddin haradan haraya qədər olduğu İrakli* xanın atasının və mənim atamın vaxtından məlumdur. Biz bu sözləri dilə gətirmirik və desək ki, bizim əcdadlarımız Gürcüstanın valisi olmuşlar, heç kəs qəbul etməz və Gürcüstanı bizə verməz.

Daha sonra yazırsan ki, mən altı il bundan əvvəl Gəncə qalasını Rus padşahına vermişdim. Bu düzdür. O zaman sizin padşahınız İranın bütün vilayətlərinə məktub yazmışdı, bizə də yazmışdı. Biz onun təklifini qəbul edib qalanı təslim verdik. Əgər padşah yenidən Gəncəyə aid fərman yazsa, padşahın fərmanını aşkar və məlum edin ki, biz də onun yazısını görüb o barədə bir qərara gələk.

Başqa yazdığın budur ki, mən Gürcüstana tabe olmuşam. Onu bil ki, sizin padşahınızın məktubu indi də bizim əlimiz-

[1] Abbasqulu xan Ziyadoğlu-Qacar Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti dövründə şah tərəfindən Osmanlı ordusuna və osmanlı Süleyman xana qarşı müharibəyə göndərilərək düşməni məğlub etmişdi. O, Qarabağın, Gəncənin və Kaxetin hakimi olmuşdu. (Bax: Məhəmməd İbrahim bin Zeyhəlabidin Nəsiri. “Dəsturi-şəhriyaran”. (H.q. 1105-1110-cu illər. Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti) ss. 222 və 223.

dədir. Bax gör, orada məndən Gəncə bəylərbəyi kimi yazılır ya Gürcüstan təbəəsi kimi? Buradan Sizin bir sözünüzün o birisinə xilaf olması məlum olur. O vaxt biz Rusiya padşahına tabe olanda İran padşahı Xorasana getmişdi və bizim əlimiz ona çatmırdı. Rusiya padşahı da böyük padşah olduğuna görə ona itaət etməyi məqbul saydım. Amma indi, əlhəmdülillah! İran şahı buraya yaxındır və onun sərdarının xidmətçisi də buraya gəlibdir, qoşun da gəlib, hələ yenə də gələcəkdir.

Daha sonra yazmısan ki, Gürcüstanın padşahla əlaqəsi var və onun tacirlərinin malını almısan. Düzdür. Amma Siz Gürcüstana daxil olandan bir gün əvvəl Sizə yazmışdıq və göndərilən adama da başa salmışdıq ki, üzünü bizdən döndərmiş Nəsib bizim rəiyyətimizdir və bizim tacirlərimizin malını aparıb. Biz elə düşündük ki, Siz padşahın nökərisiniz və, əlbəttə, ədalətli hökm çıxarıb həm bizim adamımızın malını alıb verərsiniz, həm də Nəsibi və bizdən üz döndərmiş digər Şəmsəddinliləri tutub bizə təhvil verərsiniz. Gördük ki, bunların heç birini etmədiniz. Bizim aldığımız malın haqqında isə başqalardan soruşun görün ki, biz onu şəmkirli Gəncə təbəəsindən almışıq ya Gürcüstan əhlindən?

Və illa əgər davanın əsasını qoyursunuz, biz də döyüşə hazırıq. Əgər öz topundan və topxanadan danışırsansa, Allahın lütfündən bizim toplarımız sizinkindən az deyil. Sizin topunuz bir gəzdirsə[1], bizim topumuz üç gəz və dörd gəzdir. Qələbə Allahın əlindədir. Haradan məlum oldu ki, siz qızılbaşlardan cəsursunuz? Siz öz davanızı görmüsünüz, amma qızılbaşların davasını görməmisiniz. Yazmısan ki, döyüşə hazırsan. Biz sizin Şəmsəddinluya gəlib bizim camaatımızı özünüzə tabe etdiyiniz vaxtdan bu günədək tədarük görüb davaya hazırlaşırıq. Döyüşəcəksənsə, gəl döyüşək.

---

[1] Gəz – təqribən 90 sm-ə bərabər olan uzunluq ölçüsü.

Yazmısan ki, əgər sənin sözünü qəbul etməsəm, başım çox bəlalar görəcəkdir. Biz isə o fikirdəyik ki, Siz o xəyalla gəlmisiniz, amma Sizi Peterburqdan buraya gətirən elə Sizin qara bəxtinizdir. İnşaallah-təala, Sizin bədbəxtliyiniz məlum olacaqdır.[1] *Vəssalam.*

---

[1] Cavad xanın öncədən gördüyü kimi, Sisianov bədbəxtliyə düçar oldu. Gəncəni işğal edəndən sonra o, Qafqazda rus imperatorunun nümayəndəsi və rus ordusunun baş komandanı vəzifəsini tutmuşdu. 1804-cü ildə Üçkilsə döyüşündə iranlılardan sarsıdıcı zərbə aldı. Bunun ardınca o, hiyləyə əl atdı və İran ordusu Qafqazda müharibəyə məşğul olduğu vaxtda dəniz yolu ilə Ənzəliyə daxil olaraq oranı və Rəşti alıb Tehrana həmlə etmək istədi. Lakin bu məqamda o, Gilan hakimi Mirzə Musa xan Lahicinin şücaəti qarşısında aciz qalaraq yenə də məğlub oldu. Nəhayət, 1806-cı ildə Bakını zəbt edən zaman burada Bakı hakimi Hüseynqulu xanın əmisioğlu İbrahim xan onun başını kəsdi.

## Qəzzaq uyezdindən Xanlıqlar qəryəlü Şair təxəllüs Əbdürrəhman Ağa ibn Molla Əliağayi-Dilbaz oğlunun əş'arıdır[1]

### Gəncə xanı Cavad xan Ziyadoğlunun rus əsgəri ilə Gəncədə olan cəngində qətlə yetişməgini bəyan edir

Bir rəvayət söylə, ey dil, çərxi-kəcrəftardən,
Ta əbəd ruzi-əzəl bəd-mehrü bəd-kirdardən.
Çərxi-zalim, dəhri-dun, sahib-xəta biardən
Kim Yezidin izzətin gör şahi-diləfkardən,
Gör Cavad xan macərasın möhnəti-kəffardən.

Böylədir dövran, əzəl, insana al eylər cəhan,
Bir zəman xürrəm qılur, bir dəm məlal eylər cəhan.
Şah ola, istər gəda, aşüftəhal eylər cəhan,
Aqibət bir gün gedər, himmət-həlal eylər cəhan,
Naxudanı qərq edən ol kəştiyi-pürbardən.

Hər zəman dövran salubdur canı canandan cüda,
Adəmi Həvvadən ayru, baqi-rizvandan cüda,
Xatəmi saldı fələk çahi-Süleymandan[2] cüda,
Ah kim, düşdi bu gün dövran Cavad xandan cüda,
Əskik olmaz zari-bülbül söhbəti-gülxardən.

Şahi-namə şərh edən yox ol Cavad xan vəsfini,
Mə'dəni-cudü səxavət, ədli-divan vəsfini

---

[1] Bax: "Azərbaycanda məşhur olan şüəranın əş'arına məcmuədir". Toplayanı və tərtib edəni Hüseyn Əfəndi Qayıbov. AMEA Əlyazmalar İnstitutunun xəzinəsi. M-132.

[2] Dini rəvayətə görə Süleyman peyğəmbərin Beytülmüqəddəsdən Yəmənə ordusu ilə getdiyi yolda onların susuzluğunu almaq üçün cinnlər quyular qazmışdılar və həmin quyular indi də şirin su ilə zəngindir.

Bilmiş Əflətun səharın əhli-meydan vəsfini,
Hikməti-Loğmandan artuq dərdə dərman vəsfini,
Bir müxəmməs nəzmilə inşa qılım əş'ardən.

Gəncə şəhrində Cavad xan kim, nə əyyam var idi,
Sahibi-lütfü ədalət, sadiqül-iqrar idi,
Hər işin fe'lində mahir, aqilü hüşyar idi,
Müxtəsər aləmara imtəhan sərdar idi,
Gör nələr çəkdi qəzadanü dövri-bəd ətvardən.

Düşdi də'vası əzəl ol Şəkivü Şirvanilə,
İbrahim xan ittifaq oldu ol Ümmət xan ilə,
Gəldi ləşgər üstinə ol cümlə Dağıstanilə,
Anlar ilə qıldı də'va sərbəsər meydanilə,
Çəkmədi hərgiz zərər bir fitveyi-əğyardən.

Bir də andan sonra gəldi valiyi-Bakradiyan[1],
Yığdı Gürcistanı cümlə ləşgəri-Tavadiyan[2],
Neçə illər qıldı də'va, çəkmədi andan ziyan,
Vali keçdi çün fənadən tərk edüb axır cəhan,
Gör nə sadir oldu Gurgin xan kimi əğyardən.

Padişahi-rusun axır ərz edüb ehzarına,
Baxdı o Gurgin xanın[3] dəftəri-tumarına,
Əmr qıldı bir "İşpoxdur"[4] nam olan sərdarına:
"Gəncənin al qəl'əsin, fərman buyur əğyarına!"
Üstinə gəldi hezaran saldati-xunxardən.

Ol Cavad xan vəsfini necə qələm şərh eyləsün,

---

[1]Bakradiyan – Baqration.
[2] Gurgin xan – gürcü hökmdarı Georgi.
[3] Tavadyian – gürcü Dadiani nəsli.
[4] Yəni general Sisianov

Şərhə sığmaz vəsfi-halın necə dillər söyləsün,
Bir belə sərdarü qazi, kim görüpdür böyləsün,
Düşdi də’vası anın kari-qəzadən, neyləsün,
Padişahi-rusü sahibtac ilən tumardən.

Çəkdi bir il, ol Cavad xan  eylədi cəngü cidal,
Gah sülh etdi arada, gah qıldı rəngi-al.
Gördi kim, olmadı, axır artdı fitnə, qiylü qal,
Gəlmədi imdada, hərçənd eylədi yüz ərzi-hal,
Fətheli şah, sahibi-İran olan xunxardən.

Yağdı ləşgər, girdi meydanə, ədavət qıldılar,
Qırdılar küffari, ol dəmdə fərağət qıldılar,
Xub dögüşdi Gəncə xəlqi, bir hekayət qıldılar,
Həqq yolunda bə’zi-kəs ol dəm şəhadət qıldılar,
Döndi gerü, girdilər on qəl’əyə naçardən.

Ermənistan gördi rusi, döndi bir dəm hər nə var,
Şəmsəddin xəlqi əzəldən çıxdı, getdi bərkənar,
Neyləsün tənha qalub ol dəm Cavad xan dilfəkar,
Qəl’əni qıldı mühəyya onda möhkəm, istivar,
Keçdi ol dəm zövqi-dünya, mülkü gəncü vardən.

Ta bir ay qırx gün keçincə onda möhkəm durdular,
Sübhü şam də’va qılub küffarə tiği urdular,
Ləşgərani-rusi hər dəm bişümaran qırdılar,
Döndi Şəmkür xəlqi anda, rusa iqrar verdilər,
Ey diriğa, çərx saldı qəl’əsin pərkardən.

Bir gecə yol verdilər, rusilər aşdı qəl’ədən,
Su yerinə ol zəman qanları saçdı qəl’ədən,
Ol Uğurlu xan[1] ilə xanlar ki, qaçdı qəl’ədən,

[1] Uğurlu xan – Cavad xanın oğlu.

Xan görüb anlar sələmət çıxdı, keçdi qəl’ədən,
Bildi ayru düşdügin fərzəndü-xoşdildardən.

Keçdi anlar qəl’ədən, sağü sələmət getdilər,
Çəkdilər hərçənd yüz cövrü məlamət, getdilər,
Çıxdılar rusun içindən bir əlamət, getdilər,
Yüz dutub İran deyü şahi-vilayət getdilər,
İstədi Həqqdən mədəd, ol Heydəri-Kərrardən[1].

Qaldı tənha ol Cavad xan, gör necə ad eylədi,
Urdu tiğin sərbəsər küffarə bidad eylədi,
İki bürcün saldatın çox qırdı, bərbad eylədi,
Əhli-beytin möhnətin ol dəmdə kim, yad eylədi,
Ya İlahi, saxla sən der, intizarəm yardən.

Sinəsindən vurdular, olmuşdı ol dəm biqərar,
Bir yənəral kimsəni ol dəmdə qıldı xakisar,
Yerbəyerdən həml edüb tiğ urdular məcruhlar,
Yadına düşdi o dəm Şah Hüseyni-dilfəkar,
İstədi ki, feyzi-şəhadət hakimi-cəbbardən.

Ol Hüseynqulu ağa[2] gəldi xanın yanına,
Layiqiydi hər hünərlər şövkətinə, şanına,
İstədi qanın qata ol dəmdə xanın qanına,
Qoymadı xan göndərüb bir qeyr bürc meydanına,
Yə’ni anın vəhşətin mən görməyim, didardən.

Qəl’əsin sandı Cavad xan ol zəman viranədən,
Çox çalışdı ta olunca dərdinə dərmanədən,
Feyzi-Həqqdən ta yetincə rəhməti-ğüfranədən,
Çıxdı ruhi ol bədəndən rövzeyi-rizvanədən,

---

[1] Heydəri-Kərrar – əmirülmöminin Əli (ə).
[2] Hüseynqulu ağa – Cavad xanın oğlu.

Ey xoşa buldu şəhadət vahidül-qəhhardən.

Ol Hüseynqulu ağa buldu şəhadət novcəvan,
Xəlqara bür cümlə möhnətdən yaman oldu, yaman,
Anəsi ahlar çöküb "şaxsey" deyü edər fəğan,
Yüz dutub ol barigahə, əlvida eylər əman,
Binəva düşdim cüda fərzəndi-gülrüxsardən.

Kimləri dövranda beş gün bərqərar etmiş fələk,
Kərbəla dəştində şahi-dilfikar etmiş fələk,
Ol Cavad xanı ki, sahib-intizar etmiş fələk,
Ol Hüseynqulu ağanı xakisar etmiş fələk,
Ayinətək jəng olub gül çöhrəsi xunbardən.

Bunların bildi mələklər həqqilən ixlasını,
Ərş yüzində vay ilə dutallar yasını,
İstədi gərdun yıxa bu çərxi-bipərvasını,
Görməyən görsün bunı, ol Kərbəla qovğasını,
Bu müsibət məşhur oldu Kərbəla asardən.

Gəncəlü xəlqi şəhadət qıldı, Həqqə can fəda,
Kimi məzlum, kimi azadə qalub əndərbəla,
Hər biri bir bəzmilə yüz dərdə oldı mübtəla,
Yadına gəlməz məgər məzlumi-dəşti-Kərbəla,
Ey utanmaz çərxi-zalim, Əhmədi-Muxtardən.

Sübh açıldı, məscidə qanlar saçıldı laləgun,
Qırdılar alimləri, seyyidləri qovğa-füzun,
Səqf məscidinə çıxdı, daməni-əflakə xun,
Fikir qılsan Kərbəla rüsvalığın, ey çərxi-dun,
Bir utanmazmı yüzün bu fe'li-nahəqq cardən,

Min iki yüz, daxi on səkkizdə tarixi-zəman,
Kim şəhid oldı Cavad xan, çıxdı əz dari-cihan,

Çox pərişan oldı islam, halımız həddən yaman,
Gəl yetiş imdadə, ya Həqq, Mehdiyi-Sahibzəman,
İnciməzmi xatirin bu dərdü ahi-zardən.

Qaldı qırx gün ol şəhidin cismiyi bərna kimi,
Olmamış rəngi təğəyyür qönçeyi-rə'na kimi,
Mövc urar qanlar bədəndən çeşmeyi-səhba kimi,
Bir kəramət zahir oldı ətri-xoşmeyva kimi,
Sanasan ənbər qoxur ol pəstəri-bimardən.

Çağırur ərşdə mələklər: – Mərhəba, ey xan Cavad!
Din yolunda qıldın axır ömrüni viran Cavad!
Məsnədi-üqbadə oldun sahibi-dövran Cavad!
Mənzilindir, durma gəl, bu rövzeyi-rizvan, Cavad!
Seyr qıl "cənnatin təcri təhtihal-ənhar"[1]dən.

Mərhəba söylər mələklər, xoş məqal eylər bu gün,
Dari-dünyadən Cavad xan intiqal eylər bu gün,
Getdi ol xürşidi-rəxşan kim zəval eylər bu gün,
Bədr ikən mahi görərsən bir hilal eylər bu gün,
Xali olmaz çərxi-dun bu hiyleyi-məkkardən.

Ey şəha, gördün cəhanda çərxi-zalim sayəsin,
İmtəhan etdin fənadə dəhri-dun sərmayəsin,
Geydin ol qanlu kəfən Şah Hüseyn pirayəsin,
Həqq sana qıldı inayət cənnətül-məvayəsin,
Ey xoşa, ayrılmadın ol şahi-pürənvardən.

Qırdı kafir Gəncə əhlin, çox şəhdi oldu həman,
Qalmadı axund, seyyid, tifli-mə'sumi-natəvan,
Su yerinə qəl'ədən ol dəmdə ki, mövc urdu qan,
Sən bilürsən halını bikəslərin əndər-əyan,
Ya İlahi, sən xilas et anları düşvardən.

[1] Altından çaylar axan bağlar. (Qur'ani-Kərim. Tövbə. 100.)

Həqq özi bikəslərlə bu dəmdə imdad eyləsün,
Macərayi-əhli-beytin firqətin yad eyləsün,
Binəvalar yüz dutub dərgahına dad eyləsün,
Ey mədəd, Həqqdən kərəm, qəmginlər azad eyləsün,
Zülfi-tarin matəmə əsbab edüb zünnardən.

Ah kim, çərx eylədi bu dəmdə viran Gəncəni,
Bir əcəb şəhri-müsəffa, nəqşi-İran, Gəncəni,
Saldı rövnəqdən fələk, qıldı pərişan Gəncəni,
Görməsün bu halda, ya Rəbb, heç müsəlman Gəncəni,
Qıl həzər bu inqilabgərdişi-dəvvardən.

Ey olan zülminə rağib Gəncənin viraninə,
Ali-Süfyanın yetişdin rütbeyi-ərkaninə,
Bais oldun neçə min məzlumların sən qaninə,
Ol Bəni-Abbas gələn gün intiqam divaninə,
Nə bitər yüz söyləsən üsyanını inkardən.

Ey ki dutdun Ali-Süfyanın tariqü rahini,
Təzələndürdün Bəni-Ayişənin sən cahini,
Kufiyani-bivəfalar aldı məzlum ahini,
Fikr qıl ol dəmdə key, yad eylə şahlar şahini,
Gör nə qəhr oldi Xudadən Kufiyə muxtardən.

Guş qıl, ey əhli-aləm, qəl’ədə on beş ləzgi var,
Andirey, Yaxsay elindən kim gəlüb qılsun tüccar,
Hər biri Dağıstan içrə mərdi-meydani-namdar,
Sübhidən küffarə şəmşir urdular kim, bərqərar,
Maşəallah, dini-islam cəng edər aşkardən.

Sübh açıldı, bir təmaşa qıldı meydan ləzgilər,
Etmədi hər giz özin meydandə pünhan ləzgilər,
Pozdu küffar dəstəsin, qıldı pərişan ləzgilər,
Qırdı rusun bər-səfin, xakilə yeksan ləzgilər,
Eylədi kafir həzər ol əfsun olmaz mardən.

Ləzgilər topxanəyə kim girdi, tufan etdilər,
Xəncəri-xunriz ilən küffari bican etdilər,
Eylə san kim, ola zəman bir qanə yüz qan etdilər,
Durdu məscid qapusunda sanasan bir şiri-nər,
İçdilər şəhdi-şəhadət vəhy olan izhardən.

Durdu məscid qapusunda sanasan bir şiri-nər,
Etdilər yüz dürlü də'va, qıldılar olmaz hünər,
Gördi kafir kim, tüfəng, şəmşir ilən bulmaz zəfər,
Çəkdi toplar üstinə, gəl, ey mədəd, Xeyrülbəşər[1],
Sanasan od yağdı gögdən, üstə atəşi-nardən.

Ol Ziyadoğlunu sanma mülki əbəd viran ola,
Hardadır anlar kimi sərdar, əgər meydan ola.
Hər zəman zül-intiqamdan əmr ola, fərman ola,
Şaira, heyraniyəm ol gün ki, bu divan ola,
Ol Ziyadoğlu deyən bir gün gələn sərdardən.

## Gəncənin fəthü zəbti babındadır, dövləti-Rusiyyə ilə Cavad xanın qətlə yetişməgi xüsusındadır

Ey qazilər, gəldi qəzadan bəla,
Bir olmaz müsibət dövran eylədi.
Yüz verdi qovğayi-dəşti-Kərbəla,
Ruslar Gəncə şəhrin viran eylədi.

Ruslar Gəncəyə oldu həvalə,
Dögüşdi Cavad xan, gəldi zəvalə.
Gəlmədi Azərbaycan bu qiylü qalə,
Nə bir kömək Şəki, Şirvan eylədi.

---

[1] Xeyrülbəşər – Mühəmməd peyğəmbər (s).

Ol zəman ki, Rəsul ruzi-rəğayib
Buyurmuşdu: – Ümmətim görər əcayib.
“İza təmməl-qürab təral-əcayib”
Hədisin Peyğəmbər əyan eylədi.

Mövla ki, oldu Cavad xandan razı,
Pozulmaz təqdirdə yazılan yazı,
Xəbərdar olmadı xunkari-qazı,
Nə bir mədəd şahi-İran eylədi.

Cavad xan ki, zühur oldu anadan,
Bir mərd idi əzəl başdan, binadan.
Şəhid oldu, çıxdı dari-fənadan,
Mənzilin rövzeyi-rizvan eylədi.

Şair onda məzlum olan canların,
Həqq eylər divanın ol yamanların,
Mən də heyraniyəm ol zamanların,
Görəm, Uğurlu xan fərman eylədi.




***Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş Cavad xan türbəsi. 2004-cü il.***

## Cavad xan türbəsi[1]

***Fəridə Əliyarbəyli***

Qədim Gəncə şəhərinin
Tarixini öyrənəndə
Tarixçilər
Nizaminin sərhəddindən
O tərəfə keçə bilmir.
Çox aradım, axtardım mən,
Qədim Gəncə;
Geniş, qədim tarixi var.

***

Təmiz vicdan, mərdlik, hünər,
Qırmızı xətlərlə keçir.
Qalib çıxmış döyüşlərdən,
Şücaətlə seçilmişdir.
Rəvayətlər əfsanəyə,
Əlamətlər rəvayətə
Qarışmışdır.
Hər nağılın, hər sözün də,
Təxəyyülün özündə də
Həqiqət var,
Ürək oxşayan həqiqət!
Sədaqət var,
Dosta bəslənən sədaqət!

***

[1] Bax: Fəridə Əliyarbəyli. "Cavad xan türbəsi". Gəncə Regional Elmi Mərkəz. Gəncə. "Elm". 2007.

Tarixçilər ürək açan
Söz söyləyir:
Adamları çox gözəldir,
Təmiz, safdır ab-havası.
Burda heç nə qəlp deyildir.
Gəncə – xalqın ümid yeri,
Pənahıdır.
Xoş niyyətli qonaqlara
Süfrə açar.
Qulluq da göstərib ona,
Kəsər çörək.
Namərdləri, yağıları
Qarşılayıb sərt qılıncla.
Vuruşubdu axıradək,
Kökünü kəsib az qala.
Gəncəçayı gümüş kəmər,
Bu şəhərə yaraşıqdır.

***

Sərinlikdir səhər-səhər,
Dağların qoynundan axır.
Nizaminin yaşıdı var,
Qollu-budaqlı çinarlar.
Küçələrə bəzək verir,
Başı üstə yaşıl çətir.
Gül bağçalar, barlı bağlar
Müjdə gətirir bahardan.
Dörd tərəfi qarlı dağdır,
Göygöl necə füsunkardır.
Buz bulaqlar, yaşıl orman,
Diş göynədən kəhrizləri,
Gecələri, gündüzləri
Axar küçələr boyunca,

Gözəllik görmədim bunca.
Gur bazarlar, alış-veriş
Səhər tezdən bərk qaynayar.
Comərdlikdir görülən iş,
Halal haramdan ayrılır.
Məharətli sənətkarlar
Bu şəhərdə seçilmişdir.
İndi gözəl hər nə varsa,
Onlardan qalıb yadigar.
Gəncədə ağsaqqal sözü,
Hər kəs üçün sözün düzü.
Yazıq görkəm bacarığı,
Gəncəlidə olmamışdır.
Düşmən zorlu olsa belə,
Aciz, müti qalmamışdır.

***

Şah Abbas məscidi – Cümə məscidi,
Bizə keçmişlərdən gətirir xəbər.
Görünür, memarı münəccim idi,
Günorta vaxtını düzgün göstərib:
Bir kərpic üstünə dəqiq gün düşər.
Çinarlar qoynunda iki minarə,
Göylərə ucalır əzəmət ilə.
Xalq pənah gətirdi Allahu-əkbərə,
Açdıq gözümüzü,
Açılan səhərin xoş nəfəsilə.
Həmin məsciddə, həmin torpaqda,
Müqəddəs məkanda yatır Cavad xan.
İkiqat müqəddəs oldu torpaq da.
Qismət belə imiş,
Qəlblərdə yaşayır o, zaman-zaman.
Nizami türbəsi, Cavad xan qəbri,

Çətin sınaqlardan keçib gəlmişdi.
Arxada qoymuşdu gör neçə əsri,
Xalqın ürəyində,
Yaşaya bilmişdi, qala bilmişdi.

***

Min doqquz yüz altmış üçüncü il,
Məscidin həyətində yararsız evlər
Sökülən zaman,
Qəbirlər görünür bir neçə dənə,
Çox möhkəm tikilib: türbəyə bənzər.

***

Birinci katibə xəbər verdilər,
Tarix yada düşür –
O, fikrə gedir ...
Cavad xan türbəsi?!
Çətin məsələdir, çaşır bir qədər,
Tələsik Bakıya zəng edir.
Ölkənin rəhbəri heç düşünmədən,
Moskvaya əlbəhəl çatdırır xəbər.
İnsanlar ağlını itirir bəzən,
Necə korlanıbdır gör düşüncələr.
Vəzifədən ötrü yaltaqlığa bax,
Əyilən belimiz heç düzəlmədi.
Tarix kitabını gəl varaqlayaq,
İmperiyaya qarşı hələ o zaman
Sədd çəkmək istəyən Cavad xan idi.
Qul kimi işlədik rusun xeyrinə,
Neftimiz çay kimi Rusyaya axdı.
Onların gözləri doymadı yenə,
Sinəmiz parladı – ordenlər taxdı.

Gördünmü nə tezcə xəbər verdilər,
Mərkəz bilməliydi burda hər nə var.
Tarixdə ruslara
Heç kəs dağ çəkməmiş Cavad xan qədər.
Sən öz keçmişini, nəcabətini
Gör kimə satırsan, nəyə satırsan?
Alçaldın, alçaltdın öz izzətini,
Vəzifədən ötrü çölə atırsan.
Cavad xan nəslini,
Onu alçaltmaq?
Olan-qalan nəşi oradan atmaq –
Cavad xana qarşı bu, qisas idi.
Kimdə cürət olar söz çevirəydi.
Elə həmin gün əmri məmurlar
Yerinə yetirdi.
Hakim-mütləq var!

*NƏŞLƏR SƏBİSKARDAKI ƏSGƏRAĞA TÜRBƏSİNƏ KÖÇÜRÜLDÜ.*

Cavad xan əlində qılınc doğuldu,
Gəncəni yadlardan qorumaq üçün.
Tikdirdi çox hündür, enli bir qala,
Gəncənin möhtəşəm qalası oldu.
Onun qalıqları qorunur bu gün,
O, üç yüz irəli görüb az qala.

***

Hiylə olmasaydı, rusun ordusu
Zəbt edə bilməzdi Gəncəni heç vaxt.
Erməni fitnəsi,
Onların peşəsi yaranan gündən,
Yurd-yuva dağıdar, insanlar bədbəxt.

Torpağa sümsünər iştaha ilə,
Bütün tarix boyu yaşayıb belə.
Qonşu torpaqların iştahasında,
Vəhşi ədasında, bəd ədasında

***

Cavad xan Gəncədə ruhu dolanır,
Əlləri, qolları daş altındadır.
Dövrün gərdişinə durub boylanır,
Torpaq dərdi ağır, zamana ağır.
Keçdi başı üstən Gəncə üsyanı,
Dincələ bilmədi torpaq altında.
Ruslar bürümüşdü yenə hər yanı,
Zəbt etmədi fikri –
Həmin vuruş idi, gedirdi burda.
Bolşevik yaraqlı vəhşitək gəldi,
Cavad xan xələfi Hüseynqulu xan
Ordunun qabağını,
On dörd gün vuruşub saxlaya bildi.
Onlar güclü idi, qurd xislətilə
Bütün ölkələri almışdı ələ.
Cavad xan qəbrində rahat olmadı,
Gəncəni yenə də ruslar zəbt etdi.
Adı da dəyişdi – Gəncə qalmadı.
Gəncədən qeyrətli kişilər getdi.

***

Hər yetən Gəncədə ağalıq edir,
Dişini qurdala, mərkəz biləcək.
Müqəddəslik itir, şəxsiyyət itir,
Bu gedər, yerinə betər gələcək.
Nə qədər tarix var,

Bilir ki, ruslar
Onların düşməni qalır Cavad xan.
Qisas almaq üçün yaxşı fürsət var.
Ruslar sarsılmışdır onun ruhundan.
Moskva bilirdi Cavad xan kimdir,
O vaxt anaların qoymuşdu mələr.
Fürsət əldə idi –
indi hakimlər:
Yerindən, yurdundan atılsın nəşlər.
Gəncə camaatı nəşi ehmalca
Qoydular kəfənə,
Büküb apardılar qəbristanlığa.
Cavad xan dağ kimi, Cavad xan uca,
Bir səhifə açıldı qəhrəmanlığa.
Günəş xəcalətdən çəkilib getdi,
Sarsıldı buludlar –
torpaq doyunca.

***

*QƏBİRİSTANLIĞIN GİRƏCƏYİNDƏ MÖHTƏŞƏM BİR TÜRBƏ VAR: ƏGGƏRAĞANIN TÜRBƏSİ. CAVAD XANIN NƏŞİNİ HƏMİN TÜRBƏNİN İÇƏRİSİNƏ QOYDULAR.*

Hər dövranın insanları var,
İllər gəlib keçdi, dalğalı illər.
Boşalır meydanlar, dolur meydanlar,
Azadlıq uğrunda vuruşur ellər.
Bir gün sahib oldu azadlığına,
İstiqlal bayrağı ucaldı göyə.
Asanca verilmir bu nemət ona,
Ağız şirin olmaz halva deməklə.
“Azadlıq”, “azadlıq” biz deyə-deyə,

Xalq ayağa durdu –
onu qazandıq!
Ölən-itən oldu, şəhid olan çox,
Çətindir axına qarşı dayanmaq.
Bu yolda çoxları qurban oldular,
Cavad xan əzminə sadiq qaldılar.
Bir yanda vəzifə, bir yanda torpaq,
Mərdliklə namərdlik üz-üzə durdu.
Düşmənin əlinə keçdi Qarabağ,
İmperiya bizimlə göz-gözə durdu.
Gəncəni düşməndən qorumaq üçün
İgidlər tutmuşdu dağ yollarını.
Bolluca silahla gəlmişdi düşmən,
Hər igid düşünür:
– Yalnız ölümün
Üstündən Gəncəyə keçə bilərsən!
Əsil qəhrəmanlıq –
Vətəni sevmək
Cavad xan bizlərə qoyub getmişdir.
Torpağı qorumaq göz bəbəyitək,
Vəsiyyət etmişdir.
İndi Cavadxantək oğul istərəm,
Vətənin, torpağın qədrini bilsin.
Milləti xar edən qara ləkəni
Qanı bahasına tarixdən silsin.

***

Min doqquz yüz doxsanıncı il,
Novruz bayramına bircə gün qalır.
Bu tarix yaddaşdan silinən deyil,
O günü bizlərin yadına salır.
Bizə xəbər gəldi Xalq Cəbhəsindən,

Cavad xanın nəşi qəbristanlıqdan
Məscid həyətinə köçürüləcək.
Allahşükür gəlib lap səhər tezdən,
Belə mərasimə çağrılmışdım mən.
Kəcavə hazırdı:
Qaraya bürünüb kəcavə bütün,
Göylər də ağlayır, hər yer ağappaq,
Quşbaşı qar yağır, soyuqdur bu gün.
Elə bil çevrilib,
Tarixin səhifəsi bax varaq-varaq ...
Xan – Əsgərağaya qonaq gəlmişdi.
Bu dərd, bu qonağlıq ağırdır, ağır.
Demə, bu qonaqlıq,
Yaltaq məmurların xəyanətidir!
Cavad xan tarixin,
İgidliklə dolu səhifəsidir!
Elə bil Cavad xan bu gün ölübdür,
Hamı yas içində, matəm içində.
Xəcalət sifətlər indi duyulur,
Qarabağ dərdi də bu qəm içində.
Mərasim adicə bir matəm deyil,
Millətin sağalmaz yarası idi.
Duz basdın yarama,
Yaltaqlıq ucundan göynər elə bil,
Yerlərə, göylərə sığası deyil.
Qara kəcavəyə qoyuldu nəşlər,
Çiyinlərdə getdi məscidə qədər.
Şeyxülislam kəcavə önündə gedir,
Camaat onları müşayət edir.
Şah Abbas məscidi,
Xeyli məclis əhli – qədrbilənlər,
Qara kəcavəni yerə qoydular.
Namaza dayandı yasa gələnlər,
Millətin pozulmaz qanunu var.

Məscid həyatində Cavad xanı biz,
Torpağa tapşırdıq əvvəlki kimi.
Düzəldi dünənki acı səhvimiz,
Qələmə, kağıza açdım dərdimi.

***

Aləmə yurd salıb yurdsuz köçkünlər,
Qarabağ satıldı qara qəpiyə.
Söz-söhbət nə qədər,
Qaçqınlar qırılır yurd deyə-deyə.
Hələ bu torpaqlar düşmən əlində,
Büsatla calanır illər-illərə.
Vətən harda qaldı –
                    Qaçqın dilində.
Torpaq ağzıgünə,
Ümidlər boş yerə, sözlər boş yerə ...
Qarabağ elləri gedəndən bəri,
Tez-tez Cavad xanı yada salırıq.
Asanca vermişik doğma yerləri,
Cavad xan hökmünə heyran qalmışıq.

***

Şah Abbas məscidi!
Yenə həmin həyət, məscid həyəti,
Burda əzəmətli bir məqbərə var.
Cavad xan türbəsi!
Bu vətən sevgisi, torpaq qeyrəti!
Dünya məhəbbətlə, sevgilə yaşar!
Bu gün Cavad xana hörmət edənlər,
Sabah özü üçün hörmət qazanar.

Xalqın alqışları dünyaya dəyər.
Hələ yaşamağa ümid yeri var!
Şah Abbas məscidi, Cümə məscidi,
Burda bir türbə var;
Xan nişanəsi.
Gəncənin fəxridir, baş ucalığı,
Burda bir türbə var;
Rus kaşanəsi.
Duruşu, qüdrəti –
daş ucalığı.

Fevral. 2005-ci il.

# Qələmin uçuşu[1]

*Adil xan Ziyadoğlu-Qacar*

## Müqəddimə

Bəzən zəlzələ yeraltı təbəqələri hərəkətə gətirib dağları yarır və onların içindən bulaqlar axıtdırır və qupquru çöl-biyabanlarahəmin bulaqların suyu ilə həyat gətirir, otlarla və güllərlə örtür. Dövlətlərarası müharibələr də həmin tərzdə özünün inqilabi nə-rələrilə istibdadın qalın təbəqələrini yarır və istiqlalın müqəddəs bulaqlarını Macarıstan, Polşa, Finlandiya və digər millətlər üçün axıtdırır.

Yuxarıda deyilən hərəkətlər Qafqazın şərq hisəsində 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhu riyyətinin yaranmasına gətirib çıxartdı və həmin dövlətin dünyanın mədəni millətləri tərəfindən rəsmi şəkildə tanınmasına səbəb oldu.

Həmin cümhuriyyətin adından İran şahənşahının sarayında elçilik etmək şərəfi bu yazının müəllifinə nəsib oldu.

1920-ci ilin yanvarın 15-də Tehrana gəldim. Ali dövlət[2] tərəfindən rəsmən qəbul edilib etibarnaməmi təqdim etdim. Kəyanilərin paytaxtında Cümhuriyyətin ilk səfirliyini təsis edib ali dövlətlə və Tehranda yerləşən bütün səfirlərlə,

---

[1] Hazırkı nəşrə kitabın fars dilindən tərcümə olunmuş yalnız Birinci bölümü daxil edilmişdir. Əsərin əsli üçün bax: Adil xan Ziyadxan. "Təyyərane-qələm". Nəşrə hazırlayan Kavə Bayat. Tehran. Xarici İşlər Nazirliyinin Diplomatiya tarixi və sənədləri mərkəzi. H.ş. 1381.

Qeyd edək ki, həmin əsər bir neçə il bundan əvvəl şərqşünas-alim Əkrəm Bağırov tərəfindən də Azərbaycan dilinə tərcümə edilərək çap olunmuşdur. Bax: Adil xan Ziyadxanov. "Azərbaycan". ss.13-47. "Azərbaycan" nəşriyyatı. Bakı. 1993.

[2] Yəni İran dövləti

vəziri-muxtarlarla və siyası nümayəndələrlə rəsmi əlaqələr dairəsinə daxil oldum.

Mən öz vəzifəmi icra etməyə məşğul olarkən vətənimdə əsaslı dəyişikliklər baş verdi, milli hökumət şurəvi hökumətlə əvəzləndi və bizim cümhuriyyətimiz rus şurəvi cümhuriyyətlər ittifaqına üzv oldu.

22 iyun 1921-ci il tarixdən mən daha şahənşahın sarayında rəsmi şəxs kimi fəaliyyət göstərə bilmədim, çünki ali dövlət bütün rus şurəvi cümhuriyyətlər ittifaqı tərəfindən təyin olunmuş yalnız bir nümayəndəni rəsmən tanıyırdı.

Belə hadisələrin bu yazının müəllifinə heç bir təsiri olmadı, çünki səfirlik-nazirlik vəzifələri kimi xidməti vəzifələr təkcə müvəqqəti bir bər-bəzəkdir və heç kəs bu qəbildən olan zinətlərə görə təkəbbür və qürur hislərinə qapanmamalıdır ki, bir siyasi küləyin əsintisi onun özünü yıxıb aparsın. Ancaq bu son hadisələr nəticəsində vətənimin xarici və daxili müstəqilliyinin zərbə altında qalmağı, əlbəttə, müəllifə dərin təsir göstərdi. Mən xüsusilə ona görə təəssüflənirdim ki, məmləkətimin və millətimin inqilabdan doğan istiqlalına zərbəni vuran elə həmin inqilabın törəməsi olan yeni rus hökuməti oldu.

Vətənin müstəqilliyi möhkəm olmalıdır ki, hər bir şərəf sahibi şəxsi həyatında halal zəhmətlə bir tikə çörəyi əldə edə bilsin. Bu səbəbdən mən 1302-ci ildə[1] Tehranın möhtərəm bələdiyyə idarəsində xidmət etməyə başladım və 21 azər 1307-ci il[2] tarixində Sosial Təminat Nazirliyinin kənd təsərrüfatı üzrə mötəbər idarəsinə keçdim. Elə bu əsnada Kərəcdə Ali Kənd Təsərrüfatı məktəbini təsis etməklə İran kənd təsərrüfatı tarixində yeni səhifə açıldı və müəllif birinci ali kənd təsərrüfatı məktəbini görmək arzusuna düşdüm. 1308-ci ilin mehr ayının 22-də Kərəcə gedib həmin

[1] Miladi təqvimilə 1924

[2] Miladi təqvimilə 12 noyabr 1928

müəssisənin tərifə layiq müxtəlif bölmələri ilə tanış oldum. Hər şey öz yerində çox yaxşı tərtib olunmuş və tədris də yeni üsula (üsuli-cədid) və müasir qaydalara müvafiq təşkil edilmişdi. Bundan əlavə, yeni tərzdə tikilmiş təzə uca bi-nalar öz gözəlliyi və cazibədarlığı ilə ətraf mühitə özünəməxsus zövq bəxş edirdi.

Adıçəkilən müəssisəni və ətrafı görməkdən müəllifin qəlbi xeyli xoşhal oldu və mən öz razılığımı bəzi müəllimlərə və tələbələrə izhar etdim. Öz ixtisasım kənd təsərrüfatına bağlı olmasa və təhsilim hüquq sahəsində olsa da, Kərəcdən Tehrana qayıdandan sonra kənd təsərrüfatına dair bir məqalə yazıb həmin mədrəsənin tələbələrinə təqdim etmək barədə düşündüm. Təəssüf ki, bu iş mənə müyəsər olmadı, çünki 7 aban 1308-də[1] Azərbaycanda dəmiryolu və gəmiçilik idarəsinə keçdim və 1308-ci ilin azərin birindən[2] Təbrizdəki yeni xidmət yerimə gedəsi oldum.

Təbriz şəhəri müəllifin anasının dünyaya gəldiyi yer olduğuna görə mənim əxlaqımın tərbiyəsində ölçüyəgəlməz zəhmət çəkənin ruhuna ehtiram əlaməti olaraq anamı bir neçə sözlə yad etməyi özümə borc bildim, lakin bütün vaxtımı dövlət işinə sərf etdiyimə görə bu iş də baş tutmadı. Bunun ardınca 1309-cu ilin şəhrivər ayının əvvəlində[3] Təbrizdən Tehrana qayıdıb yeni iş yeri üçün təklif gözləyirdim və həmin vaxt fürsəti qənimət bilib ətrafda baş verənlər haqqında yazmaqdan ötrü qələmi əlimə aldım. Ancaq etiraf etməliyəm ki, yazmağa başlayanda qələmim itaətimdən çıxıb bir mətləbin budağından o biri mətləbin budağına atlandı və bundan sonra həyatın müxtəlif aləmlər fəzasında və ötən dövrlərdə uçuş etdi.

[1] Miladi təqvimilə 14 sentyabr 1929
[2] Miladi təqvimilə 29 oktyabr 1929
[3] Miladi təqvimilə 1930-cu ilin avqustun sonu

Təhsilimi xarici dillərdə aldığıma görə səlis fars dilində yazmağa qadir olmadım və bu vərəqləri heç bir tərtibə və qaydaya uyğun düzməyərək, tamamilə qarışmış tərzdə qaralamağa cəsarət etdiyimə görə möhtərəm oxuculardan üzr istəyirəm.

İndi isə həddindən artıq müfəssəl çıxmış müqəddiməni başa çatdırıb hörmətli oxucuların diqqətini iki bölümdən ibarət olan əsas hissəyə cəlb edirəm.

Birinci bölüm: tərcümeyi-hal.

İkinci bölüm: kənd təsərrüfatı haqqında.

Əlbəttə, onu da qeyd etməliyəm ki, bu iki bölüm bir-birinə bağlı deyil və onların bir cilddə nəşr etməyin səbəbi əsərin müxtəsər olmasıdır.

***Adil***
***28 may 1931***

## Birinci bölüm

Bu yazının müəllifi Qafqazın Gəncə şəhərində anadan olmuşdur. İki qardaşım olub, ikisi də məndən böyük idi. Biz üç qardaş atamızın nəsihətlərinə qulaq asıb elm öyrənməyə məşğul olduq, çünki atamız həmişə belə deyərdi:

"Balalarım! Dünya malı – şan-şöhrət, xidmət-hökumət və sairə – hamısı fanidir. Bu dünyada daimi xoşbəxtlik olmaz və bu dünyada insana müvəqqəti xoşbəxtlik verə bilən tək amil var – o da mərifət, tərbiyə, elm, iş və elm ağacının ləziz meyvəsidir ki, kitablar və digər sənət əsərləri şəklində olur. Bütün maddi sərvətiniz taleyinizin bir hadisəsi nəticəsində əlinizdən gedə bilər, amma elmi sərvətiniz nə qədər ki siz varsınız, qalacaq və həyatınızın ən çətin vəziyyətində sizin köməyinizə gələcəkdir.

Heç vaxt tarixdə ad qazanmış sülalənin üzvü olmağınızla öyünməyin, çünki əgər hünərsiz və şüursuz olsanız, həmvətənlərinizin arasında məsxərə və məzhəkə hədəfinə, xarici məmləkətlərdə isə faydasız bir vücuda çevriləcəksiniz. Ay mənim oğullarım, mən sizin təhsil almağınıza köməyimi heç vaxt əsirgəmərəm."

Xoşbəxtlikdən biz həmin nəsihətlərin təsiri ilə cidd-cəhdlə çalışdıq və nəticədə böyük qardaşım İsmayıl xan və müəllif Moskva universitetində hüquq sahəsində ali təhsilimizi tamamladıq və diplom aldıq, o biri qardaşımız Şahverdi xan isə ali hərbi məktəbi bitirib süvari qoşunda xidmətə girdi.

İsmayıl xan Rusiyanın o vaxtkı paytaxtı Peterburqda təsis olunmuş Birinci Rusiya Dövlət Dumasına Qafqazın Azərbaycan hissəsinin müsəlmanları tərəfindən vəkil seçilmişdi.Bu məclis qanunların qəbul edilməsində və nazirlərin təyin edilməsində tam ixtiyar sahibi olmaq tələbini irəli sürəndən sonra 1906-cı ilin iyun ayında Nikolay* tərəfindən buraxılmış və bağlanmışdı. Belə bir şəraitdə

parlament vəkillərindən təqribən iki yüz nəfər ki, əksəriyyəti Rusiyanın ən yüksək dərəcəli alimləri və xadimləri idilər və paytaxtda qeyri-qanuni iclas keçirmək iqtidarında deyildilər, Dumanın bağlandığı gün Finlandiyaya gedib Vıborq şəhərində mehmanxananın böyük zalında məşhur hüquqşünas, Moskva universitetinin professoru Muromtsevin sədrliyi altında fövqəladə iclas təşkil etdilər. Uzun müzakirələr nəticəsində yekdilliklə Rusiyanın bütün millətlərinə xitabən bir bəyanat imzaladılar.

İsmayıl xan Vıborq şəhərindəki həmin məclisin müzakirələrində iştirak edib o tarixi bəyanata imza qoymuşdu. Həmin bəyanatın qısa məzmunu belə idi: "Millət! Tam ixtiyar və məsuliyyət sahibi haqqına malik Dövlət Duması açılmayanadək nə qoşuna bir əsgər, nə də imperator büdcəsinə bir rubl belə verməyin!"

Vəkillər Finlandiyadan Peterburqa qayıdandan sonra Rusiya imperatoru tərəfindən fövqəladə ali cəza məhkəməsinin təşkil olunması haqqında fərman çıxdı. Həmin məhkəmənin qərarına əsasən istisnasız olaraq bütün vəkillər bir sıra siyasi haqqlardan məhrum olmaq şərtilə həbsə məhkum edildilər.

Qardaşım İsmayıl xan həbs müddəti bitəndən sonra Gəncəyə qayıtdı. Müəllif ondan soruşdum ki, "hansı məntiq səni həmin məclisə qoşulub o bəyanatı imzalamağa vadar etmişdi?" Adıçəkilən buyurdu: "Birinci dərəcəli nümayəndələr Rusiya millətlərinin müqəddəratı yolunda bu addımı atmağa hazır olan vaxtda Qafqaz müsəlmanlarının vəkilinə özünə zərər dəyməsi qorxusundan bu addımdan kənar qalmağı rəvadırmı?" və əlavə etdi: "Rusiya çox qorxulu vəziyyətə düşüb və böyük bir qazana bənzəyir ki, bir tərəfdən məsuliyyətsiz nazirlər onun qapağını möhkəm örtüblər, digər tərəfdən isə ölkənin həm daxilində, həm də xaricində Rusiyanın qızışmış siyasətçiləri o qazanın altını odlayırlar və Rusiya millətlərinin bütün müqəddəratı qatı

buxarla həmin qazanın içində qaynayır. Biz Rusiya millət vəkillərinin fikrincə o qazanın dəhşətli partlamasının qarşısını ala bilən yeganə nicat buxarkeşi tam ixtiyara malik Milli Şuradır[1]və imperator öz yaxın müşavirləri ilə həmin buxarkeşin ağzını bağlayıb. Biz vəkillər o fikirdəyik ki, onun bu addımı gələcəkdə çox xatalara gətirib çıxaracaq, çünki heç bir zəncirin, səddin, həbsin, cəzanın və başqa müstəbid işgəncə alətlərinin vasitəsilə müqəddəratın təbii cərəyanının qarşısını almaq mümkün deyil."

Həqiqətən də o hadisədən heş on bir il keçmədi ki, son böyük rus inqilabının nəticəsində həmin qazan elə əcaib və qəribə tərzdə partladı ki, onun Polşa, Finlandiya, Litva, Latviya və Estoniya kimi bəzi parçaları Rusiyadan tamam ayrıldı, Ukrayna, Qafqaz respublikaları və s. kimi digər parçalar isə başqa növ müstəqillik qazandılar.

Həmin vaqiənin baş verməsi ilə atamın dünya malı sərvətinin fani olması barədə buyurduğu sözlər təsdiqləndi: o mənada ki, kommunizm nəzəriyyəsinə müvafiq olaraq xüsusi mülkiyyətin kökü kəsildi və mən özümüm və ailəmin Qafqaz Azərbaycanında qalmış bütün daşınar və daşınmaz əmlakımı əldən verdim. Mənə qalan isə yeganə dostum – elm ilə təhsil – oldu ki, ehtiyacın rəhmsiz həmlələrinin qabağında bir sipər kimi dayandı və ümid edək ki, müəllifin canını onun iti caynaqlarından qurtaracaqdır.

Bu nicat tapmağımın ümdə qaynağı, bizim təhsil almağımızın yolunda həqiqətən əlini əsirgəməmiş, həmişə qədrini biləcəyim və ehtiramla yad edəcəyim atamın adı Əbülfəth xan olub və o, Cavad xan Ziyadxanın nəvəsi idi.

Cavad xan Gəncənin sonuncu müstəqil xanı olmuşdu. Ziyadxan nəsli Gəncə əyalətində bir neçə əsr boyu varislik yolu ilə keçən müstəqil hökmranlıq sürmüşdü və Nadir şahın* səltənəti dövründə Gəncə xanlığının hüdudları Araz

[1] Yəni Dövlət Dumasıdır

çayındakı Xudafərin körpüsündən Gürcüstanda Tiflisin yaxınlığındakı Qırmızı körpüyə qədər olmuşdu.

Rus imperatorunun general Sisianovun* sərkərdəliyi ilə göndərdiyi qoşun İran dövlətinin himayəsi altında olan Qafqazı işğal etməyə başlayanda Tiflis tərəfdən Gəncəyə hücuma keçmişdi. Cavad xan Gəncə qalasının müdafiəsini şəxsən öz öhdəsinə götürmüşdü. O vaxt general Sisianov* tərəfdən Cavad xanın özünə və nəslinə sərf edən müəyyən şərtlər irəli sürülmüşdü. Bu şərtlərə əsasən Gəncə əyalətinin bütün əmlakı irsən Cavad xanın ailəsinin ixtiyarında qalırdı, Cavad xan və onun nəsli irsən Gəncə əyalətinin müstəqil xanı məqamını özlərində saxlayırdılar, bunun əvəzinə İranın himayəsi altından çıxıb rus imperatorunun himayədarlığını qəbul edirdilər və hər il imperatorun xəzinəsinə iyirmi min manat (rublə) məbləğində pul ödəməliydilər. Cavad xan bütün bu şərtləri rədd edib belə yükün altına girmədi. Adıçəkilən general beş dəfə yenidən öz təklifini göndərdi, amma Cavad xan hamısını qəti surətdə yenidən rədd etdi. Axırda general Cavad xana məktub göndərib hədələdi ki, müqavimətini qırıb Gəncəni alacaq və onun özünü qətlə yetirəcəkdir. Cavad xan isə cavabında yazdı ki, "nə qədər ki mən sağam, Siz Gəncə qalasını ala bilməyəcəksiniz və Gəncəyə ancaq mənim cəsədimin üstündən keçib girə bilərsiniz, onda da mənim cəsədimlə rəftar etmək Sizin ixtiyarınızdadır."

İlin qış fəslində, mübarək ramazan ayının əvvəllərində çox şiddətli döyüşlər başladı və rus qoşunu Gəncə qalasına həmləyə keçdi. Döyüşlər bir ay davam etdi. Lakin 1804-cü ilin yanvarın üçündə, fitr bayramı günü, səhər vaxtı rus ordusu Hacıqala adlanan və indiyədək bir yadigar kimi qalan bir qala bürcünə hücuma keçib oranı aldı. Həmin bürcdə Cavad xan, əlində qılınc, topun ayağında, şəhəri müdafiə edənlərin birinci sırasında şəhadətə yetişdi. Onun böyük oğlu Hüseynqulu xan da həmin yerdə öldürüldü. General

Sisianov* Gəncə qalasını yalnız Cavad xanın şəhadətindən sonra işğal edə bildi.

O gün Gəncə şəhərində fitr bayramı bir milli müsibət gününə döndü. Bir dəstə islam qoşunu sayı-hesabı bilinməyən imperator ordusuna qarşı bütün ramazan ayı boyunca vuruşdu. Bayram günü şəhərin sakinləri al qana boyanmış sərdarları ilə, müqəddəs istiqlal bayraqlarını bağrılarına basaraq vətənin müdafiəsi yolunda əziz canlarını təslim etdilər.

Həmin müqəddəs bayrağın yerini xarici işğalçı dövlətin bayrağı tutdu. Gəncəni ələ keçirəndən sonra general Sisianov* Cavad xanın və oğlunun igidcəsinə və qəhrəmancasına vuruşub öldüklərini biləndə bütün orduya əmr verdi ki, tam hərbi izzət və ehtiramla mərhum Cavad xanın cəsədini dəfn etsinlər, çünki Cavad xan düşməni olsaydı belə, ömrünün son dəqiqəsinədək öz əziz vətənini qorumaq kimi şərəfli əsgər vəzifəsini əldən vermədi.

General özü Gəncə şəhərinin bugünümüzdə də mövcud olan tarixi Cümə məscidində Cavad xanın dəfni mərasimində iştirak etmişdi. Həqiqətən yaxşılıqla o şəxslər xarırlanarlar ki, vətən yolunda şərəflə ölməyi bu dünyada şərəfsiz yaşamaqdan üstün tutarlar. Belə qəhrəmanlar təkcə öz adlarını tarixin səhifələrində qoyub özlərinə böyük ad qazanmayıblar. Millətin özü onların adlarını çəkməkdən iftixar duyar və bu gün də cavan cümhuriyyətin vətənpərəst natiqləri özlərinin milli istiqlalın qorunması yolunda döyüşənlərə həsr olunmuş atəşli nitqlərində Cavad xanın adını böyük qürur və ehtiramla zikr edərlər.

Cavad xanın şəhadətindən sonra İran ordusunun sərdarı şahzadə Abbas Mirzə Naibüssəltənə* 1811-ci və 1826-cı illərdə Qafqazda işğalçı rus qoşununa qarşı fədakarlıq və rəşadətlə vuruşdu. Onun axırıncı döyüşü 13 sentyabr 1826-cı il tarixdə Gəncənin şərqində, dünyanın məşhur şairi şeyx Nizami Gəncəvinin qəbrinin yaxınlığında baş vermişdi. Bu

qəbir Gəncə tarixinin ən böyük və əziz yadigarıdır. Biz müstəqillik bayrağını ucaldandan sonra şairin qəbri üstündəki günbəzi yeni üslubda tikilmiş ən gözəl və möhtəşəm abidə ilə əvəzləməyi düşünürdük.

Bir millətin öz müstəqilliyini qorumağında göstərdiyi ən yaxşı nümunə belə şəxslərin vətən yolunda son damla qana qədər döyüşməsidir, çünki zülmün basqısı nəticəsində müvəqqəti olaraq ayaq altına atılan o müqəddəs istiqlal bayrağı gec-tez öz ali və parlaq məqamına yetişəcəkdir.

Cavad xanın şəhadətindən 114 il sonra böyük rus inqilabı vaxtı müqəddəs istiqlal bayrağı həmin Gəncə şəhərində yenidən ucaldılmışdı. Rus qoşunu Gəncə şəhərini zəbt edəndən sonra hətta onun adını belə rus imperatorunun arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adına dəyişdirmişdi və ikiqat şərəfli haldır ki, 1918-ci ildə məhz yenidən adı özünə qaytarılmış Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti bərqərar olmuşdu.

Cümhuriyyətin ilk təyin olunmuş Baş Naziri Fətəli xan* oldu. Fətəli xan – general İsgəndər xan Xoyskinin oğlu – nəcib və böyük bir nəslin nümayəndəsi və Qafqaz Azərbaycanında ali təhsilli kişilərin ən fəal və istedadlılarından biri olmuşdu. Fətəli xan Gəncə şəhərində birinci milli hökuməti təşkil etdi. Təəssüf ki, milli hökumət şura hökuməti ilə əvəzlənəndən sonra Fətəli xan Xoyski* bütün ömürlərini milli azadlığın Rusiya dövlətinin hücumlarından qorunması yolunda sərf etmiş bir çox ziyalı, ali təhsilli Azərbaycan vətəndaşları ilə bərabər şəhadətə yetişdi. Bu əziz şəxslərin itkisindən yeganə təsəlli o oldu ki, onlar qanları bahasına öz adlarını müqəddəs gənc cümhuriyyətin tarixinin birinci səhifələrinə yazdırıb gələcək nəsillər üçün bir yadigar qoyub getdilər.

Fətəli xanın sədrliyi ilə gənc cümhuriyyətimizin hökuməti təşkil olunarkən paytaxt üçün Bakı şəhəri seçildi və bu cümhuriyyətə Gəncə əyalətindən əlavə aşağıdakı

əyalətlər daxil edildi: Bakı, Quba, Talış, Şirvan, Şəki, Qarabağ, Naxçıvan, Zaqatala və sairə.

Hal-hazırda həmin cümhuriyyət sovet respublikaları ittifaqına müstəqil üzv kimi daxildir. Əlbəttə, tarixi sənəd-lərdən istifadə edib Cavad xanın dövrünü daha aydın və müfəssəl şəkildə təsvir etmək olardı. Lakin burada yazılanlar da kifayət edir. Danılmaz haldır ki, o dövrdə rus istilaçıları üçün Gəncə əyalətinin işğalı və şəhər qalasının alınması çox böyük əhəmiyyət kəsb edirdi. Bu məsələ Sisianovun* imperatora təqdim etdiyi "raportlardan" da açıq-aşkar görünür: "Mühüm Gəncə qalası daqıdıldı. Hindistan yolu açıqdır. Cavad xanın ölümünə təəssüflənirəm."

Öz vətənlərinin müstəqilliyi naminə işğalçı ikibaşlı rus qartalına qarşı son nəfəsinədək vuruşmuş şəxslərin siyahısı təkcə Cavad xanla məhdudlaşmır. Şeyx Şamil, Qazı Əhməd və sayı-hesabı bilinməyən başqa qəhrəmanlar, Dağıstanın və Qafqaz dağlarının şirləri Cavad xandan sonra yetmiş ildən artıq rusun istilaçı qartalına müqavimət göstərmişdilər. Qafqaz millətlərinin odpüskürən dağı həmişə qaynamaqda idi və son beynəlxalq müharibənin sonunda o dağ yenidən fövqəladə hərarətlə coşub qaynadı. Mən əminəm ki, Qafqaz millətləri, Avropadakı İsveçrənin müxtəlif millətləri kimi, bir səmimi qardaşlıq ittifaqını yaradaraq heç vaxt öz müqəddəs istiqlalını əldən verməyəcəklər.

Demək istəyirəm ki, Qafqaz özünün gözəl təbiəti və özəl mövqeyi ilə hər şeyə qadir olan Allah tərəfindən millətlərin burada azad yaşaması üçün yaradılmışdı və İlahi qüvvədən başqa heç bir qüvvə Qafqazdakı təravətli hürriyyət bulağının suyunu quruda bilməyib və bilməyəcək.

Müstəqilliyin saf və ətirli havası istilaçılığın zərərli mikrobları ilə zəhərlənmədiyi təqdirdə qələmin uçuşu üçün çox münasib olar, ancaq bu kitabçanın hədd-hüdudunu da nəzərə almaq lazımdır. Hazırkı yazıda qələmin səyahətinə davam edib bir neçə kəlmə ilə anamı da xatırlayım.

Valideynlərə sağlıqlarında ehtiramla yanaşmaq və ruhlarını unutmamaq hər vicdanlı övladın ən müqəddəs vəzifələrindən biridir. Müəllif həmişə öz valideynlərimin məqamını müqəddəs saymışam, onlara itaətdən çıxmamışam və indi də valideynlərimin ruhlarını qabiliyyətsiz qələmimlə xatırladığıma görə özümü sonsuz xoşbəxt hiss edirəm. Anam Azər Humayun şahzadə Abbas Mirzə Naibüssəltənənin* nəvəsi şahzadə Bəhmən Mirzənin* qızı idi. İslam dininin yolu ilə gedən, çox saf və pak əxlaqa malik olmuşdu. Xoşbəxtlikdən onun əxlaqı təlim-tərbiyə nuru ilə işıqlandırılmışdı.

Həqiqətən də övlad üçün ananın qucağında dünyaya göz açmaq və bilik qaynağından daim istifadə etmək böyük xoşbəxtlikdir. Məlumdur ki, adətən ataların iş-gücü onlara uşaqların tərbiyəsinə yaxından məşğul olmağa icazə vermir və övladların əxlaqlarının və tərbiyəsinin yoxlanması da çox vaxt təsadüfi olur. Mənim anam bütün ömrünü bizim tərbiyəmizə sərf etmişdi. O da aydındır ki, insanın əxlaq binasının təməli ailədə qoyulur. Ailə tərbiyəsindən məhrum olanlar dənizin ortasında tufanların həmləsinə məruz qalmış lövbərsiz və kapitansız gəmiyə bənzəyərlər.

Pis və əxlaqsız adamlar elm və təhsil sahibi olsalar da, bütün ömürlərini pərişan halda olarlar. Çox vaxt cinayətkarlar, qatillər, oğrular və bu qəbildən olan başqa şəxslər ailə tərbiyəsi ətrinin burunlarına dəyməmiş adamların içindən çıxarlar.

Yuxarıda qeyd etdiyim xasiyyətlərlə yanaşı anamın qəlbində həm də həzrət Əmirülmömininə (ə) və onun övladlarına xüsusi eşqi var idi. Təbiidir ki, belə eşqin alovu tərbiyə vasitəsilə müəllifin ürəyinə daxil olub orada özünə möhkəm yer tutmuşdu. Bu səbəbdən mən həmişə müqəddəs yerlərin ziyarətinə gedib salamımı təqdim etmək arzusu ilə yaşayırdım. Xoşbəxtlikdən bu arzuma çatdım. 1346-cı ilin cümadiüssani ayının üçü, bazar ertəsi günü günortadan bir

saat on beş dəqiqə keçəndə Nəcəfi-əşrəfdə həzrət Əmirülmömininin (ə) mübarək məqamı qarşısında bacım Mahruxla bərabər dayanıb dünyanın o böyük bəşərinin ruhuna salamımı yetirdim. Bu həqiqi mənada mənim həyatımın fövqəladə dəqiqələri idi.

Mən özümü minlərlə alisifət müqəddəs şölələri ətraflara yaydığı nursaçan Əli çeşməsinin yanında olduğumu hiss edirdim. Vətənə, şərəfə və beytülmal xəzinəsinə xəyanət etmiş bəzi müsəlmanlar xalqın azadlıq yolundan çıxıblar və həqiqətən islam aləmində bu bulağın pak ruhunu incidirlər. Əsl müsəlmanlara isə bütün ömürləri boyu öz vəzifələrini yerinə yetirərkən bircə saniyəlik belə bu bulağı unutmamalıdırlar. Mən elə təsəvvür edirəm ki, insanın ruhu müxtəlif hissələrə bölünüb və onların içində adi bölümlərdən başqa bir xüsusi bölüm də mövcuddur. Həmin bölümü müqəddəs adlandırmaq olar, çünki bu bölüm həyatın xüsusi və fövqəladə məqamlarında işıqlanmağa başlayır. Məsələn müəllif bütün Avropanı gəzərkən həmin xüsusi bölümdən başqa ruhumun bütün qalan bölümləri müasir dünya mədəniyyətinin əsərlərindən, o cümlədən elm və sənət nümunələrindən, heykəllərdən, tarixi rəsmlərdən, gözəl teatr və konsert tamaşalarından ləzzət alırdı, o yeganə xüsusi bölüm isə yalnız həzrət Əlinin (ə) və oğlu həzrət Hüseynin (ə) məqamlarını və digər müqəddəs yerləri ziyarət edərkən hərəkətə gəlirdi və mən özümü elə hiss edirdim ki, guya ruhum başqa müqəddəs aləmə köçüb və o üst aləm müqəddəs şölələrlə işıqlandırıldığına görə bəşərin bəd sifətləri heç vaxt həmin ali aləmə daxil olmağa cürət etməzlər. Seyyidüşşühədanın müqəddəs ruhu canlarını ədalət naminə qurban verənlər üçün bir nursaçan məşəl kimi əbədi olaraq yol göstərəcəkdir. Dünya var olduqca Beynənnəhreyn həmişə bəşər övladına xatırladacaq və şahidlik edəcək ki, bu nöqtədə vəhşiyanə zülm ilə pak ədalət üz-üzə gəliblər və zülm ədalət üzərində yalnız müvəqqəti qələbə çalıb,

müqəddəs ailənin üzvləri şəhadət zirvəsinə yetişiblər və əhli-beyt Şamın səhrasına və xarabalıqlarına səpələnibdir. Mən Dəməşqin cənubundakı qəbiristanlığına gedəndə xüsusilə mütəəssir oldum. Orada Şam əhalisinin qəbirləri ilə əhatə olunmuş kiçik bir günbəz gördüm. Həmin günbəzin altındakı qəbrin üstünə heç bir bəzəyi olmayan sadə qara parça çəkilmişdi. Bu şərəfli məkan həzrət imam Hüseynin (ə) bacısı həzrət Səkinənin mübarək qəbri idi. Şamda Yəzid ibn Müaviyənin şan-şöhrətindən heç bir əsər-əlamət də qalmayıb, amma bu uşağın nurani qəbri Şamın xarabalıqlarında indiyə qədər ədalətə rövnəq ilə qüvvə verərək zülmü lənətləyir. Gecənin qaranlığında səmada ulduzlar parlayan kimi bu müqəddəs məqamlar da ətrafın qaranlığına işıq saçaraq ruhu sevindirir.

Bəndə həmçinin müxtəlif müsəlman məmləkətlərini üzü tərəqqiyə və təməddünə irəlilədiyini müşahidə edəndə könlüm fövqəladə dərəcədə fərəhlə dolur. Əlbəttə, yer üzündə hər millətin abadlaşması yaxşı haldır, lakin bədbəxtlikdən islam məmləkətləri o məsələni unudurlar ki, Avropanın və Amerikanın ən qabaqcıl ölkələri öz vətənlərini abadlaşdırmaq və qorumaq iqtidarında olduğu halda digər dövlətlərlə əməkdaşlıq etməkdən ötrü fövqəladə səy göstərirlər və hətta onların arasında heç bir dini və ya coğrafi bağlılıq olmadığına baxmayaraq (anqlosakson irqi ilə yapon irqi kimi) əl ələ verib birlikdə çalışırlar. Bəs belə şəraitdə niyə ayrı-ayrı müsəlman məmləkətləri öz maddi, iqtisadi və siyasi mənafeləri xatirinə və başqaların təhlükəli ittifaqların qarşısında dayanmaq üçün bir-birindən istifadə etmirlər? Belə birlik qorxulu siyasi tufanlardan qoruyan və sağ-salamat saxlayan təbii möhkəm qardaşlıq hasarında çiçək açmış bir gülüstana oxşayardı. O vaxt elm və sənət ulduzu şərqin üfüqü üzərində ikiqat yüksələrək bütün dünyaya öz şüalarını və nurunu bəxş edərdi. Heç təəssüfə səbəb deyilmi ki, qərb xalqları cəbr düsturlarını və sair elmi qanunları şərq

aləmindən mənimsəyərək onları təkmilləşdirib və inkişaf etdirib aeroplanlar və zeppelinlər düzəldir və az qalıb ki, yerdəki bütün işlərini bitirib göydəki ulduzlarla rabitə qursunlar, biz müsəlmanlar isə sözügedən elmi düsturları cürbəcür firqəbazlıq, məzhəbbazlıq və digər düsturlarla əvəzləyib həmin o əziz gülüstanın güllərini yatırdıcı qaz kimi üfunətli cəhalət qoxusu ilə zəhərləmişik.

Bəndənin bütün islam məmləkətlərinə olan bu məhəbbət, əlbəttə, aydındır və bu məhəbbətin qaynağı islam dininin təsisçisi Mühəmmədi-Mustafanın (s) Kə'beyi-şərifdən bütün aləmə yaydığı müqəddəs nurun parıltısıdır ki, şərqin bütpərəst millətlərinəvə digərlərə o tək olan Allaha doğru aparan işıqlı yol açır və millətlər arasında həqiqi qardaşlığı bərqərar edir.

Sözügedən ümumi bulaqdan başqa bir xüsusi bulaq da mövcuddur ki, onu da müqəddəs saymalıyıq. Həmin bulaq hər fərdi və hər milləti yer kürəsinin səthindəki bir parça torpağa bağlayır. O cazibə qüvvəsinin adı vətən sevgisidir. Vətən hissi o qədər böyük qüvvədir ki, onun müqabilində bütün qüvvələr zəif, aciz və gücsüzdürlər. Bu hiss coşanda öz balalarından ötrü hər saniyə canlarını belə təslim verməyə hazır olan əsl vətənpərəst analar sidqi-ürəklə həmin əziz balalarını hərb meydanına düşmənin qabağına göndərirlər ki, Mələkülmövt[1] həmin balaların canını qana boyanmış cəsədlərindən almaq üçün onların başları üstündə öz qara qanadlarını çalır. Mədəni millətlərdə analarla ataların əksəriyyəti öz uşaqlarının əziz vətən uğrunda döyüşdə ölümləri ilə fəxr edirlər. Bu məsələdə yapon millətinin analarla ataları hamıdan üstündürlər.

1904-cü ildə rus-yapon müharibəsi vaxtı yapon generalı Noği* rusların Mancuriyadakı böyük Port-Artur qalasını ələ keçirmək tapşırığını almışdı. Onun oğlu da vəzifə sahibi

---

[1] Mələkülmövt – ölüm mələyi, Əzrayıl.

olmuşdu və atasının rəhbərliyi altında həmin qalaya hücumda iştirak etmişdi. Oğlunun ölüm xəbəri yapon generalı Noğiyə* çatanda o, tam səbrlə demişdi: – Onun cəsədini həlak olmuş başqa yapon əsgərlərin cəsədlərindən düzəldilmiş təpənin başına qoyun ki, qalanı zəbt etmək üçün pilləkan əmələ gəlsin və o cəsədlərinüstündən keçib qalanı düşmənin əlindən ala biləsiniz.

General Noği* Port-Artur qalasını ələ keçirdi və rus ordusunun başçısı general Stessel* əlinin altındakı bütün qüvvələri ilə ona təslim oldu. Aydındır ki, əslində general Stessel general Noğiyə deyil, general Noğidəki o vətənpərəst hissinə, imperatordan tutmuş son əsgərədək bütün yaponlarda olan həmin o hissə təslim olmuşdu. Zərrə qədər şərəfə malik olan hər kəs öz vətənini müqəddəs saymalıdır. Dünyada İsveçrə, Neapol və başqaları kimi müəllifin vətənindən daha qəşəng saysız-hesabsız məkanlar olsa da, mənim təsəvvürümdə Qafqazdan gözəl torpaq yoxdur, çünki bu diyar mənim atamın və əcdadlarımın vətənidir. Onu da bilmək lazımdır ki, yer kürəsinin bu hissəsi həqiqətən də Allah-təalanın İran millətinə bəxş etdiyi böyük nemətdir. Kənd təsərrüfatına aid bölümdə təbiətin qüdrətli əlinin o torpağın altında yaratdığı nə cür bahalı xəzinələr haqqında məlumat veriləcəkdir.

# İran öz əziz qonaqlarını alqışlayır[1]

Azərbaycan nümayəndəsinin, ən səmimi qardaşlar elçisinin İrana gəlişi bütün qəlbləri şövq və coşqunluqla, sevgi və məhəbbətlə, sevinc və fərəhlə doldurdu. Bəli, hələ dünən biz Azərbaycanın müvəffəqiyyətinə və orada haqq ilə ədalətin zəfər çalmasına sevinərkən heç təsəvvürümüzə gətirə bilməzdik ki, belə tez bir vaxtda Azərbaycan nümayəndə heyətini qarşılamaq səadətinə və o ölkənin ali nümayəndələrinin gəlişini alqışlayaraq təbrik etmək arzusuna çatacağıq, lakin dünən bizim paytaxtımız azad və müstəqil Azərbaycanın möhtərəm nümayəndələrini qarşılamaq imkanını əldə etdiyinə görə xoşbəxtlik hissini duydu. Bu gün biz Azərbaycan dövlətinin möhtərəm nümayəndəsi cənab Adil xan Ziyadxanın və onların möhtərəm müavini cənab Mirzə Əli Əkbər ağanın gəlişlərini alqışlayıb salamladığımız bir vaxtda, onlar da iranlılarla görüşməyi bayram etdikləri məqamda bizim torpaqda Azərbaycanın rəsmiləşməsi[2] müjdəsini eşidib bizim səmimi qardaş qucağımızda bu xoşbəxtliklə səadəti müşahidə etdilər. Nə xoş hadisə və nə xeyirli haldır ki, möhtərəm məmurlar öz vəzifələrini ən yaxşı tərzdə yerinə yetirməyə qədəm qoydular və İran həmişə iki tərəf üçün qələbə müjdələrinin mənbəyi olacaqdır. Bu təsadüf dərin və geniş mənalarla doludur. Azərbaycan nümayəndələri özlərinin bir xarici ölkədə və əcnəbi millətin arasında olduqlarını heç vaxt təsəvvür etməzlər və tezliklə təsdiqləyib arxayın olacaqlar ki, əgər onların gözləri vətənpərəstlik yaşı ilə dolub və səsləri vətənpərvərlik ruhunun həyəcanından titrəyirsə, biz də onların bu böyük sevinclərinə

---

[1] "Rə'd" qəzeti. 217-ci say. Cümə günü, 24 rəbiüssani 1338 (miladi 17 yanvar 1920-ci ilə müvafiqdir).

[2] Burada söhbət Azərbaycan Cümhuriyyətinin həmin vaxt davam edən Versal Sülh Konfransında de-fakto tanınmasından gedir.

və bayramlarına şərik olub həmin hissləri keçirməkdəyik. Biz də keçmişdə yaşadığımız günlərdə o zalımanə və dəhşətli mənzərələri göz önündən keçirərkən həmişə özümüzdən soruşardıq ki, bizim azərbaycanlı qardaşlarımız nə vaxt və haçan azad yaşamaq fürsətini əldə edəcəklər?

Nə uğurlu gün, nə xoşbəxt andır ki, biz Azərbaycanı özünün müstəqil hökuməti ilə müşahidə edib çoxdankı arzumuzun gerçəkləşməsini görürük. Biz haqqın və ədalətin köməyi ilə bu xoşbəxt arzunun gözəl simasını ziyarət edəcəyimizi bilirik və şükr edirik ki, qardaşların nümayəndələrini ölkəyə daxil olduqları vaxt bağrımıza basmışıq və dövlətimiz də onların rəsmi qəbulunda iştirak edir.

Qara günün və zülmətli güzəranın ardıncanə mübarək vaxt və nə şərəfli zaman vücuda gəldi və haqq ilə ədalətin qüdrətli qolu bizim qardaşlarımızı zülm ilə istibdadın qəhhar əli ilə bizdən uzaqlaşdırmaq və bizə yad etmək istəyən şər qüvvələrin başını əzdi. Muxtariyyətlə azadlığın təsiri altında hər iki tərəf ağuşunu açıb üzüağ, hər cür saxtakarlıqdan və riyakarlıqdan uzaq olaraq bir-birini salamlamağacan atdı.

Keçmişə nəzər salarkən, ötən əsrin tarixini mütaliə edərkən biz qardaşlarımızla dost məhəbbətinin hansı mərtəbəsində əvvəllər və həmçinin indinin özündə olduğumuzu görürük. Bizim sərhədlərimizin Qafqazın düz qəlbinədək irəlilədiyi vaxtda da biz qardaşlarımızın hökumətə və muxtariyyətə malik olduqlarını təsdiqləmişdik. Qafqazın yerli başçıları həmişə hökumətdə iştirak ediblər və onların özlərinə və istiqlallarına istinad etməsi o dərəcədə güclü olmuşdu ki, əhalinin mədəniyyəti heç bir dəyişikliyə uğramadı və Azərbaycan öz doğma dilini onun tarixi İran tarixi ilə bağlı olduğu dövrdə də qoruyub saxlamışdı.

Slavyanların böyük axını cənuba tərəf hərəkət etdi. O, həmin axın idi ki, istiqamətini Böyük Pyotr* göstərmiş və onun xələfləri həyata keçirməkdə davam etdirmişdilər. Həmin plan İrana böyük xəsarətlər yetirdi, biz və

qardaşlarımız zalımların zərbələrinə tuş gəldik. O zalım əl Türkmənçay müqaviləsini zorla bizim boynumuza qoydu. Ancaq nə qədər o düşmən qüvvəsi bizim aramızda ədavət və qarşıdurma yaratmağa çalışsa da, bizim qardaşlıq gücümüz o səyləri iflic vəziyyətinə salıb aramızdakı dostluq və doğmalıq ruhunu saxlaya bildi. Hal-hazırda Azərbaycanın hər guşəsində iranlı qardaşlar dövlətin himayəsi altında yaşayırlar və İran da zərər çəkmiş azərbaycanlı qardaşları üçün sığınacaq oldu. Belə hal iranlılarla azərbaycanlıların eyni kökdən və eyni əsildən gəldiyinə və bir-birinin həm şərinə, həm də xeyrinə şərik olduğuna dəlalət edir. Adətən xoş münasibəti və əlaqəni aradan götürən millətlərarası müharibələr İranla Azərbaycanın münasibətlərini dəyişdirə bilmədi, bəlkə də əksinə, bu iki qardaş təfriqə salanların arzusunu gözlərində qoyub aralarındakı dost və məhəbbət bağlarını daha da möhkəm etdilər. İranla Azərbaycan dərddə-müsibətdə şərik olduğu kimi şənlikdə-şadlıqda da şəriklik nümayiş etdirirlər. Azərbaycanda vətənpərvər adamlar rus inqilabının təsiri ilə fürsətin ətəyindən yapışıb Xəzər dənizinin sahilində inkişaf üçün böyük istedada və ləyaqətə malik olan yeni millətin ərsəyə gəldiyini bütün dünyaya sübut edəndə İran tam səmimiyyət və ciddiyyətlə azərbaycanlı qardaşlarının istiqlalına tərəfdar oldu, lakin siyasi səbəblərə görə qəlbindəki hisslərini izhar etməkdən vaz keçmək məcburəyyətində qaldı. Amma bu məcburiyyət könüldəki sevinci əskiltmədi. Məhz həmin sevinc İran dövləti ilə əlaqə qurmaq üçün Azərbaycandan nümayəndə heyətini göndərməyə səbəb oldu və bu gün o müşküllər aradan qalxıb və İran tam səmimiyyətlə öz fərəhini elan edir. Bu hisslər onlar daxil olarkən sözlər vəbəyanatlarda ifadə olundu. Nə gözəl kəlmələr, nə dərin mənalar!

## Cənab Adil xan Ziyadxanın bəyanatı

Müəzzəm ləh[1] verilən qurbanların, tökülən qan sellərinin, dünyanı viran qoyan və dağıdan alovun bir faydalı səmərə verəcəyinə və nəticədə kiçik millətlərin azadlıq qazanacağına ümidvar olduğunu bildirdi. Bu gün irqindən və dinindən asılı olmayaraq dünyada yaşayan bütün millətlərin, həm müsəlmanların, həm də qeyri-müsəlmanların qardaş kimi yaşamağın vaxtı gəlibdir. Ziyadxanın müavini və müşaviri cənab Mirzə Əli Əkbər ağanın sözləri də çox gözəl və mənəvi cəhətdən yaxın tərzdə səsləndi. Onun çıxışından bu cavan adamın vətənpərvər olması aydın bilinirdi və o, cəsur dillə aşağıdakıları ifadə etmişdi ki, biz qısa müddətdir ki, azad olmuşuq və istiqlalımız tanınmasa da, biz dünyaya Azərbaycan xalqının azad və müstəqil hökumət qurmağa layiq olduğunu sübut etmişik. Bəli, sivilizasiya və islah yolu milləti düz yaşayışa aparan sağlam və həqiqi yoldur və yaxın gələcəkdə cavan millətlər böyük şövqlə və gənclərə məxsus hərarətlə zəhmət çəkib çiçəklənmə dövrünə yetişəcəklər.

Biz şadıq ki, Qafqaz nümayəndələri bir-birilə əməkdaşlıq etmək üçün qəlblərindəki o çağırışla xoş niyyətlərini büruza verirlər. Bu məsələ onların qısa müstəqillik dövründə böyük təcrübə qazandıqlarına sübutdur və biz də müvafiq olaraq qonşularımızda sülh və əminamanlıq görmək istəyirik. Biz məhəbbət və dostluq ifadəli üzlə qardaşlıq ruhunu nümayiş etdirən Azərbaycan nümayəndələrini səmimi-qəlbdənbağrımıza basıb bunları bəyan edirik: “Yaşasın Azərbaycan milləti!”, “Var olsun Azərbaycanın müstəqilliyi və azad hökuməti!” “Qorunsun zəif millətlərin hüquqları!”, “Əbədi olsun qardaşlıq!”

[1] Müəzzəm ləh – möhtərəm cənab, o (3-cü şəxs əvəzliyi yerinə işlənir).

## Azərbaycan nümayəndələrinin gəlişi

Bundan qabaq xəbər verildiyi kimi Azərbaycan dövlətinin möhtərəm nümayəndəsi cənab Adil xan Ziyadxanov şənbə günü Rəştdən hərəkət edib keçən gün günortadan sonra avtomobillə daxil oldular. Gündüz saat ikidə müəzzəm ləhin gəlişini gözləmiş iranlıların və Qafqaz azərbaycanlılarının müxtəlif təbəqələrini təmsil edən böyük toplum şəhərin iki fərsəxliyində[1] avtomobillərlə və doroşkələrlə[2] əziz qonağı qarşılayıb sərdar Mötəzidin öncədən zinətlənmiş və hər cür rəsmi qəbul ləvazimatlarla bəzənmiş bağına qədər müşayiət etdilər.

Nazirlər kabineti tərəfindən təşrifat üzrə müavin cənab Vəhidüssultan xüsusi kaləskə[3] ilə və bir dəstə süvari jandarmla qonağıqarşılamaq üçün sərdar Mötəzidin bağına gəlmişdilər. Qarşılayanlar dost və qonşu dövlətin nümayəndəsini böyük coşqu ilə salamladılar. Məclisə daxil olandan və rəsmi ehtiram və qarşılama mərasimini yerinə yetirəndən sonra cənab Cəlal Cəlilzadə Şirinli ayağa qalxıb aşağıdakı nitq söylədi:

– Cənablar, biz Allahın dərgahına öz şükrlərimizi təqdim edirik ki, O, militarizmin bütün dünyanı kölgəyə salmış zalım və dəhşətli buludlarını öz ədalətli qüdrəti ilə həmişəlik yox etdi. İstibdad rejiminin basqısı altında, fəlakət içində yaşamış zəif millətlər bu gün insaniyyət aləmində ədalətpərvər xadimlərinin zəhməti sayəsində əsarət buxovlarından qurtularaq öz işlərinin cilovunu əllərinə keçirməyə müvəffəq oldular. Sözügedən millətlərin içində Qafqaz milləti də yer almışdır. Uzun illər cürbəcür müsibətlərlə və məhv olmaq təhlükəsi ilə üzləşmiş bu millət

[1] İki fərsəx təxminən on iki kilometrə bərabərdir.
[2] Doroşkə – araba, kareta.
[3] Kaləskə – araba, fayton.

nəhayət ki, möhtərəm Azərbaycan cümhuriyyətini təşkil etməyə müvəffəq oldu! (*sürəkli alqışlar*). Biz azad olmaları münasibətilə dünyalar qədər sevinib bütün soydaşlarımıza səmimi-qəlbdən təbriklərimizi ərz edirik.

Biz özümüzü ona görə xoşbəxt və məsud sayırıq ki, əziz Azərbaycan dövlətinin yüksək nümayəndə heyətini, hörmətli ağayi-Adil xan Ziyadxanı və heyətin başqa üzvlərini burada qarşılamaq və öz sevinc hisslərimizi ifadə edən səmimi təbrik sözlərimizi demək üçün mübarək hüzurlarına gəlmək şərəfinə nail olmuşuq (*alqışlar*). Ümidvarıq ki, hörmətli nümayəndələr qısa müddət ərzində öz milli amallarına və məqsədlərinə nail olub öz xoş niyyətlərinin gerçəkləşməsi yolunda müvəffəqiyyət əldə edəcəklər. Bizim həmçinin arzumuz odur ki, qüdrət sahibi əlahəzrət İran şahənşahının diqqəti və şərəf sahibi baş vəzir cənab Vüsuqüddövlənin* səyi sayəsində iki millət arasındakı qədim tarixə malik mədəni və dini əlaqələr yenidən özünün cavanlıq çağına qədəm qoyacaq və bu millətlər bir-birinə birlik əlini uzadıb əsl qarşılıqlı dəstək ittifaqını yaradaraq şanlı gələcəyə və islam tarixində çiçəklənmə dövrünəyol açmağa müvəffəq olsunlar (*sədalar və alqışlar*).

Cənablar! Bu günün əzəməti və əhəmiyyəti heç vaxt xatirəmizdən silinməməlidir. Bu gün elə bir gündür ki, biz bir-birimizə təbrik sözlərini deməliyik. Niyə?! Çünki Sülh konfransında[1] sevgili Azərbaycanımızın hökuməti rəsmən təsdiq olunub və, ikincisi, o dövlətin nümayəndəsi həzrət ağayi-Adil xan Ziyadxan rəsmi şəkildə bir islam dövlətinin paytaxtına təşrif buyurublar (*sədalar və alqışlar*) ...

Azərbaycanın hörmətli nümayəndəsi cənab Adil xan Ziyadxan cənab Cəlalın nitqinə cavab olaraq aşağıdakıları bəyan buyurdular:

---

[1] Paris Sülhkonfransı nəzərdə tutulub.

Birincisi, əslində bayram sayılacaq belə bir gündə məni qarşılamaqdan ötrü zəhmət çəkdiyinizə görə Sizə ürəkdən təşəkkür edirəm. İkincisi, Sizin nitqinizdə ifadə olunmuş məsələlər mənim də bütün arzularımı əks etdirir. Altı minillik İran dövləti yeni təsis olunmuş Azərbaycan dövləti ilə bir həqiqi ittifaq qurmalı, tam səmimi surətdə bir-biri ilə əməkdaşlıq etməlidirlər. Bu bizim mədəni, dini, milli və tarixi vəzifəmizdir.

Mən xoşbəxt İran torpağına qədəm basdığım gündən İran millətinin və dövlətinin rəsmi dairələrində ehtiramla qarşılaşmışam və bununla əlaqədar İranın nazirlər kabinetinin başçısı möhtərəm ağayi-Vüsuqüddövləyə* və bu məclisdə iştirak edən cənab vəzirlərə və millət vəkillərinə öz səmimi təşəkkürümü ərz edirəm. Bu gün bütün insanlar öz vəzifələrinə əməl etməli, mədəniyyət yolunda çalışmalıdırlar ki, dinindən asılı olmayaraq bütün millətlər ümumi sülhə və öz arzularına çatsınlar. Ümidvaram ki, öz vəzifəmi yerinə yetirməkdə uğur qazanaraq ittifaqa və birliyə nail olacağam! Yaşasın İran dövləti! Yaşasın İran milləti! (*uzun və sürəkli alqışlar və sədalar*) ...

Bundan sonra cənab Cəlal Cəlilzadə çıxış etdi:

–Cənablar! Əlbəttə, bütün həzərata məlumdur ki, dördillik dünya savaşından sonra Azərbaycan xalqı öz ixtiyarını əlinə keçirməyə müvəffəq olub və müxtəlif fəlakətlərdən çəkinməyib müstəqil həyat qurmağa başlayıbdır. Bu millət ətrafını əhatə etmiş və mühasirəyə almış düşmənlərin qarşısında boyun əyməyib, inadla və əzmlə hərəkət edib özünün müstəqil yaşamaq haqqına malik olduğunu ərsəyə qoya bildi. Dünyanın bütün böyük və kiçik dövlətlərindən onun bir dövlət kimi rəsmən tanınmasını tələb və xahiş etdi. Lakin müəyyən səbəblər üzündən onun arzusu iki il hədəfə çatmırdı. Buna baxmayaraq belə vəziyyət bizi ruhdan salmadı, bəlkə də biz öz səylərimizi və hərəkətlərimizi daha da artırdıq, çünki biz haqq-ədalətin heç vaxt

məhv və yox olmayacağını bilirik. Biz tam güclə arzumuza aparan yolda çalışdıq və bu gün ədalət günəşinin öz şüalarını zülmət buludlarının arasından Azərbaycan xalqına saçdığını şövq və fərəhlə müşahidə etdik. Sülh konfransı bu dövləti rəsmən tanıdı və həzrət ağayi-Adil xan Ziyadxanın rəhbərliyi altında nümayəndə heyəti İranın paytaxtına daxil oldu (*sədalar*).

Ümumilikdə müsəlmanlar və xüsusilə Azərbaycan xalqı bu günü dini nöqteyi-nəzərdən xoşbəxt və uğurlu gün saymalıdırlar. İndi isə belə bir günün gəlişi münasibətilə ən böyük və səmimi təbriklərimi həzrət ağayi-Adil xan Ziyadxanın və Azərbaycandan ezam olunmuş heyətin xidmətinə təqdim edərək Allahın dərgahından iki islam dövlətinin davamlı birliyini səmimi-qəlbdən istəyirik. ("İslam dini var olsun!", "İran və Azərbaycan cümhuriyyətləri var olsunlar!" ... "Yaşasın! Var olsun!" *sədaları və sürəkli alqışlar*).

Yenidən cənab Adil xan Ziyadxan ağayi-Cəlalın nitqinə cavab olaraq bunları söylədi:

–Təbiidir ki, dördillik müharibədə böyük xəsarətlər almış, böhranlı günlər yaşamış və çoxsaylı qurbanlar vermiş xalqlar sonda azadlıq əldə etməyə müvəffəq oldular. Ədalət həmişə qara buludlar altında qala bilməz və həqiqət günəşi öz nurunu Azərbaycan diyarına saçdı. Mən xoşbəxtəm ki, mənim İranın paytaxtına gəlməyim Azərbaycanın rəsmi şəkildə tanınması gününə təsadüf etmişdir.

Mən öz səmimi təbriklərimi bu məclisdə hazır olan və Azərbaycanın istiqlalını arzulayan iranlı və azərbaycanlı qardaşlarıma təqdim edirəm. (*Təkrar-təkrar* "Yaşasın Azərbaycan milləti!", "Yaşasın Azərbaycanın istiqlalı!" *sədaları*).

## Şərhlər

**Abbas Mirzə** (1789-1833) – Fəthəli şah Qacarın oğlu. Atası səkkiz yaşından onu özünün vəliəhdi yerinə təyin etmişdi. Naibüssəltənə ləqəbli Abbas Mirzə İran-rus müharibələrində İran ordusuna rəhbərlik etmiş və bu vəzifədə xüsusi bacarıq göstərmişdi, lakin ordunun zəif təchiz olunması səbəbindən məğlubiyyətlə barışmalı olmuşdu. Abbas Mirzə hələ cavan yaşında mübtəla olmuş ağır xəstəlikdən vəfat etdi.
**Ağa Məhəmməd xan (şah) Qacar** (1742-1797) – Qacar hakim sülaləsinin banisi, 1794-1797-ci illərdə İran şahı olub. Rus işğalçılarını Qafqazdan qovmaq üçün Qarabağa gələn Ağa Məhəmməd şah Şuşa şəhərində Sadiq xan Şəqaqinin təşkil etdiyi sui-qəsdə məruz qalıb qətlə yetirilmişdi.
**Aleksandr (Birinci)** (1777-1825) – Romanovlar sülaləsindən rus imperatoru. Sui-qəsd və saray çevrilişi nəticəsində 1801-ci ildə hakimiyyətə gəlmişdi. Qafqazda öz sələflərinin işğalçılıq siyasətini davam etdirmiş və 1804-1813-cü illərdə baş vermiş birinci İran-rus müharibəsindən sonra Azərbaycanın şimal hissəsini (Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqları, Dağıstan) və Şərqi Gürcüstanı Rusiyaya birləşdimişdi.
**Aleksandr (İsgəndər) Mirzə** (1770-1844) – Baqrationi sülaləsindən gürcü şahzadəsi. İran-rus müharibələrində İranın tərəfində döyüşmüşdü və hətta Türkmənçay müqaviləsi bağlanandan sonra dəfələrlə Gürcüstan ərazisində qiyam qaldırmışdı. Sonralar Dağıstana, oradan da İrana köçmüşdü.
**Allahverdi xan Undiladze** (1560-1613) – Birinci Şah Abbasın zamanında gürcü əsilli və islam dinini qəbul etmiş saray xadimi.
**Bayəzid (İkinci)** (1447-1512) – Osmanlı sülaləsindən sayca 8-ci hökmdar.

**Bəhmən Mirzə Qacar** (1810-1884) – Abbas Mirzənin dördüncü oğlu və Məhəmməd şah Qacarın qardaşı. Dövlət çevrilişi hazırlamaqda şübhəli bilinən Bəhmən Mirzə ailəsi ilə Tiflisə qaçıb Rusiya dövlətindən himayə istəmişdi. O, sonradan Şuşa şəhərinə köçüb ömrünün sonunadək orada yaşamışdı. Maarifpərvər adam olmuş Bəhmən Mirzə "Təzkireyi-Məhəmməd şah" əsərinin müəllifidir.

**Fərhad Mirzə Mötəmədüddövlə** (1818-1888) – Abbas Mirzə Naibüssəltənin oğlu. Nasirəddin şah Qacarın hakimiyyəti illərində müxtəlif yüksək vəzifələrə təyin olunmuş və hətta şah Avropa səfərinə çıxanda onu əvəz etmişdi. Bir neçə əsərin, o cümlədən "Səfərnamə", "Cami-cəm" və s. müəllifidir.

**Fərrux Yasar (Birinci)** (1441-1500) – Şirvanşahlar sülaləsindən olmuş otuz altıncı hökmdar. İsmayıl Səfəvi ilə 1500-cü ildə baş vermiş Cabanı döyüşündə məğlub və həlak olmuşdur.

**Fətəli xan Xoyski** (1875-1920) – siyasi xadim, rus Dövlət Dumasının deputatı, rus imperiyası süquta uğrayandan sonra Qafqazda yaranmış müxtəlif müvəqqəti hökumətlərin üzvü, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Nazirlər Şurasının sədri.

**Fətəli şah Qacar** (1772-1834) – Xan Babaxan Hüseynqulu xan oğlu. Hakim Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Şuşada qətlə yetiriləndən sonra taxta keçmiş və ömrünün sonunadək İran şahı olmuşdu.

**Gergin (Gurgin) xan (IX Georgi)** (1712-1772) – İmereti çarı (1741-1742). Baqratian (Baqrationi) nəslindən olmuşdu.

**Həsən ağa Bakıxanov** (1834-1898) – rus ordusunda (o cümlədən Osmanlı-rus müharibəsi vaxtı) iştirak etdiyinə görə general-mayor rütbəsini və müxtəlif dövlət nişanlarını almışdır. Abbasqulu ağa Bakıxanovun qardaşı oğludur.

**Hacı Çələbi** (1703-1755) – 1747-1755-ci illərdə Şəkinin hakimi olmuşdur.

**İbrahimxəlil xan Cavanşir** (1732-1806) – Pənah (Pənahəli) xan Cavanşirin oğlu. Məşhur Cavanşir elinin dördüncü başçısı idi. Bu el Nadir şahın* zamanında Xorasana və Əfqanıstana köçürülmüşdü. İbrahimxəlil xan İranla Rusiya arasındakı ixtilaflarda rusların tərəfini saxlayıb qiyam qaldırdı, lakin sonra peşman oldu. Rus qoşununu və onlara tabe olanları Şuşa qalasında qətlə yetirdilər. (Bax: "Kərim xan Zənd 1174-79-cu illər arasında". s.41).

**İrakli (İkinci)** (1720-1798) – tarixi mənbələrdə onun adı Heraklius şəklində də qeyd olunur. Kaxetin (1744-1762) və Kartli-Kaxetin (1762-1798) çarı. Baqratian (Baqrationi) nəslindən olmuşdu. Rusiyaya meyilli olduğuna görə Ağa Məhəmməd xan Qacara müqavimət göstərməyə çalışırdı, lakin 1795-ci ildə onun başçılıq etdiyi birləşmiş gürcü ordusu Krsanis döyüşündə darmadağın edildi.

**Kərim xan Zənd** (1705-1779) – İranın əksər vilayətlərini təxminən otuz il (1750-1779) öz hakimiyyəti altında tutmuş bu şəxs özünü şah elan etməmiş və Vəkilürrüaya (rəiyyətlərin vəkili) adı ilə hökm sürmüşdür. Həmin dövrdə Azərbaycan Məhəmməd Həsən xan Qacar tərəfindən idarə olunurdu.

**Mir Mustafa xan** (1747-1814) – Talış (Lənkəran) xanı. İranla Rusiya arasındakı qarşıdurma zamanı gah bir tərəfə, gah o birisinə meyl göstərmiş və sonda rus işğalçılarına üstünlük verib Rusiyanın himayəsini istəmişdi. Bunun əvəzinə şəxsi əmlakın toxunulmazlığını və rus ordusunun general-leytenant (ictimai yerlərdə rəsmi libas və fərqləndirmə nişanlarını geyinməmək şərtilə) rütbəsini əldə etmişdi.

**Nadir şah Əfşar** (1688-1747) – Səfəvilər sülaləsinin tənəzzülə uğradığı vaxtda, İkinci Şah Təhmasibin hakimiyyəti dövründə baş vəzir olmuş bu şəxs bir müddətdən sonra şahı taxt-tacdan uzaqlaşdırmış, yerinə kiçikyaşlı oğlu Üçüncü Şah Abbası otuzdurmuşdu, bir azdan sonra isə

Muğan düzündə, Suqovuşan deyilən yerdə təşkil olunmuş qurultayda özünü şah elan etdirmişdi. Azərbaycan və İran tarixinə ən möhtəşəm hökmdarlardanbiri kimi düşmüş Nadir şahın vaxtında Osmanlı, rus və əfqan işğalçıları ölkə ərazisindən qovulmuş, dövlət sərhədləri dəfələrlə genişlənmişdi.

**Napoleon (Birinci)** (1769-1821) – Napoleon Bonapart. 1804-1814-cü illərdə və qısa müddət 1815-ci ildə Fransanın imperatoru olmuşdu. 1812-ci ildə, yəni Qafqazda İran-rus müharibəsinin qızğın vaxtında Avropadan Rusiyaya hücuma keçdiyinə görə Qacarlar dövləti ilə Fransa bir növ müttəfiq oldular. O zaman Abbas Mirzə Naibüssəltənə ilə Napoleon ümumi düşmənə qarşı hərəkətlərini əlaqələndirmək məqsədilə məktublaşırdılar.

**Nəriman Nərimanov** (1870-1925) – siyasi xadim. Bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra yeni yaranmış Azərbaycan Şura İştiraki Cümhuriyyətinin (Azərbaycan Sovet Sosialist Respublikasının) ilk hökumətinin sədri olmuşdur.

**Nikolay (İkinci)** (1868-1918) – Romanovlar sülaləsindən olmuş sonuncu rus imperatoru. 1917-ci il fevral inqilabı nəticəsində taxtdan devrildi.

**Noği Maresuke** (1849-1912) – yapon generalı və Tayvanın üçüncü general-qubernatoru. Yapon-rus müharibəsi zamanı Port-Arturun mühasirəsinə və alınmasına rəhbərlik etmişdi. Mühasirə müvəffəqiyyətlə başa çatandan sonra bu xəbəri imperator Meydziyə ərz edərkən qələbənin 56 min nəfərin ölümü hesabına əldə edildiyindən təəssüflənən general imperatordan intihar etməyə icazə istəmişdi. Hökmdar öz sağlığında bu hərəkəti etməyi generala qəti surətdə qadağan etmişdi. Öz varidatının bir qismini müharibədə yaralananlara və həlak olanların ailələrinə xərcləmiş general Noği imperatorun ölümündən sonra yapon adətlərinə müvafiq qaydada özünü öldürmüşdü.

**Nüsrətüddövlə** (1885-1938) – Əhməd şah Qacarın hakimiyyəti dövründə baş vəzir Vüsuqüddövlənin* kabinetində əvvəl xarici işlər, sonra isə ədliyyə naziri vəzifələrini tutmuşdu. Rza şah Pəhləvinin vaxtında qısa müddət maliyyə naziri olmuş, lakin müəyyən səbəblərə görə hökmdarın gözündən düşmüş və sonda elə Rza şahın göstərişilə qətlə yetirilmişdi.
**Pavel (Birinci)** (1754-1801) – Romanovlar sülaləsindən olan rus çarı (hakimiyyət illəri 1796-1801). Sui-qəsd nəticəsində bir dəstə yüksək rütbəli zabit tərəfindən öldürülmüşdür.
**Pənah (Pənahəli) xan Cavanşir** (1693-1763) – Nadir şah Əfşarın ölümündən sonra Qarabağ bəylərbəyliyindən ayrılıb Qarabağ xanlığını yaratmışdı. Pənahabad şəhər-qalasını (indiki Şuşa) tik-dirb xanlığın paytaxtı etmişdir.
**Pyotr (Birinci)** (1672-1725) – tarixə Böyük və ya Dəli Pyotr adı ilə düşmüş birinci rus imperatoru. Apardığı siyasətdə və yazdığı vəsiyyətnamədə müsəlman xalqlarına qarşı düşmənçilik mövqeyini nümayiş etdirmiş, Rusiyanın sərhədlərini Qafqaz və Anadolu əraziləri hesabına genişləndirməyi istəmişdir.
**Rüstəm xan (Xosrov Mirzə Baqrationi)** – Birinci Şah Abbasın 1629-cu ildə vəfatından sonra Rüstəm xan Şah Abbasın nəvəsi Sam Mirzənin (sonradan Şah Səfinin) hakimiyyətə gəlməsində mühüm rol oynamışdı. Bunun əvəzinə cavan şah ona lütf ilə inayət göstərərək bir müddətdən sonra onu qullarağası vəzifəsinə təyin etmişdi. (Bax: "İran-Gürcüstan araşdırmaları". s.60). Səfəvilər dövründə iki ən nüfuzlu gürcü nəsli etibar sahibi olmuşdu. Biri sözügedən Baqration ailəsi, digəri isə Allahverdi xanın (Undiladze) ailəsi. Allahverdi xanın vəonun iki oğlu İmamqulu xan və Davud xanın Səfəvilər dövründəki İranın siyasi həyatında xüsusi yeri olmuşdu. (Bax: həmin əsər. s.55). Davud xanın məlum macərasından və digər hadisələrdən sonra Şah Səfinin İmamqulu xana və onun oğullarına münasibəti qəti şə-

kildə dəyişdi və İmamqulu xanın oğulları şahın əmrilə Qəzvin şəhərində öldürüldülər. Beləliklə yuxarıda adı çəkilən iki ailə arasında uzun illər boyu davam etmiş rəqabət Xosrov Mirzənin qələbəsi ilə sona çatdı. Bu əhvalatdan bir qədər öncə Şah Səfi Xosrov Mirzəni Rüstəm xan adı ilə Kartvelin valisi təyin etmişdi və bu minvalla Teymuraza rəqib olan qüvvəni onun qonşuluğunda yerləşdirmiş oldu. Çox keçmədi ki, Kaxetin və Kartvelin əyan-əşrafları Rüstəm xanın ətrafında toplaşdı və Birinci Teymuraz öz ailəsi ilə Şərqi Gürcüstanı tərk etməyə məcbur olub vətəndən uzaqda daha yaxşı günlərin intizarında qaldı. (Bax: həmin əsər. ss. 62-63).

**Saru Təqi Etimadüddövlə** (1579-1645) – Mirzə Məhəmməd Təqi. Səfəvilər sülaləsindən olan Şah Səfinin və İkinci Şah Abbasın zamanında baş vəzir olmuşdur.

**Seyyid Ziyaəddin Təbatəbai** (1889-1969) – İran siyasətçisi. Qacarlar sülaləsinin son hökmdarı Əhməd şahın dövründə 1921-ci ilin fevral-may aylarında baş vəzir vəzifəsini icra etmişdir.

**Səlim xan** (vəfatı 1826) – iki dəfə qısa müddət (1795-1797 və 1805-1806 illərdə) ərzində Şəkinin hakimi olmuş, lakin rusların hücumlarına tab gətirə bilməyib sonda Təbrizə, oradan da Ərdəbilə köçmüşdü.

**Sinsinnatus** (m.ə. 519-430) – Qədim Romanın patrisisi, siyasətçisi və ordu rəhbəri.

**Sisianov Pavel** (1756-1806) – gürcü əsilli rus generalı. 1802-ci ildən Qafqazda işğalçı rus qoşununun başçısı olmuşdu. Vəzifəsinin rəsmi adı "inspektor" olduğuna görə Azərbaycanda onun adını istehza ilə "işpoxtur" qoymuşdular. Azərbaycanda əraziləri zəbt edən zaman xüsusi qəddarlıq göstərmişdi. 1806-cı ildə Bakı xanlığını işğal edəndən sonra şəhərinrəmzi açarını almaq istəyəndə Bakı xanı Hüseynqulu xanın qardaşı oğlu (və ya əmisi oğlu) İbrahim xan (bəzi mənbələrdə bu şəxsin adını Aslan bəy kimi də gös-

tərirlər) İçərişəhər divarının yanında (hal-hazırda orada Sabir bağı yerləşir) Sisianovu və onu müşayiət edənləri öldürür. Bundan sonra o, zalım rus generalının başını Tehrana, Fəthəli şah Qacarın sarayına aparır. Bu hadisə ilə əlaqədar məşhur rəvayət var. Əxbari təriqətinin banisi Mirzə Məhəmməd Əxbari rus ordusunun İrana etdiyi işğalçıllıq yürüşünün ən qızğın vaxtında Fəthəli şahın hüzuruna gəlib demişdi ki, "Mən çilləyə oturacağam və bu çillənin [yəni qırx günün] sonunda "işpoxturun" başını hökmən Sizin dərgahınıza gətirəcəklər. Şərtim də odur ki, əgər mənim sözüm düz çıxsa, Siz əxbari təriqətini himayənizin altına alıb mənimlə müxalif olanlarla müxalifət edəsiniz". İş elə gətirdi ki, 1806-cı ilin mart ayında və sözügedən çillənin axırında Sisianovun başını həqiqətən də Fəthəli şahın ayaqları altına atdılar.

**Sultan Süleyman (Birinci)** (1494-1566) – Sultan Süleyman Qanuni, Osmanlı məmləkətinin 10-cu hökmdarı (hakimiyyət illəri 1520-1566).

**Sultanəli Mirzə** (1563-1642) – Birinci Şah Təhmasibin oğlu.

**Şah Abbas (Birinci)** (1571-1629) – Səfəvilər sülaləsinin beşinci hökmdarı. 1587-1629-cu illərdə dövləti idarə etmişdi. İranın həm şərqində, həm qərbində mühüm qələbələr əldə etmiş bu şəxs tarixə Böyük Şah Abbas adı ilə düşmüşdür. Şah Abbasın ən böyük fəthlərindən biri Azərbaycanı, o cümlədən Gəncəni osmanlı qəsbkarlarından azad etməsidir. Gəncədəki cümə məscidi də onun şərəfinə adlandırılmışdı.

**Şah Abbas (İkinci)** (1632-1666) – Sultan Məhəmməd Mirzə, Səfəvilər sülaləsinin yeddinci hökmdarı. 1642-ci ildən ömrünün sonunadək hakimiyyət başında olmuşdur.

**Şah İsmayıl (Birinci)** (1487-1524) – İsmayıl ibn Heydər ibn Cüneyd. Səfəvilər dövlətinin banisi və ilk hökmdarı (hakimiyyət illəri 1501-1524).Azərbaycan torpaqlarını vahid dövlətdə birləş-dirmiş bu şəxs həm də Xətai ləqəbli şair kimi böyük şöhrət qazanmışdır.

**Şah İsmayıl (İkinci)** (1537-1577) – Səfəvilər sülaləsinin üçüncü hökmdarı. Cəmi bir il (1976-77-ci illərdə) taxtda əyləşmişdi.
**Şeyx Cüneyd** (1429-1460) – 1447-1460-cı illərdə Səfəvilərin rəhbəri olmuşdur. Şah İsmayıl Xətainin babasıdır.
**Şeyx Heydər** (1460-1488) – Şah İsmayıl Xətainin atasıdır.
**Şeyx Məhəmməd Xiyabani** (1879-1920) – din və siyasət xadimi, Azərbaycan mücahidlərinin rəhbəri, İranda Məşrutə hərəkatının öndərlərindən biri olmuşdur.
**Şeyx Səfiəddin** (1252-1334) – Şeyx Səfiəddin Ərdəbili. Səfəvi təriqətinin banisi, Birinci Şah İsmayıl Səfəvinin ulu babası.
**Tamara**– 1178(və ya 1184)-1213-cü illərdə gürcü çariçası.
**Teymuraz (Birinci)** (1589-1663) – gürcülərin Baqrationi nəslindəndir. İranda Təhmurəs xan adı ilə məşhur olub. 1605-1648-ci illərdə Kaxetin və 1625-1633-cü illərdə Kartlinin hakimi olmuşdur.
**Vüsuqüddövlə** (1868-1951) – Həsən Vüsuq. Qacarlar dövründə iki dəfə İranın baş vəziri vəzifəsini tutmuşdu.
**Yekaterina (İkinci)** (1729-1796) – 1762-1796-cı illərdə rus imperatriçası. Hakimiyyətdə olduğu illərdə öz sələflərinin istilaçılıq siyasətini davam etdirmişdi. Həmin dövrdə rus qoşunları Qafqaza, o cümlədən Tiflisə, Dərbəndə, Gəncəyə, Şamaxıya, Bakıya soxulmuşdu.
**Zubov Valerian** (1771-1804) – rus ordusunun generalı. Daha çox bir eşqbaz və cürbəcür qalmaqalların qəhrəmanı kimi yadda qalmışdı. Polşada baş vermiş döyüşlərdən birində top mərmisi ilə yaralanmış Zubovun bir ayağı süni və guya qızıldan düzəldilmiş olduğuna görə ona İranda və Qafqazda “qızılayaq” adını qoymuşdular.

## Kitabda istinad olunan mənbələr


1. "Azərbaycan binalarının siyahısı". Nəşriyyə Ş-14, "Sazemane-mirase-fərhəngi". H.ş. 1371.
2. Adil xan Ziyadxan. "Qələmin uçuşu". Nəşrə hazırlayan Kavə Bayat. Tehran. Xarici İşlər Nazirliyinin Diplomatiya tarixi və sənədləri mərkəzi. H.ş. 1381.
3. Cəmil Quzanlu. "İranla rusun onillik müharibəsi" (Birinci İran-rus müharibəsi). Tehran. "Donyaye-ketab". H.ş. 1362.
4. Con Rey Perri. "Kərim xan Zənd 1174-79-cu illər arasında". Tərcümə edən Əli Məhəmməd Saki. Tehran. "Fəraz". H.ş. 1365. Birinci nəşr.
5. Cümşid Givinaşvili. "İran-Gürcüstan araşdırmaları". Tiflis. İran-Gürcüstan elmi-mədəni əlaqələri və əməkdaşlığı cəmiyyətinin nəşriyyatı. H.ş. 1376.
6. Cüng. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Əlyazma. Б-1829.
7. Əbdi bəy Şirazi. "Təkmilətül-əxbar" (Səfəvi padşahları haqqında əvvəldən 978-ci ilə qədər dəqiq xəbərlər). Nəşrə hazırlayan Əbdülhüseyn Nəvai. Tehran. "Nəşre-ney". H.ş. 1369. Birinci nəşr.
8. Əbdürrəzzaq bəy Məftun Dünbüli. "Nigaristani-dara". Tehran Universitetinin Kitabxanası. Əlyazma. Ş:6151.
9. Əbdürrəzzaq bəy Məftun Dünbüli. "Məasirüs-sültaniyyə". Nəşrə hazırlayan Qulamhüseyn Sədri Əfşar. Tehran. "Enteşarate-İbn Sina". H.ş.1351. İkinci nəşr.
10. Əbulhəsən bin Məhəmmədəmin Gülüstanə. "Mücməlüt-təvarix". Nəşrə hazırlayan Müdərris Rəzəvi. "Enteşarate-daneşqahe-Tehran". H.ş. 1356. Üçüncü nəşr.

11. Əbulhəsən Qəffari Kaşani və Mirzə Məhəmməd Bağır Qəffari Kaşani. “Gülşəni-murad”. Nəşrə hazırlayan Qulamrza Təbatəbai Məcd. “Zərrin”. H.ş. 1369. Birinci nəşr.
12. Əli Pursəfər. “Qacarlar dövründə Qafqazın yerli hökumətləri”. Tehran. “Moəsseseye-motaleate-tarixe-moasere-İran”. H.ş. 1377.
13. Faruq Sümər. “Səfəvi dövlətinin təşkilində və inkişafında Anadolu türklərinin rolu”. Fars dilinə tərcümə edənlər: Ehsan İşraqi və Məhəmmədtəqi İmami. Tehran. H.ş. 1371. Birinci nəşr.
14. Fərhad Mirzə Mötəmədüddövlə. “Səfərnamə”. Nəşrə hazırlayan İsmayıl Nəvvab Səfa. Tehran. “Ketabforuşiye-zəvvar”. H.ş. 1366. Eləcə də bax: Fərhad Mirzə Qacar. “Səfərnamə”. Fars dilindən tərcümə edən Tahirə Həsənzadə. Bakı. “Elm və təhsil”. 2017.
15. Firidun bəy Köçərli. “Azərbaycan ədəbiyyatı”. Tərtib edən Ruqiyyə Qəmbər qızı. Bakı. “Elm”. 1978-81.
16. Həsən bəy Rumlu. “Əhsənüt-təvarix”. Nəşrə hazırlayan Əbdülhüseyn Nəvai. Tehran. “Enteşarate-Babək”. H.ş. 1357.
17. Həsənov E.L. Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.
18. Həsənov E.L. Arşiv belgeleri ve bilimsel kaynaklar bazında Gence hanlığı tarihinin öğrenilmesi. II International scientific conference of young researchers. Baku: BMU, 2018, II book, p. 1699-1700.
19. Hüseyn Əfəndi Qayıbov. "Azərbaycanda məşhur olan şüəranın əş’arına məcmuədir”. AMEA Əlyazmalar İnstitutu. Əlyazma. M-132.
20. İsgəndər bəy Türkman. “Aləmarayi-Abbasi”. Tehran. “Əmire-Kəbir”. H.ş. 1355.

21. Kavə Bayat. “Qafqaz üzərində tufan”. Tehran. Xarici İşlər Nazirliyinin nəşriyyatı. H.ş. 1388.
22. Klaus Röhrborn. “Səfəvilər dövründə əyalətlərin nizamı”. Fars dilinə tərcümə edən Keykavus Cahandari. Tehran. “Şerkəte-enteşarate-elmi və fərhəngi”. H.ş. 1349.
23. Qazı Əhməd bin Şərəfəddin Hüseyn Hüseyni Qumi. “Xülasətüt-təvarix”. Nəşrə hazırlayan Ehsan İşraqi. “Enteşarate-daneşqahe-Tehran”. H.ş. 1359.
24. Qulamrza Vərəhram. “Zəndiyyə əsrində İranın siyasi-ictimai tarixi”. Tehran. “Enteşarate-Moin”. H.ş. 1385.
25. Lisanülmülk Məhəmmədtəqi Sipehr. “Nasixüt-təvarix”. Birinci cild. Tehran. 1273-cü ilin ramazan ayı.
26. Lüsyen Lui Blan. “Şah Abbasın həyatı”. Fars dilinə tərcümə edən Vəliyyüllah Şadan. “Enteşarate-Əsatir”. H.ş. 1375. Birinci nəşr.
27. Mahmud ibn Hidayətüllah Əfuştəi Nətənzi. “Nəqavətül-asar fi zikril-əxbar”. Nəşrə hazırlayan Ehsan İşraqi. Tehran. “Şerkəte-enteşarate-elmi və fərhəngi”. H.ş. 1373. İkinci nəşr.
28. Məhəmməd İbrahim bin Zeynəlabidin Nəsiri. “Dəsturi-şəhriyaran”. Nəşrə hazırlayan Məhəmməd Nadir Nəsiri Müqəddəm. Tehran. “Bonyade-mouqufate-doktor Mahmud Əfşar”. H.ş. 1373.
29. Məhəmməd Məsum bin Xacəgi İsfahani. “Xülasətüs-siyər” (Şah Səfi Səfəvinin tarixi). Nəşrə hazırlayan İrəc Əfşar. Tehran. “Enteşarate-elmiye-Tehran”. H.ş. 1368.
30. Məhəmməd Sadiq Vəqayenigar Mərvəzi. “İran-rus müharibələri tarixi”. Toplayan: Hüseyn Azər. Redaktor: Əmir Huşəng Azər. Tehran. “Mosəhheh” nəşriyyatı. H.ş. 1369.

31. Məhəmməd Tahir Vəhid Qəzvini. "Tarixi-cahan-arayi-Abbasi" (və ya "Abbasnamə"). Ehsan İşraqinin redaktəsi altında. Tehran. "Pəjuheşqahe-olume-ensani və motaleate-fərhəngi". H.ş. 1383. Birinci nəşr.
32. Mir Mehdi Xəzani. "Kitabi-tarixi-Qarabağ".
33. Mirzə Adıgözəl bəy. "Qarabağnamə". H.q. 1265. AMEA Əlyazmalar İnstitutu. Əlyazma. Б-1150.
34. Mirzə Əli Nəqi Nəsiri Ordubadi. "Səfəvi hökmdarlarının dövründə ləqəblər və məvaciblər". Redaktor Yusif Rəhimlu. "Daneşqahe-Ferdousiye-Məşhəd". H.ş. 1371.
35. Mirzə Məhəmməd Kazım Mərvi (Mərvin vəziri). "Aləmarayi-Nadiri". Nəşrə hazırlayan Məhəmməd Əmin Riyahi. Tehran. "Ketabforuşiye-zəvvar". H.ş. 1364.
36. Mirzə Məhəmməd Sadiq Musəvi İsfahani. "Tarixi-gitigüşa dər tarixi-Zəndiyyə". H.ş. 1393.
37. Mirzə Yusif Qarabaği. "Tarixi-Safi". Nəşrə hazırlayan Hüseyn Əhmədi. Tehran. "Moəsseseye-motaleate-tarixe-moasere-İran".
38. Nasir Təkmil Humayun. "Müasir İran tarixi – qoşunda təkamül". Tehran. "Dəftəre-pəjuheşhaye-fərhəngi".
39. Nemətova M.S. Gəncənin epiqrafik abidələri. Elm və həyat jurnalı, №3. Bakı: Elm, 2012, 202 s.
40. Nəsrabadi Mirzə Məhəmməd Tahir İsfahani. "Təzkireyi-Nəsrabadi". Tehran. "Ərməğan" çapxanası. H.ş.1317 .
41. Nurullah Larudi. "Qılınc oğlu Nadir". Tehran. "İranzəmin". H.ş. 1370. İkinci nəşr.
42. Pavel Luft. "İran İkinci Şah Abbasın dövründə". Tərcümə edən Keykavus Cahandari. Tehran. Xarixi İşlər Nazirliyinin çap və nəşr Mərkəzi. H.ş. 1380.

43. Rza Cahansuz. “Qacarların yüksəlməsi tarixi”. Tehran. “Ərteş” çapxanası. H.ş. 1333. Birinci nəşr.
44. Rzaqulu bəy. “Qafqaz haqqında üç risalə”. Nəşrə hazırlayan Hüseyn Əhmədi. Tehran. “Moəsseseye-motaleate-tarixe-moasere-İran”. H.ş. 1384.
45. Seyid Həsən bin Mürtəza Hüseyni Astrabadi. “Şeyx Səfidən Şah Səfiyə qədər”. Nəşrə hazırlayan Ehsan İşraqi. “Enteşarate-elmi”. H.ş. 1364. Birinci nəşr.
46. Səid Nəfisi. “İranın ictimai və siyasi tarixi”. Birinci cild. “Qacarlar hakimiyyətinin başlanğıcından Rusiya ilə birinci müharibənin sonuna qədər”. Tehran. “Moəsseseye-mətbuatiye-şərq”. H.ş. 1335.
47. Tadeuş Svetoxovski. “Rus Azərbaycanı”. Fars dilinə tərcümə edən Kazım Firuzmənd. Tehran. “Enteşarate-Şadeqan” H.ş. 1381.
48. Valter Heynts. “İkinci Şah İsmayıl”. Fars dilinə tərcümə edən Keykavus Cahandari. Tehran. “Şerkəte-enteşarate-elmi və fərhəngi”. H.ş. 1371.
49. Valter Heynts. “İranda dövlətin təşkili”. Fars dilinə tərcümə edən Keykavus Cahandari. Tehran. H.ş. 1362.
50. Zambaver (Edvard fon). “Xəlifələrin və hökmdarların şəcərənaməsi”. Nəşrə hazırlayan Məhəmməd Cavad Məşkur. Tehran. “Ketabforuşiye-Xəyyam”. H.ş. 1356.

# Mündəricat


Ön söz ........................................................................ 3
Birinci hissə ................................................................ 9
Gəncənin qəhrəmanlıq dastanı ............................... 10
Gəncəli Cavad xan ruslarla qarşı-qarşıya ................ 17
Cavad xan Ziyadoğlu-Qacarın əcdadları və sələfləri ....................................................................... 27
Gəncəli Cavad xanın övladları və nəvə-nəticələri.. 36
Gəncəli Cavad xan ............................................... 55
Ziyadoğlu-Qacar nəsli – Gəncədə İran sərhəddinin qoruyucuları.............................................................. 79
İranla Azərbaycan Cümhuriyyəti arasında əlaqələrdə Ziyadxanov qardaşlarının rolu................. 130
Müsahib Gəncəvi və onun "Divan"ı ....................... 144
Cavad xan nəslinə aid epiqrafik abidələr ................ 149
Qacarlar sülaləsi və onların Gəncə xanlığını idarəetməsi tarixindən .............................................. 155
Fəthəli bəy Ziyadoğlu-Qacar ................................... 186
İkinci hissə ................................................................ 192
Gəncəli Cavad xanın Sisianova yazdığı məktub ...... 193
Qəzzaq uyezdindən Xanlıqlar qəryəlü Şair təxəllüs Əbdürrəhman Ağa ibn Molla Əliağayi-Dilbaz oğlunun əş'arıdır ...................................................... 196
Cavad xan türbəsi ................................................... 206
Qələmin uçuşu ........................................................ 217
İran öz əziz qonaqlarını alqışlayır ........................... 233
Şərhlər ...................................................................... 241
Kitabda istinad olunan mənbələr ............................. 249

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsi**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

**Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli.** Gəncə. "Elm". 2020. 255 səh.

| | |
|---|---|
| **Texniki redaktor:** | *Fərhad Mirzəyev* |
| **Kompüter yığımı:** | *Nailə Mirzəyeva, Mehriban Səmədova* |
| **Kompüter dizayneri:** | *Nailə Hacıyeva* |
| **Korrektor:** | *İlhamə Cəfərova* |

**Yığılmağa verilmişdir: 10.01.2020**
**Çapa imzalanmışdır: 14.01.2020**
**Kağızın formatı: 60x90, 1/16**
**Uçot nəşr vərəqi: 16,0**
**Tirajı: 500**

**AMEA Gəncə Bölməsi,**
**Heydər Əliyev prospekti, 419**